بسم الله الرحمن الرحيم

BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ

قَالَ اللَّهُ تَعَالَى:

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

“Allahın istək və iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər növ çirkinliyi aradan aparıb sizi pak-pakizə etsin.”

(Əhzab surəsi, 33-cü ayə)

Şiə və sünni kitablarında nəql edilmiş “Nəbəvi” hədislərin əksəriyyəti bu ayənin Ali-Əbanın beş üzvünə aid olduğunu deyirlər. “Əhli-Beyt” Ali-Əbanın üzvlərinə, yəni həzrət Mühəmməd (s), Əli, Fatimə, Həsən və Hüseyn (ə)-a şamil edilir. Daha geniş məlumat üçün aşağıdakı mənbələrə müraciət edə bilərsiniz: “Müsnəd”, Əhməd (vəfat tarixi: 241-ci hicri-qəməri): 1-331, 4-107, 6-292 və 304; “Səhih”, Müslüm (vəfat tarixi: 261 h.q.): 7-130; “Sünən”, Termizi (vəfat tarixi: 279 h.q.): 5-361 və ...; “Əzzürriyyətüt-tahirətün-Nəbəviyyə”, Dulabi (vəfat tarixi: 310 h.q.): 108; “Əs-sünənül-kubra”, Nəsai (vəfat tarixi: 303 h.q): 5-108 və 113; “Əl-müstədrəkü ələs-səhihəyn”, Hakim Nişapuri (vəfat tarixi: 405 h.q.) 2-416, 3-133 və 146 və 147, “Əl-bürhan”, Zərkeşi (vəfat tarixi: 794 h.q.): 197; “Fəthül-bari” (“Səhihi-Buxari”nin şərhi), İbn Həcər Əsqəlani (vəfat tarixi: 852 h.q.), 7-104; “Üsuli-kafi”, Kuleyni (vəfat tarixi: 328 h.q.) 1-287; “Əl-imamətu vət-təbsirə”, İbn Babəveyh (vəfat tarixi: 329 h.q.): 47-29; “Dəaimul-İslam”, Məğribi (vəfat tarixi: 363 h.q.): 35 və 37, “Əl-xisal”, Səduq (vəfat tarixi: 381 h.q.): 403 və 550; “Əl-əmali”, Tusi (vəfat tarixi: 460 h.q.): 438 və 482 və 783.

Həmçinin, bu ayənin təfsiri haqqında bu kitablara müraciət edə bilərsiniz: “Camiül-bəyan”, Təbəri (vəfat tarixi: 310 h.q.); “Əhkamül-Quran”, Cəssas (vəfat tarixi: 370 h.q.); “Əsbabün-nüzul”, Vahidi (vəfat tarixi: 468 h.q); “Zadul-məsir”, İbn Covzi (vəfat tarixi: 597 h.q.); “Əl-camiu liləhkamil-Quran”, Qurtubi (vəfat tarixi: 671 h.q.); “Təfsiri-İbn Kəsir” (vəfat tarixi: 774 h.q.); “Təfsiri-Səalibi” (vəfat tarixi: 825 h.q.); “Əd-dürrül-Mənsur”, Süyuti (vəfat tarixi: 911 h.q.); “Fəthul-Qədir”, Şovkani (vəfat tarixi: 1250 h.q.); “Təfsiri-Əyyaşi” (vəfat tarixi: 320 h.q.); “Təfsiri-Qummi” (vəfat tarixi: 329 h.q.); “Təfsiri-Fərat”, Kufi (vəfat tarixi: 352 h.q.) “Ulul-əmr” ayəsinin ardınca; “Məcməül-bəyan”, Təbərsi (vəfat tarixi: 560 h.q.) və bir çox başqa mənbələr.

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

قَالَ رَسُولُ اللهِ 3:

إنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ: كِتَابَ اللهِ وَعِتْرَتِي أهْلَ بَيْتِي، مَا إنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا بَعْدِي أبَداً، وَإنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.

(صحيح مسلم، ج٧، ص١٢٢، سنن دارمي، ج٢، ص٤٣٢، مسند احمد، ج٣، ص١٤، ١٧، ٢٦، ٥٩، ج٤، ص٣٦٦، ٣٧١، ج٥، ص ١٨٢، مستدرك حاكم، ج٣، ص١٠٩، ١٤٨، ٥٣٣، و....)

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

“Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın Kitabını və Əhli-beytim olan itrətimi. Bu ikisinə sarıldığınız vaxta qədər heç vaxt yolunuzu azmazsınız və bu iki (əmanət) “Hovuz”un yanında mənə gəlib çatana qədər bir-birindən ayrılmayacaq.”

“Səhihi-Müslüm”, 7-ci cild, səh.122; “Sünəni-Darəmi”, 2-ci cild, səh.432; “Müsnədi-Əhməd”, 3-cü cild, səh.14, 17, 26, 59, 4-cü cild, səh.366, 371, 5-ci cild, səh.182; “Müstədrəki-Hakim”, 3-cü cild, səh.109, 148, 533 və s.

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

Müəllif: Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai

Mütərcim: Ceyhun Cəfərov

***Ümumdünya Əhli-beyt (ə) cəmiyyəti***

نام کتاب: اصول عقائد و دستورهای دینی
تهیه کننده: اداره ترجمه مجمع جهانی اهل بیت^
نویسنده: علامه سید محمد حسین طباطبایی
مترجم: جیهون جعفراف
زبان ترجمه: آذری

***Kitabın adı:*** ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR
***Müəllif:*** Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai
***Hazırlayan:*** "Ümumdünya Əhli-beyt (ə) cəmiyyəti"nin tərcümə şöbəsi
***Mütərcim***: Ceyhun Cəfərov
***Redaktor:*** İftixar Məhəmmədov
***Yekun nəzər:*** Rza Şükürbəyli
***Korrektor:*** Vüsal Əsədov
***Nəşr edən:*** "Ümumdünya Əhli-beyt (ə) cəmiyyəti"
***Çap tarixi:*** 2011
***Çapxana:*** "Mücab"
***Tiraj:*** 3000
www.ahl-ul-bayt.org
info@ahl-ul-bayt.org
ISBN: 978-964-701-***3***
***Kitabın çap və sair hüquqları qorunur***

# MÜNDƏRİCAT


ÖN SÖZ — 17

ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

BİRİNCİ CİLD

MÜQƏDDİMƏ — 21

***DİN — 23***

1. ƏQİDƏ ƏSASLARI — 23
2. ƏXLAQ — 24
3. ƏMƏL — 24

***DİNİN FAYDALARI — 26***

İSLAM DİNİ — 27
QURANİ-KƏRİM — 28
QURAN TƏLİMLƏRİ — 28
QURAN NƏZƏRİNDƏN ELM VƏ NADANLIQ — 29
QURANIN KAİNATIN YARADİCISINA OLAN MÜNASİBƏTİ — 30

BİRİNCİ HİSSƏ: ƏQİDƏ ƏSASLARI — 33

***TÖVHİD — 35***

ALLAHIN QÜDRƏTI — 36
ALLAHIN ELMI — 36
SAİR KAMAL SİFƏTLƏR — 36

***ƏDALƏT — 38***

RƏHMƏT — 39

***NÜBÜVVƏT — 40***

PEYĞƏMBƏRLƏR — 41
PEYĞƏMBƏRLƏRİN SAYI — 41
ULUL-ƏZM PEYĞƏMBƏRLƏR — 41
HƏZRƏT MÜHƏMMƏD İBN ABDULLAH (S) — 42
DƏVƏTİN BAŞLANĞICI — 43
HİCRƏT — 43
DƏVƏTİN İNKİŞAFI — 43
MÜHƏMMƏD PEYĞƏMBƏRİN (S) HƏYAT TƏRZİ — 44

*İMAMƏT — 46*
ƏQLİ DƏLİL — 46
NƏQLİ DƏLİL — 47
ON DÖRD MƏSUM (Ə) — 47
ON İKİ İMAMIN (Ə) QISA TARİXİ — 48
MƏSUM İMAMLARIN (Ə) HƏYATI İLƏ QISA TANIŞLIQ — 50
ƏMİRƏLMÖMİNİN ƏLİ (Ə) — 50
İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYN (Ə) — 51
İMAM SƏCCAD (Ə) — 52
İMAM BAQİR (Ə) VƏ İMAM SADİQ (Ə) — 52
İMAM KAZİM (Ə) — 53
İMAM RİZA (Ə) — 53
İMAM CAVAD (Ə) — 54
İMAM HADİ (Ə) VƏ İMAM ƏSKƏRİ (Ə) — 54
BƏHSİN XÜLASƏSİ — 54
*MƏAD — 55*
İKİNCİ HİSSƏ: ƏHKAM — 57
*NAMAZ — 59*
VACİB NAMAZLAR — 61
NAMAZIN MÜQƏDDİMƏSİ — 61
1) TƏHARƏT — 62
NƏCİSLƏR — 62
PAKEDİCİLƏR — 63
DƏSTƏMAZ VƏ ONUN QAYDALARI — 64
DƏSTƏMAZI BATİL EDƏN ŞEYLƏR — 64
QÜSL — 65
TƏYƏMMÜM — 66
TƏYƏMMÜMÜN QAYDASİ — 66
TƏYƏMMÜMÜN HÖKMLƏRİ — 67
2) VAXT — 67
3 ) LİBAS — 68
4) MƏKAN — 69
5) QİBLƏ — 69
NAMAZIN VACİBLƏRİ — 70
NAMAZIN RÜKNLƏRI — 70
NİYYƏT — 71
TƏKBİRƏTÜL-EHRAM — 71
QİYAM — 71

RÜKU — 71
SƏCDƏ — 72
TƏŞƏHHÜD VƏ SALAM — 72
TƏŞƏHHÜDÜN SÖZLƏRİ — 72
SALAMIN SÖZLƏRİ — 72
AYAT NAMAZI — 73
AYAT NAMAZININ QAYDASI — 73
MÜSAFİR NAMAZI — 74
CAMAAT NAMAZI — 74
CAMAAT NAMAZININ QAYDASI — 75
ORUC — 75
ORUCU BATİL EDƏN ŞEYLƏR — 76
ÜÇÜNCÜ HİSSƏ: ƏXLAQ — 77
***İNSANIN ALLAH QARŞISINDAKI VƏZİFƏSİ — 79***
ALLAHPƏRƏSTLİK — 81
İNSANIN ÖZÜNƏ QARŞI VƏZİFƏSİ — 82
***CİSMİN SAFLAŞMASI — 84***
PƏRHİZ — 84
TƏMİZLİYİN QORUNMASI — 84
QARQARA ETMƏK VƏ DİŞLƏRİ FIRÇALAMAQ — 85
İSTİNŞAQ (BURUNA SU ÇƏKMƏK) — 85
***RUHUN GİGİYENASI — 86***
ƏXLAQIN PAKLANMASI — 86
ELM ÖYRƏNMƏK — 86
İSLAM NƏZƏRİNDƏN TƏHSİLİN ƏHƏMİYYƏTİ — 88
MÜƏLLİM VƏ TƏLƏBƏNİN ƏHƏMİYYƏTİ — 88
MÜƏLLİM VƏ TƏLƏBƏNİN VƏZİFƏSİ — 89
VALİDEYN QARŞISINDA İNSANIN VƏZİFƏSİ — 89
BÖYÜKLƏRƏ HÖRMƏT — 90
İNSANIN QÖHUMLARA QARŞI VƏZİFƏSİ — 91
İNSANIN QONŞULARA QARŞI VƏZİFƏSİ — 91
İNSANIN YOXSUL VƏ KİMSƏSİZLƏRƏ QARŞI VƏZİFƏSİ — 92
İNSANIN CƏMİYYƏT QARŞISINDAKI VƏZİFƏSİ — 93
ƏDALƏT — 94
FƏRDİ ƏDALƏT — 94
İCTİMAİ ƏDALƏT — 94
DOĞRU DANIŞMAQ — 95
YALANIN ZİYANLARI — 96

XOŞ DAVRANIŞ — 97
YAXŞI ADAMLARLA YOLDAŞLIQ — 98
PİS ADAMLARLA DOSTLUQ — 99

ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

İKİNCİ CİLD

MÜQƏDDİMƏ — 103

***İSLAM DİNİ VƏ SƏMAVİ KİTAB — 105***
QURANİ-KƏRİMİN ƏHƏMİYYƏTİ — 106
QURAN MÖCÜZƏDİR — 106
PEYĞƏMBƏRƏ (S) QARŞI İRƏLİ SÜRÜLƏN İTTİHAM — 109
QURAN MÜŞRİKLƏRİ MÜBARİZƏYƏ DƏVƏT EDİR — 110
BƏHSİN SONU — 113

BİRİNCİ HİSSƏ: ƏQİDƏLƏR — 115

***QURAN BAXIMINDAN ALLAHI TANIMAĞIN YOLU — 117***
YARADANIN SÜBUTU — 119

***ALLAH-TAALA BÜTÜN KAMAL SİFƏTLƏRƏ MALİKDİR — 121***
KAMAL NƏDİR? — 121

***NÜBÜVVƏT — 123***
CƏMİYYƏT QAYDA-QANUN TƏLƏB EDİR — 124
QAYDA-QANUNLARIN FİTRİ KÖKLƏRİ — 124
HƏYAT QANUNLARINA TƏRƏF TƏKVİNİ HİDAYƏT — 124
NƏTİCƏ — 125

***XÜSUSİ NÜBÜVVƏT — 127***
HƏZRƏT MÜHƏMMƏDİN (S) PEYĞƏMBƏRLİYİ — 127
BÜHEYRA RAHİBİN ƏHVALATI — 129
NƏSTURA RAHİBİN ƏHVALATI — 131
MƏDİNƏ YƏHUDİLƏRİNİN MÜJDƏSİ — 131
QURANIN NÜBÜVVƏT MÜJDƏSİ — 132
ƏZİZ PEYĞƏMBƏRİMİZİN (S) BESƏTİ — 133
ƏZİZ PEYĞƏMBƏRİMİZİN (S) DƏVƏTİNİN XÜLASƏSİ — 133
FİTRİ DİN — 134
DƏVƏT OLUNAN TƏBƏQƏLƏR — 134
İSLAMA DƏVƏTİN BAŞLANĞICI — 135
AŞKAR ÜMUMİ DƏVƏT — 136
DƏVƏTİN İLK YIĞINCAĞI — 136
HƏBƏŞİSTANA HİCRƏT — 137

BƏNİ-HAŞİMİN "ƏBU TALİB" DƏRƏSİNƏ SIĞINMASI — 137
BƏNİ – HAŞİMİN "ƏBU TALİB" DƏRƏSİNDƏN ÇIXMASI VƏ PEYĞƏMBƏRİN (S) İŞİNİN ÇƏTİNLƏŞMƏSİ — 138
PEYĞƏMBƏRİN (S) TAİFƏ SƏFƏRİ — 138
HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏYƏ HİCRƏTİ — 139
HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏYƏ GƏLİŞİ — 139
HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏDƏ QALMASI VƏ İSLAMIN İNKİŞAFI — 141
HƏZRƏT PEYĞƏMBƏRİN (S) VƏFATI VƏ CANİŞİNLİK MƏSƏLƏSİ — 143
HƏZRƏT PEYĞƏMBƏRİN (S) HƏYAT TƏRZİ — 144

***İMAMƏT — 146***
VİLAYƏT HAQQINDA HƏZRƏT PEYĞƏMBƏRİN (S) BƏYANI — 146
PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN CANİŞİNİN TƏYİN OLUNMASI — 147
HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİ HAQDA QISA QEYDLƏR — 148
HƏZRƏT ƏLİ (Ə) VƏ DİGƏR ƏHLİ-BEYT (Ə) ÜZVLƏRİ HAQQINDA SÜBUT OLUNMUŞ FƏZİLƏTLƏR — 149
BU ƏHVALATIN NƏTİCƏSİ — 151
MƏSUM İMAMLARIN (Ə) TƏYİN OLUNMASI — 152

***ON İKİ İMAMIN (Ə) HƏYATI HAQQINDA XRONİKİ TARİX — 153***
BİRİNCİ İMAM — 153
İKİNCİ İMAM — 153
ÜÇÜNCÜ İMAM — 153
DÖRDÜNCÜ İMAM — 154
BEŞİNCİ İMAM — 154
ALTINCI İMAM — 155
YEDDİNCİ İMAM — 155
SƏKKİZİNCİ İMAM — 155
DOQQUZUNCU İMAM — 156
ONUNCU İMAM — 156
ON BİRİNCİ İMAM — 156
ON İKİNCİ İMAM — 157

***MƏSUM İMAMLARIN (Ə) ÜMUMİ HƏYAT TƏRZİ — 158***
ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) ÜSLUBU — 159
İMAM HÜSEYNİN (Ə) İNQİLABI — 160

ŞƏHADƏTİN DƏRİN TƏSİRİ — 162
İMAM BAQİR (Ə) VƏ İMAM SADİQİN (Ə) ELMİ MÜBARİZƏSİ — 162

***MƏAD — 164***

İKİNCİ HİSSƏ: ƏXLAQ — 165

ÖVLADIN VALİDEYN ÜZƏRİNDƏ HAQQI — 167
VALİDEYNİN ÖVLAD ÜZƏRİNDƏ HAQQI — 168
QARDAŞLARIN VƏ BACILARIN BİR-BİRİNƏ QARŞI HAQQI — 169
İZZƏTİ-NƏFS VƏ DÜZ İLQARLI OLMAQ — 169
YOXSULLARA YAXŞILIQ — 170
HƏMKARLIQ — 172
XEYRİYYƏÇİLİYƏ TƏŞƏBBÜS GÖSTƏRMƏK — 173
YETİM MALINA TƏCAVÜZ — 173
ADAM ÖLDÜRMƏK — 174
ALLAH RƏHMƏTİNDƏN MƏYUS OLMAQ — 174
CİHADDAN QAÇMAQ — 175
TORPAQ VƏ SUYU MÜDAFİƏ ETMƏK — 175
HAQQIN MÜDAFİƏSİ — 176
QƏZƏB — 177

ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

ÜÇÜNCÜ CİLD

BİRİNCİ HİSSƏ: ƏQİDƏ ƏSASLARI — 181

***MÜQƏDDİMƏ — 183***

***YARADILIŞIN BAŞLANĞICI HAQQINDA BƏHS FİTRİDİR — 184***

ALLAHITANIMA VƏ MİLLƏTLƏR — 185
BU ARAŞDIRMANIN İNSAN HƏYATINDA TƏSİRİ — 186
TÖVHİD BARƏSİNDƏ QURANİ-KƏRİMİN ÜSLUBU — 187
NƏ ÜÇÜN İNSAN BƏZƏN BU HƏQİQƏTİ DƏRK ETMİR? — 188
İZAH VƏ MİSAL — 189
BƏHSİN NƏTİCƏSİ — 191
ALLAH-TAALANIN VARLIĞI, QÜDRƏTİ VƏ ELMİ — 191
BƏHSİN DİGƏR NƏTİCƏSİ — 192
ƏDALƏT — 192

***PEYĞƏMBƏRLİK — 194***

PEYĞƏMBƏRLİYİN DƏLİLİ — 194
İNSAN VƏ BAŞQALARI ARASINDAKI FƏRQİN İZAHI — 195
PEYĞƏMBƏRLƏRİN XÜSUSİYYƏTLƏRİ — 197
BƏŞƏR OLAN PEYĞƏMBƏRLƏR — 198

ŞƏRİƏT SAHİBİ OLAN PEYĞƏMBƏRLƏR — 199

***PEYĞƏMBƏRİN (S) DOĞULANDAN BESƏTƏ KİMİ HƏYAT TARİXİ — 200***

BESƏTDƏN HİCRƏTƏ KİMİ — 200

HİCRƏTDƏN VƏFATA KİMİ — 202

PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MƏNƏVİ ŞƏXSİYYƏTİNƏ BİR BAXIŞ — 204

O HƏZRƏTİN FÖVQƏLADƏ RUHİ ŞƏXSİYYƏTİ — 207

***İMAMƏT — 211***

İMAMƏTİN DƏLİLİ — 211

İMAMA EHTİYAC VARDIR — 212

İMAMIN İSMƏTİ — 213

İMAMIN ƏXLAQİ FƏZİLƏTLƏRİ — 213

İMAMIN ELMİ — 213

HİDAYƏT İMAMLARI (Ə) — 213

İMAMLARIN ADLARI — 214

İMAMLARIN ÜMUMİ HƏYAT YOLU — 214

HƏZRƏT ƏMİRƏLMÖMİNİNİN (Ə) HƏYAT YOLU — 215

İMAM HƏSƏN MÜCTƏBA (Ə) VƏ İMAM HÜSEYN (Ə) — 217

İMAM SƏCCAD (Ə) — 220

İMAM MÜHƏMMƏD BAQİR (Ə) — 221

İMAM CƏFƏR SADİQ (Ə) — 222

İMAM MUSEYİ-KAZİM (Ə) — 222

İMAM RİZA (Ə) — 223

İMAM MÜHƏMMƏD TƏQİ (Ə), İMAM ƏLİYYƏN-NƏQİ (Ə) VƏ İMAM HƏSƏN ƏSKƏRİ (Ə) — 225

ƏSRİN İMAMI, VƏD OLUNMUŞ MEHDİ (Ə) — 226

***MƏAD — 228***

MƏAD, DİNLƏR VƏ MİLLƏTLƏR — 228

MƏAD QURANDA — 228

ÖLÜMDƏN QİYAMƏTƏ KİMİ — 230

ÖLƏN RUH YOX, BƏDƏNDİR — 230

İSLAM BAXIMINDAN ÖLÜMÜN MƏNASI — 231

BƏRZƏX — 232

İKİNCİ HİSSƏ: ƏXLAQ — 233

***İŞİN VACİBLİYİ, PEŞƏ VƏ SƏNƏTİN ƏHƏMİYYƏTİ — 235***

İŞSİZLİYİN ZƏRƏRLƏRİ — 235

ƏKİNÇİLİK VƏ ONUN XEYİRLƏRİ — 236

ÖZÜNƏ İNAM — 237
HƏYATDA BAŞQALARINA ARXALANMAĞIN ZƏRƏRLƏRİ — 237
ÇƏKİDƏ ALDATMAQ — 238
ZÜLM VƏ ZÜLMKARLIQ — 238
İNSANLARI İNCİTMƏK VƏ ŞƏR — 239
YALAN — 240
QEYBƏT VƏ İFTİRA — 240
RÜŞVƏT — 241
OĞURLUQ — 242

ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

DÖRDÜNCÜ CİLD

BİRİNCİ HİSSƏ: ETİQADLAR — 245

***DİN — 247***

NƏTİCƏ — 248
ALLAHA BAĞLI QANUNUN MÜSBƏT TƏSİRİ — 249
DİN FİTRİDİR — 250
DİNLƏR TARİXİNƏ QISA BİR BAXIŞ — 251
ULUL-ƏZM PEYĞƏMBƏRLƏR — 253
HƏZRƏT NUH (Ə) — 255
HƏZRƏT İBRAHİM (Ə) — 256
HƏZRƏT MUSA KƏLİM (Ə) — 258
HƏZRƏT İSA MƏSİH (Ə) — 259
HƏZRƏT MÜHƏMMƏD İBN ABDULLAH (S) — 260
O HƏZRƏTİN (S) TAİFƏ SƏFƏRİ — 264
PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MƏDİNƏYƏ HİCRƏTİ — 265
BƏDR DÖYÜŞÜ — 267
ÜHÜD DÖYÜŞÜ — 267
XƏNDƏK DÖYÜŞÜ — 269
YƏHUDİLƏRLƏ DÖYÜŞ VƏ XEYBƏR DÖYÜŞÜ — 270
ŞAH VƏ SOLTANLARIN DƏVƏTİ — 270
HÜNEYN DÖYÜŞÜ — 271
TƏBUK DÖYÜŞÜ — 272
DİGƏR İSLAM DÖYÜŞLƏRİ — 272
VƏFAT — 272
PEYĞƏMBƏRİ-ƏKRƏMİN HƏYAT TƏRZİNDƏN BİR NEÇƏ NÜMUNƏ — 273
PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MÜSƏLMANLARA VƏSİYYƏTİ — 275
QURANİ-KƏRİM — 276

PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) ƏHLİ-BEYTİ (Ə) — 280
ƏHLİ-BEYTİN (Ə) ÜMUMİ HƏYAT TƏRZİ — 281
MÜASİR HÖKUMƏTLƏRLƏ İMAMLARIN İXTİLAFININ ƏSAS KÖKÜ — 283
XÜLASƏ VƏ NƏTİCƏ — 285
ƏHLİ-BEYT (Ə) ÜSULUNDA İSTİSNA MƏSƏLƏ — 286
İMAM ƏLİ (Ə) — 287
HƏZRƏT SİDDİQEYİ-KÜBRA – FATİMƏ (S) — 291
İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYN (Ə) — 292
İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYNİN (Ə) YOLU MÜXTƏLİF İDİMİ? — 295
DİN İMAMLARININ (Ə) ÜSULUNDAN ALINAN ƏXLAQİ NƏTİCƏ — 298

***MƏAD — 300***
DİN BAXIMINDAN MƏAD — 301

İKİNCİ HİSSƏ: ƏXLAQ — 303

***MƏSULİYYƏT HİSSİ — 305***
VƏZİFƏNİN MÜƏYYƏNLƏŞMƏSİ YOLLARINDA FİKİR İXTİLAFI — 307
MÜDAFİƏ VƏ GÜZƏŞT — 308
FƏDAKARLIQ — 309
BƏXŞİŞ VƏ SƏXAVƏT — 310
ELM BƏXŞİŞİ — 312
CƏMİYYƏTİN DAXİLİ DÜŞMƏNLƏRİ İLƏ MÜBARİZƏ — 313
YALAN VƏ YALAN DANIŞMAQ — 314
TÖHMƏT VƏ İFTİRA — 315
AĞVALİDEYN — 315
QEYBƏT — 316
İNSANLARIN NAMUSUNA TOXUNMAQ — 316
İSLAMDA BÖYÜK GÜNAHLARIN ÜMUMİ CƏZASI — 317

ÜÇÜNCÜ HİSSƏ: ƏHKAM — 319

***ALQI-SATQI — 321***
SATIŞIN LAZIMLIĞI — 321
NƏQD, NİSYƏ VƏ SƏLƏM — 322

***İQRAR — 323***
İQRARIN ƏHƏMİYYƏTİ — 323
İQRARIN MƏNA VƏ ŞƏRTLƏRİ — 324

***YEMƏKLƏR VƏ İÇMƏKLƏR — 325***
BİRİNCİ NÖV: HEYVANLAR — 325
İKİNCİ NÖV: CANSIZ ƏŞYALAR — 326
BƏRK HALDA OLANLAR: — 326
MAYELƏR — 326
MÜHÜM QEYD — 327

***QƏSB — 329***
QƏSBİN BƏZİ HÖKMLƏRİ — 330

***ŞÜFƏ — 331***

***BOŞ YERLƏRİN ABADLAŞDIRILMASI — 332***

***LÜQƏTƏ — 334***

# ÖN SÖZ

***Ümumdünya Əhli-beyt** (ə) **cəmiyyətindən***

***Şübhəsiz, Əhli-beyt** (ə) **məktəbinin nəfis inci xəzinələrindən olan və ardıcıllarının vasitəsilə qorunub saxlanılan mədəni-maarif mirası İslami maarifin müxtəlif yönlərində olan hərtərəfli bir məktəbdir. Bu məktəb qeyd olunan zülal çeşməsindən mümkün qədər su içməyə qabiliyyəti olan iste'dadlı insanları tərbiyə etmiş, İslam ümmətinə bu məktəbin yolunu gedən böyük alimlər və dahi şəxsiyyətlər təqdim etmişdir. Bu böyük alimlər də mütəmadi olaraq əsrlər boyu – həm İslam cəmiyyətinin daxilində, həm də xaricində – müxtəlif ideologiyalar və məzhəblər müqabilində düzgün mövqe seçərək, onlara ən dolğun və qənaətbəxş cavablar vermişlər.***

***"Ümumdünya Əhli-beyt** (ə) **cəmiyyəti" öhdəsinə aldığı bu məsuliyyətli vəzifəni yerinə yetirmək və İslamla müxalif olan müxtəlif firqə və məzhəb başçıları tərəfindən risalət hüdudları və onun həqiqətlərinə qarşı yönələn ardıcıl hücumlar qarşısında onu müdafiə etmək üçün Əhli-beyt** (ə) **və bu haqq məktəbinin davamçılarının üslubunu davam etdirmək əzmindədir.***

***Bu xüsusda Əhli-beyt** (ə) **məktəbi alimlərinin dəyərli kitablarında mövcud olan təcrübələr öz növbəsində misilsizdir. Çünki onlar əql və bürhan əsasında olan dərin elmi üsullara arxalanır və boş təəssübkeşlikdən və nəfsani istəklərdən uzaqdır, onun dinləyiciləri mütəxəssis alimlər və mütəfəkkirlərdir ki, onlara sağlam fitrətin qəbul etdiyi və əqlin bəyəndiyi bir tərzdə xitab edir.***

***"Ümumdünya Əhli-beyt** (ə) **cəmiyyəti" həqiqət aşiqləri üçün bu məktəb alimlərinin, yaxud bu şərəfli məktəbin ardıcılı olmaq və Allahın nemət verdiyi şəxslərin yazdığı müasir zəngin elm və mərifət xəzinəsini onlara təqdim etmək üçün yeni bir mərhələni qarşıya qoymuşdur. Bundan əlavə, qədim şiə alimlərinin də bu məqsədlə yazdığı nəfis əsərlər onların ixtiyarına verilir ki, haqq axtaranlar üçün bir hədiyyə olmuş, "Ümumdünya Əhli-beyt** (ə) **cəmiyyəti"nin bəşərin əqli səviyyəsinin yüksələrək təkamülə çatdığı, ruhun çox sürətlə inkişaf etdiyi bir əsrdə bütün dünyaya təqdim etmək istədiyi həqiqətlərə yol açılmış olsun.***

***Əziz oxuculardan xahiş edirik ki, özlərinin dəyərli tənqid və təkliflərini yazıb bizə göndərsinlər. Eləcə də, bütün alimləri, müəllif və mütərcimləri, mədəni-maarif mərkəzlərini dəvət edirik ki, əsl İslam mədəniyyətinin yayılmasında öz köməklərini əsirgəməsinlər.***

***Allah-taaladan aciz surətdə istəyirik ki, bu azacıq işi bizdən qəbul etsin, bizi Özünün xüsusi nəzərləri sayəsində və yer üzündəki höccəti – imam Məhdinin*** (ə) ***himayəsində qərar versin!***

***Bu dəyərli kitabın müəllifi Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai və onu azərbaycan dilinə tərcümə edən Ceyhun Cəfərov cənablarına, eləcə də kitabın çapa hazırlanmasında zəhmət çəkən bütün şəxslərə, xüsusilə, tərcümə bölməsinin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.***

***"Ümumdünya Əhli-beyt (ə) cəmiyyəti"nin mədəni-maarif şöbəsi***

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

## BİRİNCİ CİLD

# MÜQƏDDİMƏ

## DİN

Din bəşəriyyəti hidayət etməkdən ötrü peyğəmbərlərin Allah tərəfindən gətirdikləri əqidə və elmi-əxlaqi qayda-qanunlardır. Bu əqidəni bilib onun qayda-qanunlarına riayət etmək insanın hər iki dünyada xoşbəxt olmasına səbəb olur. Əğər biz dindar olub Allah və rəsulunun əmrlərinə itaət etsək, təkcə bu müvəqqəti dünyada deyil, sonsuz və əbədi olan axirət dünyasında da xoşbəxt olarıq.

İzah: Biz bilirik ki, xoşbəxt insan öz həyatını səhv və azğınlıqla başa vurmayan, ğözəl əxlaqa malik olub xeyir əməllər ğörən kəsdir. Allahın dini bizi məhz həmin bu xoşbəxtliyə hidayət edir. Əvvəla bizə göstəriş verir ki, öz ağıl və vicdanımızla qəbul etdiyimiz əqidəyə ehtiramla yanaşıb müqəddəs sayaq. Sonra da gözəl əxlaqa malik olub bacardıqca xeyir əməllər görək. Beləliklə, din üç qismə bölünür:

1. Əqidə əsasları.

2. Əxlaq.

3. Əməl.

### 1. ƏQİDƏ ƏSASLARI

Əgər biz bir qədər dərindən düşünsək, görərik ki, bu varlıq dunyası belə heyrətləndirici nizam-intizamıyla öz-özünə yarana bilməz. Mümkün deyildir ki, başdan-başa dəqiqliklə qurulmuş bu nizam-intizamın bir nizamlayıcısı olmasın. Sözsüz ki, özünün sonsuz qüdrət və elmilə bu böyük dünyanı yaradıb bütün işləri sabit qanunlarla bərqərar edən, kainatı başdan-başa ədalətlə dolduran bir Yaradıcı vardır. Heç bir şey səbəbsiz yaradılmayıb və heç bir canlı ilahi qanunlardan müstəsna

deyildir. İnanmaq olmaz ki, belə bir mehriban Allah yaratdıqlarına qarşı bu qədər lütfkar ola-ola, əksəriyyəti öz həvayi-nəfsinin əsiri olub nəticədə azğınlığa və bədbəxtliyə düçar olan bəşər övladını özbaşına buraxsın. Ona görə də hər cür xətalardan uzaq olan peyğəmbərlərin vasitəsilə bəşər övladı üçün bir sıra qayda-qanunlar göndərməlidir ki, onları bu qayda-qanunlara riayət etməklə əbədi səadətə çatdırsın. İlahi əmrlərə itaətin mükafatını bu dünya həyatı kamil surətdə verə bilmədiyindən, başqa bir aləm olmalıdır ki, insanlar həmin aləmdə kamil surətdə mükafatlandırılsınlar. Əgər xeyir əməl yerinə yetirmişsə, onun mükafatını alsın, yox, əgər pis əməl sahibidirsə, cəzalandırılsın. Din insanları bu etiqada və sonradan müfəssəl olaraq bəyan edəcəyimiz haqq olan əqidə əsaslarına sarı təşviq edib onları cəhalət və nadanlıqdan çəkindirir.

## 2. ƏXLAQ

Din bizə deyir ki, həyatda yaxşı xasiyyətli olaq, özümüzü gözəl əxlaqla bəzəyək. Öz məsuliyyətini dərk edən, xeyirxah, insanpərvər, mehriban, gülərüz və ədalətli olaq. Haqqı müdafiə edək, həddimizi aşmayaq, başqalarının malına, canına, namusuna təcavüz etməyək. Elm və bilik əldə etməkdən ötrü heç bir fədakarlığı əsirgəməyək. Xülasə, ədalət və normal davranışı həyatın bütün sahələrində özümüzə peşə edək.

## 3. ƏMƏL

Din bizə öyrədir ki, həyatda özümüzə və cəmiyyətimizə xeyirli olan işlər görək. Pis və qəbahətli əməllərdən uzaqlaşaq. Həmçinin, Allaha ibadət və pərəstiş etməkdən ötrü bəndəlik və itaətkarlıq nişanəsi olan namaz və onun kimi bir sıra əməlləri yerinə yetirək. Budur dinin gətirdiyi və bizi ona dəvət etdiyi qayda-qanunlar! Belə ki, onlardan bəzisi əqidəvi, bəzisi əxlaqi və bəzisi də əməlidir.

Qeyd olunduğu kimi, məhz bu qayda-qanunları qəbul edib yerinə yetirmək insanın səadətə çatması üçün yeganə vasitədir. Çünki hamımız bilirik ki, insanın haqpərəst, gözəl əxlaqlı və xeyir əməlli həyatı olmadan heç bir səadəti yoxdur.

## DİNİN FAYDALARI

Dediklərimizdən məlum oldu ki, din təkcə xoşbəxtlik vasitəsi kimi deyil, həm də insanın və cəmiyyətin islah olunmasında böyük təsirə malikdir. Dinə bağlılığı olmayan cəmiyyət dərin düşüncəni əldən verib öz qiymətli ömrünü azğınlıq və nadanlıqda keçirir. Ağlı tapdalayıb heyvanlar tək düşüncəsiz bir ömür sürür. Əxlaqsızlığa və çirkin əməllərə qurşanıb insani imtiyazlardan məhrum olur. Belə bir cəmiyyət nəinki özünün əbədi və kamil səadətinə yetişmir, hətta bu dünyanın qısa və keçici həyatında da azğınlıqların xoşagəlməz nəticələri ilə rastlaşır. Gec-tez öz nadanlığının acısını dadaraq, nəhayət tutduğu əməllərdən peşman olur və anlayır ki, din xoşbəxtliyin yeganə yoludur. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿قَدْ أَفْلَحَ مَن زَكَّاهَا  وَقَدْ خَابَ مَن دَسَّاهَا﴾

***“Nəfsini (etiqad və əxlaq cəhətdən) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) təmizləyən kəs, şübhəsiz nicat tapmışdır! Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz ziyana uğramışdır!“*** [1]

Qəti surətdə bilmək lazımdır ki, fərdin və cəmiyyətin xoşbəxtliyi yalnız dini qayda-qanunları yerinə yetirməkdədir. Təkcə “müsəlman“ adını daşımağın heç bir faydası yoxdur. Çünki həqiqəti iddia etmək yox, həqiqətin özü dəyərlidir. Özünü müsəlman hesab edib pis əxlaq və çirkin əməllərlə səadət mələyini gözləyən şəxs sanki həkim resseptini cibinə qoyub sağalmağına ümid bəsləyən xəstəyə bənzəyir. Qətiyyən

1 "Şəms" surəsi, ayə: 9-10.

belə bir fikirlə tələb olunan məqsədə çatmaq olmaz. Allah-taala Quranı-Kərimdə belə buyurur:

﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالنَّصَارَى وَالصَّابِئِينَ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ وَعَمِلَ صَالِحاً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ﴾

***“Şübhəsiz, (İslama) iman gətirənlər, yəhudilər, xaçpərəstlər və sabiilər (Nuhun və ya Yəhyanın ardıcılları), (bu dəstələrdən) hər kim (öz peyğəmbərlərinin əsrində) Allaha və axirət gününə iman gətirsə və yaxşı işlər görsə, onlar üçün Rəbbi yanında hallarına münasib sabit mükafat vardır.”*** [1]

Yuxarıdakı ayənin məzmununa əsasən, belə təsəvvür oluna bilər ki, bütün peyğəmbərləri və ya onlardan bəzisini qəbul etməmələrinə baxmayaraq, Allah və Qiyamət gününə iman gətirən xeyir əməl sahibləri hidayət olunacaqlar. Xeyr, bu belə deyildir. Çünki Allah-taala "Nisa" surəsinin 150 və 151-ci ayələrində bütün peyğəmbərləri və ya onlardan bəzisini qəbul etməyən kəsləri kafir hesab etmişdir.

## İSLAM DİNİ

Müqəddəs İslam dini sonuncu səmavi dindir. Buna görə də bütün dinlərdən daha kamildir. Bu dinin gəlişiylə əvvəlki dinlər ləğv olunmuşdur. Çünki kamil din ola-ola naqis dinə heç bir ehtiyac yoxdur. Müqəddəs İslam dini bizim əziz peyğəmbərimiz həzrət Mühəmməd ibn Abdullahın (s) vasitəsilə göndərilmişdir. Bu səadət və hidayət qapısı o zaman bəşəriyyətin üzünə açıldı ki, cəmiyyətin düşüncə tərzi inkişaf etmiş və kamil insani xüsusiyyətləri əldə etməkdən ötrü hazır idi. Artıq bəşər övladının ali mətləbləri dərk etməyə və uca İlahi məqamlara yüksəlməyə ləyaqəti var idi. Bu üzdən də İslam insan ağlının dərk edə biləcəyi həqiqətləri, onu

1 "Bəqərə" surəsi, ayə: 62.

dəyərləndirən əxlaqi gözəllikləri və hər bir kəsin fərdi və ictimai həyatının bütün sahələrini nizama salan qayda-qanunlar gətirərək onlara əməl etməyi bəşər övladına tövsiyə etmişdir.

## QURANİ-KƏRİM

İslam maarifinin və həqiqətlərinin mənbəyi, Allah-taalanın kəlamı, əziz peyğəmbərimizin (s) peyğəmbərlik sənədi və səmavi kitab olan Qurani-Kərimdir. Elə buradan da müqəddəs kitabın İslam və müsəlmanlar üçün nə qədər əhəmiyyət daşıdığını və əzəmətli olduğunu dərk etmək olar. Qurani-Kərim nazil olduğu vaxtdan indiyədək 14 əsr müddətində dünyanın müxtəlif cəmiyyətlərində çox dəyərli kitab hesab edilmiş və daim insanların nəzərini özünə cəlb etmişdir.

## QURAN TƏLİMLƏRİ

Qurani-Kərim 23 il ərzində əziz peyğəmbərimizin (s) İslama dəvəti dövründə tədriclə nazil olmuş və cəmiyyətin bütün ehtiyaclarına cavab vermişdir. Quran elə bir kitabdır ki, öz xitablarında insanları xoşbəxtliyə hidayət etməkdən başqa heç bir məqsəd güdmür. Hər bir fərdin və cəmiyyətin xoşbəxtlik bünövrəsi olan düzgün əqidəni, gözəl əxlaqı və xeyir əməli yetərli surətdə insanlara bəyan edir:

﴿وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ﴾

***“Və hər bir şeyin (elm, maariflərin) dolğun açıqlaması və aydınlaşdırıcısı olan bu Kitabı sənə nazil etdik.”*** [1]

Quran İslam maarifini müxtəsər olaraq bəyan edib onun təfsilatını əldə etməkdən ötrü – xüsusilə fiqh məsələlərinin

---

1 "Nəhl" surəsi, ayə: 89.

izahı üçün – insanları nübüvvət qapısına hidayət edir . Belə ki, aşağıdakı ayələrdə buyurur:

﴿بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ﴾

***"(Onları) aydın dəlillər (möcüzələr) və ibrətamiz səma kitabları ilə (göndərdik) və sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara nazil olanı onlara açıqlayasan və bəlkə düşündülər."*[1]**

﴿وَمَا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ إِلاَّ لِتُبَيِّنَ لَهُمُ الَّذِي اخْتَلَفُواْ فِيهِ﴾

***"Biz bu kitabı sənə yalnız barəsində ixtilafda olduqları şeyi onlara izah etməyin üçün nazil etmişik."*[2]**

Bilmək lazımdır ki, əziz peyğəmbərimiz (s) bu müqəddəs kitabın təfsirində və İslam maarifinin izahında öz Əhli-beytinin (ə) sözünü öz sözü bilmiş və buyurmuşdur:

***"Quran və mənim Əhli-beytim qiyamətədək bir-birindən ayrılmayacaqlar. Hər kim Qurandan faydalanmaq istəyirsə, gərək mənim əhli-beytimin ətəyindən yapışsın."*[3]**

## QURAN NƏZƏRİNDƏN ELM VƏ NADANLIQ

Elm və biliyə, təfəkkür və düşüncəyə olan tərif və təşviqə Quran-Kərimdəki qədər heç bir səmavi kitabda rast gəlinmir. Həmçinin, cəhalət və nadanlığa qarşı tənqid də Quranın xüsusiyyətlərindəndir. Belə ki, elm və biliyi həyat, cəhalət və nadanlığı isə ölüm adlandırmış, İslamdan öncəki fəsad dolu cəmiyyəti kamil surətdə anlatmaqdan ötrü onu "cahiliyyət dövrü" kimi tanıtdırmışdır. "Zümər" surəsinin 9-cu ayəsində buyurur:

---

1 "Nəhl" surəsi, ayə: 44.

2 "Nəhl" surəsi, ayə: 64.

3 "Vəsailüş-şiə", c.27 səh.34, hədis: 9.

﴿هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ ﴾

***"Məgər bilənlərlə bilməyənlər birdirlər?!"***

Ənam surəsinin 122-ci ayəsində buyurur:

﴿أَوَ مَن كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَن مَّثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا﴾

***"Məgər (küfr və imansızlıq ölümü ilə) ölmüş və sonra Bizim (dinə hidayət etməklə) dirildərək, vasitəsilə insanlar arasında yol getdiyi (yaşadığı), bir nur verdiyimiz şəxs, (etiqadi və əməli azğınlıq) zülmətlər(in)də olan və ondan çıxmayacaq şəxs kimidir?!"***

Allah-taala bir çox ayələrdə insanları təfəkkür və düşüncəyə təşviq edib Öz bəndələrinə belə göstəriş verir ki, göylərin və yerin yaradılışı, onlarda baş verən cürbəcür təbii proseslər, məxsusən, insanın xilqəti haqqında düşünüb fikirləşsinlər. Həmçinin, tövsiyə edir ki, keçmiş millətlərin tarixini, adət-ənənəsini, mədəniyyətini mütailə edib həqiqi səadətə yetişməkdən ötrü bu bilgilərdən faydalansınlar.

Bilmək lazımdır ki, elmi məsələləri araşdırmaq bu dünyanın bir neçə günlük həyatında tərəqqi və rifah yaratmaqdan ötrü yox, bu mütaliələr əsasında əbədi olaraq xoşbəxt həyatın qurulması üçündür.

## QURANIN KAİNATIN YARADİCISINA OLAN MÜNASİBƏTİ

Allahın varlığı:

﴿أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ﴾

***"Məgər göyləri və yeri yaradan Allah barəsində şübhəmi var?!"***[1]

**İ**zah: Günün günorta çağı hər bir şey görünür: özümüz, başqaları, ev, şəhər, çöl, çəmən, meşə, dağ, dəniz və s. Amma

1 "İbrahim" surəsi, ayə: 10.

gecənin qaranlığı hər tərəfə çökən zaman bütün bunların hamısı öz görüntüsünü itirir. O zaman başa düşürük ki, bu görüntü onların özündən deyil, günəş şüalarının saçması nəticəsində əmələ gəlmişdir. Günəş özü nur saçır və öz şüalarıyla yeri-göyü, hər nə varsa aşkar edib görüntüyə gətirir. Əgər bu görüntü onların özündən olsaydı, heç vaxt əldən verməzdilər.

Diri insan və heyvanlar göz, qulaq və digər duyğu hissləri ilə əşyaları dərk edir, əl, ayaq və sair daxili və zahiri üzvlərlə fəaliyyət göstərirlər. Lakin bir müddətdən sonra hərəkətdən düşüb heç bir fəaliyyət göstərmirlər, yəni ölürlər. Biz bu səhnəni müşahidə etməklə belə nəticəyə gəlirik ki, bu canlıların hər hansı bir hərəkəti, iradə və şüuru onların cisimlərindən deyil, ruh və canlarından doğur. Ruhun bədəndən çıxması ilə də öz həyat və fəaliyyətlərini əldən verirlər. Əgər görmək və eşitmək duyğusu təkcə göz və qulaqdan asılı olsaydı, insan öldükdən sonra da bu iki üzv salamat qalana qədər eşidib görərdi. Halbuki bu belə deyildir.

Varlığında heç bir şəkk-şübhə etmədiyimiz və bizim özümüzün də onun bir hissəsi olduğumuz bu geniş varlıq dünyası da eynilə belədir. Bu varlıq əgər dünyanın özündən olsaydı, heç vaxt onu itirməzdi. Halbuki biz görürük ki, onun hissələri bir-birinin ardınca öz vücudunu itirir, həmişə dəyişikliklərə uğrayır, haldan-hala düşür. Deməк, tam surətdə aydın olur ki, bütün məxluqatın varlığının mənbəyi onu yaradan vücuddan var olur. O bir şeydən yaradılış əlaqəsini kəsdikdə, həmin məxluq yoxluq vadisinə yuvarlanıb yox olur. Bütün kainatın və məxluqatın yaradıcısı olan bu sonsuz varlıq Allah adlanır. O, elə bir vücuddur ki, yoxluq və yox olmaq Ondan uzaqdır. Əgər onun da başqa varlıqlar kimi varlığı özündən olmasaydı, başqa birisinə möhtac olardı.

# BİRİNCİ HİSSƏ:
# ƏQİDƏ ƏSASLARI

## TÖVHİD

﴿لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا﴾

***"Əgər göylərdə və yerdə Allahdan başqa digər tanrılar olsaydı, şübhəsiz, (göylərin və yerin) hər ikisi (yaranmaq və qalmaq baxımından) xarab (zay) olardı."*** [1]

**İ**zah: Əgər dünyada bütpərəstlərin dedikləri kimi bir neçə Allah olsaydı, hər biri dünyanın bir hissəsini idarə edərdi. Yerin, göyün, dənizin, meşənin hərəsinin öz Allahı olardı. Allahların müxtəlifliyindən dünyanın hər bir yerində ayrı-ayri qanunlar hökm sürərdi. Bu surətdə hərc-mərclik, dağınıqlıq kainatda baş alıb gedərdi. Həqiqətdə isə biz görürük ki, bütün məxluqların arasında kamil bir uyğunluq və bağlılıq vardır. Sanki hamı bütöv bir vücudun ayrı-ayrı üzvləridir. Bundan da aydın olur ki, kainatın yaradanı təkdir. Belə təsəvvür etmək olmaz ki, fərz olunan tanrılar ağıllı olduqlarından aralarında düşəcək ixtilafın dünyanı xaraba qoyacağını düşünüb ona görə bir-biri ilə müxalif olmurlar. Çünki bu surətdə onların hamısı bir-birinin işində təsirli olacaq və hər biri digərinin məsləhət və razılığına ehtiyaclı olduğundan təklikdə heç bir işi görə bilməyəcəkdir. Halbuki Allah-taala hər bir şeydən ehtiyacsızdır.

---

1 "Ənbiya" surəsi, ayə: 22.

## ALLAHIN QÜDRƏTI

﴿وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا يَخْلُقُ مَا يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

***“Halbuki, göylərin, yerin və o ikisinin arasinda olanlarin həqiqi sahibi Allahdır. İstədiyini yaradır. Allah hər şeyə qadirdir.”[1]***

İzah: "Birinin maşın almaq qüdrəti vardır" dedikdə məqsədimiz budur ki, onun maşın almaq üçün lazım olan imkanı, yəni pulu vardır. Yaxud, "birinin 20 kq.-lıq daşı qaldırmaq qüdrəti vardır" dedikdə məqsədimiz budur ki, 20 kq.-lıq daşı qaldırma gücü onda mövcuddur. Bir şeyə malik olma qüdrəti də həmin şeyin lazım olan vasitəsidir. Hər hansı bir məxluq varlıq dünyasında fərz olunduğundan, onun həyat ehtiyacları da Allah-taala tərəfindən həll olunur. Deməli, Allah-taala hər bir şeyə qadirdir və bütün varlıq aləminin mənşəyi də məhz Onun pak zatıdır .

## ALLAHIN ELMI

﴿أَلَا يَعْلَمُ مَنْ خَلَقَ﴾

***“Məgər yaradan öz yaratdıqlarını bilməzmi?”[2]***

İzah: Hər bir məxluq öz varlığında və xilqətində Allah-taalanın sonsuz varlığına bağlı olduğundan, onların arasında (Allahla məxluqun) heç vaxt pərdə düşməsini və ya onu Allahdan gizli fərz etmək olmaz . Əksinə, hər bir şey Ona aşkardır, O hər bir şeyin batininə və zahirinə hakimdir və onu əhatə edir.

## SAİR KAMAL SİFƏTLƏR

﴿وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ﴾

***“Rəbbin ehtiyacsızdır və rəhmət sahibidir.”[1]***

---

1 "Maidə" surəsi, ayə: 17.

2 "Mülk" surəsi, ayə: 14.

İzah: Dünyada olan hər bir gözəllik və yaxşılıq, təsəvvür etdiyimiz hər bir kamal sifət Allah-taalanın Öz yaratdıqlarına bəxş etdiyi bir nemətdir. Bu vasitəylə də məhz yaradılışın ehtiyaclarından birini aradan qaldırmışdır. Sözsüz ki, özü bu kamallara malik olmasaydı, başqalarına əta etməkdə aciz olardı və beləliklə, Özü də möhtac olmaqda başqaları ilə şərik olardı.

Deməli, Allah-taala Özü bütün kamal sifətlərə malikdir. Kamalların birini belə başqalarından almadan və ya ehtiyac əli uzatmadan Özü həyat, elm, qüdrət və s. qəbildən olan bütün kamal sifətlərə malikdir. Nadanlıq, zəiflik, ölüm, çarəsizlik və s. naqis və möhtac olmağa səbəb olan sifətlər Onun pak dərgahına əsla yol tapa bilməz.

---

1 "Ənam" surəsi, ayə: 133.

## ƏDALƏT

Allah-taala adildir. Çünki ədalət kamal sifətlərindən biridir. Allah-taala bütün kamil sifətlərə malikdir. Dəfələrlə Öz kəlamlarında ədaləti tərif edib zülmü pisləmişdir. İnsanları ədalətli olmağa çağırıb zülm etməkdən çəkindirmişdir. Necə ola bilər ki, Özü bir şeyi pis hesab etsin, amma həmin xüsusiyyətə malik olsun? Yaxud bir şeyi yaxşı hesab etsin, amma Özü ona malik olmasın?! "Nisa" surəsinin 40-cı ayəsində buyurur:

﴿إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ﴾

***“Şübhəsiz, Allah (heç kəsə) zərrə qədər də zülm etməz.”***

Həmçinin, "Kəhf" surəsinin 49-cu ayəsində buyurur:

﴿وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا﴾

***“Sənin Rəbbin heç kəsə zülm etməz.”***

Digər bir yerdə, Nisa surəsinin 79-cu ayəsində buyurur:

﴿مَّا أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ اللّهِ وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ﴾

***“(Ey insan,) sənə yetişən hər hansı bir yaxşılıq Allah tərəfindəndir (onun səbəbi Allahın rəhmətidir) və sənə yetişən hər hansı bir pislik sənin öz tərəfindəndir (onun səbəbi sənin günahlarındır).”***

Və yaxud "Səcdə" surəsinin 7-ci ayəsində buyurur:

﴿الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ﴾

***“O, yaratdığı hər şeyi gözəl yaratmışdır (onun üzvlərini bir-birinə və bütünlükdə yaradılış məqsədinə mütənasib etmişdir).”***

Xülasə, hər bir məxluq öz-özlüyündə ən gözəl surətdə xəlq olunmuşdur. Bəzi məxluqlarda müşahidə olunan hər hansı bir çirkinlik, eyib və nöqsan nisbidir, məsələn, ilan və əqrəb insana nisbət çox eybəcərdir, tikan çiçəklə müqayisədə gözəl deyildir. Amma hər biri öz-özlüyündə heyrətamiz və gözəl məxluqlardır.

## RƏHMƏT

Biz zəifin ehtiyacını görür və öz imkanımız daxilində ona kömək edirik. Fəqir bir kəsə yardım edir, korun əlindən tutaraq onu öz məqsədinə çatdırırıq. Bu kimi işləri mehribanlıq və ya mərhəmət adlandırıb bəyənilmiş bir iş hesab edirik. Allah-taalanın da gördüyü işlər mərhəmətdən başqa bir şey ola bilməz. Çünki Öz sonsuz nemətlərini əta etməklə hamını faydalandırır. Hər bir bəxşişlə də məxluqatın ehtiyacının bir hissəsini aradan aparır, amma Özü heç kəsə möhtac deyildir. Belə ki, buyurur:

﴿وَإِن تَعُدُّواْ نِعْمَتَ اللّهِ لاَ تُحْصُوهَا﴾

***“Və əgər Allahın nemətlərini saysanız, sayıb hesablaya bilməzsiniz”[1]***

﴿وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ﴾

***“Rəhmətim hər şeyi əhatə etmişdir.”[2]***

---

1 "İbrahim" surəsi, ayə: 34.
2 "Əraf" surəsi, ayə: 156.

## NÜBÜVVƏT

Allah-taala Öz kamil qüdrəti ilə hər bir şeydən ehtiyacsız olmaqla yanaşı, varlıq aləmini və onda olan müxtəlif məxluqları yaradaraq onlara saysız-hesabsız nemətlər əta etmişdir. İnsan və digər məxluqlar – canlı və ya cansız – yarandığı gündən ömrünün sonunadək Onun pərvəriş beşiyində bəslənib, hər biri xüsusi nizam-intizamla müəyyən bir məqsədə tərəf hidayət olunur və irəliyə doğru gedir, bütün anlarda Onun inayətinə şamil olur. Əgər təkcə həyatımızın dövrlərinə baxsaq, yəni, südəmər, körpəlik, uşaqlıq, gənclik və qocalıq dövrlərini nəzərə alsaq, Allahın bizə olan kamil inayətinə vicdanımız şahid duracaqdır. Belə ki, bu məsələ bizə aydın olduqda Allahın hər bir yaratdığına qarşı hamıdan daha artıq mehriban olduğunu ağlımız tərəddüd etmədən təsdiqləyəcəkdir. Həmin bu mehribanlığın nəticəsindədir ki, Allah həmişə onların məsləhətini nəzərə alır və hikmət və məsləhət üzündən onlarla rəftar edir.

İnsan Allahın yaratdıqlarından biridir. Bilirik ki, onun xoşbəxtliyi və xeyri haqpərəst və xeyir əməlli, yəni, düzgün əqidə və gözəl əxlaq sahibi olmasındadır. Mümkündür deyilsin ki, insan Allah verən ağlı ilə yaxşını pisdən seçib düz yolu uçurumdan ayırd edə bilər. Lakin bilmək lazımdır ki, təkcə ağıl insanı bu uçurumlardan xilas edib xoşbəxtliyə tərəf hidayət edə bilməz. Çünki cəmiyyətdə müşahidə etdiyimiz bu qədər nalayiq əməllər və əxlaqsızlıqların hamısı məhz o kəslərdən baş verir ki, ağıl sahibi və seçim qüvvəsinə malikdirlər. Xudbinlik və nəfsi ucbatından onların ağlı nəfsin istəklərinə uymuş və nəticədə azğınlığa düçar olmuşlar. Deməli, Allah-taala heç vaxt nəfsin istəklərinə tabe olmayan və öz rəhbərliklərində səhvə

düşməyən bir vasitə ilə bizi xoşbəxtliyə tərəf hidayət etməlidir. Bu yol nübüvvətdən başqa bir yol deyildir.

## PEYĞƏMBƏRLƏR

Ağlımızın mühakiməsi nəticəsində belə çıxır ki, "nübüvvət yolu" deyilən bir qapı bəşər övladının üzünə açılmalıdır. Bu da öz növbəsində ən gozəl surətdə yerinə yetirilmişdir. Bəşər övladından bir dəstəsi peyğəmbər adı ilə Allah tərəfindən seçilmiş və bir sıra əqidəvi və əməli qayda-qanunları insanlar üçün gətirərək onları haqq yola dəvət etmişdir. Peyğəmbərlər gətirdikləri dinin və dəvətin haqq olduğunu başa düşülən tərzdə insanlara sübut etmiş, öz tərbiyəvi məktəblərində layiqli şəxsiyyətlər yetişdirmişlər.

## PEYĞƏMBƏRLƏRİN SAYI

Dini tarixlərə əsasən, peyğəmbərlərin sayı çoxdur. Allah-taala bəşəriyyətə (məşhur mənbələrə əsasən, 124000 nəfər) minlərlə peyğəmbər göndərmiş və hamısı da insanları yalniz təkallahlığa dəvət etmişdir.

Peyğəmbərlər iki dəstəyə bölünürlər: birinci dəstə peyğəmbərlər Allah tərəfindən səmavi kitab və şəriət gətirmiş "ulul-əzm" adlanan peyğəmbərlərdir. İkinci dəstə isə "ulul-əzm" peyğəmbərlərin gətirdikləri şəriəti insanlar arasında təbliğ edən peygəmbərlərdir.

## ULUL-ƏZM PEYĞƏMBƏRLƏR

Ulul-əzm peyğəmbərlər beş nəfərdirlər:

1. Həzrət Nuh (ə);
2. Həzrət İbrahim (ə);
3. Həzrət Musa (ə);
4. Həzrət İsa (ə);
5. Həzrət Mühəmməd ibn Abdullah (s).

## HƏZRƏT MÜHƏMMƏD İBN ABDULLAH (S)

Əziz peyğəmbərimiz həzrət Mühəmmədin (s) həyatı tarixdə bütün peyğəmbərlərin həyatından aydındır. Çünki uzun zaman keçidi, tarixi dəyişikliklər və onların gətirdikləri səmavi kitabların təhrif olunması nəticəsində bu peyğəmbərlərin həyatı qaranlıq qalmış, həqiqətdə isə Qurani-Kərimin, sevimli Peyğəmbərimiz (s) və onun pak Əhli-beytinin (ə) vasitəsiylə bizə gəlib çatan məlumatlardan başqa heç bir aydın tarixi məlumat yoxdur. Lakin İslam Peyğəmbərinin (s) həyatı barədə əlimizdə dəqiq tarixi məlumatlar vardır ki, o həzrətin həyat tərzindən bizə aydın şəkildə xəbər verir.

Sevimli Peyğəmbərimiz (s) 14 əsr bundan öncə ərəblər arasında tanınmış bir ailədə (Bəni-Haşim – Qüreyş) Məkkədə dünyaya göz açmışdır. O həzrət körpə yaşlarından yetim qalmış, yazıb-oxumaq öyrənməmişdir. Gəncliyin ilk çağlarından ticarət işləri ilə məşğul olan və varlı qadınlardan birinin (Xədiceyi-Kübra (s.ə)) ticarət işlərini öz öhdəsinə götürmüşdür. Sədaqəti və gözəl əxlaqı nəticəsində o xanım evlənmək təklifini vermiş və həzrət də təklifi qəbul edərək onunla ailə qurmuşdur.

Əziz peyğəmbərimiz (s) qırx yaşınadək camaat arasında adi həyat tərzi sürdü. Amma başqaları kimi bütpərəst deyildi, doğru danışan, ağıllı, xeyirxah və pərhizkar idi. Buna görə də camaat o həzrəti "Əmin" adlandıraraq öz əmanətlərini ona tapşırardılar.

Həzrət Mühəmməd (s) qırx yaşında ikən peyğəmbərlik məqamına yetişdi. Allah tərəfindən insanlara rəhbər seçildi. Ömrünün qalanını (23 il) insanları tövhidə dəvət etməyə həsr edib, cəmiyyətdə haqq-ədaləti bərpa etdi .

O həzrət peyğəmbərliyə seçilən dövrdə küfr, şirk, nadanlıq, cəhalət, zülm bütün dünyanı bürümüşdü. Roma imperatorluğunda xristianlıq, İranda atəşpərəstlik hökm

sürürdü. Dünyanın digər ölkələrində, o cümlədən Ərəbistanda insanlar bütə sitayiş edirdilər.

## DƏVƏTİN BAŞLANĞICI

O həzrət dəvətin ilk çağlarında bütpərəstliyi aradan qaldırmaq üçün ağır mübarizələr apardı. Bu yolda Məkkə və ətrafda yaşayan, işi-peşəsi zülmkarlıq və vəhşilik olan nadan sakinlər tərəfindən ağır əziyyətlərə, işkəncələrə məruz qaldı. Amma bütün bu əziyyətlərə baxmayaraq öz müqəddəs missiyasına davam və ardıcıllarına da səbirli və dözümlü olmağı tövsiyə etdi. Müşriklərin hədə-qorxularına, təzyiqlərinə baxmayaraq, o həzrət 13 il Məkkədə İslama dəvətini əzmkarlıqla əncam verdi. Bütün bu çətinliklər Mühəmməd (s) peyğəmbərin iradəsini qıra bilmədi. Nəhayət, Məkkə müşriklərinin qəbilə başçıları Peyğəmbəri (s) öldürmək qərarına gəldilər. Gecə ikən o həzrətin evini mühasirəyə aldılar.

## HİCRƏT

Mühəmməd peyğəmbər (s) canişini Əli ibn Əbutalibi (ə) öz yatağında yatırdıb gecə ikən Məkkəni tərk etdi və Yəsribə (Mədinəyə) üz tutdu. Əksəriyyərti qabaqcadan iman gətirmiş mədinəlilər Peyğəmbəri (s) böyük ehtiramla qarşıladılar. O həzrətin gəlişilə Mədinə şəhəri tarixdə ilk İslam şəhəri kimi qeyd olundu. Mədinəlilər İslamın inkişafı və haqq-ədalətin bərqərar olmasından ötrü öz mallarını və canlarını o həzrətin ixtiyarında qoydular. Məkkədə qalan müsəlmanlar da tədriclə Mədinəyə hicrət etdilər. Onlara “mühacirlər“, mədinəlilərə isə “ənsar“ deyilir.

## DƏVƏTİN İNKİŞAFI

Əziz peyğəmbərimiz (s) ömrünün axırınadək Mədinədə qaldı. Gecə-gündüz yorulmadan bu İlahi vəzifəni yerinə yetirməkdən

ötrü çalışdı. Allahın köməyi, mühacir və ənsarın fədakarlığı nəticəsində İslamı Ərəbistan yarımadasında yayaraq bütpərəstliyin kökünü kəsdi. Roma imperatorluğu, İran şahlığı, Misir və Həbəş soltanlıqları kimi dövrün qüdrətli dövlətlərini İslama dəvət edərək, özündən sonra İslamın əksər ölkələrdə yayılmasına şərait yaratdı.

Allah-taala müqəddəs kitabımız Qurani-Kərimi 23 il ərzində o həzrətə nazil edərək İslamı kamilləşdirdi. Qurani-Kərimdə əziz Peyğəmbərimiz Mühəmmədi (s) axır peyğəmbər, İslamı isə sonuncu din kimi tanıtdıraraq Qurani-Kərimi son səmavi kitab elan etdi:

﴿مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ﴾

***“Mühəmməd sizlərdən heç birinin atası deyildir. Lakin (O,) Allah Rəsuludur və peyğəmbərlərin sonuncusudur.”***[1]

## MÜHƏMMƏD PEYĞƏMBƏRİN (S) HƏYAT TƏRZİ

Əziz peyğəmbərimizin (s) həyat tərzini və ümumi rəftarını iki kəlmədə, haqq ardıcılı və ədalət icraçısı kəlmələrində xülasə etmək olar. Peyğəmbərliyinin bütün dövrlərində, istər Məkkədə müşriklərin təzyiqi və işkəncələri altında olarkən, istərsə də Mədinədə İslamın günbəgün inkişaf edib qüdrətinin və nüfuzunun artdığı dövrlərdə haqqa yardımını heç vaxt əsirgəmədi. Belə ki, Allah-taala Qurani-Kərimdə buyurur:

﴿فَاسْتَقِمْ كَمَا أُمِرْتَ﴾

***“Sənə əmr olunan işdə sabitqədəm ol!“***[2]

O həzrət ədalətin icrasında heç zaman zəhmətini əsirgəmədi. Eyni halda, heç kəsə qarşıda özünə qarşı intiqam almaq fikri

1 "Əhzab" surəsi, ayə: 40.
2 "Hud" surəsi, ayə: 112.

yaratmadı. Həmişə öz haqqını bağışlayardı. İlahi hökmlərin icrası və insanların hüququnun bərpa olunmasından ötrü azacıq güzəştə belə getmədi. İlahi hökmlərin icrası zamanı qohum, yad, qüdrətli, zəif, böyük, kiçik onun nəzərində eyni idi. ***“Mənə hamıdan əziz olan qızım Fatimə belə oğurluq etsə, əlini kəsərəm“*** – deyə öz qətiyyətini bildirərdi.

Allah-taalanın buyurduğu kimi haqq-ədalətin cəmiyyətdə bərqərar olunmasından ötrü yorulmadan çalışardı. Elə buna görə də müsəlmanlar arasında ümumi qardaşlıq və bərabərlik yaratmışdı. Təqvalı insanlara xüsusi ehtiram göstərirdi. Heç kəs var-dövlət, gözəllik və vəzifə vasitəsilə üstünlük qazana bilməzdi. Bütün əsil-nəsəb imtiyazları aradan qaldırılmışdı. Heç kəs şəxsi nüfuzundan istifadə edib başqasının hüququnu poza bilməz və ya zərərinə olan qanunun icrasını dayandıra bilməzdi. Peyğəmbərin (s) özü də şəxsən camaatdan üstün yaşamazdı. Bu sahədə başqalarından seçilmirdi. Sadə həyat sürüb özünə lazım olan zəruri xərclərdən başqa qalan nə varsa hamısını Allah yolunda fəqir-füqəraya xərclərdi. Əksər hallarda özü ac qalıb başqalarını doyurardı.

## İMAMƏT

Hər hansı bir ölkədə təşkil olunmuş dövlət layiqli və bacarıqlı şəxslər tərəfindən idarə olunmazsa, insanlar ondan faydalana bilməz və nəticədə dövlət tez dağılar. Cəmiyyətdə fəaliyyət göstərən mədəni və ya iqtisadi təşkilatlar da belədir. Hətta kiçik təşkilatların da layiqli və bacarıqlı idarəetməyə ehtiyacı vardır. Əks halda, təşkilat idarə olunmayıb tez dağılar. Bu çox aydın, hamının dərk edə biləcəyi, təcrübədən keçmiş sadə bir məsələdir. Cəsarətlə demək olar ki, dünyanın ən böyük təşkilatı hesab olunan İslam dini də bu qəbildəndir. Varlığının və inkişafının qüdrətli rəhbərə ehtiyaclı olduğu gün kimi aydındır. Onu idarə etməkdə elə insanlar lazımdır ki, xalqı daim maarifləndirib lazım olan qayda-qanunları – səhvsiz və güzəştə getmədən – icra etsinlər.

### ƏQLİ DƏLİL

Nübüvvət bölməsində qeyd etdiyimiz kimi, yaradılışın məqsədlərindən biri də xalqı haqq yola hidayət etməkdir. Çünki mehriban və mərhəmətli Allah yaratdıqlarının bütün ehtiyaclarını ödəyib, onların inkişafı üçün lazım olan vasitələri ixtiyarlarında qoyduğu kimi, insanın doğru əqidə və gözəl əxlaqa olan ehtiyacını da məhz peyğəmbərlərin göndərilməsilə həll etməlidir. Buna görə də Allah-taala peyğəmbərlərin vəfatından sonra dinin qorunub saxlanması və xalqın hidayət olunması üçün bir rəhbər təyin etməlidir ki, əksər hallarda həvayi-nəfsinə uyan xalqı öz ağlının öhdəsinə buraxmasın. Peyğəmbəri bəşərin bütün fərdi və ictimai ehtiyaclarından xəbərdar etdiyi və bütün səhv və xətalardan qoruduğu kimi, din rəhbərinə də elm və ismət inayət etməlidir. Bu əqli dəlillə aydın olur ki, xalqın hidayət olunması,

dinin qorunması və qanunlarının cəmiyyətdə icra olunmasından ötrü Peyğəmbərin (s) vəfatından sonra Allah-taala tərəfindən xalqa bir imam təyin olunmalıdır.

## NƏQLİ DƏLİL

Əziz peyğəmbərimizdən müxtəlif yollarla nəql olunan hədislərdə qeyd olunur ki, Peyğəmbərdən (s) sonra İslam ümmətinə rəhbərlik edəcək bir sıra şəxslər o həzrətin canişinləridir. Şiə və sünni alimləri tərəfindən nəql olunan məşhur bir hədisdə Peyğəmbər (s) belə buyurur:

***“İmamlar on iki nəfərdir. Hamısı da qüreyşdəndir.”***[1]

Məşhur bir hədisdə Cabir Ənsariyə buyurmuşdur ki, imamlar on iki nəfərdir. Sonra onların adlarını bir-bir sayaraq Cabirə buyurmuşdur: ***“Sən beşinci imamı görəcəksən. Mənim salamımı ona yetirərsən!”***[2]

Bundan əlavə, Peyğəmbər (s) həzrət Əlini (ə) xüsusi olaraq öz canişini, həzrət Əli (ə) da özündən sonrakı imamı təyin etmişdir.

## ON DÖRD MƏSUM (Ə)

Peyğəmbər (s), qızı Fatimeyi-Zəhra (s.ə) və on iki imam (ə) on dörd məsum adlanır. Bu on dörd nəfərdən beş nəfərinə – Peyğəmbər (s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) – “Ali-əba“, “Əshabi-kisa“ deyilir . Çünki Peyğəmbər (s) bir gün bu dörd nəfəri əbasının altına cəm edərək dua etdi. Bundan sonra Allah-taala onların haqqında "təthir" ayəsini nazil etdi:

---

1 "Biharül-ənvar", c.36, səh.231, hədis: 11-12; "Müsnədi-Əhməd" c.5, səh.87.
2 "Ehticac", c.1, səh.87; "Biharül-ənvar", c.23, səh.289, hədis: 16.

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

***“Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür çirkinliyi təmizləmək və sizi pak-pakizə etmək istəyir.”***[1]

## ON İKİ İMAMIN (Ə) QISA TARİXİ

Birinci imam: Birinci imam Əli (ə), ləqəbi isə Əmirəlmöminindir. İyirmi üç il hicrətdən qabaq Rəcəb ayının on üçündə dünyaya gəlmişdir. Hicrətin qırxıncı ilində Ramazan ayının iyirmi birində şəhadətə yetişmişdir. O həzrətin mübarək qəbri Nəcəf şəhərindədir.

İkinci imam: Birinci imamın oğludur. Adı Həsən (ə), ləqəbi isə Müctəbadır. Hicrətin ikinci ili Ramazan ayının on beşində dünyaya göz açmışdır. Hicrətin əllinci ili səfər ayının səkkizində şəhadətə yetişmişdir. Mədinə şəhərində dəfn olunmuşdur.

Üçüncü imam: Birinci imamın oğludur. Adı Hüseyn (ə), ləqəbi isə Seyyidüş-Şühədadır. Hicrətin üçüncü ili Şaban ayının üçündə dünyaya gəlmışdir. Hicrətin altmış birinci ili Məhərrəm ayının onunda Aşura günü şəhadətə yetişmişdir. Müqəddəs qəbri Kərbəla şəhərindədir.

Dördüncü imam: Üçüncü imamın oğludur. Adı Əli (ə), ləqəbi isə Zeynül-Abidin və Səccaddır. Hicrətin otuz doqquzuncu ili Şaban ayının beşində dünyaya gəlmişdir. Hicrətin doxsan beşinci ilində Məhərrəm ayının iyirmi beşində şəhadətə yetişmişdir. Müqəddəs qəbri Mədinə şəhərindədir.

Beşinci imam: Dördüncü imamın övladıdır. Adı Mühəmməd (ə), ləqəbi isə Baqirül-Ülumdur (elmləri açan). Hicrətin əlli yeddinci

---

1 "Əhzab" surəsi, ayə: 33.

ili səfər ayının üçündə dünyaya gəlmişdir. Hicrətin yüz on dördüncü ili Zil-hiccə ayının yeddisində şəhadətə yetişmişdir. Müqəddəs qəbri Mədinə şəhərindədir.

Altıncı imam: Beşinci imamın oğludur. Adı Cəfər (ə), ləqəbi isə Sadiqdir. Hicrətin səksən üçüncü ili Rəbiül-əvvəl ayının on yeddisində dünyaya göz açmışdır. Hicrətin yüz qırx səkkizinci ili Şəvval ayının iyirmi beşində şəhadətə yetişmişdir. Məzarı Mədinə şəhərindədir.

Yeddinci imam: Altıncı imamın oğludur. Adı Musa (ə), ləqəbi isə Kazimdir (yəni, qəzəbini boğan). Hicrətin yüz iyirmi səkkizi Səfər ayının yeddisində dünyaya gəlmişdir. Hicrətin yüz səksən üçüncü ili Rəcəb ayının iyirmi beşində şəhadətə çatmışdır. Müqəddəs qəbri Kazimeyn şəhərindədir.

Səkkizinci imam: Yeddinci imamın oğludur. Adı Əli (ə), ləqəbi isə Rizadır. Hicrətin yüz qırx səkkızinci ili Zil-qədə ayının on birində dünyaya gəlmişdir. Hicrətin iki yüz üçüncü ili Səfər ayının axırında şəhadətə çatmışdır. Müqəddəs məzarı Məşhəd şəhərindədir.

Doqquzuncu imam: Səkkizinci imamın oğludur. Adı Mühəmməd (ə), ləqəbi isə Təqi və Cavaddır. Hicrətin yüz doxsan beşinci ili Rəcəb ayının onunda dünyaya gəlmişdir. İki yüz iyirminci hicri ili Zil-qədə ayının axırında şəhadətə çatmışdır. Müqəddəs məzarı Kazimeyn şəhərindədir.

Onuncu imam: Doqquzuncu imamın ogludur. Adı Əli (ə), ləqəbi isə Nəqi və Hadidir. İki yüz on ikinci hicri ili Zil-hiccə ayının iyirmi üçü şəhadətə çatmışdır. Müqəddəs qəbri Samirra şəhərindədir.

On birinci imam: Onuncu imamın oğludur. Adı Həsən (ə), ləqəbi isə Əskəridir. İki yüz otuz ikinci hicri ili Rəbiüs-sani ayının onunda dünyaya gəlmişdir. Hicrətin iki yüz altmışıncı

ilində Rəbiül-əvvəl ayının səkkizində şəhadətə çatmışdır. Müqəddəs məzarı Samirra şəhərindədir.

Qeyd: Hər bir imamın imamət müddəti və yaşı onların təvəllüd və vəfat tarixindən hesablanır.

On ikinci imam: On birinci imamın oğludur. Adı Peyğəmbərin (s) adı, ləqəbi Məhdidir. Hicrətin iki yüz əlli altıncı ili Şaban ayının on beşində dünyaya gəlmişdir. O həzrət atasının şəhadətindən sonra imamətə başladı. Amma gözlərdən qeybdə idi. Dörd nəfər məxsus naiblərinin vasitəsilə öz tərəfdarları ilə əlaqə saxlayırdı. Bu dövrə kiçik qeyb dövrü deyilir. Bundan sonra böyük qeyb dövrü yetişdi. Hal-hazırda da qeybdədir və Allahın izni ilə bir gün zühur edib dünyanı ədalətlə dolduracaq. Bu məsələ barədə şiə və sünni alimləri Peyğəmbərdən (s) çoxlu hədis nəql etmişlər.

## MƏSUM İMAMLARIN (Ə) HƏYATI İLƏ QISA TANIŞLIQ

Həzrət Əlinin (ə) beşillik, imam Həsənin (ə) isə atasından sonra altı aylıq zahiri xilafəti istisna olaraq məsum imamların (ə) heç biri kamil surətdə insanlara rəhbərlik edə bilməmişdir. Peyğəmbərdən sonra xalqın arasında olduqları müddətdə heç bir azadlıqları olmamış, öz dövrlərinin xəlifələri tərəfindən daim təzyiq və təqibə məruz qalmışlar. Özləri və tərəfdarları düşmənlərin heç bir zülm və işkəncəsindən amanda olmayıb, hətta dar və qaranlıq zindanlara da düşürdülər. Bütün bunlara baxmayaraq, rəhbərlik və imamət vəzifəsini yerinə yetirməkdə əllərindən gələni əsirgəmədilər. Xalqın hıdayəti, İslam maarifinin yayılması və dini hökmləri bəyan etmək üçün bir an belə yorulmadan çalışdılar.

## ƏMİRƏLMÖMİNİN ƏLİ (Ə)

Həzrət Əli (ə) özündən əvvəlki üç xəlifənin 25 illik xilafəti dövründə xanənişin oldu. Beşillik zahiri xilafəti dövründə isə

daxili müharibələrlə çarpışmaq məcburiyyətində qaldı. Buna baxmayaraq, özünün söylədiyi kimi, İslam dünyasını maarifləndirib həqiqətləri üzə çıxara bildi. Kumeyl, Meysəm, Malik, İbn Abbas və s. elm xadimləri yetişdirdi. Həqiqi İslamın əsasını elə möhkəmlətdi ki, Bəni-Üməyyə və Bəni-Abbas xəlifələri 600 illik xilafətləri dövründə bütün təlaşlarına baxmayaraq onu aradan apara bilmədilər.

İllərlə Müaviyə və digər Bəni-Üməyyə xəlifələrinin (Ömər ibn Əbdüləzizə qədər) əmri ilə minbərlərdən o həzrətə nalayiq sözlər deyildi. Lakin çox çəkmədi ki, o həzrətin fəzilətləri və xidməti barədə söylənən həqiqətlər nalayiq sözlərin yerini tutdu. Hətta düşmənlər belə o həzrətin fəzilət və kəramətlərini etiraf etməkdən boyun qaçıra bilmədilər.

## İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYN (Ə)

İmam Həsən (ə) və İmam Hüseyn (ə) ataları həzrət Əlidən (ə) sonra Əhli-beytin və onların tərəfdarlarının ağır dövrü sayılan Müaviyə dövründə yaşayırdılar. Dini təbliğ etmək imkanı olmasa da, gözəl əxlaqi davranışla xalqı haqq yola hidayət edirdilər.

İmam Həsən (ə) 25 dəfə Allah evini piyada ziyarət etməyə getdi. İki dəfə öz əmlakını kasıblara payladı. Hətta öz çəkmələrindən bir cütünü verib, bir cütünü də özünə saxladı. O həzrət çox səbirli və həlim idi. Əgər biri ona nalayiq söz desəydi, onu bağışlayardı. Hətta mərhəmət göstərib mehribanlıq edərdi.

Müaviyənin təhrikilə imam Həsənin (ə) həyat yoldaşı onu zəhərlədi. Ölüm yatağında olarkən ondan kim tərəfindən zəhərləndiyini soruşanda, o həzrət öz qatilinin kim olduğunu belə demədi.

İmam Hüseyn (ə) fəqirlərə, kasıblara daim əl tutardı. Onlardan heç vaxt diqqətini əsirgəməzdi. Hər hansı bir kasıba verdiyi yüzlərlə qızıl dinarı az hesab edər, üzünü ondan gizlədərdi. O, atası və qardaşı kimi gecələr fəqirlərin evinə gedib onlara yardım edərdi.

## İMAM SƏCCAD (Ə)

Kərbəlada həzrət Seyyidüş-Şühəda (ə) və yaxınlarını ürəkyandırıcı bir müsibətlə şəhadətə yetirdilər. İmam Səccad (ə) da daxil olmaqla, o həzrətin ailəsini şəhidlərin kəsilmiş başlarıyla Şama apardılar. Bəni-Üməyyə xilafəti tam surətdə ələ keçirdiyindən Əhli-beytə (ə) qarşı heç bir zülmdən çəkinmirdi. Kiçik bir bəhanə axtarırdılar ki, imam Səccadı (ə) qətlə yetirib Peyğəmbər (s) ailəsindən bir nəfər belə sağ buraxmasınlar. Ona görə də imam Səccad (ə) Kərbəladan qayıdandan sonra Mədinədə elə rəftar edirdi ki, düşmən əlinə kiçicik belə bəhanə verməsin. Eyni halda da təqiyyə etməklə və ehtiyatlı surətdə imamət vəzifəsini yerinə yetirib xalqı haqqa doğru hidayət edirdi. O həzrət də özündən əvvəlki məsum imamlar tək kamil İslam əxlaqının bariz nümunəsi idi. Kasıblarla oturub-durar, gecələr şəxsən özü onların evlərinə yardım daşıyardı.

## İMAM BAQİR (Ə) VƏ İMAM SADİQ (Ə)

İmam Mühəmməd Baqir (ə) və imam Cəfər Sadiqın (ə) dövründə daxili çəkişmələr dövlətin başını qarışdırmışdı. Bu iki imam İslam maarifini təbliğ etməkdən ötrü kifayət qədər fürsəti qənimət bilib gecə-gündüz xalqın təlim-tərbiyəsində varqüvvələri ilə çalışdılar. Bir sıra elm xadimləri yetişdirərək İslam maarifinin müxtəlif bölmələri haqqında nəzərlər verdilər. Belə ki, şiə məzhəbi “Cəfəri məzhəbi“ adlandırıldı.

## İMAM KAZİM (Ə)

Həzrət Musa ibn Cəfər (ə) atasından sonra Abbasi xəlifələrinin müasiri oldu. Bütün həyatı boyu, xüsusilə ömrünün axırlarında daim təqib və təzyiqlərə məruz qaldı. Harunun əmrilə mütəmadi olaraq bir zindandan digər zindana göndərilməsinə baxmayaraq, İslam maarifini yaymaqda, xalqı təlim və tərbiyə etməkdə zərrə qədər də öz zəhmətini əsirgəmədi. Harada və hansı şəraitdə yaşamasından asılı olmayaraq ətrafındakı insanları haqqa hidayət edirdi. O həzrət o qədər aram, dözümlü idi və səhvlərə göz yumurdu ki, hətta ona pislik edən və qətlinə çalışanları belə yanına çağırıb çoxlu hədiyyə verirdi. Çox mərhəmətli, bağışlayan və sakit təbiətli olduğundan "Kazim", yəni "qəzəbini boğan" ləqəbi ilə məşhur olmuşdu.

## İMAM RİZA (Ə)

İmam Riza (ə) atasından sonra Abbasi xəlifəsi Harunun, ondan sonra da abbasilərin ən ağıllısı və biliklisi hesab edilən oğlu Məmunun muasiri oldu. Məhz bu cəhətdən elə təhlükəli siyasətlə üzləşdi ki, özündən əvvəlki məsumlar (ə) belə bir vəziyyətlə qarşılaşmamışdılar. Bu da ondan ibarət idi ki, Məmun Əhli-beyt (ə) barədə sabiq xəlifələrin təzyiq və təqib siyasətini zahiri dostluq və mehribanlıqla əvəz edib o həzrəti özünə yaxınlaşdırmaq istəyirdi ki, onun pak ətəyini zəmanəsinin çirkin xilafətinə bulaşdırsın. Əvvəla, bu vasitəylə o həzrəti tam nəzarət altında saxlayırdı, ikincisi isə, Əhli-beytə bağlı olan qəlbləri İmamdan (ə) döndərmək istəyirdi. Bu çirkin məqsədinə çatdıqdan sonra İmamı (ə) vəliəhdliyin qəbuluna məcbur etdi.

O həzrət şərtləşdiyi kimi, dövlət işlərində heç bir şeyə müdaxilə etmədi. Əksinə, geniş nüfuza malik olduğundan, daha çox kasıb əhalinin dərdinə yetişir, çətinliklərini həll etməyə səy

göstərirdi. Müxtəlif millətlərin və dinlərin alim və nümayəndələrinin iştirakı ilə xəlifənin təşkil etdiyi elmi məclislərdə İslam həqiqətlərini aydın bir bəyanla açıqlayırdı. Camaatla sadə davranar və çox təvazökarlıq edərdi. Qulluqçu və xidmətçilərini süfrə başında öz yanında əyləşdirərdi. Buna görə də Məmun səhv siyasətini anlayıb o həzrətin qətl planını hazırladı və İmamı (ə) zəhərləyərək şəhadətə yetirdi.

## İMAM CAVAD (Ə)

İmam Rizanın (ə) şəhadətindən sonra oğlu imam Cavad (ə) azyaşlı ikən imamətə keçdi. O həzrət dövrünün xəlifələri tərəfindən güclü nəzarət altında olmasına baxmayaraq, İslam maarifinin yayılmasına və müxtəlif məzhəblərin alimləri ilə elmi mübahisələrə məşğul oldu. İmam Cavad (ə) səxavət və mərdlikdə məşhur idi. Buna görə də “Cavad” adı ilə məşhur oldu.

## İMAM HADİ (Ə) VƏ İMAM ƏSKƏRİ (Ə)

İmam Cavaddan (ə) sonra oğlu imam Hadi (ə) sonra da nəvəsi imam Həsən Əskəri (ə) imamətə keçdi. Bu iki imam Samirrada yaşayırdılar. Onların təlim və tərbiyələri nəticəsində bir sıra şiə alimləri yetişdi. Əhli-beytin (ə) elm xəzinəsindən bəhrələnmiş çox kitablar yazıldı. İmam Zamanın (ə) qeybətindən sonra, o həzrətin xüsusi naibləri olan o dörd nəfər şəxs də məhz bu iki İmamın (ə) yaxın səhabələrindən idi.

## BƏHSİN XÜLASƏSİ

Tarixin on iki imam (ə) haqqında qeyd etdiklərini aşağıdakı cümlələrdə xülasə etmək olar:

Məsum imamların (ə) Allah tərəfindən nazil olmuş İslam dinini qoruyub saxlamaqdan başqa heç bir məqsədi olmamışdır. Öz danışıq və davranışları ilə İslamın əqidə əsaslarını, əxlaq və dini hökmləri təbliğ edərək daim xalqın təlım-tərbiyəsilə məşğul olmuşlar.

## MƏAD

Mehriban Allah bəndələrinə olan sonsuz lütf və mərhəməti üzündən onları haqq yola hidayət etməkdən ötrü öz peyğəmbərlərini göndərmişdir ki, insanlar onlara itaət edib saf əqidə və əxlaqa malik olsunlar, xeyir əməllər görüb nadanlıq və pis əməllərdən uzaqlaşsınlar. Sözsüz ki, dini qəbul edib hökmlərini yerinə yetirmək ixtiyar üzündən olmalıdır. Çünki məcburi olsa, yaxşı pisdən, əməlisaleh insan pis əməl sahibindən fərqlənməz. Buna görə də Allah-taala bəşər övladını bu məsələdə azad qoymuşdur. Aydındır ki, belə olduqda dini qaydalara əməl etməyin faydaları bu dünyada tamamilə gözə çarpmır. Nə əməlisaleh insanlar tam surətdə öz mükafatlarını alır və nə də günahkar, zalım insanlar öz layiqli cəzalarına çatırlar.

Allah-taalanın mərhəmət və ədalətinə diqqət yetirdikdə əql bu nəticəyə gəlir ki, insanların gördüyü əməllər müqabilində kamil əvəz olmasından ötrü başqa bir dünya lazımdır. Ölüm insanın yoxluğu deyil, əksinə, bu dünyadan sonrakı dünyaya keçiddir.

# İKİNCİ HİSSƏ:
# ƏHKAM

Əvvəldə qeyd etdiyimiz kimi Allahı tanıyandan sonra namaz və oruc kimi bəndəlik nişanəsi olan bir sıra əməlləri yerinə yetirməliyik. Burada biz öncə namazın hökmlərini, ondan sonra isə oruc tutmağın qaydalarını şərh edəcəyik.

## NAMAZ

Allah-taala buyurur:

﴿مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ﴾

***“(Onlara üz tutaraq soruşarlar:) “Sizi Cəhənnəmə daxil edən nədir?” Deyərlər: “Biz namaz qılanlardan deyildik.“[1]***

Peyğəmbər (s) buyurmuşdur:

“Namaz dinin sütunudur. Əgər Allah dərgahında qəbul olsa, digər ibadətlər də gəbul olar. Əgər qəbul olmasa, başqa ibadətlər də qəbul olmaz.”[2]

Gün ərzində beş dəfə yuyunmaq insanı paklandırdığı kimi, gündəlik beş vaxt namaz da insanı günahdan paklandırır. Bunu da bilmək lazımdaır ki, namaz qılıb amma ona əhəmiyyət verməmək namaz qılmamaq kimidir. Allah-taala Qurani-Kərimdə buyurur:

---

1 "Muddəssir" surəsi, ayə: 42-43.

2 "Kafi", c.2, səh.19, hədis: 53, yenə orada, c.3, səh.268, hədis: 4.

﴿فَوَيْلٌ لِّلْمُصَلِّينَ الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ﴾

***“Vay o namaz qılanların halına ki, öz namazlarından qafildirlər və ona etinasızdırlar.”***[1]

Bir gün Peyğəmbər (s) məscidə daxil olarkən gördü ki, bir nəfər namaz qılır, amma rüku və səcdələri kamil surətdə yerinə yetirmir. O həzrət buyurdu: ***“Əgər bu şəxs belə namaz qıldığı halda ölsə, dünyadan müsəlman getməmişdir.“***[2] Buna görə də namazı xüzu və xüşu ilə qılmaq lazımdır. İnsan namaz qılarkən bilməlidir ki, kiminlə danışır. Namazdan yaxşı faydalanmaqdan ötrü rüku, səcdə və s. əməlləri düzgün yerinə yetirmək lazımdır.

Allah-taala Qurani-Kərimdə namaz haqqında belə buyurur:

﴿إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاء وَالْمُنكَرِ﴾

***“Həqiqətən, namaz (insanı) böyuk günahlardan, (şəriətdə və əqldə) xoşagəlməz hallardan çəkindirir.”***[3]

Həqiqətən də namazın qayda-qanunları elədir ki, namaz qılan şəxsi heç vaxt pisliklərə yuvarlanmağa qoymaz. Məsələn, namazın hökmlərindən biri budur ki, namaz qılan şəxsin məkanı və libası qəsbi olmamalıdır. Hətta libasında kiçik bir qəsbi sap belə olsa, namazı batildir. Haramdan bu qədər qorunan namaz qılan mümkün deyildir ki, haram mala əl atıb başqasının haqqını qəsb etsin. Həmçinin, namaz o surətdə qəbul olunur ki, insan həsəd, tamah və s. rəzil sifətlərdən uzaq olsun. Aydındır ki, bütün pisliklərin mənşəyi məhz bu pis xasiyyətlərdir. Əgər namaz qılan özünü bu sifətlərdən qorusa, qəti sürətdə demək olar ki, bütün pisliklərdən və

---

1 "Maun" surəsi, ayə: 4-5.

2 "Səvabül-əmal", səh.229

3 "Ənkəbut" surəsi, ayə: 45.

çirkinliklərdən uzaq olar. Bəzi namaz qılan şəxslər əgər günah işlər görürlərsə, bu o deməkdir ki, namazın qayda-qanunlarına düzgün riayət etmirlər. Nəticədə də qıldıqları namaz qəbul olmur və ondan faydalana bilmirlər. Müqəddəs İslam şəriəti o qədər namaza əhəmiyyət vermişdir ki, hətta can üstə olan şəxsə belə namaz vacib olur. Əgər namazın sözlərini deməyə taqəti yoxdursa, qəlbindən keçirməlidir. Döyüşdə, düşməndən qorxu və yaxud hər hansı zəruri və çarəsizlik vaxtı üzü qibləyə dayanıb namazı qıla bilmirsə, bu hökm ondan götürülür və necə mümkündürsə, elə də namazını qıla bilər

## VACİB NAMAZLAR

Vacib namazlar altıdır:

1) Gündəlik namaz (gündəlik namazlar ibarətdir: sübh namazı (iki rükət), zöhr və əsr namazı (hər biri dörd rükət), şam namazı (üç rükət), işa namazı (dörd rükət));

2) Ayat namazı;

3) Meyyit namazı;

4) Vacib təvaf namazı;

5) Ata-ananın qəza namazları böyük oğula vacibdir;

6) Əcr, nəzr, and və əhd etmək vasitəsilə vacib olan namaz.

## NAMAZIN MÜQƏDDİMƏSİ

Namaz qılmaq üçün, yəni Allah-taalanın müqəddəs dərgahında dayanıb bəndəlik və pərəstiş etməkdən ötrü müqəddimə olaraq bir sıra işlər görülməzsə, namaz düz deyildir:

1) Təharət;

2) Vaxt (zaman);

3) Libas;

4) Məkan;

5) Qiblə.

Bu müqəddimələrin hər biri haqda müfəssəl olaraq qeyd olunacaq.

## 1) TƏHARƏT

Namaz qılan şəxs namaz əsnasında pak olmalıdır. Yəni namazı dəstəmaz, qüsl və ya təyəmmümlə qılmalı, libası pak olmalıdır.

## NƏCİSLƏR

Nəcislər neçə şeydir:

Birinci və ikinci: Əti haram və qanı atıcı olan heyvanların bövl (sidik) və ğaiti (ifrazat). Qanı atıcı o deməkdir ki, damarı kəsəndə qan sıçrayır. Məsələn, pişik, tülkü, dovşan və s. Həmçinin nəcis yeməklə əti haram olmuş heyvan və quşun da bövl və ğaiti nəcisdir. Bövlün məxrəci yalnız su ilə pak olur. Ğaitin məxrəcini isə su və ya üç parça daş və ya bu kimi vasitələrlə pak etmək olar. Əgər ğaitin məxrəci həddindən artıq bulaşarsa, onu yalnız su ilə pak etmək olar. Bunu da qeyd etmək lazımdır ki, əgər ğaitin məxrəci üç parça daşla təmizlənməzsə, əlavə daş parçalarından istifadə edib məxrəci paklamaq lazımdır.

Üçüncü: Qanı atıcı olan heyvanın leşi. İstər əti halal olsun, istərsə də haram. Amma tük, dırnaq, yun kimi ruhu olmayan üzvlər pakdır.

Dördüncü: Qanı atıcı olan heyvanın qanı. İstər əti halal olsun, istərsə də haram.

Beş və altıncı: Quruda yaşayan it və donuz. Bu heyvanların bütün əzaları, hətta tükləri belə nəcisdir.

Yeddinci: Şərab və zatən maye olan hər hansı bir məstedici.

Səkkizinci: Arpa suyu (pivə)

## PAKEDİCİLƏR

Nəcisləri pak edən vasitələrə pakedicilər deyilir. O cümlədən:

1) Su. Nəcis olmuş hər bir şeyi pak edir. Bu şərtlə ki, saf olsun. Qarpız suyu, gülab və s. kimi qarışıq sularla nəcasət pak olmur. Bu su ilə dəstəmaz və qüsl almaq da düzgün deyildir. Saf su iki cürdür: kür su, az su. 384 litrdən çox olan suya kür su deyilir. Əgər nəcis bu suya qarişsa və suyun iyi, dadı və rəngi dəyişməzsə, bu su pakdır.

Az su isə kür suyun miqdarından az olan suya deyilir. Əgər ona nəcis qarışsa, nəcis olar. Pak olması üçün ya axar suya, ya yağışa və yaxud da kür suya qarışmalıdır.

2) Torpaq. Torpaq ayaqqabı və ya ayağın altını pak edir.

3) Günəş. Günəş nəcisə bulaşmış yeri və həsiri əgər şüalarıyla qurudursa, pak edir.

4) İstihalə. Nəcis bir şeyin mahiyyətinin dəyişib pak bir şeyə çevrilməsinə istihalə deyilir. Məsələn, itin duzlağa düşüb duza çevrilməsi kimi.

5) İntiqal. Mənası budur ki, insan və ya atıcı qanı olan heyvanın qanı atıcı qanı olmayan heyvanın orqanizminə daxil olsun. Məsələn, ağcaqanadın insan qanını sovurması kimi.

6) İnsanın batinindən və heyvanın zahirindən nəcisin aradan getməsi. Məsələn, heyvanın beli və ya insanın burnundan gələn qan kəsiləndən sonra pak olur və su ilə yumağa ehtiyac yoxdur.

7) Təbəiyyət. Yəni, nəcis bir şey başqa nəcis bir şeyin pak olması ilə pak olur. Məsələn, kafir müsəlman olarkən övladı da ona təbəiyyət edərək pak olur.

8) Nöqsan. Üzüm suyunun üçdə ikisinin azalmasına deyilir. Üzüm suyu qaynayarsa, nəcis olur. Qaynama nəticəsində üçdə ikisi buxarlanarsa, yerdə qalan pak olur.

## DƏSTƏMAZ VƏ ONUN QAYDALARI

Dəstəmazdan qabaq dişləri fırçalamaq, qarqara etmək və buruna su çəkmək müstəhəbdir. Dəstəmaz alarkən üzü alnın tük bitən yerindən çənəyədək, əlləri isə dirsəkdən barmaqların ucunadək yumaq lazımdır. Sonra isə baş və ayaqlara məsh çəkilməlidir. Dəstəmaz alarkən aşağıdakı qaydalara riayət etmək lazımdır:

1) Dəstəmaz əzaları pak olmalıdır.

2) Dəstəmaz suyu pak, saf və mübah olmalıdır. Mübah yəni, su ya özününkü olmalı, ya da sahibi ondan istifadə etməyə icazə verməlidir.

3) Niyyət. Dəstəmaz Allah rizası üçün alınmalıdır. Sərinləşmək və ya bu kimi başqa məqsədlə dəstəmaz almaq düz deyil.

4) Tərtib. Yəni, əvvəl üz, sonra sağ əl, sonra isə sol əl yuyulmalı, daha sonra başa və lap axırda ayaqlara məsh çəkilməlidir.

5) Müvalat. Dəstəmazın əməlləri ardıcıl olaraq elə yerinə yetirilməlidir ki, araya düşən fasilə nəticəsində dəstəmaz əzalarından hər hansı biri qurumasın. Amma bədənin hərarəti və ya havanın istiliyi nəticəsində dəstəmaz alarkən digər üzv quruyarsa, dəstəmaz düzdür.

Qeyd: Başın dərisinə məsh çəkməyə ehtiyac yoxdur. Başın tükünə məsh çəkilsə, kifayət edər. Məsh çəkilən yerə başın digər yerlərindən daranaraq saç yığılıbsa, bu surətdə başın dərisinə məsh çəkilməlidir. Həmçinin, əgər saçlar uzun olsa, məsələn, daranarkən üzə tökülsə, bu zaman tüklərin dibinə və ya tağ ayırıb başın dərisinə məsh çəkmək lazımdır.

## DƏSTƏMAZI BATİL EDƏN ŞEYLƏR

Səkkiz şey dəstəmazı batil edir:

1) Bövl;

2) Ğait;

3) Yel;

4) Huşsuzluq;

5) Məstlik;

6) Yuxu. Bu şərtlə ki, nə göz görsün, nə də qulaq eşitsin. Əgər göz görmürsə, qulaq eşidirsə, bu zaman dəstəmaz batil olmur.

7) Dəlilik;

8) Cənabət və qüsl vacib olan digər əməllər. Qadınların bəzi vaxtlar gördükləri istihazə də dəstəmazı batil edir.

## QÜSL

Qüslü iki cür almaq olar: tərtibi və irtimasi. Baş-boyun, sağ və sol tərəflərin ardıcıllıqla yuyulma formasına tərtibi qüsl deyilir. Bütöv bədənlə suya baş vurmağa isə irtiması qüsl deyilir.

İki növ qüsl vardır: vacib və müstəhəb. Müstəhəb qüsllər çoxdur. Vacib qüsllər isə yeddidir:

1) Cənabət qüslü;

2) Meyyit qüslü;

3) Məssi-meyyit qüslü. Meyyit qüslü verilməmiş ölünün bədəninə əl vurularsa (əgər ölünün bədəni soyuqdursa), bu zaman həmin şəxsin boynuna məssi-meyyit qüslü gəlir;

4) Nəzr, əhd və ya and içilmiş qüsl;

5) Heyz qüslü;

6) Nifas qüslü;

7) İstihazə qüslü;

İlk dörd qüsl həm qadınlara, həm də kişilərə, sonuncu üç qüsl isə yalniz qadınlara məxsusdur.

## CÜNUBA HARAM OLAN ŞEYLƏR

1) Bədənin hər hansı bir yerini Quran xəttinə, Allahın, Peyğəmbərin (s) və məsum imamların (ə) adına sürtmək;

2) Məscidül-Hərama və Məscidün-Nəbiyə daxil olmaq;

3) Məsciddə dayanmaq və ya oraya bir şey qoymaq;

4) Vacib səcdəsi olan dörd surədən birini oxumaq (Nəcm, Ələq, Fussilət, Səcdə).

Cənabət, heyz, nifas və istihazənin digər məsələlərini risalə kitablarından əldə edə bilərsiniz.

Qeyd: Dəstəmaz kimi qüsldə də niyyət vacibdir. Qüsldə də bədən pak olmalı, su ilə dəri arsında heç bir şey fasilə salmamalıdır.

## TƏYƏMMÜM

Namaz qılmaqdan ötrü vaxtın azlığı, xəstəlik və suyun olmaması üzündən dəstəmaz və ya qüsl almaq mümkün deyilsə, təyəmmüm edilməlidir.

## TƏYƏMMÜMÜN QAYDASİ

Təyəmmümdə dörd şey vacibdir:

1) Niyyət;

2) Torpağa və ya təyəmmüm edilməsi mümkün olan hər hansı bir şeyə iki əli qoşalaşdırıb ovucunu vurmaq;

3) Hər iki əlin ovucunu alının tük bitən yerindən qaşlar və burnun yuxarı hissəsinə kimi bütün yerlərinə çəkmək. Daha yaxşı olar ki, qaşların da üzərinə əl çəkilsin;

4) Əvvəl sağ əlin, sonra isə sol əlin üzərinə əl çəkilməlidir. Dəstəmaz əvəzi təyəmmüm almaq üçün torpağa bir dəfə vurub, həm alına, həm də əllərin üzərinə çəkmək kifayət edər. Qüsl

əvəzi təyəmmümdə isə əlləri bir dəfə alına çəkmək, bir dəfə də əllərin üzərinə çəkmək üçün torpağa vurmaq lazımdır.

## TƏYƏMMÜMÜN HÖKMLƏRİ

1) Əgər torpaq tapılmazsa quma, qum olmazsa kəsəyə, kəsək də olmazsa daşa təyəmmüm etmək olar. Bunlardan heç biri tapılmadıqda isə yerdə yığılmış toza təyəmmüm etmək olar.

2) Təbaşir və mədəndən çıxarılmış bu kimi digər suxurlara təyəmmüm etmək düz deyildir.

3) Bir şəxs satılan suyun baha olmasına baxmayaraq almaq imkanına malikdirsə, təyəmmüm edə bilməz. Suyu alıb dəstəmaz və qüsl etməlidir.

## 2) VAXT

Zöhr və əsr namazlarının hər birinin məxsus və müştərək vaxtları vardır. Zöhr namazının məxsus vaxtı zöhrün əvvəlindən namaza başlayaraq zöhr namazını qılıb qurtaranadəkdir. Əsr namazı bu vaxtda hətta bilməyərəkdən qılınsa da batildir. Zöhrün əvvəli dedikdə, bu nəzərdə tutulur: dan yerindən doğan günəşin şüaları hamar yerə basdırılmış çubuğun günbatan tərəfinə kölgə salır. Günəş qalxdıqca, çubuğun kölgəsi azalır. Zöhrün əvvəlində ən az dərəcəyə gəlib çatır. Zöhr keçdikdən sonra isə kölgə günçıxan tərəfə düşür. Günəş qüruba tərəf getdikdə, kölgə uzanır. Beləliklə, kölgə ən az həddə çatıb ikinci dəfə uzanmağa başladıqda, məlum olur ki, artıq zöhr olub. Qeyd etmək lazımdır ki, Məkkə kimi bəzi şəhərlərdə zöhr vaxtı kölgə tamamilə yox olur. Bu şəhərlərdə kölgə dübarə yarandıqda məlum olur ki, artıq zöhr olmuşdur.

Əsrin məxsus vaxtı isə budur ki, şam azanına dörd rükət namazın qılınma vaxtı qalmış olsun. Zöhr namazı bu vaxtadək qılınmamışdırsa, artıq qəzaya getmişdir. Ona görə də birinci

əsri qılıb sonra zöhr namazını qəza niyyətilə qılmaq lazımdır. Zöhr namazının məxsus vaxtı ilə əsr namazının məxsus vaxtı arasındakı zaman hər iki namazın müştərək vaxtıdır. Əgər müştərək vaxtda əsr namazı səhvən zöhr namazından əvvəl tamamilə qılınmışdırsa, namaz düzdür və ondan sonra zöhr namazı qılınmalıdır.

Şam və işa namazlarının da məxsus və müştərək vaxtları vardır. Şam namazının məxsus vaxtı şam azanından başlayaraq üç rükət namazın qılınıb qurtarmasına qədərdir. Şam azanı təqribən, günəşin batmasından 15 dəqiqə sonradır. Əlaməti isə budur ki, günəş batandan sonra səmanın şərq tərəfdə yaranan qırmızı zolaq aradan getsin.

İşa namazının məxsus vaxtı isə gecə yarısına dörd rükət namazın qılınma vaxtının qalması qədərdir (yəni, gecə yarısına 5-10 dəqiqə qalmış). Şəri gecə yarısı 11 saat 15 dəqiqə zöhrdən sonradır . Əgər bu vaxta qədər şam namazı qılınmamışdırsa, əvvəl işa namazı, sonra isə şam namazı qılınmalıdır. Şam namazının məxsus vaxtı ilə işa namazının məxsus vaxtı arasındakı zaman hər iki namazın müştərək vaxtıdır. Əgər müştərək vaxtda işa namazı səhvən şam namazından əvvəl tamamilə qılınmışdırsa, namaz düzdür və ondan sonra şam namazı qılınmalıdır.

Sübh namazının vaxtı fəcri-sadiqin əvvəlindən günəşin çıxmasına qədərdir.

### 3 ) LİBAS

Namaz qılan şəxsin geyiminin neçə şərti vardır:

1) Mübah olmalıdır. Yəni, geyim öz malı olmalı və ya özününkü olmasa, namaz qılarkən sahibinin razılığı olmalıdır.

2) Pak olmalıdır. Nəcisə bulaşmış olmamalıdır.

3) Ölmüş heyvanın (murdar) dərisi olmamalıdır. İstər əti halal olsun, istərsə də haram.

4) Əti haram heyvanın yunundan, tükündən və kürkündən olmasın. Amma xəz libasla namaz qılmaq olar.

5) Namaz qılan kişidirsə, ipək və qızıl toxumalı paltarla və qızıl əşyalar taxaraq namaz qıla bilməz. Ümumiyyətlə, namazdan başqa vaxtlarda da ipək geyimlər və qızıl zinət əşyalarından istifadə etmək kişilərə haramdır.

### 4) MƏKAN

Namaz qılınan yerin neçə şərti vardır:

1) Mübah olmalıdır.

2) Hərəkətsiz olmalıdır. Çarəsizlik üzündən avtomobil və gəmi kimi yerlərdə namaz qılmağın heç bir eybi yoxdr. Belə ki, hərəkət zamanı həmin bu vasitələrdən hər hansı biri qiblədən döndükcə, namaz qılan şəxs də eyni zamanda qibləyə tərəf çevrilməlidir.

3) Nəcasətli yer paltarı və ya bədəni nəmləndirən dərəcədə rütubətli olmamalıdır. Səcdə olunan yer quru olmasına baxmayaraq nəcasətli olarsa, namaz batildlr.

4) Səcdə olunan yer dizlərin və ayaq barmaqlarının yerindən bitişik dörd barmaq ölçüsündə hündür və ya alçaq olmamalıdır.

### 5) QİBLƏ

Kəbə evi qiblədir. Namaz ona tərəf qılınmalıdır. Heyvanların kəsilməsi kimi sair işlər də üzü qibləyə olmalıdır. Oturaq halda belə namaz qıla bilməyən şəxs namaz qılarkən sağ tərəfi üstə uzanaraq üzü qibləyə dayanaraq namazını qılmalıdır. Əgər mümkün deyilsə, sol tərəfi üstə uzanıb üzü qibləyə namazını

qılsın. Bu da mümkün olmazsa, arxası üstə uzanıb ayaqlarının altı üzü qibləyə çevrilmiş halda namazını qılsın.

Araşdırdıqdan sonra qibləni təyin edə bilməyən şəxs müsəlman qəbirləri və bu kimi vasitələrdən əldə olunan ehtimala əsasən həmin tərəfə dayanıb namazını qılmalıdır.

## NAMAZIN VACİBLƏRİ

Namazda 11 şey vacibdir:

1) Niyyət;

2) Təkbirətül-ehram;

3) Qiyam;

4) Qiraət;

5) Rüku;

6) Səcdə;

7) Təşəhhüd;

8) Salam;

9) Tərtib. Yəni, namazın hissələri ardıcıl olaraq yerinə yetirilməlidir. Bu hissələrin yerini dəyişmək olmaz;

10) Namaz aramla, vüqarla qılınmalıdır;

11) Müvalat. Yəni, namazın hissələri arasında fasilə salınmadan bir-birinin ardınca qılınmalıdır.

Yuxarıda qeyd olunan bu 11 vacib əməldən beşi rükndür. Bu beş əməl bilərəkdən və ya səhv üzündən artırılıb azaldılarsa, namaz batil olur.

## NAMAZIN RÜKNLƏRI

Namazın rüknləri aşağıdakılardır:

1) Niyyət;

2) Təkbirətül-ehram;

3) Təkbirətül-ehram deyən vaxtı qıyam və rükuya birləşən qiyam;

4) Rüku;

5) İki səcdə.

## NİYYƏT

"Niyyət" dedikdə, insanın namazı Allaha yaxınlıq və Allah əmrini yerinə yetirməkdən ötrü qılınması nəzərdə tutulur. Niyyəti qəlbdən keçirmək və ya sözlə söyləmək lazım deyildir.

## TƏKBİRƏTÜL-EHRAM

Azan və iqamədən sonra niyyət edib “Allahu-əkbər” deməklə namaz başlayır. Bu təkbiri dedikdən sonra yemək, içmək, gülmək, qibləyə arxa çevirmək kimi əməllər insana haram olur. Ona görə də, bu təkbirə “Təkbirətül-ehram” deyilir.

Təkbir deyilərkən əlləri yuxarı qaldırmaq müstəhəbdir. Bununla biz Allahın böyüklüyünü nəzərə alıb, ondan başqasını puç bilərək tərk etmiş oluruq.

## QİYAM

Təkbirətül-ehramı deyən vaxt qiyam və rükuya birləşən qiyam rükndür. Həmd və rükudan sonrakı surə oxunan zaman qiyam rükn deyildir. Ona görə də səcdəyə gedərkən rükunu unutduğunu başa düşən şəxs dərhal ayağa qalxmalı, sonra isə rukuya gedib səcdələri yerinə yetirməlidir. Əgər ayağa qalxmadan əyilmiş halda rükuya gedərsə, rükuya birləşən qiyamı yerinə yetirmədiyindən namazı batil olar.

## RÜKU

Qiraəti oxuduqdan sonra əllər dizlərə çatana qədər əyilmək lazımdır. Bu əmələ "rüku" deyilir. Rükuda bir dəfə „subhanə rəbbiyəl əzimi və bihəmdih“ və yaxud üç dəfə „sübhanəllah“

zikrini demək lazımdr. Rükudan sonra tamamilə qalxmaq və sonra səcdəyə getmək lazımdır.

## SƏCDƏ

Alını, əlləri, dizləri və baş ayaq barmaqlarını yerə qoymağa "səcdə" deyilir. Səcdədə ya bir dəfə „subhanə rəbbiyəl əla və bihəmdih“, ya da üç dəfə „subhanəllah” zikri deyilməlidir. Sonra oturub bu əməli ikinci dəfə təkrar etmək lazımdır. Səcdə torpağa ya da torpaqdan bitən şeylərə caizdir. Yeyilən, geyilən şeylərə və mədəndən çıxan daşa, filizə səcdə etmək caiz deyildir.

## TƏŞƏHHÜD VƏ SALAM

Əgər namaz iki rükətlidirsə, səcdələri yerinə yetirdikdən sonra ayağa qalxaraq "Həmd – surə"ni oxuyub qunut tutmaq lazımdır. Əlləri qoşalaşdırıb üzün müqabilində tutaraq hər hansı bir zikri oxumağa "qunut" deyilir. Məsələn, qunutda bu zikri oxumaq olar: „Rəbbəna atina fiddünya həsənətən və fil axirəti həsənətən və qina əzabənnar.“ Qunutdan sonra rüku və səcdələr yerinə yetirilir, oturaq halda təşəhhüd və salamlar deyilərək namaz tamamlanır.

## TƏŞƏHHÜDÜN SÖZLƏRİ

Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd.“

## SALAMIN SÖZLƏRİ

“Əssəlamu əleykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh. Əssəlamu əleyna və əla ibadillahissalihin. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.”

Əgər namaz üç rükətlidirsə, təşəhhüddən sonra ayağa qalxıb ya təkcə həmdi, ya da üç dəfə “subhanəllah vəlhəmdu lillah və la

ilahə illəllahu vallahu əkbər“ zikrini demək lazımdır. Ondan sonra rüku və səcdələr yerinə yetirilir, oturaq halda təşəhhüd və salamlar deyilib namaz tamamlanır.

Əgər namaz dörd rükətlidirsə, dördüncü rükəti üçüncü rükət kimi yerinə yetirərək təşəhhüd və salamları deyib namazı tamamlamaq lazımdır.

## AYAT NAMAZI

Ayat namazı dörd vasitə ilə vacib olur:

1) Günəşin tutulması;

2) Ayın tutulması. Az bir hissəsi tutulsa və heç kəs qorxmasa belə;

3) Zəlzələ. Heç kəs qorxmasa belə;

4) Göy gurultusu, şimşək çaxması, qara, qırmızı və bu kimi küləklərin əsməsi.

Əlbəttə, qeyd olunan vasitələrdə ayat namazı o zaman vacib olur ki, əhalinin əksəriyyəti qorxuya düşsün.

## AYAT NAMAZININ QAYDASI

Ayat namazı iki rükətdir. Hər rükətdə beş rüku vardır. Niyyətdən sonra təkbir deyilir. "Fatihə" surəsi və ardınca hər hansı bir surə oxunur. Sonra rükuya gedib qalxaraq ikinci dəfə "Fatihə" və ardınca hər hansı bir surə oxunub yenidən rükuya gedilir. Beləcə beş dəfə "Həmd-surə" oxunub rükuya gedilərək səcdələr yerinə yetirilir. Sonra qalxaraq ikinci rükəti birinci rükət kimi yerinə yetirərək təşəhhüd və salamlar deyilir.

Ayat namazını bu formada da qılmaq olar:

Niyyət, təkbir və "Həmd"dən sonra oxunan surənin ayələrini beş hissəyə bölərək bir və ya daha çox ayə oxunub rükuya gedilir. Rükudan qalxdıqdan sonra "Həmd"i oxumadan həmin

surənin ikinci hissəsi oxunulur və rükuya gedilir. Beləliklə, beşinci rükudan əvvəl surəni tamamlayıb rükuya gedərək səcdələr yerinə yetirilir. İkinci rükəti də eynilə belə qılaraq namaz tamamlanır.

## MÜSAFİR NAMAZI

Müsafir olan kəs altı şərtlə dörd rükətli namazları iki rükət qılmalıdır:

1) Gedilən məsafə səkkiz fərsəxdən az olmamalıdır. Yaxud gediş məsafəsi dörd fərsəx, gəliş məsafəsi də dörd fərsəx olmalıdır;

2) Səfərə çıxarkən məqsədi səkkiz fərsəxlik məsafəni qət etmək olmalıdır;

3) Yolun yarısında öz məqsədindən dönməməlidir;

4) Səfəri günah üçün olmamalıdır;

5) Peşəsi səfər olmamalıdır. Məsələn, sürücü kimi peşəsi səfər olarsa, namazını bütöv qilmalıdır. Yox əgər öz evində on gün qalarsa, üç dəfə səfərdə namazını qəsr, ondan sonrakı dəfələrdə isə namazını bütöv qılmalıdır;

6) Həddi-tərəxüssə yetişməlidir. Yəni, vətənindən və ya on gün qəsd edib qaldığı yerdən şəhərin divarları görünməyənə və azan səsi eşidilməyənə qədər uzaqlaşarsa, namazını qəsr qılmalıdır.

## CAMAAT NAMAZI

Gündəlik namazları cəm halında qılmaq müstəhəbdir. Camaat namazının savabı təklikdə qılınan namazın savabından neçə min dəfə çoxdur.

Camaat namazının şərtləri:

1) İmam-camaat həddi-buluğa yetişmiş, mömin, adil, halalzadə olmalı, namazın sözlərini düz oxumalıdır. Əgər məmum (iqtida edən) kişidirsə, imam-camaat da kişi olmalıdır.

2) İmamla məmum ararsında imamı görməyə mane olan pərdə və ya sairə vasitələr olmamalıdır. Əgər məmum qadın olarsa, bu vasitələrin olmasının heç bir eybi yoxdur.

3) İmamın dayandığı yer məmumun yerindən hündür olmamalıdır. Əgər hündürlük az miqdarda, məsələn, dörd bitişik barmaq və ya ondan da az ölçüdə olarsa, bunun eybi yoxdur.

4) Məmum imamdan arxada və yaxud onunla bərabər dayanmalıdır.

## CAMAAT NAMAZININ QAYDASI

1) Məmum "Həmd-surə"dən başqa namazın bütün sözlərini özü oxumalıdır. Əgər imam üçüncü və ya dördüncü rükətlərdə olan zaman məmum birinci və ya ikinci rükətdə olarsa, bu surətdə "Həmd-surə"ni özü oxumalıdır. Surəni oxumaq imama rükuda çatmağa mane olarsa, məmum yalnız təkcə "Həmd"i oxumaqla kifayətlənib, özünü rükuda imama çatdırmalıdır. Əgər çatmazsa, bu surətdə namazı furada (fərdi ) niyyətlə tamamlamalıdır.

2) Məmum ruku, səcdə və namazın digər əməllərini imamla birgə və ya ondan azca sonra yerinə yetirməlidir. Təkbirətül-ehram və salamları isə mütləq imamdan sonra deməlidir.

3) İmam rukuda olarkən iqtida edib imama çatarsa, namazı düzdür və bir rükət hesab olunur.

## ORUC

İslamın füruiddin bölməsində vacib əməllərdən biri də oruc tutmaqdır. Həddi-buluğa çatmış hər bir şəxsə Ramazan ayında

oruc tutmaq vacibdir. Yəni, Allah əmrinə itaət etməkdən ötrü sübh azanından şam azanınadək orucu batil edən şeylərdən çəkinməlidir.

ORUCU BATİL EDƏN ŞEYLƏR

Orucu bir neçə şey batil edir, o cümlədən:

1) Yemək-içmək. Hətta torpaq və ağac şirəsi kimi qeyri-adi şeyləri yemək və ya içmək orucu batil edir;

2) Allaha, Peyğəmbərə (s) və məsum imamlara yalan istinad etmək;

3) Boğaza qatı toz çatdırmaq;

4) Başı tamamilə suya batırmaq;

5) Qəsdən qusmaq;

Digər batil edən şeylərin şərhi üçün risalələrə müraciət etmək lazımdır.

# ÜÇÜNCÜ HİSSƏ:
# ƏXLAQ

Öncə qeyd etdiyimiz kimi, İslam dini Allah-taala tərəfindən sonuncu Peyğəmbərə (s) göndərilmiş ümumi və əbədi bir proqramdır. Belə ki, bu qayda-qanunlar cəmiyyətdə icra olunub bəşər övladını cəhalət girdabından xilas edərək onları xoşbəxtliyə aparmaqdan ötrü Peyğəmbərə (s) nazil olmuşdur. Din həyat proqramı olduğundan insan üçün müəyyən bir vəzifə təyin edərək yerinə yetirilməsini ondan tələb edir. Ümumiyyətlə, insan həyatında üç qarşılıqlı münasibət vardır:

1. İnsanın Allah-taala ilə olan münasibəti. O, insanı yaratmışdır, Onun nemətlərinin haqqı bütün haqlardan böyükdür. İnsanın o müqəddəs Zat qarşısındakı vəzifəsi hər bir vacib əməldən daha vacibdir.

2. İnsanın özünə münasibəti.

3. İnsanın onu əhatə edən insanlarla münasibəti. Ətrafımızdakı insanlarla işləməkdən, yaşamaqdan, ünsiyyətdə olmaqdan başqa çarəmiz yoxdur.

Bu hesabla bizim üç ümumi vəzifəmiz vardır:

1. Allah qarşısında vəzifəmiz.
2. Özümüz qarşısında vəzifəmiz.
3. Başqaları qarşısında vəzifəmiz.

## İNSANIN ALLAH QARŞISINDAKI VƏZİFƏSİ

Allahıtanıma:

Allah qarşısındakı vəzifəmiz vəzifələrin ən əsasıdır. Bu məsuliyyəti pak ürəklə, saf niyyətlə həyata keçirmək lazımdır.

İlkin mərhələdə hər bir insanın vəzifəsi öz Yaradanını tanımaqdır. Çünki Allah-taalanın müqəddəs və pak vücudu hər bir varlığın mənbəyi və hər bir həqiqətin yaradıcısıdır. O müqəddəs vücudu tanımaq hər bir qəlbin ziyasıdır. Bu danılmaz həqiqətə biganəlik və etinasızlıq isə bütün nadanlıqların və cahilliklərin mənbəyidir. Haqqı tanimaqda etinasızlıq göstərən kəs, nəticədə vicdanının nurunu söndürüb həqiqi səadətin yollarını öz üzünə bağlamış olur. Belə ki, haqqı tanımayan, öz həyatında ona etina etməyən kəslərin mənəviyyatdan uzaq düşüb vəhşi heyvani həyatdan başqa bir həyat sürmədiklərinin şahidi oluruq. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿فَأَعْرِضْ عَن مَّن تَوَلَّى عَن ذِكْرِنَا وَلَمْ يُرِدْ إِلَّا الْحَيَاةَ الدُّنْيَا ذَلِكَ مَبْلَغُهُم من العلم﴾

***“Buna görə də Bizi yad etməkdən (və Bizim Quranımızdan) üz döndərən və yalnız bu dünya həyatını istəyən kəs(lər)dən üz döndər (və onlarla mübahisə etmə). Bu, onların biliklərinin son mərhələsidir”.***[1]

Qeyd etmək lazımdır ki, Allahıtanıma mövzusu həqiqəti araşdıran və hər bir şeydə dəlil-sübut axtaran insan üçün çox zəruri bir məsələdir. Çünki Allahın ona bəxş etdiyi şüur ilə yaradılış aləminə baxdıqca, Allahın varlığının izlərini, Onun elmini və qüdrətini muşahidə edir. Buna görə də Allahıtanıma mövzusu insanin öz-özünə yaratdığı bir mövzu deyildir. Bu mövzunu araşdırmaqda məqsəd, yalnız və yalnız ona görədir ki, insan heç vaxt bu açıq-aşkar həqiqətə qarşı laqeyd olmasın. Onu hər an Allaha tərəf dəvət edən vicdanına müsbət cavab verib bu mərifətlə hər cür şəkk-şübhədən uzaqlaşsın.

---

1 "Nəcm" surəsi, ayə: 29-30.

## ALLAHPƏRƏSTLİK

Allahıtanımadan sonra bizim ikinci vəzifəmiz Allahpərəstlikdir. Çünki haqqı tanımaqla bizə aydın olur ki, yeganə məqsədimiz səadət və xoşbəxtliyə yalnız Allahın peyğəmbərlər vasitəsilə göndərdiyi qayda-qanunları icra etməklə çatmaq olar. Deməli, Allahın əmri qarşısında itaət və bəndəlik bütün vəzifələrdən üstün və əhəmiyyətli bir vəzifədir. Allah-taala buyurur:

﴿وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ﴾

***"Və Rəbbin Ondan başqasına ibadət etməməyinizi qəti hökm etdi."[1]***

﴿أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ﴾

***"Ey Adəm övladı, məgər Mən (peyğəmbərlər və öz ağlınız vasitəsilə) sizə buyurmadımmı ki, Şeytana ibadət etməyin! Şübhəsiz, o sizin açıq-aşkar düşməninizdir?! Və yalniz Mənə ibadət edin ki, bu, düz yoldur?!"[2]***

Buna görə də öz bəndəliyimizi, ehtiyaclı olduğumuzu bilmək, Allah-taalanın sonsuz qüdrət və əzəmət sahibi olduğunu dərk etmək, Onun bizi hər cəhətdən əhatə etdiyini başa düşmək və bütün əmrlərinə itaət etmək məhz bizim vəzifəmizdir. Bizim öhdəmizə düşür ki, Allahdan başqasına pərəstiş etməyək, itaətini bizə vacib buyurduğu Peyğəmbər (s) və məsum imamlardan (ə) başqa heç kəsin ardınca getməyək. Allah-taala buyurur:

---

1 "İsra" surəsi, ayə: 23.

2 "Yasin" surəsi, ayə: 60-61.

﴿أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ﴾

***"Allaha itaət edin, Onun peyğəmbərinə və (Peyğəmbərin məsum canişinləri olan) öz əmr sahiblərinizə tabe olun."*** [1]

Allaha və din rəhbərlərinə itaət etməklə yanaşı, Allaha mənsub olan hər bir şeyə ehtiram göstərmək lazımdır. Allah-taalanın və din rəhbərlərinin adı ədəblə yad olunmalıdır. Daim çalışmaq lazımdır ki, Allah Kitabının, Kəbə evinin, məscidlərin, din rəhbərlərinin hərəmlərinin ehtiramı qorunsun. Bu haqda Allah-taala buyurur:

﴿وَمَن يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِن تَقْوَى الْقُلُوبِ﴾

***"Kim Allahın (buyurduğu Həccin və Onun dininin) nişanələrinə ehtiram göstərərsə, şübhəsiz, (bu ehtiram) qəlblərdəki təqvadan hasil olur."*** [2]

## İNSANIN ÖZÜNƏ QARŞI VƏZİFƏSİ

İnsan həyatı boyu getdiyi hər hansı bir yolda səadət və xoşbəxtlikdən başqa heç bir şey axtarmır. Beləliklə də, özünü tanımayınca bu xoşbəxtliyə çatmaq üçün ona mane olan ehtiyacların həlli yolunu tapa bilməyəcəkdir. Buna görə də hər bir insanın vəzifəsi budur ki, ilk növbədə özünü dərk etsin. Bundan sonra isə öz xoşbəxtliyini əldə etməkdən ötrü ixtiyarında olan imkanlardan istifadə edərək ona mane olan çətinlikləri aradan qaldırmalıdır. Peyğəmbər (s) buyurmuşdur:

***"Özünü tanıyan Rəbbini tanımışdır."*** [3]

Həzrət Əli (ə) buyurmuşdur:

---

1 "Nisa" surəsi, ayə: 59.

2 "Həcc" surəsi, ayə: 32.

3 "Biharül-ənvar" c.2, səh.32, hədis: 22.

***“Özünü dərk edən şəxs mərifətin ən üstün mərhələsinə yetişmişdir.”*[1]**

İnsan özünü dərk etdikdən sonra başa düşür ki, insaniyyətin qorunması ən böyük vəzifədir. Beləliklə, o, əbədi xoşbəxt həyata çatmaq üçün həvayi-həvəsdən uzaqlaşaraq batini və zahiri paklığına çalışacaqdır. Həzrət Əli (ə) buyurmuşdur:

***“Öz qədrini bilən kəsin nəzərində nəfsani ləzzətlər puçdur.”*[2]**

İnsan vücudu iki şeydən təşkil olunmuşdur: ruh və cisim. Hər ikisinin inkişaf və sağlamlığı uğrunda çalışmaq insanın ümdə vəzifələrindəndir. Belə ki, müqəddəs İslam dinində ruhun və cismin saflaşması üçün kifayət qədər dəqiq qayda-qanunlar vardır.

---

1 "Üyunul-hikəm vəl-məvaiz", səh.434.
2 "Qürərül-hikəm", hədis: 9130.

## CİSMİN SAFLAŞMASI

### PƏRHİZ

Müqəddəs İslam dini bir sıra qanun-qaydalarla yanaşı orqanizmin sağlamlığı üçün kifayət qədər gigiyenik göstərişlər vermişdir. Məsələn, qan, murdar (ölmüş heyvan əti), bəzi heyvanların ətini və zəhərli qidaları yeməkdən, spirtli, napak suları içməkdən, həddindən artıq yeməkdən, bədənə zərər vurmaqdan və sairədən çəkindirmişdir.

### TƏMİZLİYİN QORUNMASI

Təmizlik ən əhəmiyyətli gigiyenik qaydalardandır. Odur ki, İslamda buna böyük əhəmiyyət verilmişdir. Başqa heç bir dində İslam dini qədər təmizliyə diqqət yönəldilməmişdir. Peyğəmbər (s) təmizlik haqqında belə buyurmuşdur:

***“Təmizlik imandandır”.***[1]

İslam dini ümumi təmizliyə dəvət etməkdən əlavə, xüsusilə fərdi təmizliyə də dəvət edir. Məsələn, dırnaqları tutmaq, başın, bədənin artıq tüklərini təmizləmək, yeməkdən əvvəl və sonra əlləri yumaq, saçlari daramaq, qarqara etmək, buruna su çəkmək, dişləri hər gün bir neçə dəfə fırçalamaq, evləri təmizləmək, yolları, kandarı, ağacların altını təmiz saxlamaq və s.

İslam bu gigiyenik qaydalardan əlavə, daim təmizliklə yerinə yetirilməli olan bir sıra ibadətləri də vacib etmişdir. Məsələn, bədəni və libası pak saxlamaq, namaz qılmaq üçün gündə bir

---

1 "Müstədrəkül-vəsail", c.16, səh.319, hədis: 9.

neçə dəfə dəstəmaz almaq, namaz və oruc üçün təyin olunmuş müxtəlif qüsllər almaq və s.

## QARQARA ETMƏK VƏ DİŞLƏRİ FIRÇALAMAQ

Yemək yeyərkən qida hissəcikləri ağız boşluğunda və dişlərin dibində ilişib qalır. Bu da ağızdan pis qoxunun gəlməsinə səbəb olur. Bəzən də kimyəvi maddələr təsadüfən qidanın tərkibinə qarışaraq onu zəhərləyir və insan qidalanarkən mədəyə daxil olur. Bundan əlavə, belə bir şəxsin nəfəsi otağın havasını ağırlaşdıraraq ətrafdakılara əziyyət verir. Buna görə də müqəddəs İslam şəriəti hər gün, xüsusilə hər dəfə dəstəmaz alarkən dişləri fırçalamağı və ağızı təmiz su ilə qarqara edərək yaxalamağı təkidlə tövsiyə edir.

## İSTİNŞAQ (BURUNA SU ÇƏKMƏK)

Nəfəs almaq insan həyatı üçün zəruri vasitələrdən biridir. Şəhər və qəsəbələrin havası adətən tozlu, zəhərli olur. Belə hava isə tənəffüs orqanlarına çox ziyandır. Ona görə də mehriban Allah burunun daxilində tüklər bitirmişdir ki, nəfəs alarkən toz-torpaq, zəhərli hava ciyərlərə hopmasın. Bəzən isə buruna toz-torpağın çox yığılması nəticəsində tüklər öz vəzifəsini kamil surətdə yerinə yetirə bilmir. Buna görə də müqəddəs İslam şəriəti gündə bir neçə dəfə dəstəmazdan qabaq istinşaq etməyi müsəlmanlara tövsiyə edir.

## RUHUN GİGİYENASI

### ƏXLAQIN PAKLANMASI

İnsan fitri olaraq gözəl əxlaqı dəyərləndirib onun fərdi və ictimai cəhətlərinin əhəmiyyətini dərk edir. Ona görə də elə bir insan tapılmaz ki, ğözəl əxlaqı və əxlaqi ğözəlliklərə sahib olan şəxsi bəyənməsin. Əlbəttə, bunu izah etməyə heç ehtiyac da yoxdur. İslam qayda-qanunlarının başdan-başa əxlaqi gözəlliklərlə dolu olduğu hamıya aydındır. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا قَدْ أَفْلَحَ مَن زَكَّاهَا و قد خاب من دسّها﴾

***"Və and olsun (insanın) nəfs(in)ə və ona doğru-düzgün biçim verənə, (Bədən üzvlərini bir-birinə mütənasib və xüsusiyyətlərini isə həm bədən, həm də xarici mühitlə uyğun yaradana). Sonra da günahlarını və təqvalı olmağını ona ilham etmiş və onu iş görməyə qadir etmişdir. Nəfsini (etiqad və əxlaq kamallarında təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən)) onu təmizləyən kəs şübhəsiz, nicat tapmışdır və onun çirkləndirən (öz tərbiyəsində səhlənkarlıq edən) kəs, şübhəsiz ziyana uğramışdır."*** [1]

### ELM ÖYRƏNMƏK

Bəyənilmiş əxlaqi xüsusiyyətlərdən biri savadlı olmaqdır. Savadlı şəxsin savadsızdan üstünlüyü gün kimi aydındır. İnsanı başqa canlılardan fərqləndirən imtiyaz məhz elm və əql qüvvəsidir. Heyvanların hər biri özünəməxsus sabit fitri

---

1 "Şəms" surəsi, ayə: 7-9.

qüvvələrə malikdirlər. Yaşamaq üçün lazım olan ehtiyaclarını yeknəsəq olaraq bu qüvvələrə uyğun aradan qaldırırlar. Onların həyatında heç vaxt tərəqqiyə ümid yoxdur. Həyatda özlərinə və başqalarına yeni-yeni qapılar açmagı bacarmırlar. Yalnız insan əql qüvvəsinin vasitəsilə hər gün yeni-yeni məlumatlar əldə edir. Hər gün yeni-yeni elmi kəşflər etməklə özünün maddi və mənəvi rifahını yüksəldir. Keçmişə baxıb özü və başqaları üçün gələcəyin bünövrəsini qoyur.

İslam dini elm öyrənməyə təkid etdiyindən, əziz Peyğəmbərimiz (s) belə buyurmuşdur:

“Elm öyrənmək hər bir müsəlmana vacibdir“;[1]

“Elm Çində də olsa, ardınca gedin”;[2]

“Beşikdən qəbrədək elm öyrənin”;[3]

İslam yaradılışın sirlərini öyrənməyi, yerin, göyün və insanın yaradılışında təfəkkür etməyi, keçmiş millətlərin tarixini öyrənməyi təkidlə tövsiyə edir. Həmçinin, əxlaqi və şəri məsələləri öyrənməyə, rifahın yüksəlməsindən ötrü sənayenin inkişafına çox təkid edir. Əziz Peyğəmbərimizin (s) nəzərində elm o qədər əhəmiyyət kəsb edir ki, Bədr döyüşündə əsir düşmüş kafirlərin hər birinin yüksək məbləğdə pul ödəməklə azadlığa buraxılmasını müsəlmanlara göstəriş verir. Yalnız az sayda savadlı əsirlər bu məbləği ödəməkdən azad oldu. Bu şərtlə ki, onların hər biri on nəfər müsəlman gəncə yazıb-oxumağı öyrətməli idi.

---

1 "Kafi", c.1, səh.30, hədis: 1, 2 və 5.

2 "Vəsailüş-şiə",c.27, səh.27, hədis: 20.

3 "Kəşfüz-zünun", c.1, səh.78

## İSLAM NƏZƏRİNDƏN TƏHSİLİN ƏHƏMİYYƏTİ

Hər bir məqsədə yetişmək üçün o yolda çalışmağın əhəmiyyəti həmin məqsədin əhəmiyyəti qədərdir. Fitri olaraq hər bir insan elmin əhəmiyyətini sair insani dəyərlərdən üstün bildiyindən təbii ki, təhsil də ən əhəmiyyətli dəyər hesab olunur. İslam dini də məhz insan fitrəti ilə uyğun gəldiyindən təhsilə böyük dəyər verir. Əziz Peyğəmbərimiz (s) buyurur:

“Elmi təhsil alan şəxs Allahın sevimlisidir.”[1]

Bildiyimiz kimi, cihad əsas dini hökmlərdən biridir. Əgər Peyğəmbər (s) və ya İmam (ə) ümumi hərbi səfərbərlik elan edərsə, bütün müsəlmanlar cəbhəyə getməlidirlər. Lakin buna baxmayaraq dini təhsil alan şəxslər cəbhəyə getməkdən azaddırlar. Çünki elmi mərkəzlər daim tələbə yetişdirməklə məşğul olmalıdır. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنفِرُواْ كَآفَّةً فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِي الدِّينِ وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ﴾

***“Möminlərə hamılıqla (döyüş cəbhəsinə) köç etmələri yaraşmaz. Buna görə də, nə üçün onların hər bir cəmiyyətindən (kiçik) bir dəstə dərin elmi təhsil almaq üçün köç etmirlər ki, öz qövmlərini onlara tərəf döndükdə qorxutsunlar, bəlkə onlar (batində və əməldə) çəkindilər.”***[2]

## MÜƏLLİM VƏ TƏLƏBƏNİN ƏHƏMİYYƏTİ

Bilik və təhsil haqqında bəhsimizdən müəllimin də İslam nəzərindən dəyəri aydın oldu. Həzrət Əli (ə) buyurur:

“Hər kim mənə bir hərf belə öyrətsə, mən onun quluyam.”[3]

---

1 "Müstədrəkül-vəsail", c.17, səh.301, hədis: 51.

2 "Tövbə" surəsi, ayə: 122.

3 "Biharül-ənvar", c.74, səh.165, hədis: 192.

"İnsanlar üç qismə bölünürlər: birincisi ruhani alimlər, ikincisi özü və başqalarının nicatı üçün elm öyrənənlər, üçüncüsü isə elm və ağıldan uzaq düşmüşlərdir. Onlar heyvanların üz-gözünə daraşan, bir küləklə o yan-bu yana və ya pis iy gələn tərəfə uçan milçəklər kimidirlər."

## MÜƏLLİM VƏ TƏLƏBƏNİN VƏZİFƏSİ

Qurani-Kərim elm və biliyi insanın həqiqi həyatı hesab edir. Əgər insanın biliyi olmazsa, onun daşdan və ölüdən heç bir fərqi yoxdur. Buna görə də tələbə müəllimini öz həyatının bünövrəsi bilməlidir. Çünki öz həqiqi həyatını ondan alır. Odur ki, müəllimin onu diriltdiyini düşünüb ona ehtiram göstərməyi də özünə borc bilməlidir. Təlim-tərbiyə öyrənərkən müəllim onunla acıqlı rəftar etsə belə, itaətsizlik göstərməməli, həmişə – hətta öləndən sonra da – onun xatirəsini əziz tutmalıdır. Müəllim də eyni zamanda tələbənin həyatı üçün məsuliyyət daşımalı, onu bir şəxsiyyət kimi yetişdirib cəmiyyətə təhvil verincə, əzmlə çalışmalı və əsla yorulmamalıdır. Əgər tələbə zəif oxuyarsa, müəllim bundan məyus olmamalıdır. Tələbənin inkişafını müşahidə etdikdə isə onu tərifləməli və həvəsləndirməlidir. Əsla tələbənin ruhiyyəsini sındırmaq olmaz.

## VALİDEYN QARŞISINDA İNSANIN VƏZİFƏSİ

Ata-ana insanın yaradılış vasitəsi və mürəbbisidir. Buna görə də müqəddəs İslam dinində valideynə ehtiram və itaət etmək barədə təkidlə tövsiyə olunmuşdur. Belə ki, Allah-taala Qurani-Kərimdə tövhiddən sonra ata-anaya yaxşılıq etməyi vurğulayaraq buyurmuşdur:

﴿وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا﴾

***“Rəbbin Ondan başqasına ibadət etməməyinizi və ata-anaya yaxşılıq etməyinizi buyurmuşdur.”*[1]**

Hədislərdə də ağvalideyn olmaq, onlarla pis rəftar etmək şirkdən sonra ən böyük günahlardan hesab olunmuşdur. Həmçinin, Allah-taala qeyd etdiyimiz ayənin ardınca buyurur:

﴿إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا واخفض لهما جناح الذل من الرحمه﴾

***“Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalıq çağlarına yetişsələr (onların zəhmət, yaxud sərt davranışları müqabilində narahatlığını büruzə vermə, hətta) onlara “uf” demə , üstlərinə qışqırma, kobud söz demə və onlara xoş söz de və mehribanlıqla təvazö qanadlarını onlara aç!”*[2]**

Müqəddəs İslam dinində ata-anaya itaət etmək Allahın əmrindən çıxmaqdan başqa bütün yerlərdə vacib buyurulmuşdur. Təcrübə göstərmişdir ki, ata-anasını incidənlər heç vaxt xoşbəxt həyat sürməmiş və hidayət olmamışlar.

## BÖYÜKLƏRƏ HÖRMƏT

Qocalara da hörmət qoymaq lazımdır. Peyğəmbər(s) bu haqda buyurur:

“Qocalara hörmət Allaha hörmətdir.”[3]

---

1 "İsra" surəsi, ayə: 23.
2 "İsra" surəsi, ayə: 23.
3 "Kafi", c.2, səh.151, hədis: 5.

## İNSANIN QÖHUMLARA QARŞI VƏZİFƏSİ

Ata-ana vasitəsilə qan qohumu olanlar da sanki bir ailəyə bənzəyir. Ona görə də Qurani-Kərimdə və hədislərdə müsəlmanlara "sileyi-rəhm" daim təkidlə tövsiyə edilir:

"Adı ilə bir-birindən bir şey istədiyiniz Allahdan və qohumlar(la əlaqəni kəsməkdən və bağlılıq tellərini qırmaq)dan qorxun. həqiqətən, Allah daim sizə nəzarət edir."[1]

## İNSANIN QONŞULARA QARŞI VƏZİFƏSİ

Qonşular yaşayış və əlaqə baxımından bir-birinə yaxın olduğundan böyük bir ailə kimidirlər. Qonşularla pis və ya xoş rəftar etmək, başqalarından daha çox təsirlidir. Gecəni hay-küylə keçirən kəs öz qonşusunu incidərək onun rahatlığını pozur. Özünün gözəl sarayında eyş-işrət içində yaşayan varlı kasıb qonşularının gözündən uzaq olsa da, hər an onların qəlbinə od vurub yandırır. Mütləq bir gün gələcək ki, o öz əməllərinin cəzasını çəkəcək. Buna görə də müqəddəs İslam dinində qonşularla xoşrəftar təkidlə tövsiyə olunmuşdur. Peyğəmbər (s) buyurur:

"Cəbrail qonşular haqqında mənə o qədər tövsiyə etdi ki, Allah-taalanın onları vərəsələrdən biri kimi qərar verəcəyini sandım."[2]

"Allaha və qiyamət gününə inanan kəs heç vaxt öz qonşularına pislik etməz. Ondan borc istəyəndə verər, qəmində, sevincində onunla şərik olar. Qonşu kafir olsa belə onu incitmək olmaz."[3]

---

1 "Nisa" surəsi, ayə: 1.

2 "Biharül-ənvar", c.73, səh.167, hədis: 6.

3 "Müstədrəkül-vəsail", c.8, səh.424, hədis: 14.

"Qonşunu incidən behişt ətrindən məhrum olar. Qonşusunun haqqını pozan bizdən deyil. Özü tox halda qonşusunun ac olduğunu bilib ona yardım etməyən şəxs müsəlman deyildir."[1]

## İNSANIN YOXSUL VƏ KİMSƏSİZLƏRƏ QARŞI VƏZİFƏSİ

Şübhəsiz, cəmiyyət ayrı-ayrı fərdlərin problemlərinin həllindən ötrü təşkil olunmuşdur. Cəmiyyətin hər bir üzvünün ən ümdə vəzifəsi də məhz yoxsul və kimsəsizlərə yardım etməkdən ibarətdir. Müasir dövrümüzdə bir daha sübut olunmuşdur ki, yoxsul və kimsəsizlərə qarşı biganəlik cəmiyyəti məhvə aparan ən böyük təhlükədir. Bu təhlükənin ilkin qurbanları da məhz varlı və dövlətli şəxslər olur.

İslam dini 14 əsr bundan qabaq bu təhlükəni nəzərə alaraq tövsiyə etmişdir ki, varlılar hər il öz var-dövlətlərindən bir hissəsini yoxsullara paylasınlar. Əgər bu miqdarla ehtiyacları ödənməsə, müstəhəbdir ki, imkan daxilində kasıblara Allah yolunda infaq etsinlər. Allah-taala buyurur:

﴿لَن تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ﴾

***"Sevdiyiniz şeylərdən (Allah yolunda) xərclənməyincə əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz."***[2]

Xeyirxahlıq və xeyriyyəçilik barədə saysız-hesabsız hədislərimiz var. Əziz Peygəmbərimiz (s) buyurmuşdur:

"İnsanların ən yaxşısı başqalarına qarşı ən faydalı olandır." [3]

Qiyamət günü Allah dərgahında o kəsin məqamı yüksək olacaqdır ki, Allah bəndələrinə qarşı xeyirxahlıq etmişdir.

---

1 "Kafi", c.2, səh.668, hədis: 11 və 14.
2 "Ali-İmran" surəsi, ayə: 92.
3 "Müstədrəkül-vəsail", c.12, səh.391, hədis: 14.

## İNSANIN CƏMİYYƏT QARŞISINDAKI VƏZİFƏSİ

Cəmiyyətdə insanlar həmkarlıq edib bir-birinin zəhməti ilə həyatda olan çətinliklərini həll edirlər. Ayrı-ayrı fərdlərdən təşkil olunmuş cəmiyyət sanki böyük bir insan vücuduna bənzəyir. Bu fərdlərin də hər biri bu vücudun üzvləridir. İnsan vücudunun hər bir üzvü özünəməxsus işi yerinə yetirir. Özünün gördüyü işin faydasından əlavə, o biri üzvlərin də mənfəətindən faydalanır. Yəni, özünün fəaliyyət dairəsində o biri üzvlərin mənafeyi hesabına öz mənafeyini qoruyur və beləliklə, başqalarının sayəsində öz həyatın davam edir. Əgər hər bir bədən üzvü xudpəsəndlik edib başqalarının dərdinə qalmasaydı, məsələn, əl və ya ayaq hər hansı bir işlə məşğul olarkən göz öz baxışı ilə onlarla həmkarlıq etməsəydi və yaxud ağız qıdanı təkcə çeynəmək və dadından ləzzət almaqla kifayətlənərək mədənin ehtiyacını ödəməkdən ötrü qidanı mədəyə ötürməsəydi, insan dərhal öz həyatı ilə vidalaşardı. Nəticədə isə həmin xudpəsənd üzvün özü də məhv olardı.

Fərdin də cəmiyyətdəki vəzifəsi eynilə üzvlərin hər birinin bədəndə oynadığı rolu kimidir. Yəni, hər bir insan öz mənafeyini cəmiyyətin mənafeyi ilə uyğun güdməlidir. Öz zəhmətilə cəmiyyətə fayda verməlidir ki, özü də fayda götürsün. Hamıya xeyir verməlidir ki, özünə də xeyir gəlib çatsın. Başqalarının hüququnu qorusun ki, onun da hüququ pozulmasın. Bu bir həqiqətdir ki, biz fitri olaraq başa düşürük. Fitrət və yaradılış üzərində qurulmuş müqəddəs İslam dini də bundan başqa bir söz söyləmir. Əziz Peygəmbərimiz (s) buyurur:

“Bütün müsəlmanlar bir-birinə qardaşdırlar. Onlar yadlara qarşı əlbir və yekdildirlər.”[1]

---

1 "Biharül-ənvar", c.58, səh.150, hədis: 29.

“Müsəlman o kəsdir ki, müsəlmanlar onun əlindən və dilindən amandadırlar.” [1]

“Müsəlmanlara laqeyd olan kəs müsəlman deyildir.”[2]

Ona görə də Peyğəmbər (s) Təbuk döyüşündən qayıdarkən döyüşə üzrsüz olaraq getməmiş üç nəfər müsəlmanın salamına cavab verməyıb onlardan üz döndərdi. Bunu belə görən digər müsəlmanlar da o üç nəfərdən üz çevirdilər. İş o yerə gəlib catdı ki, hətta o üç nəfərin xanımları belə onlarla danışmadı. Beləliklə, Mədinədə onlarla kəlmə kəsən bir nəfər belə adam qalmadı. Çarəsiz qalıb Mədinənin dağlarına getdilər. Neçə gün tövbə və yalvarışdan sonra Allah-taala onların tövbəsini qəbul etdi və onlar şəhərə qayıtdılar.[3]

## ƏDALƏT

Quran və hədislərdə ədalət iki növə bölünür: Fərdi və ictimai. Hər ikisinə İslamda çox böyük əhəmiyyət verilmişdir.

### FƏRDİ ƏDALƏT

Yalan, qeybət və başqa böyük günahlardan çəkinib kiçik günahlarda israr etməməyə "fərdi ədalət" deyilir. Bu sifətə malik olan kəs adil adlanır. Belə şəxs İslam qayda-qanunlarına görə qazi, dövlət rəhbəri, mərcəyi-təqlid və sairə ictimai sahələrdə rəhbər vəzifədə işləyə bilər. Belə bir keyfiyyətə malik olmayanlar isə bu imtiyazdan məhrumdurlar.

### İCTİMAİ ƏDALƏT

Başqalarının hüququnda ifrat və təfritə varmamaq, hamını ilahi qanunlar qarşısında bərabər görmək, dini qayda-qanunların

1 "Kafi", c.2, səh.235, hədis: 19.
2 "Kafi", c.2, səh.163, hədis: 1.
3 "Təfsiri-Məcməül-bəyan", c.5, səh.79

icrasında həddi aşmamaq, emosiya və hisslərə qapanmamaq və haqq yoldan azmamağa "ictimai ədalət" deyilir. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿إِنَّ اللّهَ يَأْمُرُ بِالْعَدْلِ﴾

***“Şübhəsiz, Allah ( fərdi, ailəvi və ictimai) ədaləti əmr edir.”***[1]

Danışıq və rəftarda ədalətli olmaq haqqında bu kimi çoxlu sayda ayə və hədislər vardır. Allah-taala Qurani-Kərimdə neçə yerdə zalımları lənətləmişdir. (Əraf-44, Hud-18)

Əxlaq elmində isə ədalət nəfsani qüvvələrin normallaşdırılmasına deyilir. Bu sifətə malik olan həm fərdi və həm də ictimai ədalətə riayət edir.

## DOĞRU DANIŞMAQ

Cəmiyyətin əsaslarından sayılan fərdi əlaqələr nitq vasitəsilə yaranır. Həqiqəti insana aşılayan doğru söz cəmiyyət üçün zəruri bünövrələrdən biridir. Ona lazım olan faydalar daim doğru söz vasitəsilə təmin olunur. Doğru sözün faydalarını bir neçə cümlə ilə belə qeyd etmək olar:

1) Doğru danışana şəxs daim etimad göstərilir və onun sözlərini araşdırmağa heç bir ehtiyac yoxdur.

2) Doğru danışan vicdanı qarşısında təmiz, yalanın mənəvi əziyyətindən amandadır.

3) Doğru danışan öz əhd-peymanına vəfalıdır. Heç vaxt əmanətə xəyanət etməz. Çünki düzgün davranış doğru danışmaqdan ayrı deyildir.

---

1 "Nəhl" surəsi, ayə: 90.

4) İxtilafların çoxu doğru danışmaqla həll olur. Çünki mübahisələrin əksəriyyəti bir və ya hər iki tərəfin həqiqəti inkar etməsi nəticəsində yaranır.

5) Qanun pozuntusu və əxlaqi eyiblərin böyük bir hissəsi dogru danışmaqla öz-özünə həll olur. Çünki əksər hallarda insanlar öz nalayiq hərəkətlərini məhz yalan danışmaqla ört-basdır edirlər. Həzrət Əli (ə) buyurur:

"Əsil müsəlman odur ki, ona zərər olsa belə düz danışmağı xeyir verən yalandan üstün tutsun. Bu vasitəylə onun qəlbi rahatlıq tapar."[1]

## YALANIN ZİYANLARI

Düz danışmaq haqqındakı bəyanımızdan yalanın zərərləri aydın oldu. Yalançı cəmiyyətin ən böyük düşmənidir. O, böyük cinayət sayılan yalanıyla cəmiyyəti pozmağa çalışır. Çünki yalan narkotik maddə kimi cəmiyyətin şüurunu məhv edib həqiqətləri gizlədir. Yaxud spirtli içki kimi insanları məst edib yaxşını pisdən ayıran əql qüvvəsini onlardan alır. Buna görə də İslam yalanı böyük günahlardan hesab edib, yalançının dindarlığını inkar edir. Peyğəmbər (s) buyurur:

"Üç dəstə namaz qılıb oruc tutsalar belə münafiqdirlər: yalançı, əhdinə vəfa etməyən və əmanətə xəyanət edən."[2]

Həzrət Əli (ə) buyurur:

"Zarafatla olsa belə, yalan danışdıqca, bir insan imanın ləzzətini dada bilməz.".[3]

---

1 "Nəhcül-bəlağə", 458-ci kəlam.

2 "Biharül-ənvar", c.69, səh.206, hədis: 6.

3 "Kafi", c.2, səh.240, hədis: 11.

## XOŞ DAVRANIŞ

İnsan ictimai məxluq olduğundan cəmiyyətdə daim ünsiyyətdədir. Şübhəsiz, bu ünsiyyət insanın cəmiyyətdəki ictimai durumunu qoruyur. Günbəgün maddi və mənəvi inkişafını artırıb problemlərinin həllini asanlaşdırır. Ona görə də hamı ilə xoş davranmaq lazımdır ki, hər gün ictimai vəziyyət yaxşılaşıb get-gedə dostların sayı artsın. Çünki hər hansı bir kəsin kobud rəftarı camaatın ondan inciyərək getdikcə uzaqlaşmasına gətirib çıxarır. Belə bir şəxs hamının nifrətini qazanmış olur. Bu şəxs cəmiyyət arasında tənha qalmağa və öz vətənində qərib olmağa layiqdir. Bu isə insanın ən xoşagəlməz, acı bədbəxtliyidir. İslam dini məhz buna görə də xoşrəftar olmağı müsəlmanlara tövsiyə etmiş, davranışın ən gözəl ədəb-ərkanını təfsilatı ilə bəyan etmişdir. O cümlədən, göstəriş vermişdir ki, müsəlmanlar görüşərkən bir-birinə salam versinlər. Bunların da arasında ən fəzilətlisi ilk salam verəndir. Peyğəmbər (s) hamıdan əvvəl salam verərdi. Hətta uşaq və qadınlara da ilk olaraq özü salam verərdi. O həzrətə salam verən şəxsin cavabını ondan yaxşı qaytarardı. Allah-taala buyurur:

﴿وَإِذَا حُيِّيْتُم بِتَحِيَّةٍ فَحَيُّواْ بِأَحْسَنَ مِنْهَا او ردوها﴾

***“Sizə salam verdikdə siz ondan daha gözəl və yaxud onun kimi bir salam(la) cavab verin.”*** [1]

İslam dini həmçinin göstəriş verir ki, camaata qarşı təvazökar olmalı və hər bir kəsin ehtiramı qorunmalıdır. Allah-taala buyurur:

﴿وَعِبَادُ الرَّحْمَنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا﴾

***“Rəhman (olan Allahın həqiqi) bəndələri yer üzündə sakit və təvazökarlıqla yol gedən və nadanlar (xoşagəlməz sözlərlə)***

---

1 "Nisa" surəsi, ayə: 86.

***onlara xitab edən zaman "salam"(xoş və yumşaq söz) deyən kəslərdir."***[1]

Bunu da qeyd etmək lazımdır ki, təvazökarlıq insanın özünü başqaları qarşısında xar edib öz şəxsiyyətinə xələl gətirməsi deyildir. Təvazökarlıq sadəcə olaraq öz imtiyazlarını, fəzilətlərini camaata bildirməmək, malik olmadığı keyfiyyətləri özünə nisbət verməmək və başqalarına alçaq nəzərlə, həqarətlə baxmamaqdır. Həmçinin, başqalarına ehtiram göstərmək dedikdə elə deyildir ki, camaat qarşısında quyruq bulayıb yaltaqlıq edəsən. Əslində, hər bir kəsi dini və ictimai dərəcəsinə görə dəyərləndirib böyüklərə böyüklüyünə görə, başqalarına onların insaniyyətlərinə görə ehtiram göstərmək lazımdır. Yenə də camaata ehtiram göstərmək bu mənada deyildir ki, birində nalayiq bir əməl müşahidə edərkən susub danışmayasan və yaxud bir məclisdə bütün məclis əhli insaniyyətə yaraşmaz hər hansı bir iş görür və ya haram bir əməl yerinə yetirirsə, sən də rüsvayçılığın qorxusundan onlara qoşulub camaatla həmfikir olasan. Əslində camaata ehtiram onların boy-buxununa görə deyil, dini imtiyazlarına və insaniyyətlərinə görədir. Öz insanlığını və dini imtiyazını itirmiş şəxsə heç bir ehtiram, hörmət yoxdur. Peyğəmbər (s) buyurmuşdur:

"Başqalarına ehtiram əlaməti olaraq itaət etməklə Allaha asi olmaq olmaz."[2]

## YAXŞI ADAMLARLA YOLDAŞLIQ

Cəmiyyətdə hamı ilə ünsiyyətdə olan insan həyatın qanununa görə "dost" adlanan bəziləri ilə daha çox yaxın olur. İki və daha çox adamların bu dostluğuna da səbəb məhz əxlaqda, həyat tərzində, sənətdə və s. sahələrdə olan uyğunluqlardır. Dostluq

---

1 "Furqan" surəsi, ayə: 63.

2 "Vəsailüş-şiə", c.16, səh.154, hədis: 7.

və yoldaşlıq nəticəsində ikisindən birinin əxlaq və xasiyyəti yavaş-yavaş digərinə keçdiyinə görə də yaxşılarla dost olmaq lazımdır. Çünki onların yaxşı əxlaqı ona da sirayət edərək qərəzsiz və səmimi dostluqlarından faydalanacaqdır. Bundan əlavə, camaat arasında da hörməti və ehtiramı artacaqdır. Əmirəlmöminin (ə) buyurmuşdur:

“Yaxşı dost səni xeyir əməllərə dəvət edəndir.”

“Kişi dostu ilə ölçülür (tanınır).”

## PİS ADAMLARLA DOSTLUQ

Əxlaqsız və pis adamlarla oturub-durmaq hər cür bədbəxtliyin səbəbidir. Əgər biz hər hansı oğru və quldur kimi bir cinayətkardan bu yola düşməsinin səbəbini soruşsaq, şübhəsiz deyəcəkdir: “Pis və əxlaqsız adamlarla yoldaşlıq bizi bu kökə qoymuşdur.” Hər min nəfər cinayətkarın arasından bir nəfər belə tapılmaz ki, özbaşına bu yola düşsün. Həzrət Əli (ə) buyurur:

“Pis adamlarla dostluq etmə. Çünki pis dost səni özü kimi edər. Səni özü kimi etməyincə səninlə uyğunlaşmaz.”

“Pozğun adamla dostluq etmə, yoxsa səni ucuz satar.”[1]

---

1 "Nəhcül-bəlağə", 38-ci kəlam.

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

## İKİNCİ CİLD

# MÜQƏDDİMƏ

## İSLAM DİNİ VƏ SƏMAVİ KİTAB

İslam dini ümumbəşəri və əbədi bir dindir. Onun tövsiyə etdiyi qayda-qanunlara əməl olunarsa, insanın dünya və axirət səadətini təmin edər. Əgər Allah tərəfindən göndərilmiş bu qayda-qanunları hər hansı bir şəxs və ya cəmiyyət yerinə yetirərsə, ən gözəl həyata və kamala çatar. İslam dini öz xoş təsirini hamıya – hər bir şəxsə və hər bir cəmiyyətə eyni səviyyədə bağışlayır. Böyük, kiçik, savadlı, savadsız, qadın, kişi, ağdərili, qaradərili, şərqli, qərbli – hamı fərq qoyulmadan bu müqəddəs, pak dinin faydalarından ən gözəl surətdə istifadə edib öz problemlərini həll edə bilər. Çünki İslam öz qayda-qanunlarını insanın fitrəti üzərində qurmuş və onun ehtiyaclarını nəzərə alaraq həllinə çalışmışdır. İnsan fitrəti kimliyindən, milliyyətindən, irqindən, zamanından və məkanından asılı olmayaraq hamıda eynidir. Çünki insan cəmiyyəti şərqdən qərbədək bir ailədəndir. Yəni, hamı insandır. Böyük, kiçik, qadın, kişi, savadlı, savadsız, ağdərili, qaradərili - hamı bu ailənin üzvüdür. Hamı xilqətdə eynidir, millətlərin, fərdlərin müxtəlifliyinə baxmayaraq ehtiyaclar oxşardır. Gələcək nəsillər də bu ailənin övladları və onun ehtiyaclarının, problemlərinin varisləridir. Nəticə etibarilə İslam insanın fitri və real problemlərini həll etməyə çalışır və hamı üçün kifayət edərək həmişəlik diri qalacaqdır.

Buna görə də Allah-taala İslamı "fitri din" adlandırıb insanları öz fitrətini diri saxlamağa dəvət etmişdir. Din böyüklərimiz belə buyurmuşlar:

"İslam insan üçün işlərini asanlaşdıran dindir." [1]

Allah-taala İslam dinini fitri əsaslar üzərində qurduğundan, bu müqəddəs din hamı tərəfindən başadüşülən və dərkolunandır. Onun maarif və prinsiplərini səmavi kitabda Öz əziz Peyğəmbəri olan həzrət Mühəmmədə (s) nazil və bəyan etmişdir. Bu səmavi kitab Qurani-Kərimdir.

## QURANİ-KƏRİMİN ƏHƏMİYYƏTİ

Qurani-Kərim İslamın əbədi olan səmavi kitabıdır. Bütün İslam maarifi çox gözəl şəkildə onda bəyan edilmişdir. Bu baxımdan onun dəyəri dinin dəyəri ilə eynidir. (Belə ki, bəşərin həqiqi səadət yolunu göstərən din hər bir şeydən dəyərli, əhəmiyyətli və üstündür. Heç bir şey onunla müqayisə oluna bilməz.) Bundan əlavə, Qurani-Kərim Allah kəlamı və əziz Peyğəmbərimizin (s) əbədi möcüzəsidir.

## QURAN MÖCÜZƏDİR

Ərəb dili insanın öz fikrini açıq-aydın, dəqiq surətdə ifadə etməsindən ötrü geniş imkanlara malik olan ən kamil dildir. Tarixi faktlara əsasən, mədəniyyətdən uzaq olan cahiliyyət dövründəki (İslamdan öncəki) bədəvi ərəblər şeir və ədəbiyyat sahəsində çox inkişaf etmişdilər. Belə ki, tarixi araşdırdıqda bu sahədə onlara rəqib bir millət tapmaq mümkün deyildir.

Ərəb ədəbiyyatında dolğun söz yüksək əhəmiyyətə malik idi. Gözəl və şairanə kəlamlara dərin ehtiram göstərilirdi. Pərəstiş etdikləri bütləri Kəbə evində saxladıqları kimi, ən məşhur şairlərin şeirlərini də Kəbənin divarından asardılar. Əziz Peyğəmbərimizə (s) Qurani-Kərim nazil olarkən, bu qədər geniş imkanlara malik olan dilin qayda-qanunlarında az da olsa səhvə yol verməyən ərəb söz ustaları arasında çaxnaşma

---

1 "Kafi", c.5, səh.494, hədis: 1; "Vəsailüş-şiə", c.8, səh.116, hədis: 1.

düşdü. Quranın məna dolu cəzbedici bəyanı qəlblərə o qədər hakim oldu ki, hər bir deyilmiş dolğun və məharətli söz unuduldu. Bu qüdrətli bəyanın müqabilində tab gətirməyib söz ustalarının (Kəbənin divarlarından asılmış) “Müəlləqat” adlı şeir lövhələri aşağı düşürüldü. İlahi kəlamlar öz gözəlliyi və cəzbediciliyi ilə hər bir qəlbə hakim olub söz ustalarının dilinə sükut möhrü vurdu. Lakin bir tərəfdən də bu, müşrik və bütpərəst tayfalar üçün çox acı və xoşagəlməz bir hal idi. Çünki Quran öz kəsərli bəyanı ilə tövhidi sübuta yetirib bütpərəstliyi batil edir, müşriklərin Allah adlandırdıqları, sitayiş etdikləri, yalvarıb imdad dilədikləri və qarşılarında qurban kəsdikləri bütləri puç bilib onların daşdan və ağacdan düzəldilmiş faydasız, cansız Mücəssəmədən başqa bir şey olmadığını söyləyirdi. Başdan-ayağa təkəbbürlü olan, qan tökən, quldurluqla dolanan vəhşi ərəbləri ədalətə, insaniyyətə dəvət edirdi. Məhz buna görə vəhşi ərəblər mübarizəyə qalxaraq bu hidayət məşəlini söndürməyə çalışdılar. Lakin nə qədər çalışdılarsa, məyusluqdan başqa bir şey əldə etmədilər.

Besətin əvvəllərində əziz Peyğəmbərimizi (s) Vəlid adlı məşhur fəsahət və bəlağət sahiblərindən birinin yanına apardılar. O həzrət “Fussilət” surəsinin əvvəlindən başlayaraq bir neçə ayə oxudu. Vəlid təkəbbürlə qulaq asırdı. Peyğəmbər (s) “Fussilət” surəsinin 13-cü ayəsini:

﴿فَإِنْ أَعْرَضُوا فَقُلْ أَنذَرْتُكُمْ صَاعِقَةً مِّثْلَ صَاعِقَة عاد و ثمود﴾

***“Beləliklə, əgər üz döndərsələr, de: ”Sizi Ad və Səmudun ildırımı kimi bir ildırımla (göydən gələn qorxunc nərə, od və külək kimi ölümə səbəb olan bəla ilə) qorxutdum!”*** – oxuduqda, Vəlidin halı dəyişdi, bədəni tir-tir əsərək özündən getdi. Bunu görən məclisdəkilər bir-birinə dəyib dağılışdılar. Bu hadisədən sonra bir neçə nəfər Vəlidin yanına gələrək narazılıq etdilər ki, bizi Məhəmmədin (s) yanında alçaltdın. Vəlid dedi: “And olsun Allaha, bu belə deyil. Siz yaxşı bilirsiniz ki, mən heç kimdən

qorxmuram və heç bir şeydə də tamahım yoxdur. Söz ustası olmağıma da yaxşı bələdsiniz. Amma Mühəmməddən eşitdiyim kəlamlar insan kəlamına oxşamır. Könül oxşayan və cəzbedici sözlərdir. Nə şeir kimi şeirdir, nə də nəsr kimi nəsr. Dolğun və əsaslıdır. Bu barədə öz fikrimi dəqiq bildirmək üçün mənə üç gün möhlət verin.” Üç gündən sonra onun yanına gələndə Vəlid dedi: “Mühəmmədin sözləri qəlbləri özünə cəlb edir sehr və cadudur.”

Müşriklər Vəlidin sözlərinə əsaslanıb Quranı "sehr" və "cadu" adlandırdılar. Özləri Quran ayələrinə qulaq asmır və başqalarına da mane olurdular. Peyğəmbər (s) bəzi vaxtlar Məscidül-həramda Quran tilavət edərkən hay-küy salır, əl çalırdılar ki, heç kim o həzrətin səsini eşitməsin. Amma bütün bunlarla yanaşı, Quranın cazibədarlığı onları özünə cəlb etmişdi. Çox vaxt dözməyib gecənin qaranlığından istifadə edir, o həzrətin evinin yanında gizlicə Quran tilavətinə qulaq asırdılar. Bir-birinə baxıb pıçıltı ilə deyirdilər: ***“Buna məxluq sözü demək olmaz.”*** Allah-taala bu məsələyə işarə edərək buyurur:

﴿نَحْنُ أَعْلَمُ بِمَا يَسْتَمِعُونَ بِهِ إِذْ يَسْتَمِعُونَ إِلَيْكَ وَإِذْ هُمْ نَجْوَى إِذْ يَقُولُ الظَّالِمُونَ إِن تَتَّبِعُونَ إِلاَّ رَجُلاً مَّسْحُورًا﴾

***“Biz onlar (istehza və məsxərə üçün) sənə qulaq asan zaman səni nə məqsədlə dinlədiklərini, həmçinin, bu zalımların (bir-birinə) “siz yalnız ovsunlanmış bir kişiyə tabe olursunuz” deyən zaman onların bir-birləri ilə pıçıldaşmalarını daha yaxşı bilirik.”***[1]

Peyğəmbər (s) bəzi vaxtlar Kəbə evinin yanında Quran oxuyub xalqı İslama dəvət edərkən, ərəb natiqləri o həzrətin

---

1 "İsra" surəsi, ayə: 47.

qarşısından keçəndə əyilirdilər ki, görünüb tanınmasınlar. Allah-taala bu haqda buyurur:

﴿أَلا إِنَّهُمْ يَثْنُونَ صُدُورَهُمْ لِيَسْتَخْفُواْ مِنْهُ﴾

***“Bilin ki, onlar (müşriklər Quranı eşidən zaman) Peyğəmbərdən gizlənmək üçün əyilirlər.”*[1]**

PEYĞƏMBƏRƏ (S) QARŞI İRƏLİ SÜRÜLƏN İTTİHAM

Kafir və müşriklər təkcə Quranı "sehr" adlandırmırdılar. Onlar ümumiyyətlə, Peyğəmbərin (s) İslama dəvətinə "sehr" deyirdilər. Peyğəmbər (s) hər vaxt xalqı Allah yoluna dəvət edəndə və haqqı onlara çatdırıb öyüd-nəsihət verəndə, deyirdilər ki, bu sizi ovsunlayır. Halbuki bütün hallarda onlara açıqladığı məsələləri öz şüurları ilə çox aydın dərk edirdilər. Onlara göstərdiyi haqq yolun bəşər övladını səadətə və xoşbəxtliyə apardığını açıq-aydın müşahidə edirdilər. Onların heç bir bəhanəsi yox idi və belə məsələləri sehr adlandırmaq olmazdı. “Öz əlinizlə daşdan və ağacdan yonub düzəltdiyiniz bütlərə sitayiş etməyin, övladlarınızı onlara qurban verməyin və xurafata uymayın” – demək sehrdirmi?! Doğru danışmaq, düzgünlük, xeyirxahlıq, insanpərvərlik, sülh, əmin-amanlıq, ədalət, insan haqlarının qorunması kimi əxlaqi keyfiyyətlər cadudurmu?! Allah-taala Qurani-Kərimdə bu məsələyə toxunaraq buyurur:

﴿وَلَئِن قُلْتَ إِنَّكُم مَّبْعُوثُونَ مِن بَعْدِ الْمَوْتِ لَيَقُولَنَّ الَّذِينَ كَفَرُواْ إِنْ هَـذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ﴾

***“Və əgər “siz öldükdən sonra mütləq diriləcəksiniz” desən, kafirlər “bu (cür sözlər) açıq-aşkar cadudan başqa bir şey deyil” – deyəcəklər.”*[2]**

1 "Hud" surəsi, ayə: 5.
2 "Hud" surəsi, ayə: 7.

## QURAN MÜŞRİKLƏRİ MÜBARİZƏYƏ DƏVƏT EDİR

Qəlblərində bütpərəstlik kök salmış bütpərəst və kafirlər İslamı qəbul etməyə, haqqın qarşısında baş əyməyə heç vaxt hazır deyildilər. Buna görə də Peyğəmbəri (s) təkzib edərək deyirdilər: "O yalançıdır, Allaha nisbət verdiyi Quran da öz sözləridir." Bu ittihamı rədd etməkdən ötrü Qurani-Kərim fəsahət və bəlağət meydanının qəhrəman və öndərlərini mübarizəyə dəvət edir. Əgər peyğəmbəri (s) təkzib etməkdə haqlıdırlarsa, Quran kimi bir kitab gətirib İslamın əsassız olduğunu sübut etsinlər. Bu barədə Allah-taala buyurur:

﴿أَمْ يَقُولُونَ تَقَوَّلَهُ بَل لَّا يُؤْمِنُونَ فَلْيَأْتُوا بِحَدِيثٍ مِّثْلِهِ إِن كَانُوا صَادِقِينَ﴾

***"Yoxsa "bunu (Quranı) özündən uydurub" deyirlər?(Xeyr!) Əksinə, onlar (həqiqəti bilə-bilə) iman gətirmirlər. Buna görə də əgər (Quranın insanın uydurması olması barəsində dediklərində) doğruçudurlarsa, onun kimi (Quran kimi) bir kəlam gətirsinlər."[1]***

﴿أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ﴾

***"Yoxsa "bunu (Quranı Mühəmməd) yalandan düzəltmişdir" deyirlər? De:"Belə isə, əgər doğruçusunuzsa, (kəlmənin fəsihliyi, mənanın dərinliyi, müxtəlif elmləri əhatə etmək və qeyb aləmindən xəbər verməkdə) ona bənzər bir surə gətirin və (bu işdə) Allahdan başqa kimi bacarırsınızsa köməyə çağırın."[2]***

Söz ustası, fəsahət və bəlağət mülkünün soltanı olan müşrik və kafirlər natiqlikdəki təkəbbürlərinə baxmayaraq bu təklifdən boyun qaçırdılar. Naçar qalıb söz mübarizəsini qanlı mübarizəyə çevirdilər. Yəni onlar üçün ölmək söz meydanında

---

1 "Tur" surəsi, ayə: 33-34.
2 "Yunus" surəsi, ayə: 38.

məğlub olmaqdan daha yaxşı idi. Beləliklə, ərəb söz ustadları Quranın fəsahət və bəlağəti qarşısında aciz qaldılar. Təkcə Quranın nazil olan dövründə yaşayanlar deyil, hətta ondan sonrakı dövrlərdə də heç kəs Quran fəsahəti və bəlağəti qarşısında söz deyə bilmədi. Təşəbbüs göstərənlər də var idisə, zəifliklərini görüb geri oturdular. Çünki bəşər övladı fitri olaraq xalqın nəzərini özünə cəlb edən və cəmiyyətə yenilik gətirən hər hansı bir hünər sahibi ilə müsabiqəyə atılmaq, ya onun kimi və yaxud da ondan yaxşısını yaratmaq fikrinə düşür. Buna görə də həmişə bir qrup insanlar pusquda dayanaraq Quranla yarışmaq əzmində olmuşlar. Əgər onlar bu səmavi kitabla yarış üçün bir yol tapsaydılar, qətiyyən bu yolu getməkdən yorulmazdılar.

Müşrik və kafirlər də Qurana qarşı bu mübarizədə aciz qalıb ona "sehr" və "cadu" damğası vura bilmədilər. Çünki sehr öz xüsusiyyətinə görə batili haqq, haqqı isə batil kimi cilvələndirir. Yalanı doğru, doğrunu yalan kimi göstərir. Əgər Quran öz şirin kəlamları ilə ürəklərə yol tapırsa, bu onun təbii, gözəl xüsusiyyətlərindəndir. Bunun sehr aləminə heç bir dəxli yoxdur. Əgər Quran kəlam vasitəsilə haqqa dəvət edirsə, xalqı insan fitrəti ilə uyğun gələn məsələlərlə maarifləndirirsə və sağlam insan şüurunun qəbul etməkdən başqa bir çıxış yolu olmayan haqqpərəst, xeyirxahlıq, ədalət və insanpərvərlik kimi bir sıra fəzilətli keyfiyyətlərə çağırırsa, bu, həqiqəti bəyan etməkdən başqa bir şey deyildir.

Müşrik və kafirlər aciz qaldılar və "Quran bəşər kəlamının ən üstünüdür, buna görə də gözəllikdə və bəlağətdə rəqibi yoxdur, amma bu, Quranın Allah kəlamı olmasına dəlil deyildir" - sözünü belə deməyi bacarmadılar. Başqa bir formada desək, şücaət, cəsarət, yazmaq, oxumaq və s. kimi tərəqqiyə malik olan hər bir sənət və xüsusiyyətin bəşər tarixində hamıdan öndə gedən bir istedadlısı olur.

Peyğəmbərin (s) də ərəb dilçiliyində özünəməxsus bəlağət və fəsahətinə görə birinci dərəcəli olmasının heç bir problemi yoxdur. Bu halda onun sözləri ilə – bəşər kəlamı olduğuna baxmayaraq – qarşı-qarşıya gələn bir söz tapılmayacaqdır.

Əziz Peyğəmbərimizin (s) müasiri olan söz ustadları bu fikri söyləyə, hətta "Quran" gətirməkdə iddialı olanlar da bu sözü deyə bilmədilər. Çünki hər hansı bir sənət və ya xüsusiyyət istedadlı şəxsin vasitəsilə yüksək inkişaf həddinə çatsa belə, yenə də insan istedadından bəhrələnmiş bir işdir. Buna görə də hər hansı bir istedadlı şəxsin vasitəsilə açılmış yolu başqalarının da getməsi mümkündür. Əzmlə çalışmaq nəticəsində istedadlı şəxsin gördüyü həmin iş kimi və yaxud ondan da yaxşısını görməyə müyəssər olmaq olar. Bu halda, həmin istedadlı şəxs yaddaşlarda təkcə işin yaradıcısı kimi, ilk olaraq bu yolu açmış şəxs kimi qalır. Məsələn, səxavətdə Hatəm Taidən öndə dayanmaq mümkün deyil. Amma onun gördüyü işlər kimi hər hansı bir işi görmək olar. Xəttatlıqda Mirdən, rəssamlıqda isə Manidən qabağa keçmək mümkün deyil. Amma çalışmaq, zəhmət nəticəsində Mir kimi gözəl xətlə yazmaq və ya Mani kimi rəsm əsəri yaratmaq olar. Buna görə də əgər Qurani-Kərim ən bəlağətli bəşər kəlamı olsaydı, başqaları da, – xüsusilə dünya söz ustaları – məşq etməklə həmin üslubda bir kitab və ya azından Quran surələrinə oxşar bir surə yaradardılar. Halbuki Qurani-Kərim mübahisə meydanında özü kimi bir kəlamın gətirilməsini tələb edir, nəinki özündən yaxşısını:

﴿فَلْيَأْتُوا بِحَدِيثٍ مِّثْلِهِ﴾

***"Onun kimi (Quran kimi) bir kəlam gətirsinlər."***[1]

---

1 "Tur" surəsi, ayə: 34.

﴿فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ مفتريات﴾

***“Ona bənzər bir surə gətirin.”***[1]

﴿فَأْتُواْ بِعَشْرِ سُوَرٍ مِّثْلِهِ﴾

***“Siz də onun kimi on uydurma surə gətirin.”***[2]

﴿لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا﴾

***“Hətta bir-birinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər.”*** [3]

## BƏHSİN SONU

Sonda diqqət yetirmək lazımdır ki, Quran insanları təkcə öz üslubu ilə aciz etməmişdir. Əslində, bəşər övladının bütün real çətinliklərinə verdiyi cavablarla, qeyb aləmindən gətirdiyi xəbərlərlə, həqiqətləri bəyan etməklə və sair cəhətlərlə hamıya meydan oxuyur. Bütün bəşəriyyətə xitab edərək bildirir ki, onun kimisini heç kim gətirə bilməz !

1 "Yunus" surəsi, ayə: 38.
2 "Hud" surəsi, ayə: 13.
3 "İsra" surəsi, ayə: 88.

# BİRİNCİ HİSSƏ:
# ƏQİDƏLƏR

## QURAN BAXIMINDAN ALLAHI TANIMAĞIN YOLU

Südəmər körpə süd əmmək üçün ana döşünü axtarır. Doğrudan da o süd istəyir. Əli ilə götürdüyü hər hansı bir əşyanı yemək üçün ağzına tərəf aparır. Onun əsas məqsədi yeməkdir. Səhv etdiyini, götürdüyü əşyanın yeməli olmadığını gördükdə onu kənara atır. Bununla da insan istədiyi məqsədə çatmaq üçün həqiqəti araşdırır. Getdiyi yolda səhv etdiyini düşündükdə narahat olur. Çəkdiyi əziyyətlərə görə təəssüflənir. Nəhayət, insan səhvən, xətadan çəkinir. Həqiqətə yetişmək üçün bacardıqca çalışır. Buradan aydın olur ki, insan fitrətən haqq axtarışındadır və bu fitri duyğunu heç kimdən öyrənməmişdir. Bəzən insan haqdan boyun qaçırırsa da, bu onun səhvə düşməsi üzündəndir. Haqq və savab onun üçün aydın deyildir. Əgər aydın olsaydı, səhvə getməzdi. Bəzən də insan nəfsin istəkləri nəticəsində mənəvi xəstəliyə düşərək haqqın şirinliyini acı hiss edir. Bu vaxt haqqı tanısa da qəbul edə bilmir. Haqqı tanıdığını və ona itaətin lazım olduğunu etiraf etsə də bundan boyun qaçırır. Çox vaxt insan pis əməllərə adət etdiyindən onu təhlükə və zərərdən uzaqlaşdıran insani instinktini (vicdanını) alt-üst edir. Hər hansı bir pis əməlin ona ziyan olduğunu bilsə də, yenə yerinə yetirir. Buna siqaretə, spirtli içkilərə və narkomaniyaya qurşanmış şəxsləri misal göstərmək olar. Qurani-Kərim insanı həqiqətə və haqqa itaət etməyə dəvət edir. Bu barədə çox israr edib müxtəlif bəyanlarla xalqı dəvət edir ki, öz vicdan və haqpərəst hisslərini diri saxlasınlar. Allah-taala buyurur:

﴿فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ﴾

***“Həqiqətdən sonra zəlalətdən başqa nə vardır?”*** [1]

﴿إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ﴾

***“Şübhəsiz, insan (ömrünün azalması, puç olması və nəfsi istəklərinin və Şeytanın ona qalib gəlməsi baxımından) ziyan içindədir. Yalnız iman gətirib saleh əməllər görən, bir-birinə haqqı (sabit, doğru əqidə və əməlləri) və (vəzifələri yerinə yetirməkdə) səbri tövsiyə edənlərdən başqa .”*** [2]

Əslində bu qədər ilahi tövsiyələr ona görədir ki, əgər insan öz vicdanını oyaq saxlamayıb haqqa itaət yolunda çalışmasa, istədiyi səadətə və kamala çata bilməyəcəkdir. Hər bir nəfsani, xoşagəlimli əməllərin ardınca gedib səhv düşüncələrə və xurafata düçar olacaqdır. Bu zaman dördayaqlı heyvan tək insanlıqdan uzaq düşüb öz həvayi-nəfsinə və nadanlığına qurban gedəcəkdir. Allah-taala buyurur:

﴿أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلَّا كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلًا﴾

***“Nəfsi istəklərini öz tanrısı etmiş kəsi gördünmü? Yoxsa sən onun (doğru yola gəlməsi və ya axirət əzabından qorunması) işlərini düzəldəcəksən?! Yoxsa onların çoxunun (sənin dediklərini) eşitdiyini və ya düşündüyünü güman edirsən? (Xeyr,) onlar yalnız heyvanlar kimidirlər, hətta daha azğındırlar. (Çünki heyvanlar yaradılışın hədəf və məqsədi***

---

1 "Yunus" surəsi, ayə: 32.

2 "Əsr" surəsi, ayə: 2-3.

***istiqamətindəki yollarını instinktlə düzgün gedirlər, bunlar isə yox!)"***[1]

Əgər insanın vicdanı oyaq olarsa və haqqa itaət edərsə, bütün həqiqətlər bir-birinin ardınca onun üçün aydınlaşacaqdır. Tapdığı hər bir həqiqətə qucaq açıb qəbul edəcək, hər gün xoşbəxtliyə doğru bir addım atacaqdır.

## YARADANIN SÜBUTU

Vicdanını oyaq saxlayan şəxs dünyanın hər hansı bir guşəsinə baxsa, Yaradanın vücuduna dair çoxlu dəlillər görər. Çünki insan öz vicdanı ilə dərk edir ki, hər bir yaradılmış (məxluq) varlıq nemətindən faydalanmışdır. Hər biri öz yaradılışında istər-istəməz müəyyən bir yolu gedir, bir müddətdən sonra öz yerini başqasına verir. Var olmağı əsla özləri özlərinə verməmiş və getdikləri bu tənzimlənmiş yolu özləri özləri üçün icad etməmişlər. Varlıq aləminin nizamında az da olsa heç bir müdaxilələri yoxdur. Çünki şəxsən insanın özü insaniyyət və insanlıq xüsusiyyətlərini özü özü üçün seçməmişdir. Əksinə, insan yaradılmış və insani xüsusiyyətlər ona verilmişdir. Habelə, insan vicdanı bütün bu varlıqların öz-özünə, təsadüfən yaranmasını, varlıq aləmindəki bu nizamın hesabsız, boş-boşuna əmələ gəldiyini qəbul etmir. İnsan vicdanı nəinki kainatın bu əzəmətli yaradılışını, heç 3-4 sınıq kərpiçin üst-üstə yığılmasını belə təsadüf kimi qəbul etmir. Buna görə də insan vicdanı haray çəkir ki, varlıq aləmi tükənməz varlıq mənbəyinə bağlıdır. Varlıq aləminin bəhrələndiyi tükənməz elm və qüdrət mənbəyi Uca və Mərhəmətli Allahdır. Allah-taala Qurani-Kərimdə belə buyurur:

---

1 "Furqan" surəsi, ayə: 43-44.

﴿الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى﴾

***“(Rəbbimiz) hər bir şeyə onun məxsus yaradılışını əta edən, sonra (ona) doğru yol göstərəndir.”*[1]**

Tarixdə göründüyü kimi, bu daxili qüvvə vasitəsilə həmişə əksər cəmiyyətlər kainatı xəlq edən bir varlığa etiqad bəsləmişlər. İslamdan başqa məsihi, yəhudi, atəşpərəst və buddizm kimi digər dinlər də bu məsələdə eyni əqidədədirlər. Allahın varlığını inkar edənlərin isə heç bir əsası olmayıb və heç vaxt da olmayacaqdır. Həqiqətdə onlar belə deyirlər ki, Allahın varlığına dəlil-sübutumuz yoxdur. Demirlər ki, Allahın yoxluğuna dəlil-sübutumuz var. Materialist görüşə malik olan şəxs deyir ki, “bilmirəm”, demir ki, “yoxdur”. Başqa ifadə ilə desək, materialistlər inkar yox, tərəddüd edirlər. Allah-taala Qurani-Kərimdə bu məsələyə işarə edərək buyurur:

﴿وَقَالُوا مَا هِيَ إِلَّا حَيَاتُنَا الدُّنْيَا نَمُوتُ وَنَحْيَا وَمَا يُهْلِكُنَا إِلَّا الدَّهْرُ وَمَا لَهُم بِذَلِكَ مِنْ عِلْمٍ إِنْ هُمْ إِلَّا يَظُنُّونَ﴾

***“Dedilər: “Bizim bu dünya həyatımızdan başqa bir həyat yoxdur; daim ölürük və dirilirik. Zaman keçdikcə aradan gedirik (pərdənin arxa tərəfində bir xəbər yoxdur). Onların bu iddiaya (dair) bir bilikləri yoxdur. Onlar yalnız güman edirlər.”*[2]**

1 "Taha" surəsi, ayə: 50.
2 "Casiyə" surəsi, ayə: 24.

## ALLAH-TAALA BÜTÜN KAMAL SİFƏTLƏRƏ MALİKDİR

### KAMAL NƏDİR?

Yaşayış evi o vaxt kamil olur ki, yaşamaq üçün onda hər bir şey kamil olsun. Kifayət qədər yataq, qonaq və istirahət otağı, mətbəx, hamam-tualet, su mənbəyi və sairənin olması ev şəraitinin kamilliyinə dəlalət edir. Bu şəraitlərdən hər hansı birinin olmaması da evin nöqsanlı olmasına dəlildir. Habelə, insan bədəninin bütün əzalarının yerində olması onun cisminin kamilliyinə, əks halda – əl, ayaq və ya göz kimi hər hansı bir üzvün olmaması – onun cisminin naqisliyinə dəlildir. Deməli, kamillik sifəti bir növ varlığın ehtiyaclarını aradan aparıb nöqsanları təkmilləşdirir. Məsələn, elm sifəti cəhalətin qaranlığını aradan aparıb insanın bilmədiklərini onun üçün işıqlandırır. Qüdrət sifəti qüdrətli insanın şəxsi istək və məqsədlərini reallaşdırır. Həyat, əhatə və s. sifətləri də buna misal çəkmək olar.

Bizim vicdanımız da belə mühakimə edir ki, kainatın və bütün canlıların varlığının mənbəyi olan, təsəvvürə gələn bütün ehtiyacları ödəyən, bütün nemətləri və kamalları əta edən Allah-taala kamal sifətlərinin hamısına malikdir. Çünki həqiqətdə hər hansı bir neməti əta edən kəs özü ona malik olmasa, onu başqalarına əta edə bilməz. Öz nöqsanlarını aradan qaldıra bilməyən kəs başqalarının problemini həll edə bilməz. Allah-taala da kəlamlarında Özünü bütün kamal sifətlərlə tərif edib hər bir nöqsandan pak və münəzzəh olduğunu bizə bəyan edir:

﴿وَرَبُّكَ الْغَنِيُّ ذُو الرَّحْمَةِ﴾

***“Rəbbin ehtiyacsızdır və rəhmət sahibidir.”***[1]

﴿اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ لَهُ الْأَسْمَاء الْحُسْنَى﴾

***“Tək olan Allah (ki), ondan başqa bir məbud yoxdur! Ən gözəl adlar Ona məxsusdur.”***[2]

Deməli, Allah-taala bütün kamal sifətlərə malik və hər bir nöqsandan isə pak və münəzzəhdir. Çünki əgər nöqsanı olsaydı, o cəhətdən də ehtiyaclı olardı və ondan da uca tanrı lazım idi ki, onun ehtiyaclarını ödəsin:

﴿سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

***“O (Allah-taala ), şərik qoşduqları şeydən pak və ucadır.“***[3]

1 "Ənam" surəsi, ayə: 133.
2 "Taha" surəsi, ayə: 8.
3 "Yunus" surəsi, ayə: 18.

## NÜBÜVVƏT

İnsanı idarə edən əql qüvvəsi istifadəyə yararlı vasitələrdən yaşamaq üçün kifayət qədər seçir. Fəzadan, havadan, yerdən, dənizdən, səhradan, taxtadan, otlardan və onların toxumlarından, ağaclardan və onların meyvələrindən, yarpaqlarından, taxtalarından, heyvanlardan və onların ətindən, yunundan, südündən, dərisindən istifadə etməkdə məhz əql deyilən şüurumuz bizə yol göstərir. Bununla yanaşı, əql qüvvəsi ilə ətrafımızda olan insanların fəaliyyətindən də öz mənfəətimizə uyğun istifadə edir, ehtiyaclarımızı ödəyirik.

Bütün bunların hamısından yararlanmağı və istifadə etməyi bizə əql qüvvəsi göstəriş verir. Buna görə də bizdən soruşsalar ki, “acanda niyə yemək yeyirsiniz?”, “niyə nəfəs alırsınız?”, çox gülməli və yersiz görünər.

Lakin ətrafimizda olan insanlardan faydalanmaq üçün onlarla təmasda olarkən ilk öncə hiss edirik ki, onlar da bizim kimidirlər. Onların fəaliyyətindən faydalanmaq istədiyimiz kimi, onlar da bizim fəaliyyətimizdən faydalanmaq istəyirlər. Necə biz öz zəhmətimizin nəticəsini əvəzsiz onların ixtiyarında qoymağa razı deyilik, onlar da razı deyildirlər ki, malik olduqları hər hansı bir şeyi əvəzsiz olaraq bizə versinlər.

Məhz bu səbədən, çarəsiz qalıb ictimai məsələlərdə ətrafımızda olan insanların ehtiyaclarını aradan qaldırmaqdan ötrü onlarla əməkdaşlıq edirik ki, onlar da bunun müqabilində bizə kömək göstərsinlər.

Bu ehtiyac və zərurətin nəticəsində insanlar bir yerə yığışıb bir-birinin yardımından istifadə edirlər. Əslində insanların zəhməti

bir yerə toplanır və sonradan hər kəs ictimai mövqeyi və fəaliyyətinə görə ondan faydalanır.

## CƏMİYYƏT QAYDA-QANUN TƏLƏB EDİR

Qeyd etdiyimiz kimi, insan ilkin xislətinə görə daim öz mənafeyini güdür. İctimai əməkdaşlığa isə çarəsizlik üzündən qol qoyur. Buna görə də fürsət tapan kimi başqalarının mənafeyinə təcavüz edir. Bu hal qarşıya gəlməsin deyə, cəmiyyətdə bir sıra qayda-qanunlar hakim olmalıdır ki, onlara riayət etməklə cəmiyyətin fərdi ictimai dəyərləri qorunsun və təcavüzün qarşısı alınsın. Hər bir kəsin də xüsusi və ümumi vəzifəsini tanımasından ötrü bu qayda-qanunlar cəmiyyətin hamısı və ya əksəriyyəti tərəfindən məqbul hesab olunmalıdır.

## QAYDA-QANUNLARIN FİTRİ KÖKLƏRİ

Qayda-qanunlar insan haqlarının qorunmasından ötrü təyin olunmuş bir sıra vəzifələrdir. Bu cəhətdən qanun ictimai dəyərdir. Yəni təbiətdə hakim olan təbiət qanunları kimi öz-özünə icra olunmur. Əgər qanun icra olunarsa, cəmiyyətdə hakim olar, yox əgər icra olunmazsa, bir əfsanə kimi təsirsiz qalacaqdır. Eyni halda, bu ictimai qanunlar təbiət və xilqətlə əlaqəsiz olmayıb fitri köklərə malikdir və insanın təbii ehtiyaclarından əmələ gəlmişdir. Allah-taala insanı elə yaratmışdır ki, istər-istəməz bir sıra ictimai fikirlər əmələ gətirib istifadəyə verir. Öz təbii həyatını bunlarla tətbiq edib yaradılış hədəfinə yetişir.

## HƏYAT QANUNLARINA TƏRƏF TƏKVİNİ HİDAYƏT

Bilirik ki, Allah-taala kamil inayətinə və sonsuz mehribanlığına görə məxluqatın hər bir növünü yaradılış məqsədinə çatdırır. İnsan da bu ümumi qanundan istisna deyildir. Ona görə də Allah-taala insanı həyatın yolunu göstərən bir sıra qayda-qanunlara tərəf hidayət etməlidir ki, onun məsləhət və mənfəəti

bu qayda-qanunlara əməl etməklə təmin olunsun. Bunu əldə etməkdən ötrü təkcə əql kifayət etmir. Çünki əql bəzən özünü dərk etməkdə səhvə yol verir. Çox vaxt irsi olan adət, təqlid və sifətlər həvayi-nəfsə məğlub olub insanı məhvə aparır. Bildiyimiz kimi, əql insanı öz mənfəət və xeyrini güdməyə sövq edir. Əgər başqalarının hüququnu nəzərə alıb ümumi qaydalara riayət etsə də, bu onun çarəsizliyi və öz şəxsi mənfəətlərini təmin etməkdən ötrüdür. Buna görə də çox vaxt qüdrət sahibi olan kəs qarşısında heç bir müxalif görmədikdə, istədiyi hər bir qanundan yayınıb öz xeyrinə olan tərəfi seçir və qanun hüququna təcavüz edir.

Deməк, Allah-taala insanları həyat qayda-qanunlarına tərəf elə bir üsulla yönəltməlidir ki, hər cür səhv və azğınlıqdan qorunsun. Bu, nübüvvət yoludur. Allah-taala təfəkkür yolundan başqa bir vasitə ilə (vəhy vasitəsilə) bəndələrindən bəzisinə bir sıra hökmləri təlim etməlidir ki, onlara əməl etməklə bəşəriyyəti həqiqi xoşbəxtliyə hidayət etsin.

## NƏTİCƏ

Keçən bəhsimizdən aydın oldu ki, Allah-taala bəşər övladının səadətinə zəmanət verən qayda-qanunları bəndələrindən bəzisinə təlim edib onlara tərəf göndərməlidir.

İlahi hökmləri gətirən şəxs “peyğəmbər” və ya “Allah elçisi” adlanır. Gətirdiyi dini hökmlərin toplumuna isə "din" deyilir.

Aydın oldu ki, Allah-taala tərəfindən göndərilmiş dini hökmlər və ilahi qaydalar düzgün, dəyişilməmiş və təhrif olunmamış formada çatdırılmalıdır. Yəni, peyğəmbər vəhyi alarkən xəta etməməli, onu unutmamalı, insanlara çatdırarkən səhvə və ya xəyanətə yol verməməlidir. Qeyd etdiyimiz kimi, lazım olan həyat qayda-qanunları ilə insanların hidayəti yaradılış sisteminin bir hissəsi kimi insan xilqətinin məqsədlərindən biridir. Yaradılış heç vaxt öz yolunda xətaya yol verməz.

Məsələn, heç vaxt yaradılış insanın nəsilartırma üsulu ilə daş və ya bitki yaratmaz, ya buğda dənəsini cücərtmə yolu ilə heyvan əmələ gətirməz. Yaxud da göz insan orqanizmində mədənin işini, qulaq isə ürəyin vəzifəsini yerinə yetirə bilməz.

Buradan aydın olur ki, peyğəmbərlər məsum olmalıdırlar. Yəni vacib bildikləri əməli tərk etməməli, günah bildikləri işi isə yerinə yetirməməlidirlər. Çünki biz insanlar öz vicdanımızla dərk edirik ki, öz sözünə əməl etməyən kəs əslində onun doğru-dürüstlüyünə inanmır. Bu surətdə əgər peyğəmbər günaha qurşansa – sonradan peşman olaraq tövbə etsə belə – bizim qəlbimiz saflaşmayacaq və təbliğ hədəfi ləngiyəcəkdir. Allah-taala Qurani-Kərimdə buyurur:

﴿عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا إِلَّا مَنِ ارْتَضَى مِن رَّسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا لِيَعْلَمَ أَن قَدْ أَبْلَغُوا رِسَالَاتِ رَبِّهِمْ﴾

***"(Allah) qeybi biləndir və Öz qeybinin sirlərindən heç kimi agah etməz. Yalnız seçdiyi rəsuldan (peyğəmbərlərə göndərilən mələkdən və insanlara göndərilən peyğəmbərdən) başqa! (Allah onları agah edər.) Allah onun önündən və arxasından (mühafizəçi mələklərdən ibarət olan) gözətçilər göndərər ki, (mələklərdən və bəşərdən olan rəsulları şeytanların əziyyətlərindən qorusun və) onlarin öz Rəbbinin risalətlərini (peyğəmbərlərə və peyğəmbərlər də insanlara) çatdırdığını bilsin (və əzəli elmi həyata keçsin)."***[1]

1 "Cin" surəsi, ayə: 26-28.

## XÜSUSİ NÜBÜVVƏT

### HƏZRƏT MÜHƏMMƏDİN (S) PEYĞƏMBƏRLİYİ

Həzrət Mühəmməd (s) 570-ci miladi ilində Hicaz ərəblərinin ən nəcib və şərəfli ailələrindən birində (Bəni-Haşim nəslində) Məkkədə dünyaya göz açdı. O zaman dünya, tarixdə göstərildiyi kimi, qəribə əxlaqi pozğunluğa düçar olmuşdu. Cəmiyyət günbəgün cəhalət girdabına yuvarlanaraq hər an insanlıq mənəviyyatından uzaqlaşırdı. Əhalisinin əksəriyyəti bütün mədəni imtiyazlardan məhrum olan, köçəri həyat tərzi sürən, səhrada yaşayan Ərəbistan yarımadası, xüsusilə daha cox fərqlənirdi. Əhalinin əksəriyyəti bir sıra xurafatla dolu fikirlərə qərq olub (o cümlədən öz əlləri ilə taxtadan və daşdan yonub düzəltdikləri bütlərə sitayiş kimi) öz əcdadları ilə öyünür, quldurluq, qarətçilik və qan tökməklə fəxr edirdilər.

O həzrət hələ dünyaya gəlməmiş atası Abdullah vəfat edir. Dörd ildən sonra anası da dünyasını dəyişir. Körpə ikən ata-anasını itirdiyindən babası Əbdül-Müttəlibin himayəsinə keçir. Bir müddət keçdikdən sonra babasını da əldən verir. Əmisi Əbu Talib o həzrəti öz evinə aparır. Ona öz övladı kimi baxır.

Məkkə ərəbləri digər ərəblər kimi heyvandarlıqla məşğul olur və bəzən də qonşu ölkələrə, xüsusilə, Suriyaya ticarətə gedirdilər. Cəmiyyətdə savadsızlıq və cəhalət hökm sürür və uşaqların təlim-tərbiyəsinə əhəmiyyət vermirdilər. O həzrət də qövmü kimi yazıb-oxumaq öyrənməmişdi. Lakin elə uşaqlıq illərindən bir sıra bəyənilmiş xüsusiyyətlərlə başqalarından seçilirdi. Heç vaxt bütə sitayiş etmir, yalan danışmır, oğurluq və xəyanət etmir, nalayiq, yaramaz əməllərdən çəkinirdi. O ağıllı və gözütox idi. Buna görə də az bir zamanda ərəblər

arasinda dərin hörmət sahibi olub "Mühəmməd Əmin" adı ilə şöhrət tapdı. Ərəblər çox vaxt əmanətlərini ona tapşırar və həmişə onun əmanətdarlığından və gözütoxluğundan danışardılar. İyirmi yaşındai kən Məkkənin varlı xanımlarından biri (Xədiceyi-Kubra) özünün ticarət işlərini ona tapşırdı. O həzrətin gözütoxluğu, ağlı, fərasəti, düzgünlüyü nəticəsində çoxlu qazanc götürüb şəxsiyyətinə, alicənablığına əvvəlkindən daha çox heyran qaldı. Nəhayət o həzrətə evlənmək təklif etdi. Peyğəmbər (s) də bu təklifi qəbul edib onunla evləndi. Ondan sonra neçə illər öz həyat yoldaşının ticarət işləri ilə məşğul oldu.

Həzrət Mühəmməd (s) 40 yaşına qədər camaatla adi şəkildə əlaqə və münasibət saxlayır, onlardan biri kimi hesab olunurdu. Lakin öz əxlaqı ilə onlardan seçilir, onların nalayiq və yaramaz əməllərinə qarışmır, zalımlıq, daşürəklilik və şöhrətpərəstlik etmirdi. Məhz bu səbəbdən, xalqın ehtiram və etimadını qazanmışdı. Belə ki, ərəblər Kəbə evini təmir edəndə "Həcərül-əsvəd"i (Qara daşı) evin divarına yapışdırarkən aralarında mübahisə düşür. Onlar həzrət Mühəmmədi (s) öz aralarında hakim seçirlər. O həzrət belə göstəriş verir ki, yerə bir əba sərib "Həcərül-əsvəd"i onun üstünə qoysunlar və qəbilə başçıları hərə bir tərəfdən yapışıb əbanı yuxarı qaldırsınlar. Beləliklə, həzrət Mühəmməd (s) "Həcərül-əsvəd"i Kəbə evinin divarına yapışdırıb heç bir qan tökülmədən münaqişəni həll edir.

Həzrət Mühəmməd (s) besətdən əvvəl təkallahlığa sitayiş edirdi və bütpərəstlikdən tamamilə üzaq idi. Bütpərəstliklə mübarizə aparmadığından camaat da onun işinə qarışmırdı. Belə ki, yəhudi və məsihi kimi sair dini əqidədə olan insanlar onların arasında əmin-amanlıqda yaşayır və heç kim də onlara qarşı heç bir narahatçılıq törətmirdi.

## BÜHEYRA RAHİBİN ƏHVALATI

Hələ uşaqlıq illərində əmisi Əbu Talibin yanında qalarkən, Əbu Talib ticarət üçün Şama yola düşdü və həzrət Mühəmmədi (s) də özü ilə apardı. Dəvələrlə çoxlu mal yüklənmiş böyük karvan yola düşdü. Karvan uzun yol keçdi, nəhayət Suriya torpağına daxil olaraq Busra şəhərinə çatdı. Dincəlmək üçün bir monastrın yaxınlığında düşərgə salıb çadır qurdular. Büheyra ləqəbli rahib monastrdan çölə şıxıb karvan əhlini qonaq dəvət etdi. Hamı Büheyranın dəvətini qəbul edib monastra getdi. Büheyra soruşdu:“Hamı gəldimi?”

Əbu Talib dedi: “Azyaşlı gəncdən başqa hamı gəlmişdir.”

Büheyra dedi: “Onu da çağırın gəlsin.”

Əbu Talib zeytun ağacının altında oturmuş həzrət Mühəmmədi (s) çağırıb rahibin yanına qayıtdı. Büheyra o həzrəti diqqətlə süzüb dedi: “Yaxın gəl, sənə sözüm var.” Bunu deyib o həzrəti bir kənara çəkdi. Əbu Talib də onlara yaxın gəldi. Büheyra həzrət Mühəmmədə (s) dedi: “Səni and verirəm Lat və Üzzaya, səndən bir söz soruşacağam, amma mənə düzünü de.”

Həzrət Mühəmməd (s) buyurdu: “Mənim ən nifrət etdiyim şey bu iki bütdür.”

Büheyra dedi: “Səni o bir olan Allaha and verirəm ki, düzünü deyəsən.”

O həzrət buyurdu: “Mən həmişə düzdanışan insanam, əsla yalan danışmaram. Sən sualını ver.”

Büheyra: “Ən çox nəyi sevirsən?”

Həzrət Mühəmməd (s): “Tənhalığı.”

Büheyra: “Nəyə çox baxırsan və çox istəyirsən ki, ona tərəf baxasan?”

Həzrət Mühəmməd (s): “Səmaya və ulduzlara.”

Büheyra: “Nə düşünürsən?”

Həzrət dinmədi. Büheyra diqqətlə onun alnına baxırdı. Sonra soruşdu: “Nə vaxt və nəyi düşünüb yatırsan?”

Həzrət Mühəmməd (s): “Yatan vaxtı gözlərimi səmaya dikib ulduzlara baxıram. Onları ətəyimdə, özümü isə onlardan uca bir yerdə görürəm.”

Büheyra: “Yuxu da görürsən?”

Həzrət Mühəmməd (s): “Bəli, yuxuda gördüklərim həyatda gerçəkləşir.”

Büheyra: “Məsələn, nə görürsən?”

Həzrət dinmədi. Büheyra da sakit dayanıb ona baxırdı. Bir az dayandıqdan sonra dedi: “Kürəyinin ortasına baxa bilərəmmi?”

Həzrət Mühəmməd (s) dayandığı yerdə hərəkət etmədən buyurdu: “Gəl bax.”

Büheyra ayağa qalxıb yaxına gəldi. O həzrətin libasını çiynindən kənara çəkdi. Qara xal göründü. Baxıb dodaqaltı dilləndi: “Odur!”

Əbu Talib soruşdu: “Nədir? Nəyi deyirsən?”

Büheyra: “Bizim kitablarımızda xəbər verilən əlaməti deyirəm.”

Əbu Talib: “Nə əlamət?”

Büheyra: “De görüm, bu uşaq sənin nəyindir?”

Əbu Talib o həzrəti öz övladı kimi çox istədiyindən dedi: “Oğlumdur.”

Büheyra: “Xeyr, bu uşağın atası sağ olmamalıdır.”

Əbu Talib: “Sən haradan bilirsən?! Bəli, bu uşaq mənim qardaşım oğludur.”

Büheyra: "Qulaq as! Bu uşagın gələcəyi parlaq və çox maraqlıdır. Mən gördüyümü əgər başqaları görüb tanısa, onu öldürərlər. Onu düşmənlərdən qoru."

Əbu Talib: "De görüm, o kimdir?"

Büheyra: "Baxışlarında böyük bir peyğəmbər baxışı, kürəyində isə peyğəmbərlik nişanəsi var."

## NƏSTURA RAHİBİN ƏHVALATI

Bir neçə ildən sonra o həzrət Xədiceyi-Kubranın (s.ə.) ticarət karvanına rəhbərlik edib yenə də Şam səfərinə yola düşdü. Xədicə (s.ə.) Müseyrə adlı qulamını da həzrət Mühəmmədə (s) qoşub ona tam surətdə itaət etməsini dönə-dönə tapşırdı. Bu səfərdə də Suriya torpaqlarına çatdıqda, Busra şəhərinin yaxınlIğında bir ağacın altında düşərgə saldılar. Yaxınlıqdakı kilsənin rahibi Müseyrə ilə tanış idi. Onun adı Nəstura idi. Nəstura Müseyrədən soruşdu: "Ağacın altında dincələn gənc kimdir?"

Müseyrə dedi: "Qüreyş qəbiləsindəndir."

Nəstura: "Allah peyğəmbərlərindən olan bir peyğəmbərdən başqa heç kim bu ağacın altında düşərgə salmayıb və salmayacaqdır." Sonra yenə soruşdu: "Gözlərində qırmızılıq hiss olunurmu? "

Müseyrə: "Bəli, onun ğözləri daim belədir."

Nəstura: "Özüdür ki, var! O, Allah peyğəmbərlərinin sonuncusudur. Kaş mən onun peyğəmbərliyə seçilən günü görəydim.! "

## MƏDİNƏ YƏHUDİLƏRİNİN MÜJDƏSİ

Yəhudi tayfalarından çoxu həzrət Mühəmməd (s) haqqında öz kitablarında oxuduqlarından, vətənlərini tərk edib Hicaza gəlmişdilər. Mədinə və ətrafında məskən salıb ümmi (təhsil

almamış, müəllim görməmiş, yazıb-oxumaq bilməyən) peyğəmbərin gələcəyini gözləyirdilər. Varlı və dövlətli olduqlarından ərəblər hərdənbir təcavüz edib onların var-dövlətlərini qarət edirdilər. Yəhudilər həmişə məzlumcasına deyirdilər: “Məkkədən ümmi peyğəmbər zühur edib bu zülmlərə və haqsızlıqlara son qoyanadək səbir edəcəyik. O gün biz o həzrətə iman gətirib sizdən öz intiqamımızı alacağıq.” Mədinə camaatının tezliklə iman gətirməsinin əsas səbəblərindən biri də məhz bu xəbərin onlarda olması idi. Onlar iman gətirdilər. Amma yəhudilər qəbilə təəssübkeşliyinə görə iman gətirmədilər.

## QURANIN NÜBÜVVƏT MÜJDƏSİ

Allah-taala Qurani-Kərimdə bir neçə yerdə bu müjdəyə işarə edərək buyurur:

﴿الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ﴾

***“O kəslər ki, dərs oxumayıb yazı yazmamış bu Elçi və Peyğəmbərə - (adını və peyğəmbərlik nişanələrini) əllərindəki Tövrat və İncildə yazılmış gördükləri şəxsə tabe olurlar. (Həmin o Peyğəmbərə ki,) onları hər bir yaxşı işə əmr edir, hər bir pis işdən çəkindirir, onlara (maddi və mənəvi) pakları halal, (maddi və mənəvi) çirkin və murdarları haram edir, boyunlarında olan ağır yükü və zəncirləri (cahilliyyət adətləri və keçmiş şəriətlərin çətin hökmlərini) onların çiynindən götürür!”*** [1]

---

1 "Əraf" surəsi, ayə: 157.

﴿وَلَمَّا جَاءهُمْ كِتَابٌ مِّنْ عِندِ اللّهِ مُصَدِّقٌ لِّمَا مَعَهُمْ وَكَانُواْ مِن قَبْلُ يَسْتَفْتِحُونَ عَلَى الَّذِينَ كَفَرُواْ فَلَمَّا جَاءهُم مَّا عَرَفُواْ كَفَرُواْ بِهِ﴾

***“Elə ki, onlara Allah tərəfindən olanı (Tövratı) təsdiq edən bir kitab (Quran) gəldi, onlar bundan əvvəl həmişə özlərinin (həmin kitabı gətirəcək peyğəmbər vasitəsilə) kafirlər üzərində qələbələrindən xəbər verdikləri halda (bütün bunlara baxmayaraq), bildikləri şey onlara gələn zaman ona küfr etdilər.”*** [1]

## ƏZİZ PEYĞƏMBƏRİMİZİN (S) BESƏTİ

Əziz Peyğəmbərimiz (s) qırx yaşına çatdıqda Allah-taala tərəfindən peyğəmbərliyə seçildi. İnsaniyyət dünyasının sağlam düşüncə və pak vicdanını oyatmaqdan, bütün bəşəriyyəti xurafat və səhv düşüncələrdən azad etməkdən, zülmkarlığı, quldarlığı, hər cür hərisliyi və məsuliyyətsizliyi kökündən kəsməkdən ötrü insanlara tərəf göndərildi .

## ƏZİZ PEYĞƏMBƏRİMİZİN (S) DƏVƏTİNİN XÜLASƏSİ

Peyğəmbər (s) Allah-taalanın Qurani-Kərimdə göstəriş verdiyi kimi, öz dəvətini vicdan və həqiqət əsasında qurub insanları təbii üsullarla, onların dərk edə biləcəyi tərzdə təbliğ etməyə başladı. Əziz Peyğəmbərimiz (s) insanlara başa saldı ki, təzim və pərəstiş yalnız və yalnız yeri-göyü xəlq edən Allah-taalaya məxsusdur. Hamı – peyğəmbərlər, mələklər, hökmdarlar, ulduzlar – hər nə varsa Allahın məxluqlarıdır və Ona möhtacdırlar. Yalnız kainatın yaradıcısı olan Allaha itaət etmək lazımdır. O Allah ki, bir gün bütün insanları öz hüzurunda cəm edib ədalətli məhkəmə quracaqdır. Hökmdarlar və zülmkarlar adi insanlardır. Hökmü Allah hökmü olan kəslərdən başqa heç kimə itaət etmək olmaz. Bəşər övladı bilməlidir ki, o, bir neçə

---

1 "Bəqərə" surəsi, ayə: 89.

günlüyə yeyib-yatmaq üçün bu dünyaya gəlməmişdir. Onun həyatı ölümlə sona çatmır.

## FİTRİ DİN

Bir sıra maddi və mənəvi ehtiyaclara malik olan insan öz çətinliklərini ictimai yaşayışla həll etməli, adi vasitələrlə – heç kimə mane olmadan bir neçə günlük dünya həyatını əmin-amanlıqla başa vurub başqa bir dünyaya vəsiqə qazanmalıdır. Deməli, cəmiyyətdə elə bir qanun icra olunmalıdır ki, Allah-taalanın əmri və insan fitrəti ilə uyğun olsun. Bu qanuna görə, hər kəs öz yerində olmalı və cəmiyyətdə tutduğu mövqeyinə əsasən faydalanaraq başqalarının huququna təcavüz etməməlidir. Bir sözlə, hamı Allah dərgahında təslim, haqq-ədalət qarşısında eyni dərəcəyə malik olmalıdır. Budur İslamın dəvətinin xülasəsi!

## DƏVƏT OLUNAN TƏBƏQƏLƏR

Əziz peyğəmbərimiz (s) öz dəvətini ilk olaraq bütpərəstləri İslama dəvət etməklə başladı. Allahın əmrilə onları təkallahlığa çağırıb bütpərəstliklə mübarizəyə qalxdı.

Allah-taala aşağıdakı ayədə bu məsələyə toxunaraq buyurur:

﴿هُوَ الْحَيُّ لَا إِلَهَ إِلَّا هُوَ فَادْعُوهُ مُخْلِصِينَ لَهُ الدِّينَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ قُلْ إِنِّي نُهِيتُ أَنْ أَعْبُدَ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللَّهِ لَمَّا جَاءَنِيَ الْبَيِّنَاتُ مِن رَّبِّي وَأُمِرْتُ أَنْ أُسْلِمَ لِرَبِّ الْعَالَمِينَ﴾

***“(Zatən ) diri (əzəli və əbədi olan) Odur. Ondan başqa bir məbud yoxdur. Buna görə də etiqadı (şirkdən), itaəti (riyadan) və dini (bidətdən) saflaşdırıb Onu çağırın. Bütün həmd-sənalar aləmlərin Rəbbinə məxsusdur.”***

***De:" Rəbbim tərəfindən mənə aydın dəlillər gələn vaxtdan sizin, Allahın yerinə çağırdıqlarınıza ibadət mənə qadağan edilib və mənə aləmlərin Rəbbinə təslim olmaq əmr olunmuşdur."***[1]

Dəvətin ikinci hissəsində isə bütpərəstlərdən başqa yəhudi, məsihi və atəşpərəstləri də Allahın əmrilə İslama dəvət edir. Yəni onları Allaha təslim olmağa və Ona şərik qoşmamağa çağırı. Belə ki, bəzi peyğəmbərlərin haqqında həddi aşaraq onları bəndəlik məqamından uca tutmasınlar və yaxud təriqət başçılarına, qəbilə böyüklərinə, hökmdarlara qeyd-şərtsiz itaət edərək özlərindən məbudlar düzəltməsinlər. Allah-taala aşağıdakı ayədə bu məsələyə toxunaraq buyurur:

﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ﴾

***"De: Ey kitab əhli, gəlin bizimlə sizin aranızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplanaq (və o budur ki): Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin. Beləliklə, əgər (bu təklifdən) üz döndərsələr deyin:" Şahid olun ki, həqiqətən, biz müsəlmanlarıq."***[2]

## İSLAMA DƏVƏTİN BAŞLANĞICI

Əziz Peyğəmbərimiz (s) Həra mağarasında olarkən Allah-taaladan peyğəmbərlik dəvətini aldı. İlk dəfə "Ələq" surəsi nazil oldu. O həzrət evə gələrək Əlini (ə) və sevimli həyat yoldaşı Xədiceyi-Kubranı (s.ə) İslama dəvət etdi. Onlar Peyğəmbərə (s) ilk olaraq iman gətirib İslamı qəbul etmək iftixarına nail oldular.

---

1 "Mömin" surəsi, ayə: 65-66.
2 "Ali-İmran" surəsi, ayə: 64.

Peyğəmbər (s) besətin əvvəllərində açıq-aşkar ümumi dəvət tapşırığı almamışdı. Ona görə də ümid etdiyi şəxsləri İslama dəvət edirdi. Beləliklə, bir neçə nəfər İslamı qəbul etdi.

## AŞKAR ÜMUMİ DƏVƏT

Əziz Peyğəmbərimiz (s) üç ildən sonra aşkar ümumi dəvət tapşırığı aldı. Bu işdə ilk öncə öz yaxınlarını, sonra isə başqalarını haqq dinə dəvət etdi. Allah-taala Qurani-Kərimdə bu haqda buyurur:

﴿فَاصْدَعْ بِمَا تُؤْمَرُ وَأَعْرِضْ عَنِ الْمُشْرِكِينَ إِنَّا كَفَيْنَاكَ الْمُسْتَهْزِئِينَ﴾

***"Buna görə də sənə əmr olunanı aşkar şəkildə bəyan et və müşriklərdən üz çevir. Həqiqətən, Biz istehza edənlərin şərini səndən uzaqlaşdırarıq."[1]***

﴿وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ﴾

***"Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et."[2]***

## DƏVƏTİN İLK YIĞINCAĞI

Peyğəmbər (s) aşkar təbliğ üçün ilk dəfə olaraq qohumlarından qırx nəfəri evinə dəvət etdi. Bu yığıncaqda onları təkallahlığa çağırmaqla yanaşı Əlinin (ə) də vilayət və canişinlik məsələsini bəyan etdi. Belə ki, onlara öz peyğəmbərliyini elan və tövhidə dəvət etdikdən sonra buyurdu:

"İlk olaraq kim mənim dəvətimi qəbul edib mənə yardımçı olarsa, mənim vəzirim və canişinim olacaqdır."

Bunu üç dəfə təkrar dedi və hər dəfə Əli ibn Əbu Talibdən (ə) başqa heç kim ona cavab vermədi. Təkcə Əli (ə) ayağa qalxaraq

---

1 "Hicr" surəsi, ayə: 94-95.
2 "Şuəra" surəsi, ayə: 214.

İslamı qəbul etdiyini bildirdi. Üçüncü dəfədən sonra Peyğəmbər (s) buyurdu:

"Sən məndən sonra mənim vəsim, canişinim və vəzirimsən!"

Bu əsnada yığıncaqda olanlar ayağa qalxıb Əbu Talibə istehza ilə: "Bundan sonra gərək oğluna itaət edəsən!" – deyib dağılışdılar.[1]

Bu hadisədən sonra Peyğəmbər (s) ümumi dəvətinə davam etdi. Həcc və başqa vaxtlarda ümumi yığıncaqlara gedib camaatı tövhid dininə dəvət edirdi. Lakin ərəblərin rəhmsiz, vəhşi müqaviməti ilə üzləşirdi. Qüreyş qəbiləsinin başçıları və demək olar ki, camaatın hamısı o həzrətə və tərəfdarlarına qarşı heç bir əziyyətdən, işkəncə və təhqirdən çəkinmirdilər. Bütün bunların müqabilində yalnız Peyğəmbərin (s) əmisi, Bəni-Haşim qəbiləsinin başçısı, həm də nüfuzlu şəxs olan Əbu Talib o həzrəti açıq-aşkar müdafiə edirdi. Kafirlər onun qorxusundan Peyğəmbəri (s) qətlə yetirməyə cürət edə bilmirdilər. Lakin əllərinə keçən müsəlmanlara əziyyət verib, çoxunu da işkəncə ilə şəhadətə yetirirdilər.

## HƏBƏŞİSTANA HİCRƏT

İş o yerə çatdı ki, müsəlmanlardan bir dəstəsi Peyğəmbərin (s) icazəsi ilə öz vətənlərini tərk və Həbəşistana hicrət etdi.

## BƏNİ-HAŞİMİN "ƏBU TALİB" DƏRƏSİNƏ SIĞINMASI

Nəhayət, Məkkə qəbilələri sözü bir yerə qoyub Peyğəmbərin (s) qəbiləsi olan Bəni-Haşim qəbiləsi ilə danışmamaq, heç bir işdə onlara kömək göstərməmək, qız alıb-verməmək və əlaqəni tamamilə kəsmək haqda bir müqavilə yazıb Kəbə evinin divarından asdılar.

---

1 "Biharül-ənvar", c.18, səh.179, hədis: 7.

Bəni-Haşim qəbiləsi naçar qalıb Məkkənin "Əbu Talib" adlı dərəsinə siğınmalı oldu. Bu dərədə üç il ağır çətinliklər, aclıq və qorxu dolu günlər yaşandı. Nəhayət, üç ildən sonra kafirlərin Kəbə evinin divarından asdıqları müqaviləni ağ qarışqaların (termitlərin) yeyib məhv etməsi və Məkkəyə gələn qəbilələrin etirazı nəticəsində kafirlər öz qərarlarında süstləşdilər.

Beləliklə, Bəni-Haşim qəbiləsi onlara tətbiq olunmuş bu məhrumiyyətlərdən azad oldu.

## BƏNİ – HAŞİMİN "ƏBU TALİB" DƏRƏSİNDƏN ÇIXMASI VƏ PEYĞƏMBƏRİN (S) İŞİNİN ÇƏTİNLƏŞMƏSİ

Həzrət Peyğəmbər (s) və Bəni-Haşim qəbiləsi dərədən çıxmaqla az da olsa rahatlıq tapdı. Lakin bir neçə ay keçdikdən sonra Peyğəmbərin (s) yeganə hamisi olan Əbu Talib vəfat etdi. Ondan sonra o həzrətin sevimli həyat yoldaşı Xədiceyi-Kübra (s.ə) da dünyasını dəyişdi. Peyğəmbərin (s) vəziyyəti daha da çətinləşdi. Daha heç kim onu Qüreyşin təhdidindən qorumurdu və o həzrətin canı təhlükədəydi.

## PEYĞƏMBƏRİN (S) TAİFƏ SƏFƏRİ

Bu arada Peyğəmbər (s) Məkkə yaxınlığında yerləşən Taif şəhərinə getdi. Oranın camaatını tövhid dininə dəvət etdi. Lakin qəbilə başçıları camaatı Peyğəmbərə (s) qarşı təhrik etdilər. Onlar da o həzrəti təhqir edib daşa basdılar. Peyğəmbər (s) naçar qalıb Taifdən Məkkəyə qayıtdı və bir müddət Məkkədə təhlükəli vəziyyətdə yaşamalı oldu.

Qüreyş kafirləri İslamın günbəgün inkişafını görüb əziz Peyğəmbərimizin (s) Mədinəyə ehtimal verilən hicrətindən xəbər tutdular. Belə qərara gəldilər ki, o həzrəti öldürməklə işi birdəfəlik həll etsinlər. Bu qərarı həyata keçirmək üçün "Darun-nüdvə" adlanan məşvərət mərkəzinə yığışdılar. Məşvərətdən sonra belə qərara gəldilər ki, Peyğəmbəri (s) qətlə yetirmək

üçün hər qəbilədən bir nəfər seçilsin. Belə ki, qırx nəfərdən ibarət olan bu dəstə axşamdan o həzrətin evini mühasirəyə almalı və gecəyarısı evə soxulub onu öldürməliydi. Qərar hamı tərəfindən qəbul olundu. Bəni-Haşimdən bu dəstəyə Peyğəmbərin (s) əmisi Əbu Ləhəb seçildi.

## HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏYƏ HİCRƏTİ

Allah-taala Peyğəmbəri (s) müşriklərin bu qərarından agah etdi. Əmr olundu ki, gecə ikən Məkkəni tərk və Mədinəyə hicrət etsin. Peyğəmbər (s) də Əli ibn Əbu Talibi (ə) bu məsələdən xəbərdar edib gecəni onun yerində yatmasını göstəriş verdi. Əgər gecə onu öldürməzlərsə, bir neçə gün Məkkədə qalıb camaatın Peyğəmbərin (s) yanında qoyduğu əmanətləri sahiblərinə qaytardıqdan sonra Mədinəyə gəlməsini ona tapşırdı.

Əli (ə) gecəni o həzrətin yatağında yatdı. Peyğəmbər (s) mühasirəni ehtiyatla yarıb yola düşdü. Yolda Əbu Bəkrə rast gəldi. Onu da özü ilə götürüb Məkkə yaxınlığındakı Sur dağında yerləşən mağarada gizləndi. Məkkəlilər Peyğəmbəri (s) çox axtarsalar da tapmadılar. Həzrət Peyğəmbər (s) mağarada üç gün qaldıqdan sonra oranı tərk edib Mədinəyə yola düşdü.

## HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏYƏ GƏLİŞİ

Sonradan Mədinə adlanan Yəsrib şəhərində İslamın inkişafı üçün şərait hazır idi. Səbəbi də bu idi ki, Mədinə camaatı Ovs və Xəzrəc qəbilələri arasında illərlə davam edən daxili döyüşlərdən cana doymuşdular. Nəhayət, bu qərara gəldilər ki, özlərinə münasib bir rəhbər seçib bu qırğına son qoysunlar.

Buna görə də qəbilə başçılarından bir neçə nəfəri məşvərət üçün Məkkə böyüklərinin yanına göndərdilər. Bu hadisə Peyğəmbərin (s) aşkar dəvəti ilə üst-üstə düşürdü. Mədinəlilər Məkkəyə gəlib öz fikirlərini Qüreyş başçılarına dedilər. Qüreyş

başçıları "Mühəmməd neçə müddətdir ki, peyğəmbərlik iddiasında olaraq bizim allahlarımızı təhqir edir, cavanlarımızı yoldan çıxarmaqla başımızı qarışdırmışdır"- deyə üzr gətirərək məşvərətdə iştirak etmədilər.

Bu söz bir zaman ümmi Peyğəmbərin (s) Məkkədə zühur edəcəyini dəfələrlə yəhudilərdən eşitmiş mədinəliləri ayıltdı. Onlar belə qərara gəldilər ki, həzrət Peyğəmbərlə (s) görüşüb gətirdiyi dindən xəbərdar olsunlar. Peyğəmbərin (s) yanına gəlib sözlərini eşidərək Quran ayələrinə qulaq asdılar və dərhal iman gətirdilər. Söz verdilər ki, gələn il bir dəstə Mədinə camaatı ilə gəlib İslamın inkişafından ötrü müqəddimə olaraq bir sıra işləri həyata keçirsinlər.

Gələn il bir qrup Mədinə başçısı Məkkəyə gəlib gecə şəhərdən kənarda, xəlvət bir yerdə o həzrətlə görüşərək beyət etdilər. Bundan əlavə, İslam dinini Mədinədə yaymağa söz verdilər. Əgər Peyğəmbər (s) Mədinəyə gələrsə, öz ailələrini qoruduqları kimi, onu da düşmənlərdən qoruyacaqlarını bildirdilər.

Onlar Mədinəyə gəldikdən sonra mədinəlilərin əksəriyyəti İslamı qəbul etdi. Beləliklə, Mədinə ilk İslam şəhərinə çevrildi. Buna görə də Peyğəmbərin (s) gəlişini eşitdikdə sevinclə onu qarşılamağa çıxdılar. Dərin hörmət və məhəbbətlə o həzrəti qarşılayıb saf niyyətlə İslamın yayılması üçün öz mallarını və canlarını o həzrətin ixtiyarında qoydular. Buna görə də tarixə "ənsar" adı ilə düşdülər.

Allah-taala öz kəlamında həm həzrət Peyğəmbərin (s) hicrətinə, həm də ənsarın göstərdiyi xidmətlərə işarə edərək onlara təşəkkürünü bildirir:

﴿وَالَّذِينَ تَبَوَّؤُوا الدَّارَ وَالْإِيمَانَ مِن قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِّمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ﴾

***"Həm də (ənsardan) o kəslər üçündür ki, hicrət və iman evini (Mədinə mühitini) özü üçün yurd seçib onlara tərəf hicrət***

***edənləri sevər, onlara (mühacirlərə) verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar. Nəfsin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz önlar nicat tapanlardır.”***[1]

## HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏDİNƏDƏ QALMASI VƏ İSLAMIN İNKİŞAFI

Peyğəmbər (s) Mədinədə qaldı. Kafirlərin işkəncələri altında qalmış Məkkə müsəlmanlarından çoxu tədriclə Mədinəyə hicrət etdilər. Ənsar da öz əhdinə vəfa edib onları açıq ürəklə qarşıladı.

Əziz Peyğəmbərimiz (s) Məscidün-Nəbini (Peyğəmbər məscidini) Mədinədə tikdi. Bundan sonra, getdikcə başqa məscidlər də tikildi. Ətrafdakı bölgələrə İslam təbliğatçıları göndərildi. Mədinə və ətrafında yaşayan yəhudi tayfaları və ərəb qəbilələri ilə müqavilələr imzalandı. İslam öz nuraniyyəti ilə sürətlə inkişaf etməyə başladı. Peyğəmbəri-Əkrəmin (s) Mədinədə qaldığı on il ərzində İslam dini başdan-başa Ərəbistan yarımadasına hakim oldu. Rum qeysəri, İran şahlığı, Həbəşistan hökmdarlığı və Misir soltanlığı kimi qonşu ölkələr İslam dininə dəvət olundular.

Həzrət Peyğəmbər (s) bu on il ərzində bir an belə yorulmadan öz vəzifəsini yerinə yetirdi. Allah-taala tərəfindən vəhy vasitəsilə ona gələn İslam maarifini və qayda-qanunlarını camaata öyrədir, onlara nəsihət edir və suallarına cavab verirdi. Müxalif fikirli alimlərlə (xüsusilə, yəhudi alimlərilə) elmi mübahisə və münazirələr aparıb ölkəni idarə edirdi. Bədr, Ühüd, Xəndək, Xeybər kimi kafir müşriklərə qarşı təqribən, səksənə yaxın qanlı döyüşlərdə iştirak etdi. Adi bir döyüşçü

1 "Həşr" surəsi, ayə: 9.

kimi döyüş meydanlarında vuruşdu. Amma bununla belə şəxsən heç kimi qətlə yetirmədi.

O, eyni zamanda vaxtının ən mühüm hissəsini ibadət edir, ilin çox hissəsini oruc tuturdu. Yəni, Rəcəb, Şaban, Ramazan aylarını ardıcıl olaraq, bir ay isə hərdənbir və bəzən də o həzrətin xüsusiyyətlərindən olan “vüsal orucu” tuturdu. “Vüsal orucu”nda ardıcıl olaraq bir neçə gecə-gündüz əsla yemək yemirdi. Günün bir hissəsini ev işlərinə sərf edir, bəzən də dolanışıq üçün işləyirdi. Allah-taala öz kəlamında bu on ildə baş vermiş hadisələri xülasə olaraq belə buyurur:

﴿يُرِيدُونَ لِيُطْفِؤُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ وَاللَّهُ مُتِمُّ نُورِهِ وَلَوْ كَرِهَ الْكَافِرُونَ هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ﴾

***“Allahın nurunu öz ağızları ilə söndürmək (Peyğəmbərin dəvətini, onun dinini və kitabını təkzib və iftira ilə batil etmək) istəyirlər, halbuki, kafirlərin xoşuna gəlməsə də Allah Öz nurunu tamamlayacaqdır.***

***Müşriklərin xoşuna gəlməsə belə, onu (səmavi şəriətlərdən ibarət olan) bütün dinlərdən üstün etmək üçün Öz Rəsulunu hidayət və haqq dinlə göndərən Odur.”***[1]

Məlum olduğu kimi, bu ilahi vədə həm Peyğəmbərin (s) sağlığında, həm də vəfatından sonra bu günə kimi dünyanın hər bir nöqtəsində milyonlarla müsəlmanın həyatında reallaşmaqdadır. Belə ki, Allah-taala başqa bir ayədə buyurur:

﴿كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَتُؤْمِنُونَ بِاللّهِ﴾

***“Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və***

---

1 "Səff" surəsi, ayə: 8-9.

***çirkin işdən çəkindirirsiniz və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz.."***[1]

## HƏZRƏT PEYĞƏMBƏRİN (S) VƏFATI VƏ CANİŞİNLİK MƏSƏLƏSİ

İslamın bütün Ərəbistan yarımadasına hakim olmasına səbəb sonuncu fəth olunmuş Məkkə şəhəri səbəb oldu. Bu şəhər hicrətin səkkizinci ilində İslam qoşunları tərəfindən fəth olundu. Çox keçmədi ki, Taif şəhəri də alındı.

Hicrətin onuncu ilində əziz Peyğəmbərimiz (s) həcc mərasimini yerinə yetirməkdən ötrü Məkkəyə getdi. Mərasim yerinə yetirildikdən sonra camaatla birgə Mədinəyə yola düşdü. Yolda "Qədir Xum" adlanan yerdə karvana dayanmaq əmri verdi. Müxtəlif yerlərdən gəlmiş 120 min hacıya üz tutaraq həzrət Əlinin (ə) canişinliyini hamıya elan etdi.[2]

Bununla da İslam cəmiyyətində müsəlmanlara rəhbərlik, Quran və sünnənin, İslam maarifinin qayda-qanunlarının qorunmasını öhdəsində daşıyan xilafət məsələsi həll olundu. Beləliklə,

﴿يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ﴾

***"Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan!"***[3] – ayəsinin hökmü icra edildi.

Peyğəmbər (s) Mədinəyə qayıtdı. Yetmiş gündən sonra hicrətin 11-ci ili Səfər ayının 28-də dünyasını dəyişdi.

---

1 "Ali-İmran" surəsi, ayə: 110.
2 "Qurbul-əsnad" səh.57; "Kafi", c.1, səh.295; "Müsnədi-Əhməd", c.1, səh.118.
3 "Maidə" surəsi, ayə: 67.

## HƏZRƏT PEYĞƏMBƏRİN (S) HƏYAT TƏRZİ

Həzrət Peyğəmbərin (s) həyat tərzi qısa şəkildə qeyd olundu. O həzrətin tövhid dinini yaymaqdan başqa bir məqsədi yox idi. Gözəl əxlaq, xoş rəftar və dəlil-sübutla xalqı tövhidə dəvət edib öz səhabələrinə bu üslubda təbliğ etməyi tövsiyə edirdi. Belə ki, Allah-Təla Qurani-Kərimdə ona belə göstəriş verir:

﴿قُلْ هَـذِهِ سَبِيلِي أَدْعُو إِلَى اللّهِ عَلَى بَصِيرَةٍ أَنَاْ وَمَنِ اتَّبَعَنِي﴾

***"(Ya Peyəmbər,) de: "Bu mənim yolumdur. Mən və mənə tabe olan hər bir kəs bəsirət və gözüaçıqlıqla Allaha tərəf dəvət edirik. Allah bütün eyib və nöqsanlardan pak (və uzaq)dır və mən müşriklərdən deyiləm. "***[1]

O həzrətin daha çox diqqət yetirdiyi məsələ bu idi ki, İslam cəmiyyətində zimmi qeyri-müsəlman olsa belə hər bir şəxsin hüququ qorunmalıdır. İlahi qanunların icrasında heç bir müstəsna hallara yol verilməməlidir. Hamı haqq-ədalət qarşısında eyni dayanmalıdır. Heç kəs təqvadan başqa bir vasitə ilə başqa bir kəsdən üstün ola bilməz. Var-dövlət, əsil-nəsəb və adi imkanlar hesabına heç kim özünü başqalarından üstün bilməməlidir. Cəmiyyətin yuxarı təbəqələri zəiflərə, imkansızlara zor göstərməməli və böyüklər kiçiklərə rəhm etməlidirlər.

Əziz Peyğəmbərimiz (s) özü də kasıblar kimi yaşayırdı. Görüşlərdə, yığıncaqlarda təşrifata yol vermirdi. Ev işlərini sahmana salır, qapıçı, qoruqçu saxlamırdı. Xalq arasında adi adamlardan seçilmirdi. Yol gedəndə hamıdan qabağa düşməzdi. Bir məclisə daxil olanda ən yaxın boş yerdə oturardı. Məclisin yuxarı və aşağısı olmamaqdan ötrü səhabələrini vadar edərdi ki, dairəvi otursunlar. Rastlaşdığı adama hətta uşaq və ya qadın olsaydı belə birinci salam verərdi. Səhabələrindən biri

---

1 "Yusif" surəsi, ayə: 108.

qarşısında yeri öpüb təzim etmək istərkən ona belə buyurdu: “Sən nə edirsən?! Bu kimi işlər hökmdar və padşahların qaydasıdır. Mənim şənim peyğəmbərlik və bəndəçilikdir.” Daim səhabələrinə tapşırardı ki, camaatın şikayətini və dərdini ona çatdırsınlar. Bu işdə az da olsa səhlənkarlıq etməsinlər.

Deyirlər ki, xalqa tövsiyə etdiyi son sözü qullar və qadınlar haqqında idi. Bu tövsiyəni edəndən sonra sözü kəsildi və bu fani dünyaya göz yumdu. Allahın salamı olsun Ona və pak Əhli-beytinə!

## İMAMƏT

Din və İslam cəmiyyətinin rəhbərliyinə "imamət" deyilir. İslam maarifinin tədqiqatçıları və insafla mühakimə edənlərin nəzərində imamət müqəddəs İslam dininin əsaslarındandır. Allah-taala İslam dininin quruluşunu bəyan edərkən bu məsələni açıq-aşkar qeyd etmişdir.

Şübhəsiz, bəşəriyyət tarixi başlanan gündən dünyanın hər bir nöqtəsində təşkil olunmuş kiçik, ya böyük, mütərəqqi, ya qeyri-mütərəqqi cəmiyyətlər heç vaxt rəhbərsiz olmamışdır. Hər bir mütəşəkkil cəmiyyətin həmişə zor və ya seçki yolu ilə bir rəhbəri olmuşdur. Hətta bir neçə üzvü olan ailəvi kiçik cəmiyyətlərin belə başçısı vardır. Elə buradan da fitri olaraq insana aydın olur ki, hər bir cəmiyyətin rəhbərə ehtiyacı vardır. Allah-taala Rum surəsinin 30-cu ayəsində Öz dinini "fitri din" adlandıraraq bəyan edir ki, bu pak dinin qayda-qanunları insanın pak fitrəti ilə dərk etdiyi məsələlərlə tam surətdə uyğundur. Allah-taala bu ayədə insanın bütün fitri dərklərini və mühakimələrini (onlardan biri də rəhbəriyyət məsələsidir) təsdiqləyir.

### VİLAYƏT HAQQINDA HƏZRƏT PEYĞƏMBƏRİN (S) BƏYANI

Allah-taala əziz Peyğəmbərimiz (s) haqda buyurur:

﴿لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ﴾

***"Həqiqətən sizə özünüzdən olan bir peyğəmbər gəlib ki, sizin əziyyət və zərərə düşməyiniz ona ağırdır; o sizi çox istəyir və möminlərə qarşı çox mərhəmətli və mehribandır."*** [1]

---

1 "Tövbə" surəsi, ayə: 128.

Allah-taalanın buyurduğu kimi öz ümmətinə qarşı bu qədər mehriban və ürəyiyanan bir Peyğəmbər heç vaxt inanmaq olmur ki, İslam cəmiyyəti üçün birinci dərəcəli əhəmiyyət kəsb edən və məntiqlə də vacibliyi təsdiq olunan ilahi hökmə qarşı etinasız olub onu camaata çatdırmaqdan vaz keçsin.

Əziz Peyğəmbərimiz (s) hamıdan yaxşı bilirdi ki, dünyanın ən böyük təşkilatı olan İslam 10-15 illik (müvəqqəti) deyildir. Əksinə, İslam bəşəriyyəti idarə etməkdən ötrü əbədi bir sistemdir. Buna görə də Peyğəmbər (s) min illərlə gələcəyi düşünüb lazım olan göstərişləri verirdi.

Peyğəmbər (s) çox gözəl bilirdi ki, din ictimai bir təşkilatdır və heç bir təşkilat rəhbərsiz bir saat belə öz işini davam etdirə bilməz. Buna görə də dini qayda-qanunları və maarifi qoruyub saxlamaqdan və cəmiyyəti idarə edərək xalqı dünya və axirət səadətinə hidayət etməkdən ötrü bir rəhbərə ehtiyac vardır. Beləliklə, necə təsəvvür etmək olar ki, öz vəfatını düşünməsin və onu unutsun?!

Əziz Peyğəmbərimiz (s) adi bir döyüşə gedəndə, yerinə bir nəfəri qoyur və ələ keçən şəhərlərə vali, döyüşə gedən hər bir qoşuna sərkərdə təyin edirdi. Hətta bəzi vaxtlar belə buyurardı: “Sizin əmiriniz filan kəsdir. Əgər o öldürülsə, filan şəxsdir." Bu qayda ilə İslam cəmiyyətini idarə edən surətdə necə inanmaq olar ki, həzrət Peyğəmbər (s) bu dünyadan köçərkən yerinə bir nəfər təyin etmədi?! İslamın ali və müqəddəs hədəflərinə dərindən nəzər salan şəxs üçün müsəlmanlara rəhbərlik və imamət məsələsi açıq-aşkar həll olunmuşdur.

## PEYĞƏMBƏR (S) TƏRƏFİNDƏN CANİŞİNİN TƏYİN OLUNMASI

Əziz Peyğəmbərimiz (s) müsəlmanlara özündən sonra rəhbərlik məsələsində təkcə quru bəyanatlarla kifayətlənmədi. Elə peyğəmbərliyinin ilk günündən imamət məsələsini tövhid və

nübüvvətlə yanaşı açıq-aşkar bəyan etdi. Din və dünya işlərində həzrət Əlinin (ə) rəhbəriyyətini bütün müsəlmanlara bildirdi.

Qeyd etdiyimiz kimi, sünni və şiə tərəfindən nəql olunan hədislərə görə, dəvətinin ilk günlərində həzrət Peyğəmbər (s) öz yaxınlarını cəm və peyğəmbərliyini elan edərkən, həmin yığıncaqda həzrət Əlinin (ə) imamət və canişinliyini də elan etdi. Belə ki, ömrünün axır günlərində Qədir-Xumda 120 min nəfərin gözü qarşısında həzrət Əlinin (ə) qolundan tutub yuxarı qaldırdı və buyurdu:

"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"[1]

## HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİ HAQDA QISA QEYDLƏR

Əziz Peyğəmbərimiz (s) həzrət Əlini (ə) altı yaşında ikən öz evinə apardı və şəxsən özü onun təlim-tərbiyəsi ilə məşğul oldu. Əli (ə) elə o gündən addım-addım Peyğəmbəri (s) izləyir və sonuncu dəfə o həzrətin pak cənazəsini torpağa tapşıranda ondan ayrılır. Əli (ə) Rəsuli-Əkrəmin (s) məktəbində təlim və tərbiyə almış ilk kamil nümunə, o həzrətə iman gətirmiş ilk şəxs və ondan ayrılan sonuncu şəxsdir.

Hamının təsdiq etdiyinə görə, həzrət Əlinin (ə) "Besət" dövründə əvvəldən axıradək göstərdiyi xidmətləri misilsizdir. Əli (ə) İslam uğrunda gedən ən əhəmiyyətli döyüşlərdə iştirak etmiş, bütün qanlı döyüş meydanlarında müsəlmanların qəhrəmanı və qələbənin açarı olmuşdur. Böyük səhabələrin döyüş meydanlarında dəfələrlə düşmən qarşısından qaçmasına baxmayaraq, o həzrət heç vaxt düşmənə arxa çevirmədi və heç bir rəqibi onun qılınc zərbəsindən canını salamat qurtara bilmədi. Dillər əzbəri olmuş bu misilsiz şücaəti ilə birgə həm də

---

1 "Qürbul-əsnad", səh.57; "Kafi", c.1. səh.295; "Müsnədi-Əhməd" c.1, səh.118.

rəhmdil və mehriban idi: yaralı rəqibini öldürməz, qaçanı isə təqib etməzdi.

Söylədiyi xütbələri, qısa və könül oxşayan kəlamları buna şahiddir ki, Əli (ə) müsəlmanlar arasında Quran elmləri və ali hədəflərinə ən çox vaqif olan kəsdir. O, İslam maarifini yetərincə mənimsəmiş, Rəsuli-Əkrəmin (s) ***“Mən elmin şəhəriyəm və Əli də onun qapısıdır!”*** – kəlamını əməli ilə sübuta yetirmişdir.

Əli (ə) nəfs paklığında, təqvada, zöhddə misilsiz idi. Gündəlik dolanişiği üçün işləyirdi. Əkinçiliyi daha çox sevirdi. Susuz səhraları abadlaşdırır, kəhrizlər düzəldib ağac əkirdi. Abadlaşdırdığı sahələri ya vəqf edərdi, ya da satıb pulunu yoxsullar arasında bölüşdürərdi. Özü isə kasıblar kimi tamamilə zöhd və qənaət içərisində yaşayardı.

Şəhid olduğü gün – böyük İslam dövlətinin rəhbəri olmasına baxmayaraq – evində xərclik üçün cəmi yeddi yüz dirhəm məbləğində pul var idi. O qədər ədalətli idi ki, ilahi hökmlərin icrası və camaatın hüququnun qorunmasından ötrü heç bir müstəsna halı qəbul etməzdi. Şəxsən özü küçə və bazarda gəzib camaatı İslam qayda-qanunlarının icrasına vadar edərdi.

## HƏZRƏT ƏLİ (Ə) VƏ DİGƏR ƏHLİ-BEYT (Ə) ÜZVLƏRİ HAQQINDA SÜBUT OLUNMUŞ FƏZİLƏTLƏR

Bütün müsəlman icması həzrət Əli (ə) və Əhli-beytin (ə) fəziləti haqqında Rəsuli-Əkrəmdən (s) minlərlə hədis nəql etmişlər. Biz bunlardan yalnız üçünü nümunə kimi qeyd edirik:

1) Hicrətin altıncı ilində Nəcran şəhərinin məsihiləri öz alimlərindən bir qrupunu Mədinəyə göndərdilər. Əvvəlcə Peyğəmbərlə (s) mübahisə etdilər, lakin məğlub oldular. Allah-taala "Mübahilə" ayəsini nazil etdi:

﴿فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ﴾

***“Buna görə də sənə elm gəldikdən sonra, onun barəsində (İsa Məsih (ə) haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: Gəlin biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətini yalançılara yağdıraq.”*** [1]

Bu ayənin əmrinə əsasən, əziz Peyğəmbərimiz (s) Nəcran məsihilərinə mübahilə təklif etdi. Belə ki, hər iki tərəf özü, qadınları və övladları ilə birgə üz-üzə dayanıb yalançıları lənətləyərək Allah-taaladan onlara əzab istəyəcəkdi.

Nəcran məsihiləri mübahilə təklifini qəbul edib səhər görüşmək üçün vədələşdilər. Səhər Peyğəmbərin (s) kiminlə gələcəyini gözləyən məsihilər Rəsuli-Əkrəmin (s) yanında Həsən və Hüseyn (ə), ardınca isə həzrət Əli (ə) və xanım Fatimeyi-Zəhranın (s.ə) gəldiyini görüb heyrətləndilər. Həzrət Peyğəmbər (s) onlara tapşırmışdı ki, mən dua edərkən siz də "amin" deyin.

Çöhrələrindən başdan-ayağa həqiqət yağan və Allahdan başqa heç bir kəsə arxalanmayan bu nurani heyəti müşahidə edən Nəcran məsihiləri təşvişə düşdülər. Onların başçısı dedi:

“And olsun Allaha, elə simalar görürəm ki, əgər Allah dərgahına üz tutsalar, yer üzünün bütün məsihilərini məhv edərlər.” Odur ki, əziz Peyğəmbərimizin (s) yanına gəlib ondan mübahilə etməməyi xahiş etdilər. Həzrət Peyğəmbər (s) buyurdu: “Belə isə, İslamı qəbul edin.” Cavab verdilər: “Bunu

---

1 "Ali-İmran" surəsi, ayə: 61.

da edə bilmədiyimiz üçün bizi üzrlü hesab et.” Peyğəmbər (s) buyurdu: “Onda sizinlə döyüşməli olacağıq.” Məsihilər dedilər: “Bizim müsəlmanlarla döyüşməyə gücümüz çatmaz. Bunun müqabilində biz sizə illik xərac verə bilərik.” Beləliklə, münaqişə həll olundu.

## BU ƏHVALATIN NƏTİCƏSİ

Mübahilə məsələsində Əli, Fatimə, Həsən və Hüseyn (Allahın salamı onlara olsun!) həzrətlərinin Peygəmbərlə (s) birgə gəlməsi onu göstərirdi ki, ayədəki (ابنائنا... و نسائنا... وانفسنا) “oğullarımız, qadınlarımız və özümüz” ("Maidə"-61) təbirləri Peyğəmbər (s), Əli (ə) Fatimə (s.ə), Həsən (ə) və Hüseyndən (ə) başqa heç kimə aid deyildi. Başqa sözlə desək, Rəsuli-Əkrəm (s) “özümüz” buyurduqda Özü və Əlini (ə), “qadınlarımız” buyurduqda həzrət Fatiməni (s.ə), “oğullarımız” buyurduqda isə Həsəneyni (ə) nəzərdə tutmuşdur. Buradan da tamamilə aydın olur ki, Əli (ə) əziz peyğəmbərimizin (s) özü kimidir. Peyğəmbər (s) Əhli-beyti dedikdə, bu dörd nəfər nəzərdə tutulur. Çünki hər kəsin ev əhli “özümüz və arvad-uşağımız” kəlməsi ilə ifadə olunur. Əgər bunlardan başqa bir kəs ev əhlindən sayılsaydı, əziz Peyğəmbərimiz (s) onu da mübahiləyə gətirərdi. Məhz buradan da o həzrətlərin məsum olması və isməti bizə aydın olur. Çünki Allah-taala əziz Peyğəmbərimizin (s) Əhli-beytinin (ə) ismət və paklığına şəhadət verir:

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

***“Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-Beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər***

***cür (növ) çirkinliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etmək istəyir.”*** [1]

2) Bütün müsəlman icmasının nəql etdiyinə görə, Peyğəmbər (s) buyurmuşdur:

“Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Kim ona minsə, nicat tapar və kim onunla müxalif olsa, həlak olar.”

3) Bütün müsəlman icmasının nəql etdiyi mütəvatir hədisdə Peyğəmbər (s) buyurmuşdur:

“Mən sizin aranızda əsla bir-birindən ayrılmaz iki qiymətli əmanət qoyub gedirəm. O iki əmanət Allahın kitabı və mənim Əhli-beytimdir. Bunlardan möhkəm yapışın ki, yolunuzu azmayasınız.”

## MƏSUM İMAMLARIN (Ə) TƏYİN OLUNMASI

Həzrət Əlinin (ə) imaməti – məlum olduğu kimi – Allah-taala tərəfindən Rəsuli-Əkrəmin (s) nəssi (aydın ibarəsi) ilə təyin olunmuşdur. Eynilə hər bir məsum imam da Allahın əmrilə özündən sonra gələn imamı camaata tanıtdırdı. Belə ki, müsəlmanların birinci imamı və rəhbəri olan həzrət Əmirəlmöminin Əli (ə) bu dünyadan köçərkən, oğlu imam Həsəni (ə) və imam Həsən (ə) da vəfat edərkən qardaşı imam Hüseyni (ə) və beləcə, axıra kimi on iki imamın (ə) hər biri özündən sonrakı imamı təyin etmişdir. Hər bir imamın özündən sonra gələn imamı təyin etməsindən əlavə, Peyğəmbər (s) də bütün müsəlman icmasından nəql olunan hədislərə görə, məsum imamların on iki nəfərdən ibarət olmasını, hətta bəzi hədislərdə onların adlarını belə, açıq-aşkar söyləmişdir.

---

1 "Əhzab" surəsi, ayə: 33.

## ON İKİ İMAMIN (Ə) HƏYATI HAQQINDA XRONİKİ TARİX

BİRİNCİ İMAM

Əmirəlmöminin Əli ibn Əbu Talib (ə)

Təvəllüdü: Hictətdən 23 il əvvəl
Xilafəti: Hicrətin 35-ci ili
Vəfatı: Hicrətin 40-cı ili
Xilafət dövrü: Təqribən, beş il
Ömrü:63 il

İKİNCİ İMAM

Həzrət imam Müctəba (ə)

Adı: Həsən (ə)
Məşhur ləqəbi: Müctəba
Künyəsi: Əbu Mühəmməd
Atası: Həzrət Əmirəlımöminin Əli (ə)
Təvəllüdü: Hicrətin ikinci ili
Şəhadəti: Hicrətin 50-ci ilində Müaviyənin təhriki ilə öz həyat yoldaşı tərəfindən zəhərləndi.
İmamət dövrü: 10 il
Ömrü: 48 il

ÜÇÜNCÜ İMAM

Həzrət Seyyidüş-Şühəda (ə)

Adı: Hüseyn
Ləqəbi: Seyyidüşşühəda
Künyəsi: Əbu Əbdullah
Atası: Həzrət Əmirəlmöminin Əli (ə)

Təvəllüdü: Hicrətin 4-cü ili
Şəhadəti: Hicrətin 61-ci ilində Yezid ibn Müaviyənin əmri ilə qətlə yetirildi.
İmamət dövrü: 10 il
Ömrü: 57 il

DÖRDÜNCÜ İMAM

Həzrət imam Səccad (ə)

Adı: Əli
Ləqəbi: Səccad və Zeynülabidin
Künyəsi: Əbu Mühəmməd
Atası: Həzrət imam Hüseyn (ə)
Təvəllüdü: Hicrətin 38-ci ili
Vəfatı: Hicrətin 94-cü ilində Hişam ibn Əbdül Məlikin göstərişi ilə zəhərlənmişdir.
İmamət dövrü: 35 il
Ömrü: 66 il

BEŞİNCİ İMAM

Həzrət imam Baqir (ə)

Adı: Mühəmməd
Ləqəbi: Baqir
Künyəsi: Əbu Cəfər
Atası: Həzrət imam Səccad (ə)
Təvəllüdü: Hicrətin 58-ci ili
Vəfatı: Hicrətin 117-ci ilində İbrahim ibn Vəlidin əlilə zəhərləndi.
İmamət dövrü: 23 il
Ömrü: 59 il

## ALTINCI İMAM

### Həzrət imam Sadiq (ə)

Adı: Cəfər
Ləqəbi: Sadiq
Künyəsi: Əbu Əbdullah
Atası: Həzrət imam Mühəmməd Baqir (ə)
Təvəllüdü: Hicrətin 80-ci ili
Vəfatı: Hicrətin 148-ci ilində Mənsur Abbasinin göstərişi ilə zəhərləndi.
İmamət dövrü: 31 il
Ömrü: 68 il

## YEDDİNCİ İMAM

### Həzrət imam Kazim (ə)

Adı: Musa
Ləqəbi: Kazim
Künyəsi: Əbülhəsən
Atası: Həzrət imam Cəfər Sadiq (ə)
Təvəllüdü: Hicrətin 128-ci ili
Vəfatı: Hicrətin 182-ci ili
İmamət dövrü: 35 il
Ömrü: 54 il

## SƏKKİZİNCİ İMAM

### Həzrət imam Riza (ə)

Adı:Əli
Ləqəbi: Riza
Künyəsi: Əbülhəsən
Atası: Həzrət imam Museyi-Kazim (ə)
Təvəllüdü: Hicrətin 148-ci ili
Vəfatı: Hicrətin 203-cü ilində Məmun Abbasinin əlilə zəhərləndi.

İmamət dövrü: 21 il
Ömrü: 55 il

### DOQQUZUNCU İMAM

#### Həzrət imam Mühəmməd Təqi (ə)

Adı: Mühəmməd
Ləqəbi: Təqi və Cavad
Künyəsi: Əbu Cəfər
Atası: Həzrət imam Riza (ə)
Təvəllüdü: Hicrətin 195-ci ili
Vəfatı: Hicrətin 220-ci ilində Mötəsim Abbasinin təhriki və öz həyat yoldaşının vasitəsilə zəhərlənmişdir.
İmamət dövrü: 17 il
Ömrü: 25 il

### ONUNCU İMAM

#### Həzrət imam Əliyyən-Nəqi (ə)

Adı: Əli
Ləqəbi: Hadi və Nəqi
Künyəsi: Əbülhəsən
Atası: Həzrət imam Mühəmməd Təqi (ə)
Təvəllüdü: Hicrətin 214-cü ili
Vəfatı: Hicrətin 254-cü ili
İmamət dövrü: 34 il
Ömrü: 40 il

### ON BİRİNCİ İMAM

#### Həzrət imam Əskəri (ə)

Adı: Həsən
Ləqəbi:Əskəri
Künyəsi: Əbu Mühəmməd
Atası: Həzrət imam Əliyyən-Nəqi (ə)

Təvəllüdü: Hicrətin 232-ci ili
Vəfatı: Hicrətin 260-cı ili
İmamət dövr: 7 il
Ömrü: 28 il

## ON İKİNCİ İMAM

### Həzrət imam Zaman (ə)

Adı: Muhəmməd
Ləqəbi: Hadi və Məhdi
Künyəsi: Əbülqasim
Atası: Həzrət imam Həsən Əskəri (ə)
Təvəllüdü: Hicrətin 256-cı ili
O həzrət Allahın əmrilə gözlərdən qaibdir. Bir gün Allahın əmrilə zühur edəcək və yer üzünü ədalətlə dolduracaqdır.

## MƏSUM İMAMLARIN (Ə) ÜMUMİ HƏYAT TƏRZİ

On iki imamın (ə) həyatına nəzər salsaq və hər birinin yaşayış dövrünü araşdırsaq, görərik ki, onların hamısı oxşar həyat tərzi sürmüş, eyni məqsəd daşımışlar. Bu da keçən bəhslərdə qeyd etdiyimiz Peyğəmbərin (s) həyat tərzi və yaşayışıdır. Məsum imamların (ə) hamısının eyni məqsədi var idi. Bu da məhz Allah dininin qorunması və İslam maarifinin təbliğ və yayımlanmasından ibarət idi. Bu müqəddəs vəzifəni yerinə yetirməkdə heç bir şeyi əsirgəməmiş, bacardıqca aşkar surətdə, əks təqdirdə isə gizli olaraq saleh insanların yetişdirilməsi ilə məşğul olmuşlar. Onlar bütün ömürlərini Allah dininin yayılmasına həsr etmiş, bütün varlıqlarını bu yolda qurban vermiş, canlarını belə Allah yolunda insanların hidayət olunmasından ötrü fəda etməkdən çəkinməmişlər. Həmişə haqqı demələri, zülm və zalımlara qarşı yorulmadan mübarizələri zülmkarların qanlı əllərinin onlara uzanmasına səbəb oldu. Belə ki, gah evləri yandırılır, qaranlıq, qorxulu, dəhşətli, nəm zindanlarda işkəncələrə məruz qalır, gah da əsir kimi zəncirlənərək şəhərbəşəhər gəzdirilirdilər. Onlar bütün bu bəlaları, məşəqqətləri Allah yolunda heç bir şey bilib məhəbbət dolu qəlb və yüksək ruhiyyə ilə İslamı təbliğ edir, insanların xoşbəxt həyata hidayət olunmasından ötrü gecə-gündüz çalışırdılar. Xalq arasında olduqları 250 il ərzində həmişə müxaliflərin güclü mübarizələri ilə üzləşdilər. Allah nurunu söndürməkdən ötrü bu müxaliflər məsum rəhbərlərin qətlə yetirilməsindən belə çəkinmədilər.

Lakin məsum imamların həyatını araşdırdıqda, görürük ki, İslamın ali məqsədlərini həyata keçirməkdən ötrü onlar dövrün şəraitinə görə ən uyğun yolu seçmişlər.

## ƏMİRƏLMÖMİNİN ƏLİNİN (Ə) ÜSLUBU

Əziz Peyğəmbərimizin (s) vəfatından sonra hələ o həzrətin pak cənazəsi torpağa tapşırılmamış Əli (ə) və Bəni-Haşim dəfn işləri ilə məşğul olarkən, bir qrup Peyğəmbər (s) səhabəsi həzrət Əliyə (ə) heç bir xəbərdarlıq etmədən Mədinədən kənarda yığışdılar, həzrət Peyğəmbərə (s) canişin təyin edib həzrət Əmirəlmöminini (ə) kənarlaşdırdılar. Halbuki həzrət Peyğəmbər (s) açıq-aşkar özündən sonra müsəlmanlara rəhbər olaraq həzrət Əlini (ə) təyin etmişdi. O həzrət İslam yolunda göstərdiyi fədakarlıqlara, elm və əməl baxımından üstün olduğuna görə, bu məqama hamıdan daha layiq idi. Ən azından, müşavirədə iştirak etmək haqqı var idi.

O həzrət öz həqqaniyyəti barədə höccətini tamamladıqdan sonra, bir kənara çəkilib həqiqət aşiqlərinin təlim-tərbiyəsilə məşğul oldu. 25 illik müddət ərzində qılıncı qınına qoydu, öz haqqını tələb etməkdən ötrü qanlı mübarizəyə girişmədi. Əslində, mübarizə heç mümkün də deyildi. Çünki xilafət zahirdə elə bir qiyafəyə düşmüşdü ki, uğrunda aparılan mübarizə haqqı bərpa etməkdən çox, taxt-tac üstündə gedən çəkişmələrə bənzəyəcəkdi.

Bundan əlavə, əgər həzrət Əli (ə) qanlı mübarizəyə qalxsaydı, müsəlmanlar arasında ixtilaf düşəcəkdi və İslamın məhvi üçün həmişə pusquda dayanan münafiq, yəhudi və məsihilər yaranmış vəziyyətdən istifadə edərək İslamı kökündən qoparıb bütpərəstliyi yenidən bərpa edəcəkdilər. Bir tərəfdən də Müseyləmeyi-Kəzzab kimi yalançı peyğəmbərlərin zühur etməsi o həzrətin öz haqqına göz yumub sükut etməsinə səbəb oldu.

Həzrət Əli (ə) bu müddətdə (25 illik xanənişinlik) bir sıra görkəmli alimlər yetişdirib İslam elmlərini onlara öyrətdi. Belə ki, 25 illik xanənişinlikdən sonra hakimiyyət başına gələrkən ətrafına yüz minlərlə insan toplaşdı.

Beş illik zahiri xilafəti dövründə isə bir çox daxili çəkişmələrlə üzləşdi. İslam ideologiyasını yaymaqdan və ictimai ədaləti bərpa etməkdən ötrü bir an belə yorulmadan çalışdı və nəhayət, şəhid oldu.

## İMAM HÜSEYNİN (Ə) İNQİLABI

Həzrət Əmirəlmömininin (ə) şəhadətindən sonra hakimiyyətə çatdığı bir neçə ay ərzində Müaviyə seçki xilafətini zülmkar səltənətə çevirdi. Şəhərlərdə təyin etdiyi valilərinin vasitəsilə Əli (ə) məktəbinin ardıcıllarını arayıb tapmağa və təqib etməyə başladı. Əlinə keçəni məhv edirdi. Müxtəlif vasitələrlə o həzrətin din təlimlərinin qarşısını almağa çalışırdı. Həqiqi müsəlmanlara və həzrət Əlinin (ə) tərəfdarlarına açıq-aşkar zülm etməkdən çəkinmirdi. Özü də bütün cinayətlərinə dini don geyindirirdi. Xüsusilə, əksəriyyəti Peyğəmbər (s) səhabəsi olan hökumət işçiləri onun cinayətlərini müxtəlif bəhanələrlə ört-basdır edirdilər. Onu “Xalul-möminin” (möminlərin dayısı) adlandırır (çünki Peyğəmbərin (s) xanımlarından biri Müaviyənin bacısı idi. Peyğəmbər (s) xanımlarına da “ümmül-möminin” (möminlər anası) deyilir), vəhy katibi və Peyğəmbərin (s) vəfalı silahdaşı kimi tanıtdırırdılar.

Lakin Müaviyənin vəfatından sonra hakimiyyəti ələ keçirən Yəzid bu üslubu dəyişərək açıq-aşkar dinə müxalif oldu. Onun bu napak hakimiyyət tərzi az bir zamanda xalq arasında hələ diri qalmış dinin zahirini belə aradan aparırdı. Heç kim də qüdrətli Bəni-Üməyyə səltənətinə qarşı çıxmağa cəsarət etmirdi.

Bunu hamıdan daha yaxşı dərk edən imam Hüseyn (ə) – öz kəlamlarında buyurduğu kimi – pak qəlbli silahdaşları ilə mübarizəyə qalxmaqdan başqa bir çarə görmədi. Qanlı mübarizə ilə İslamın çöhrəsini öz azadlıq qanı ilə boyadı. Bununla da İslamı daim təhdid edən zülmkarlara qarşı azadfikirli mübariz insanlar yetişdirdi. Bunlar səbəb oldu ki, imam Hüseyn (ə) Yəzidə beyət etməyib onunla qanlı mübarizəyə qalxsın. Həcc mövsümündə minlərlə hacının gözü qarşısında Məkkəni tərk edib İraqa yola düşdü. Yol boyu, Yəzidin qoşunları tərəfindən mühasirədə olduğu Kərbəla çölündə dəfələrlə nitq söylədi, özünün və silahdaşlarının öldürüləcəyini bildirdi. Bununla belə, ətrafındakı yaxınları arasında vəfalı şəxslərin olduğunu və onu tək qoymayacaqlarını, hamı gedərsə belə, onlardan bir dəstəsinin onunla qalacağını bilirdi.

İmam Hüseyn (ə) sayca az olmalarına baxmayaraq, pak bir qoşun hazırlamağı qərara aldı. Belə ki, bu qoşunun hər bir əsgəri son damla qanına qədər vuruşaraq Allah yolunda canını qurban verməyə hazır olmalı idi.

Belə də oldu. O həzrət hicrətin 61-ci ili Məhərrəm ayının onunda öz vəfalı silahdaşları ilə birgə Yəzidin qoşunu ilə vuruşdu. Özü və qoşunun bir hissəsini təşkil edən oğulları, qardaşı oğulları, bacısı oğlanları, əmi oğlanları, qardaşları və səhabələri böyük bir müsibətlə şəhid oldular. Ölümü zalımlarla birgə yaşamaqdan üstün tutdular. Yəzidin qoşunu pak cənazələrin kəsilmiş başlarını nizələrə taxdı, Kərbəladan Kufəyə, Kufədən də Şama apararaq camaatın gözü qarşısında gəzdirdi. İçərisində həzrət Zəhranın (s) qızları, imam Həsən (ə) və imam Hüseynin (ə) xanımları, qızları, həmçinin, dördüncü imam həzrət Səccad (ə) və beşinci imam həzrət Baqir (ə) olmaqla bütün əsirləri çılpaq dəvələrə mindirərək şəhərbəşəhər

gəzdirdilər. Xülasə, elə bir cinayət törətdilər ki, İslam aləmində və bəşər tarixində görünməmiş idi.

## ŞƏHADƏTİN DƏRİN TƏSİRİ

İmam Hüseynin (ə) şəhadəti İslam aləmində elə bir inqilab yaratdı ki, on iki il şiddətlə davam etdi. Bunun ardınca, nəhayət əməvilər səltənətini büsbütün bürüdü. Bu şəhadətin ən əsas təsiri bundan ibarət idi ki, Əhli-beyt düşmənlərinə kəskin nifrət bəsləyən, haqq və ədalətdən başqa heç bir məqsəd daşımayan azad və mübariz müsəlmanlar yetişirdi.

## İMAM BAQİR (Ə) VƏ İMAM SADİQİN (Ə) ELMİ MÜBARİZƏSİ

İmam Hüseynin (ə) şəhadətindən sonra – Əhli-beyt (ə) tərəfdarlarının günbəgün artmasına baxmayaraq (Bəni-Üməyyə hökumətinin Əhli-beyt (ə) tərəfdarlarına qarşı göstərdikləri təqib və təzyiqlərə görə) İslam maarifini yaymaqdan ötrü imam Səccad (ə) üçün lazım olan münasib şərait yox idi.

İmam Məhəmməd Baqirin (ə) imamətinədək Əməvi hökuməti Bəni-Abbasla apardığı daxili çəkişmələr nəticəsində zəifləyib dağılmağa başladı. Bu səbəbdən, Əhli-beyt (ə) tərəfdarları və imam Səccadın (ə) 35 illik iməməti dövrünün yetirmələri hər tərəfdən imam Baqirin (ə) evinə axışaraq İslam elmlərini mənimsəməyə başladılar.

O həzrətdən sonra isə oğlu imam Cəfər Sadiq (ə) İslam maarifinin təlim və tədrisini davam etdirdi. Dünyanın hər yerindən o həzrətin hüzuruna gələn alimləri qəbul edib təlim və tərbiyələri ilə məşğul olmağa başladı. O həzrətin zəhməti nəticəsində minlərlə alim ölkə və şəhərlərə yayılaraq elmi fəaliyyətə başladılar.

İmam Sadiq (ə) məktəbinin tələbələrindən “Üsuli ərbəə-miə” adlı şiə alimləri arasında məşhur olan dörd yüz kitab yadigar qaldı.

Sonrakı məsum imamlar da bu iki İmamın (ə) işini davam etdirib İslam elmlərinin təlim və tədrisi ilə məşğul oldular. Abbasi xəlifələrinin kəskin təzyiqinə baxmayaraq, çoxlu sayda alimlər yetişdirib İslam elmlərini onlara öyrətdilər. Bütün məsum imamların (ə) zəhməti nəticəsində bu gün milyonlarla haqpərəst insanlar dünyanın müxtəlif yerlərində yaşayırlar.

## MƏAD

Məad İslam dininin üçlük təşkil edən əsaslarından və zəruri məsələlərindəndir. Yüzlərlə Quran ayəsi, əziz Peyğəmbərimiz (s) və məsum imamlardan (ə) nəql olunan minlərlə hədis açıq-aşkar bəyan edir ki, Allah-taala müəyyən bir gündə bütün insanları öləndən sonra dirildəcək və onlardan hesab alacaqdır. Əməlisaleh insanlara əbədi nemət və ləzzət bəxş edəcək, günahkarları isə əməllərinə görə həmişəlik əzabla cəzalandıracaqdır.

Allah-taala Qurani-Kərimdə buyurur ki, bütün peyğəmbərlər Qiyamət gününü insanlara xatırlatmışlar.

İslam dini kimi digər səmavi dinlər də məadı isbat etmişdir. Bundan əlavə, arxeoloji qazıntılar nəticəsində qədim qəbirlərin tapıntıları göstərir ki, keçmiş insanlar da bir növ ölümdən sonrakı həyata inanmışlar. Buradan da aydın olur ki, insan öz sadə düşüncəsilə əməlisaleh və günahkar insanlar üçün bir mükafat və cəza gününün bərpa olunacağına inanır. Bu dünyada isə belə bir gün olmadığından, axirət dünyasının olması zəruridir.

# İKİNCİ HİSSƏ:
# ƏXLAQ

## ÖVLADIN VALİDEYN ÜZƏRİNDƏ HAQQI

İnsanın başqasının xeyrinə gördüyü bir sıra işlərə “haqq” deyilir. Haqq ödəmək isə həmin şəxsin üzərində “vəzifə”, “hökm” və “təklif” kimi sözlərlə ifadə olunur. Məsələn, işçinin muzdunu ödəmək iş sahibinin vəzifəsi və işçinin haqqıdır. Əgər iş sahibi muzdu ödəməzsə, işçi ondan öz haqqını tələb edə bilər.

İnsan elə xəlq olunmuşdur ki, bu dünyadakı həyatı əbədi deyildir. İstər-istəməz bir neçə müddətdən sonra bu dünyadan köçür. Allah-taala insan nəslinin kəsilməməsindən ötrü onda nəsilartırma vasitələri yaratmış və daxili hisslərini bu məsələyə diqqət etməyə yönəltmişdir.

Bu kamil yaradılış nəticəsində insan təbii olaraq öz övladını ürəyinin bir parçası, onun varlığını öz varlığı kimi təsəvvür edir. Övladının rahatlığı və xoşbəxtliyi üçün hər cür zəhmətə qatlaşır. Çünki onun məhvini özünün məhv olması kimi bilir. Həqiqətdə isə insan nəslinin kəsilməməsini nəzərdə tutan yaradılış qanunlarına itaət edir.

Deməli, övlad barəsində vicdan və şəriətin ittifaqda olduğu hökmü yerinə yetirmək valideynin vəzifəsidir, layiqli insan olmaqdan ötrü onu düzgün böyütməlidir. İnsanlıq baxımından özlərinə rəva gördüklərini ona da rəva görməlidirlər. Aşağıda bunlardan bir neçəsini qeyd edək:

1. Söz və ya işarə ilə başa düşən gündən gözəl əxlaqı onun ruhunda yaradaraq möhkəmlətməlidirlər. Bacardıqları qədər onu xürafi şeylərdən qorxutmamalı və əxlaqsız əməllərdən çəkindirməlidirlər. Özləri də onun yanında yalan danışmaqdan, söyüş söyməkdən və nalayiq sözlər deməkdən çəkinməlidirlər. Alicənab və tərbiyəli böyüməsindən ötrü onun qarşısında gözəl işlər görməlidirlər. Məsuliyyətli, çalışqan və ədalətli olmağı büruzə verməlidirlər ki, “əxlaqi keçicilik” qanunu üzündən

onda da haqpərəstlik və insanpərvərlik ruhu yaransın, zorakılıqdan, alçaqlıqdan və eqoistlikdən uzaqlaşsın.

2. Pisi yaxşıdan seçə bilmək həddinə çatmayana qədər yemək, yatmaq və sair həyati ehtiyaclarını ödəsinlər. Sağlamlığına diqqət yetirməlidirlər ki, sağlam orqanizm vasitəsilə gələcəkdə veriləcək təlim-tərbiyəyə hazır olsun.

3. Təlim-tərbiyə yaşına (adətən yeddi yaşa) çatarkən onu müəllim yanına aparsınlar. Bunun üçün də yaxşı müəllim seçmək lazımdır ki, öyrəndikləri onda müsbət təsir qoysun, onun tərbiyəli, əxlaqlı olmasına və ruhunun saflaşmasına səbəb olsun.

4. Müəyyən bir yaşa çatdıqda ictimai qayda – qanunlara və gözəl davranışlara yiyələnməkdən ötrü onu özləri ilə ümumi yığıncaqlara və ailəvi qonaqlıqlara aparsınlar.

## VALİDEYNİN ÖVLAD ÜZƏRİNDƏ HAQQI

Müqəddəs şəriət və vicdan harayı valideyni övlad qarşısında vəzifəli bildiyi kimi, övladı da valideyn qarşısında vəzifəli bilib onlara hər vasitə ilə yaxşılıq etməyi vacib buyurmuşdur.

Ata-ana Allahın iznilə övladı dünyaya gətirmiş, onun rahatlığına görə öz həyatını fəda etmiş, gecələri yuxusuz qalıb gündüzləri zəhmət çəkərək onun sağlam böyüməsi üçün ömürlərini sərf etmişlər. Ata-ananı incitmək, qocalıqda onların əlindən tutmamaq nankorluq və namərdlikdir.

İslam insanın birinci vəzifəsi olan Allaha itaətdən sonra ikinci vəzifəsini ata-anaya yaxşılıq etmək təyin etmişdir:

﴿وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا﴾

***“Və Rəbbin Ondan başqasına ibadət etməməyinizi və ata-anaya (öz valideyinlərinizə) yaxşılıq etməyinizi qəti hökm etdi.”*[1]**

Müqəddəs İslam dininin təyin etdiyi hüquqlara əsasən, övladın heç vaxt öz valideynlərinə alçaq nəzərlə baxmağa və ya onları hər hansı bir rəftarı ilə incitməyə haqqı yoxdur. Övlad həmişə ata-anaya ehtiram göstərib onlara qarşı təvazökar olmalı, xüsusilə qoca yaşlarında onlara yaxşılıq etməli, heç bir şeyi onlardan əsirgəməməlidir. Lakin bunu da bilmək lazımdır ki, onların razılığını cəlb etmək yalnız müstəhəb və mübah əməllərdədir. Vacib əməllərdə isə onların razılığına riayət etmək lazım deyildir.

## QARDAŞLARIN VƏ BACILARIN BİR-BİRİNƏ QARŞI HAQQI

Qurani-Kərimdə qohumlar haqqında dəfələrlə tövsiyə olunmuş və qohumluq əlaqəsini kəsmək qəti qadağan edilmişdir. Bacı-qardaş insana ata, ana və övladdan sonra ən yaxın kəslərdir. Onlar arasındakı ictimai əlaqə təbii və bütün əlaqələrdən daha sıx və möhkəmdir. Nəsil bağlılığını tərk etmək məhz qardaşların və bacıların öhdəsinə düşən vəzifədir. Onlar bir-birinə kömək etməli, dar gündə bir-birinə arxa olmalıdırlar. Böyüklər kiçiklərə qarşı mehriban və qayğıkeş olmalı, kiçiklər də böyüklərə ehtiram göstərməlidirlər.

## İZZƏTİ-NƏFS VƏ DÜZ İLQARLI OLMAQ

Yaradılış sistemi insanı ictimai və qarşılıqlı həmkarlığa ehtiyaclı yaratdığından, ona elə fitri imkanlar vermişdir ki, cəmiyyətdə

---

1 "İsra" surəsi, ayə: 23.

öz şəxsi qüdrəti ilə qarşıya çıxan çətinlikləri həll edib gördüyü işin bəhrəsi ilə özünü dolandırsın.

Buradan da aydın olur ki, izzəti-nəfs sifəti həyatda özünün təbii qüvvələrindən istifadə etməsindən, öz məqsədinə çatmaqdan ötrü bu qüvvələri işə salmaqdan və başqalarına söykənməməkdən ibarətdir. Bu isə insanın fitri əxlaqi keyfiyyətlərindəndir.

İzzəti-nəfs insanı alçaqlıqdan, nalayiq və yaramaz əməllərdən qoruyan bir səddir.

İzzəti-nəfsi olmayan kəs onun-bunun əlinə göz dikib asanlıqla öz şəxsiyyətini, mənliyini başqalarına satar. Hər nə desələr edər, fitri azadlığını, namusunu, qeyrətini, izzətini, şərafətini belə ondan istəsələr, verər.

Adam öldürmək, quldurluq, oğurluq, cibgirlik, xəyanət, yalançılıq, fırıldaqçılıq, satqınlıq, vətənə xəyanət kimi cinayətlərin əksəriyyəti tamahın və başqalarına tərəf yıxılmağın nəticəsidir.

Lakin izzəti-nəfsi olan kəs Allahdan başqa heç bir qüvvənin, qüdrətin qarşısında diz çökmür. Həmişə haqqı müdafiə edir. İzzəti-nəfs insanın öz mənliyini, düzgünlüyünü qorumasından ötrü ən yaxşı vasitədir.

## YOXSULLARA YAXŞILIQ

Aydın məsələdir ki, cəmiyyətdə yoxsullara, kasıblara, kimsəsizlərə yardım olunmalıdır. Onlara kömək göstərmək hər bir imanlı şəxsin borcudur. Məqsəd budur ki, heç kim bu haqqı tapdalamasın. Müqəddəs İslam şəriəti də bu haqqın riayət olunmasına dönə-dönə təkid etmiş, varlılara yoxsul və kimsəsizlərə əl tutmağı göstəriş vermişdir.

Allah-taala Qurani-Kərimdə Özünü bağışlayan və mehriban tanıtdırıb bəndələrini də bu sifətə malik olmağa dəvət edir. Belə ki, Qurani-Kərimdə buyurur:

﴿إِنَّ اللّهَ مَعَ الَّذِينَ اتَّقَواْ وَّالَّذِينَ هُم مُّحْسِنُونَ﴾

***"Şübhəsiz, Allah təqvalı olanlarla və yaxşı işlər görən kəslərlədir."*[1]**

﴿وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ فَلأنفُسِكُمْ﴾

***"(Allah yolunda) nə mal xərcləyirsinizsə öz xeyrinizədir."*[2]**

﴿وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ يُوَفَّ إِلَيْكُمْ وَأَنتُمْ لاَ تُظْلَمُونَ﴾

***"(Allah yolunda) xərclədiyiniz hər bir mal (onun mükafatı və ya onun eynilə özü axirətdə) kamil surətdə sizə veriləcək, sizə əsla zülm olunmayacaq, haqqınızdan kəsilməyəcəkdir."*[3]**

İctimai vəziyyəti və yaxşılığın faydalarını diqqətlə araşdırdıqda, bu mübarək ayələrin məzmunu bizə aydınlaşır. Çünki əslində bütün cəmiyyət hamı üçün işləyir. Əgər bir qrup insan yoxsulluq nəticəsində ağır vəziyyətə düşərək cəmiyyətdə işsiz qalırsa, istehsal da azalaraq onun ağır nəticələri hamını haqlayır. İş o yerə gəlib çatır ki, varlılar hamıdan daha pis vəziyyətə düşürlər.

Lakin varlılar yoxsul və kimsəsizlərə əl tutsalar, bunun müsbət nəticələri elə onların özünə qayıdacaqdır:

1. Bununla başqalarının qəlbində özlərinə qarşı məhəbbət yaratmış olurlar;

2. Az xərclə böyük ehtiram kəsb etmiş olurlar;

1 "Nəhl" surəsi, ayə: 128.
2 "Bəqərə" surəsi, ayə: 272.
3 "Bəqərə" surəsi, ayə: 272.

3. Xalqın dayağını qazanmış olurlar. Çünki xalq xeyirxah insanları həmişə müdafiə edir;

4. Yoxsulların qiyam edəcəyi gündən amanda qalmış olurlar;

5. Allah yolunda infaq etdikləri – cəmiyyətdə iqtisadi vəziyyətin düzəlməsilə – elə onların özlərinə qayıdır;

Allah yolunda infaq etmək barədə saysız-hesabsız ayə və hədislər vardır.

## HƏMKARLIQ

Qeyd olunan xeyriyyəçilik və yaxşılıq cəmiyyətin əsasını təşkil edən həmkarlığın müxtəlif bölmələrindəndir. Çünki cəmiyyətin həqiqəti insanların bir-birinə əl tutmasıdır. Bir-birinə kömək etməklə hamının işi düzəlir, yaşayış yaxşılaşır və bütün çətinliklər və porblemlər həll olur.

Belə təsəvvür etmək olmaz ki, müqəddəs İslam dini xeyirxahlığı yalnız var-dövlətdə görmüşdür. Hər bir çarəsizə maddi köməyə ehtiyac olmasa belə – əl tutmaq İslamın göstərişlərindən və vicdanın istəklərindəndir.

Savadsıza bilik vermək, korun əlindən tutmaq, yolunu azmışı hidayət etmək, ağır vəziyyətə düşmüş şəxsə kömək göstərmək kimi əməllərin hamısı yaxşılıq və xeyirxahlıqdır. Bu, cəmiyyəti təşkil etdiyimiz ilk gündən təsdiqlədiyimiz həmin həmkarlıqdır. Aydındır ki, insan əgər ikinci dərəcəli işlərin bəzisini yerinə yetirməsə, əsaslı işləri də yerinə yetirməyəcəkdir. Qeyri-əhəmiyyətli kiçik vəzifələrə riayət etməzsə, böyük və əhəmiyyətli vəzifələrə də riayət etməyəcəkdir.

## XEYRİYYƏÇİLİYƏ TƏŞƏBBÜS GÖSTƏRMƏK

Xeyriyyəçilik nəticələrinə görə bəyənilir. Nəticə və təsirləri nə qədər davamiyyətli və geniş olarsa, xeyriyyəçilik də bir o qədər bəyəniləcək.

Bir xəstənin müalicə olunması xeyir iş və ehsandır, amma gündə yüzlərlə xəstənin müalicəsi üçün tikilmiş xəstəxana ilə müqayisə oluna bilməz.

Bir tələbəyə dərs öyrətmək bəyənilən bir işdir, lakin yüzlərlə tələbənin təhsil aldığı institutun açılması ilə müqayisə oluna bilməz.

Buna görə də ümumi və hər cəhətli vəqflər xeyriyyəçiliyin ən üstün və ən ali dərəcələrindəndir. Müqəddəs İslam dinində belə xeyriyyəçilik "sədəqeyi-cariyə" adlanır. Əziz Peyğəmbərimiz (s) buyurmuşdur:

“İki şey iftixardır: saleh övlad və sədəqeyi-cariyə.”[1]

Ayə və hədislərdən məlum olduğu kimi, bu "sədəqeyi-cariyə" davam etdiyi vaxta qədər həmin şəxsin əməl dəftərinə savab yazılır.

## YETİM MALINA TƏCAVÜZ

Yaxşılıq din və məntiq baxımından bəyənildiyi kimi, Allah bəndələrinə pislik də xoşagəlməzdir. Lakin müqəddəs şəriətdə bəzi pislik daha şiddətli surətdə qadağan edilmişdir ki, onlardan biri yetim malına təcavüzdür.

İslam dini yetim malını yeməyi böyük günahlardan hesab edir. Qurani-Kərimdə açıq-aşkar deyilir ki, yetim malını yeyən şəxs həqiqətdə cəhənnəm alovunu yemişdir. Tezliklə həmin şəxs

1 "Dəaimul-İslam", c.2, səh.340

cəhənnəm alovuna atılacaqdır.[1] Məsum imamlardan (ə) nəql olunan hədislərdən aydın olur ki, yetim malı barədə bu qədər təkid ona görədir ki, yaşlı adamın malına təcavüz edərkən o öz haqqını qoruya bilir. Amma azyaşlı yetim uşaq öz haqqını qorumağı bacarmır.

## ADAM ÖLDÜRMƏK

Müqəddəs İslam dinində ən pislənən zülmlərdən biri də günahsız yerə adam öldürməkdir. Adam öldürmək böyük günahlardandır. Allah-taala Öz kəlamında günahsız bir adamı öldürməyi bütün insanları öldürməklə bərabər tutur.[2] Çünki günahsız insanı öldürən şəxs insaniyyətlə düşməndir. İnsaniyyət isə bir nəfərdə də, min nəfərdə də eynidir.

## ALLAH RƏHMƏTİNDƏN MƏYUS OLMAQ

İslamda ən xətərli sayılan günahlardan biri də Allah mərhəmətindən məyus olmaqdır. Allah-taala buyurur:

﴿قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ﴾

***“De: Ey Mənim (günah vasitəsi ilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!”***[3]

Başqa bir ayədə Allah rəhmətindən məyus olan şəxsi kafir adlandırır. Çünki Allah rəhmətindən məyus olan kəs xeyir əməllər görmək və böyüklü-kiçikli bütün günahlardan çəkinməkdən ötrü daha daxili təkanverici qüvvəyə (stimula)

---

1 "Nisa" surəsi, ayə: 10.
2 "Maidə" surəsi, ayə: 272.
3 "Zümər" surəsi, ayə: 54.

malik deyildir. Belə ki, bu iki şeydə əsas təkanverici amil Allah rəhmətinə ümid bəsləmək və cəhənnəm əzabından nicat tapmaqdır. Bu isə həmin şəxsdə artıq yox olub getmişdir. Belə bir şəxs heç bir dinə mənsub olmayan kafirlə ruhi və daxili keyfiyyətlərinə görə fərq etmir.

## CİHADDAN QAÇMAQ

Döyüşdən qaçmağın mənası budur ki, fərari öz canını cəmiyyətin həyatından əziz və qiymətli hesab edir. Bu isə həqiqətdə dini müqəddəsləri, cəmiyyətin malını, canını, namusunu düşmənə təslim etməkdir. Elə bir düşmən ki, onların bütün həyatını təhlükəyə atır.

Buna görə də cihaddan qaçmaq böyük günahlardandır. Allah-taala Öz kəlamında fərarilərə cəhənnəm atəşi vədə verir.

﴿وَمَن يُوَلِّهِمْ يَوْمَئِذٍ دُبُرَهُ إِلاَّ مُتَحَرِّفاً لِّقِتَالٍ أَوْ مُتَحَيِّزاً إِلَى فِئَةٍ فَقَدْ بَاء بِغَضَبٍ مِّنَ اللّهِ وَمَأْوَاهُ جَهَنَّمُ﴾

***“Həmin gün – döyüşü davam etdirmək üçün başqa bir yer axtaran (yenidən hücum etmək üçün geri çəkilmə fəndi işlədən) və ya (döyüşçü) dəstəyə qoşulmaq üçün yeni bir mövqe seçən şəxs istisna olmaqla – onlara arxa çevirən kəs mütləq Allahın qəzəbini özünə götürmüşdür və onun sığınacağı yer Cəhənnəmdir.”***[1]

## TORPAQ VƏ SUYU MÜDAFİƏ ETMƏK

Qeyd olunduğu kimi, İslam cəmiyyətini, müsəlmanların yaşayış yerlərini qorumaq və müdafiə etmək İslamın əhəmiyyət kəsb edən vacib əməllərindən biridir. Allah-taala Qurani-Kərimdə buyurur:

---

1 "Ənfal" surəsi, ayə: 16.

﴿وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ﴾

***“Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə (onların ruhları Bərzəx aləmində müstəqil şəkildə, yaxud “misal” qəlibinə daxil olmaqla) diridirlər və lakin (bunu) siz dərk etmirsiniz.”*** [1]

İslamın əvvəllərində qanlı döyüşlərə can atan və qanına qəltan olan şəhidlərin haqqında söylənən əhvalatlar həm maraqlı, həm də ibrətamizidr. İslam dini onların qanı bahasına möhkəmlənmiş və bizə bu gün gəlib çatmışdır.

## HAQQIN MÜDAFİƏSİ

Torpağı qorumaqdan daha üstün müdafiə İslamın tək bir hədəfi olan haqqın müdafiəsidir. Bu ilahi məqsədin kökü haqqı diri saxlamaqdır. Buna görə də bu pak din “haqq din” adlandırılmışdır. Yəni elə bir din ki, haqdan gəlmişdir, haqdan başqa heç bir məqsəd daşımır və haqdan başqa heç bir amalı yoxdur. Allah-taala bütün həqiqətlərin toplumu olan Öz kitabını belə vəsf edərək buyurur:

﴿يَهْدِي إِلَى الْحَقِّ وَإِلَى طَرِيقٍ مُّسْتَقِيمٍ﴾

***“(Quran) haqqa və (əqidə, əxlaq və əməldə) doğru yola yönəldən bir kitabdır.”*** [2]

Buna görə də hər bir müsəlman haqqa itaət etməli, haqqı söyləməli, haqqı eşitməli və var qüvvəsi ilə haqqı müdafiə etməlidir.

---

1 "Bəqərə" surəsi, ayə: 154.
2 "Əhqaf" surəsi, ayə: 30.

## QƏZƏB

Qəzəb halı insanda yaranarkən onu intiqam almağa vadar edir. İnsan bu halda öz daxili rahatlığını intiqam almaqda görür. Belə ki, əgər insan qəzəbli halda nəfsini cilovlamaqda və özünü ələ almaqda süstlük və zəiflik göstərərsə, dərhal onun sağlam ağlı qəzəbinə tabe olub nəzərində xoş cilvələnən hər bir çirkinliyə və amansızlığa əl atacaqdır. İnsan bu halda elə bir vəziyyətə düşür ki, hər bir yırtıcıdan daha qorxulu və hər bir alovdan daha yandırıcı və məhvedici olur. İslam hədislərində bu halın qarşısını almaq barədə çox təkid olunmuş və qəzəbə tabe olmaq pislənmişdir. Allah-taala Öz qəzəbini boğan və bağışlayan kəslərə çox böyük lütf etmişdir. Belə ki, Qurani-Kərimdə buyurur:

﴿وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ﴾

***"(Təqvalılar) qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdirlər."[1]***

﴿وَالَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ... وَإِذَا مَا غَضِبُوا هُمْ يَغْفِرُونَ﴾

***"Möminlər qəzəblənəndə (intiqam almaq əvəzinə onu) bağışlayan kəslərdirlər."[2]***

---

1 "Ali-İmran" surəsi, ayə: 134.
2 "Şura" surəsi, ayə: 37.

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

## ÜÇÜNCÜ CİLD

# BİRİNCİ HİSSƏ:
# ƏQİDƏ ƏSASLARI

## MÜQƏDDİMƏ

Biz bilirik ki, müqəddəs İslam dini üç əsas hissəyə bölünür: əqidə əsasları, əxlaq və şəriət hökmləri. Məlum olduğu kimi, əqidə əsasları da üç əsas hissədən ibarətdir ki, əgər insan bunlardan birini inkar edərsə, dindən çıxmışdır.

1. Tövhid – Allah-taalanın təkliyinə inanmaq;

2. Nübüvvət – sonuncusu Mühəmməd peyğəmbər (s) olmaqla bütün peyğəmbərləri qəbul edib onlara etiqad bəsləmək;

3. Məad – Allah-taala hamını öldürüb diriltdəcək, onların əməlləri haqqında sorğu-sual edəcək və əməlisaleh insanlara mükafat verəcək, günahkarları isə cəhənnəm əzabı ilə cəzalandıracaqdır.

Bundan əlavə, iki əsas da qeyd edilən əsaslara artırılmışdır ki, bunu qəbul edən müsəlman şiə məzhəbinə mənsubdur. Bu iki əsası qəbul etməyənlər müsəlmanlıqdan çıxmasa da, şiə məzhəbindən xaric olur. Bu iki əsas imamət və ilahi ədalətdən ibarətdir.

## YARADILIŞIN BAŞLANĞICI HAQQINDA BƏHS FİTRİDİR

İnsan Allah verən fitrəti ilə müşahidə etdiyi hər bir hadisənin yaranma səbəbini axtarır və heç vaxt onun öz-özünə və səbəbsiz yaranmasını ehtimal vermir.

Hərəkətdən qalmış maşının sürücüsü düşüb maşının hansı yerinin xarab olduğunu fikirləşirsə, ora baxır ki, dayanma səbəbini tapsın və heç vaxt maşının hərəkət üçün tam hazırlığa malik olmasına baxmayaraq, səbəbsiz dayanmasına inanmır. Maşını hərəkətə gətirmək istəyəndə, hərəkət üçün hazırlanmış vasitələrdən istifadə edir və əsla təsadüf ümidi ilə oturmur.

İnsan ac olanda çörək fikrinə düşür, susuyanda su ardınca gedir, soyuqluq hiss edəndə öz ehtiyacını aradan qaldırmağı paltarda, ya atəşdə bilir və heç vaxt təsadüfi ümidvarlıqla aramlığa yetişmir.

Bina tikmək istəyən kəs təbii ki, tikinti avadanlığı, bənna və fəhlələrin hazırlanması ilə məşğul olur, onun istəyinin öz-özünə yaranacağına ən az ümidi belə yoxdur.

Nə qədər ki, bəşər var, yer üzərində dağlar, meşələr, geniş dənizlər də onunla olmuşdur; həmişə parlaq günəş, ay və ulduzları onların nizamlı və daimi hərəkətləri ilə asimanda müşahidə etmişdir. Bütün bunlarla yanaşı, dünya alimləri yorulmaq bilmədən elmi axtarışları ilə həmişə bu heyrətamiz varlıq və hadisələrin təzahür səbəblərini araşdırır və heç vaxt demirlər: nə qədər ki, biz olmuşuq, onları həmin halda görmüşük, deməli, onlar öz-özlərinə yaranmışlar.

Səbəbləri axtarıb tapmaq istəyi insanı yaranış dünyası və onun qəribə nizamının təzahürünü araşdırmağa vadar edir ki, görəsən, bütün hissələri bir-biri ilə bağlı olan, həqiqətdə böyük bir hadisə sayılan bu geniş dünya öz-özünə yaranmışdır, ya başqa yerdən qaynaqlanır? Görəsən, sabit və müstəsna qanunlara əsasən, bütün dünyanın hər bir guşəsində mövcud olan, hər şeyi öz xüsusi məqsədinə tərəf istiqamətləndirən bu heyrətamiz nizam sonsuz qüdrət və elm nahiyəsindən icra və idarə olunur, ya təsadüf nəticəsində yaranmışdır?

## ALLAHITANIMA VƏ MİLLƏTLƏR

Bildiyimiz kimi, indiki dövrdə yer üzündə əksəriyyətin dini vardır, onlar dünyanı yaradan Allaha etiqad bəsləyir və Ona ibadət edirlər.

Tarixin göstərdiyinə əsasən, dünənki bəşər də bugünkülər kimi dindar olmuş və dünyanın Allah tərəfindən yarandığını isbat etmişlər. Allahı tanıyan və dindar cəmiyyətlər aralarındakı fikir ayrılığına və hər bir qövm yaranışın başlanğıcını xüsusi fərqlərlə bəyan etməsinə baxmayaraq, əslində söz birliyinə malik olmuşlar. Hətta kəşf olunmuş ilk insanların qədim abidələrində din və Allahıtanıma nişanələri tapılır və əldə sübutlar vardır ki, onlar metafizikaya inanmışlar.

Hətta Amerika və Avstraliya kimi materiklərdə və ucqar adalarında yerli əhali Allahı tanımışdır. Onların qədim tarixi ələ gəlməsə də, zövq müxtəlifliyi ilə yaranış dünyası üçün bir başlanğıc sübut etmişlər.

“Həmişə insanlar arasında Allaha etiqad olmuşdur!” – mətləbini düşünərkən aydın olur ki, Allahıtanıma fitiridir və bəşər Allahın verdiyi fitrəti ilə dünyanı yaradan Allahın varlığını isbat edir.

Qurani-Kərim insanın bu fitri xasiyyətinə işarə edib buyurur:

﴿وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَهُمْ لَيَقُولُنَّ اللَّهُ﴾

***“Əgər onlardan (elə) onları(n özlərini) kimin yaratdığını soruşsan, “Allah” deyəcəklər. (Çünki onlar yaradılışda deyil, rübubiyyətdə şirkə düçar olmuşlar.)”***[1]

Həmçinin buyurur:

﴿وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ اللَّهُ﴾

(Ya Peyğəmbər!) Əgər onlardan (müşriklərdən) soruşsan ki: ***“Göyləri və yeri kim yaratmışdır?” Deyəcəklər: “Allah.” (Çünki onlar xaliqlik və ilahilik baxımından Allaha şərik qoşmayıblar, yalnız bütləri özlərinə rəbb bilirlər.)”***[2]

## BU ARAŞDIRMANIN İNSAN HƏYATINDA TƏSİRİ

Əgər insan öz fitrətinin tələbi ilə onun üçün cilvələnmiş dünyasının və onun vahid nizamının yaradıcısı haqqında bu suallara müsbət cavab verdisə, dünyanın və onun heyrətamiz nizamının təzahürü üçün əbədi başlanğıcı isbat etmiş və hər bir şeyi Onun sonsuz qüdrət və elminə söykənən məğlubedilməz iradəsi ilə əlaqələndirmişdir. Nəticədə, bütün varlığını bir növ sakitlik və ümidvarlıq bürüyəcək və həyatı boyu üzləşdiyi çətinliklərdə, hər cür çarəsi kəsilmiş problemlərdə heç vaxt ümidsizliyə düçar olmayacaq; çünki nə qədər qüdrətli olsa da, hər səbəbin cilovunun böyük Allahın qüdrət əlində və bütün şeylərin Onun fərmanına tabe olmasını bilir. Belə bir şəxs heç zaman səbəblərə mütləq şəkildə tabe olmur, bəzən dünyanın onun istəyincə gərdiş etməsindən qürrələnmir, özünün və dünyanın həqiqi mövqeyini unutmur. Çünki zahiri səbəblərin özbaşına olmadığını, Allah-taalanın fərmanına əsasən yürüdüklərini bilir. Nəhayət, belə bir insan dərk edir ki, varlıq

---

1 "Zuxruf" surəsi, ayə: 87.
2 "Loğman" surəsi, ayə: 25.

dünyasında böyük Allahdan başqa heç nəyə təzim etmək və Onun fərmanından başqa heç bir fərmana mütləq surətdə təslim olmaq olmaz.

Lakin qeyd olunmuş suallara mənfi cavab verən kəs həmin ümidvarlıq və gerçəklikdən və nəhayət, fitri şücaət və üstünlükdən məhrumdur. Bu səbəbdən, maddiyyata üstünlük verən millətlərdə intiharın gündən-günə artdığını görürük və tam hissi səbəblərə bağlanan kəslər ən kiçik hadisələrdə xöşbəxtliklərindən ümidsiz olub öz həyatlarına son qoyurlar. Lakin Allahıtanıma nemətinə malik olan kəslər özlərini ölüm astanasında müşahidə etsələr belə, ümidsizliyə qapılmır, qadir və görən Allaha güvəndiklərindən sakit və ümidvardırlar.

Həzrət imam Hüseyn (ə) öz həyatının hər tərəfdən düşmənin ox və qılıncına hədəf olduğu son saatlarında buyurur:

"Bu müsibəti mənə asanlaşdıran yeganə şey odur ki, Allahı həmişə öz əməllərimə baxan görürəm."[1]

## TÖVHİD BARƏSİNDƏ QURANİ-KƏRİMİN ÜSLUBU

Əgər insan pak təbiət və sakit qəlblə varlıq dünyasına baxsa, onun hər guşəsində yaradanın pak varlığının nişanə və dəlillərini müşahidə edəcək.

Ona görə ki, insan bu dünyada hər bir şeylə üzləşirsə, ya Allahın yaratdığı təzahürdür, ya Allahın onda qoyduğu xasiyyətdir, ya da ilahi əmrlə hər bir şeydə hakim olan nizamdır. İnsan da onlardan biridir və başdan ayağa bu həqiqətə şahidlik edir; çünki nə onun varlığı özündəndir, nə onun malik olduğu xasiyyətlər ixtiyarına bağlıdır, nə yaranışının ilk anından tutduğu həyat proqramını öz tədbiri ilə müəyyən etmişdir, nə bu nizamı təsadüfi güman edib bir-

---

1 "Biharül-ənvar", c.45, səh.46

birindən ayrılmış fərz edə bilər, nə də öz varlığının mövcudluğu və nizamını yarandığı mühitə aid edə bilər. Çünki sözügedən mühitin varlığı və hökmranlıq etdiyi nizam o mühitin özünün yaratdığı deyil və təsadüf yolu ilə də yaranmamışdır.

Buna görə, insanın yaranış dünyası üçün başlanğıcın olmasını isbat etməkdən başqa bir çarəsi yoxdur. Odur ki, Allah hər bir mövcuda varlıq bəxş edir və ondan sonra əbədiliyin böyük yolunda xüsusi nizamla öz məxsus kamalına tərəf hidayət edir.

Əşyaların yaranışının bir-biri ilə bağlı olduğunu və dünyadakı vahid nizamı müşahidə etdiyinə görə, mühakimə yürüdür ki, yaranışın başlanğıcı və o nizamı idarə edən birdən artıq deyildir.

## NƏ ÜÇÜN İNSAN BƏZƏN BU HƏQİQƏTİ DƏRK ETMİR?

Bu həqiqət azacıq diqqətlə insana aydın olur və onda heç bir anlaşılmazlıq yoxdur. Amma bəzən, insan həyat keşməkeşlərinə elə giriftar olur ki, özünün bütün şüur qüvvəsini həyat mübarizələri uğrunda işlədir, bütün vaxtını həyat qayğılarına sərf edir. Artıq bu cür fikirləri düşünməyə ən az vaxt belə tapmır və nəticədə bu həqiqətdən qafil olur, ya da təbiətin aldadıcı zahirinə və nəfsin istəklərinə uyur və gününü xoş keçirməklə məşğul olur. Bu həqiqətlərə bağlılıq bir çox maddi aludəliklərə mane olduğundan, təbii ki, bu həqiqətin və ona oxşarların araşdırılmasından boyun qaçırır.

Buna görə də, Qurani-Kərimdə məxluqların yaranması və onların arasında olan nizam haqqında müxtəlif yollarla dəlillər gətirilir. Çünki insanların çoxu, xüsusilə, təbiətin aldadıcı zahirlərinə vurulub öz həyatını xoş keçirməkdə və istəyə çatmaqda görənlər maddiyyata bağlandıqları fəlsəfi təfəkkür

qüdrətinə və dəqiq əqli nəzərlərin araşdırılmasına malik deyildirlər.

Lakin insan hər halda yaranış dünyasının bir hissəsidir, dünyanın digər hissələrindən və hökmranlıq etdiyi cüzi və külli nizamlarından bir an ehtiyacsız deyil. O, daim öz zehnini yaranış dünyası və ondakı nizama yönəldərək dünyanın yaradanı və Rəbbinin olmasını başa düşə bilər.

Allah-taala Öz kəlamında buyurur:

﴿إِنَّ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ لَآيَاتٍ لِّلْمُؤْمِنِينَ وَفِي خَلْقِكُمْ وَمَا يَبُثُّ مِن دَابَّةٍ آيَاتٌ لِّقَوْمٍ يُوقِنُون وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ وَمَا أَنزَلَ اللَّهُ مِنَ السَّمَاء مِن رِّزْقٍ فَأَحْيَا بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا وَتَصْرِيفِ الرِّيَاحِ آيَاتٌ لِّقَوْمٍ يَعْقِلُونَ﴾

***"Şübhəsiz, göylərdə və yerdə (onların vücudunda və yaradılmalarının necəliyi və təsirlərində) iman əhli üçün (Allahın tövhid, rübubiyyət, qüdrət və hikmətindən) nişanələr vardır. Həmçinin, sizin özünüzün yaradılışınızda və (bütün aləmdə) yaydığı canlılarda (bədənlərinin və ruhlarının fərqliliyi və ruhlarının bədənlərlə əlaqəsi baxımından) yəqini olan bir dəstə üçün nişanələr vardır. Həmçinin, gecə ilə gündüzün get-gəlində, onların artıb-azalmasında, Allahın (yağış və günəşin nuru kimi) göydən nazil etdiyi və vasitəsi ilə yeri öldükdən sonra diriltdiyi (toxumlara, bitkilərə və fidanlara inkişaf ruhu verdiyi) ruzidə, eləcə də küləklərin (müxtəlif istiqamətlərə) dolandırılmasında düşünənlər üçün nişanələr vardır."[1]***

## İZAH VƏ MİSAL

Qurani-Kərimdə çoxlu ayələr vardır ki, insanı səma, günəş, ay, ulduzlar, yer, dənizlər, dağlar, bitkilər, heyvanlar və insanın

1 "Casiyə" surəsi, ayə: 3-5.

yaranışı haqqında təfəkkürə dəvət edir və bu növlərin hər birində hakimlik edən heyrətamiz nizamı xatırladır.

Həqiqətən də, yaranış sistemi və dünyanın müxtəlif fəaliyyətlərini yaranış məqsədləri və varlığın güclü istəklərinə tərəf aparan nizam çox qəribə və heyrətamizdir.

Buğda dənəsi, ya yerdən göyərən badam çəyirdəyi sünbül, ya meyvəli ağac olur, torpaqda yerləşən andan sonra parçalanır, yaşıl ucunu xaricə çıxarır və öz ağ kökünü torpağın daxilinə göndərir. Məqsədə çatana qədər çox böyük və geniş sistemlər işə düşür ki, ağıl onun əzəmət və vüsətinin müşahidəsindən heyrətə gəlir.

Göyün ulduzları, parlaq Günəş, Yer və işıqlı Ay hər biri öz gizli qüvvələri, təyin olunmuş, irəliləyən hərəkətləri ilə, həmçinin, həmin dənə və toxumda qoyulmuş sirli qüdrətlər, ilin fəsilləri, atmosferin vəziyyətləri, bulud, yağış, külək, gündüzlər və gecələr bir buğda sünbülünün yaranmasına təsir edirlər və öz bəslənmə beşiyində yatırılmış bu təzə hadisəni dayələr və tərbiyəçilər kimi əl-ələ verib idarə edirlər ki, öz inkişafının son mərhələsinə çatsın.

Həmçinin bir bitki fidanının, ya başqa bir hadisədən daha mürəkkəb olan bir insan körpəsinin yaranışı milyonlar, bəlkə də milyardlar il yaranış sisteminin mürəkkəb və münəzzəm fəaliyyətidir.

Bir insanın gündəlik həyatı yaranış dünyası ilə öz varlığının xaricində olan əlaqəsindən əlavə, daxilində qəribə bir nizamdan qaynaqlanır ki, əsrlərlə dünya alimlərinin iti düşüncələri onun zahirlərinin tamaşasına məşğuldur və hər gün onun sirlərinin üzərindən bir pərdə götürülür. Belə ki, indi də məchulların müqabilində onların məlumatları çox azdır.

## BƏHSİN NƏTİCƏSİ

### ALLAH-TAALANIN VARLIĞI, QÜDRƏTİ VƏ ELMİ

Bu geniş dünyanın bir-birinə birləşmiş hissələri, onun ümumi heyrətamiz hərəkəti, heyrətləndirici nizamlar, onun hər bir tərəfində olan bir-birinə bağlılıq və nəticədə təzahür növlərindən hər birinin öz xüsusi məqsədinə tərəf son dərəcə nizam və tərtiblə hərəkətdə olması hər ağıllı insana açıqlayır ki, varlıq dünyası və onda olan hər bir şey əbədi bir varlıqdan qaynaqlanır. Belə ki, Öz geniş qüdrəti və sonsuz elmi ilə dünya və dünyadakıları yaratmış və onları Öz xüsusi inayət və rəhməti ilə kamal məqsədinə tərəf sövq edir. Odur ki, varlığı əbədi və hər şeydən qüdrətli və alimdir.

Allah-taala Öz kəlamında buyurur:

﴿لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ. هوَ الْأَوَّلُ وَالْآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

***“Göylərin və yerin həqiqi mülkiyyəti və mütləq hakimiyyəti Ona məxsusdur. (Çünki yaratmaq, qorumaq, idarə etmək və yox etmək, bunların hamısı Onun ixtiyarındadır.) Öldürür və diriltdir. O, hər bir şeyə qadirdir. O, əvvəl və axır (hamıdan əvvəl olan və hamıdan sonra qalan, səbəblər silsiləsinin əvvəli, nəticələrin döndüyü axır və son), (əlamətləri və sifətlərinin təzahürü baxımından) aşkar və (zatının həqiqəti baxımından) gizlindir. O, hər şeyi biləndir.”*** [1]

1 "Hədid" surəsi, ayə: 2-3.

## BƏHSİN DİGƏR NƏTİCƏSİ

### ƏDALƏT

Keçən bəhsin mənası başqa sözlə bu oldu ki, əşyalar vücudlarında olan hər ehtiyac və nöqsanı özləri aradan qaldıra bilməzlər, təsadüf nəticəsində də aradan qaldırılmır; əslində, dünyanın fövqündə duran bir məqamdan təmin olunur.

Odur ki, hər ehtiyac və nöqsanı aradan aparır və əlbəttə özü hər ehtiyac və nöqsaqdan uzaqdır, əks təqdirdə, başqa bir başlanğıc lazımdır ki, onun ehtiyac və nöqsanını aradan qaldırsın, belə olan halda, özü də dünyanın ehtiyaclı hissələrindən biri olacaq.

Odur ki, öz sonsuz qüdrət və elmi ilə dünya hadisələrindən hər birinə varlıq bəxş edir, dünya və dünyadakıları təkamül yoluna salıb, istisnasız qanunlarla varlıq məqsədi və kamal mənzilinə tərəf aparır.

Bundan aşağıdakı nəticələr əldə olunur:

1. Allah-taala varlıq dünyasında mütləq hakimiyyətə malikdir, yaranan hər bir varlıq, gerçəkləşən hər bir hadisə Onun hökm və fərmanından qaynaqlanır. Necə ki, buyurur:

﴿لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ﴾

***“Nüfuzlu əmr və (bütün varlıq aləmi üzərində) hökmranlıq Ona məxsusdur, həmd-səna yalnız Ona layiqdir.”***[1]

Həmçinin buyurur:

﴿إِنِ الْحُكْمُ إِلاَّ لِلّهِ﴾

***“Mütləq hökm və (varlıq aləmi üzərində) hakimiyyət yalnız Allaha məxsusdur.”***[2]

---

1 "Təğabun" surəsi, ayə: 1.
2 "Yusif" surəsi, ayə: 40.

2. Allah-taala ədalətlidir. Çünki hökm, ya hökmün icrasında olan ədalət budur ki, istisna və ayrıseçkilik etmir; hökmə şamil olan hallarda eyni şəkildə sabit olur və icra olunan hallarda eyni şəkildə həyata keçir. Məlum olduğu kimi, varlıq dünyası və onun hissələri səbəb və nəticə kimi, bir sıra istisnasız qanunların icrası nəticəsində idarə olunur. Məsələn, atəş xüsusi şərtlərlə yanmaq xüsusiyyətinə malik cismi yandıracaq – qara kömür olsun, ya almaz, quru odun olsun, ya səfilin ehtiyac paltarı.

Bundan əlavə, ədaləti tərk edən zülmə başlayar, ehtiyacını aradan qaldırmaq üçün pis işlərə əl atar – istər maddi ehtiyac olsun (başqalarının malını qaçırıb özünün yığdığını artıran kəs kimi), ya da mənəvi (başqalarının hüququnu tapdalayan və ya qüdrət, nüfuz və hakimiyyətinin izharından ləzzət alan kəs kimi).

Məlum olduğu kimi, heç cür möhtaclığın dünyanı yaradan müqəddəs varlığa yolu yoxdur. Yaradan tərəfindən verilən hər bir hökm əgər təkvini (maddi aləmə aid) olsa, ümumi ehtiyacların təmini üçündür ki, yaranış mühitində onlara riayət etmək lazımdır. Əgər təşrii (mənəvi aləmə aid) hökm olsa, bəndələrin xöşbəxtliyi üçündür və mənafeyi onların özlərinə qayıdır. Allah-taala Öz kəlamında buyurur:

﴿إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ﴾

***“Şübhəsiz, Allah (heç kəsə) zərrə qədər də zülm etməz.”"*[1]**

Həmçinin buyurur:

﴿وَمَا اللَّهُ يُرِيدُ ظُلْمًا لِّلْعِبَادِ﴾

***“Allah heç vaxt bəndələrinə zülm etmək istəmir.”*[2]**

---

1 "Nisa" surəsi, ayə: 4.

2 "Qafir" surəsi, ayə: 31.

## PEYĞƏMBƏRLİK

Kitabın əvvəlində qeyd olunduğu kimi, İslamın üçlük təşkil edən əsaslarından biri peyğəmbərliyə etiqaddır. İslam dininin zərurətlərindən olan peyğəmbərliyin mənası odur ki, Allah-taala insanların hidayəti üçün bəzi bəndələrinin vasitəsilə göstərişlər göndərmişdir. Sözügedən göstərişlər “din”, onları gətirənlər isə “nəbi”, ya “peyğəmbər” adlanır. Həzrət Mühəmməd (s) peyğəmbərlərin sonuncusu, İslam dini isə dinlərin axırıncısıdır.

### PEYĞƏMBƏRLİYİN DƏLİLİ

Tövhid haqqında etdiyimiz bəhslərdən aydın oldu ki, varlıqların yaranışı Allah-taalaya məxsusdur, onların tərbiyəsi də Ona bağlIdır. Daha aydın desək, yaranışının ilk anından öz nöqsanlarının təkmili və davam üçün fəaliyyətə başlayan dünya hadisələrindən hər biri öz nöqsan və ehtiyaclarını biri digərinin ardınca aradan qaldırır və imkan daxilində özünü kamil və ehtiyacsız edir. Əbədilik xəttində öz varlığına davam etdiyi seyrin tənzimləyəni, bir mənzildən digərinə aparanı isə Allah-taaladır.

Bu nəzərdən qəti bir naticə əldə olunur. O da budur ki, dünya hadisələrindən hər növü öz davamlığında məxsus fəaliyyəti ilə icra etdiyi təkvini proqrama malikdir.

Başqa sözlə, dünya hadisələrindən hər bir dəstə öz davamlılıq seyrində bir sıra müəyyən vəzifələrə malikdir ki, Allah-taaladan onlara tərəf hidayət olunur. Necə ki, Qurani-Kərim bu həqiqətə işarə edib buyurur:

﴿رَبُّنَا الَّذِي أَعْطَى كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَى﴾

***“Bizim Rəbbimiz hər bir şeyə onun məxsus yaradılışını əta edən, sonra (ona) doğru yol göstərəndir.”***[1]

Yaranışın bütün hissələri bu ümumi hökmdə şərikdir və heç bir istisna yoxdur – göyün ulduzları və ayağımızın altında olan yer, onda mövcud olan ünsürlər və ilk təzahürləri yaradan tərkiblər, bitkilər, heyvanlar – hamı həmin hala malikdir.

İnsanın halı da bu ümumi hidayətdə başqalarının halı kimidir; amma onunla başqaları arasında yalnız bir fərq vardır.

## İNSAN VƏ BAŞQALARI ARASINDAKI FƏRQİN İZAHI

Məsələn, yer kürəsi milyonlarla il əvvəl yaranmış, gizli qüvvələrini işə salmış, müxalif amillərin icazə verdiyi həddə qədər fəaliyyətə məşğuldur. Müəyyən irəliləmə hərəkəti zəminində varlıq nişanələrini büruzə verir və bu yolla öz davamlığını təmin edir. Daha qüvvətli müxalif amil onun qarşısını almayıncaya qədər həmin fəaliyyəti davam etdirəcək, bu vəzifələrdən birini belə yerinə yetirməkdən boyun qaçırmayacaq.

Badam ağacı çəyirdəkdən çıxdığı andan kamil ağac olan günə kimi qidalanma, inkişaf və böyümə və s.–də (başqa sözlə, öz inkişaf xəttində) öhdəsinə vəzifələr götürür ki, əgər daha qüvvətli müxalif amil yoluna sədd çəkməsə, heç də onların icrasını kənara qoymayacaq və qoya da bilməz; başqa hadisələr də bu qəbildəndir.

İnsan növü isə fəaliyyətlərini öz ixtiyari ilə yerinə yetirir və gördüyü işlər onun fikir və qərarından qaynaqlanır. Bəzən insan yüz faiz öz xeyrinə olan və müxalif amil də qarşısını

---

1 "Ta-ha" surəsi, ayə: 50.

almayan işi yerinə yetirməkdən üz çevirir və onu zərərinə uyğun bilir. Bəzən zəhərə qarşı maddəni içməkdən çəkinir, bəzən də zəhər kasasını başına çəkərək özünü öldürür.

Əlbəttə, aydındır ki, muxtar varlıq Allahın ümumi hidayəti icbari olmayacaq; yəni peyğəmbərlər xeyir və şər, səadət və bədbəxtlik yolunu Allah-taala tərəfindən insanlara çatdırır, din ardıcıllarına savab müjdəsi verib onları Allahın rəhmətinə ümidvar edir, təkəbbürlüləri və günahkarları Allahın əzabı ilə qorxudurlar. Onlar isə bunlardan hər birini seçməkdə azad və muxtardırlar.

Düzdür ki, insan öz xeyir və şərini, mənfəət və zərərini ağıl yolu ilə dərk edir, lakin həmin ağlı çox zaman nəfsani istəklərin ardınca gedir və xəta yolunda addımlayır.

Buna əsasən, Allah hidayəti ağıldan qeyri bir yolla olmalıdır ki, o yol bütünlüklə xətadan amanda olsun. Başqa sözlə desək, Allah-taala müxtəsər şəkildə ağıl yolu ilə insanlara başa saldığı göstərişlərini başqa bir yolla təsdiq edir.

Bu yol həmin “peyğəmbərlik” yoludur ki, Allah-taala Öz səadət bəxş edən göstərişlərini bəndələrindən birinə vəhy yolu ilə başa salır və tapşırıq verir ki, onları insanlara çatdırsın və onları ümid və qorxu, həvəsləndirmə və hədələmə yolu ilə həmin göstərişlərin ardınca getməyə vadar etsin.

Allah-taala Öz kəlamında buyurur:

﴿إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ ...رُّسُلاً مُّبَشِّرِينَ وَمُنذِرِينَ لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَى اللّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ﴾

***“Şübhəsiz, Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi sənə də vəhy göndərdik. (Onları) müjdə verən və qorxudan peyğəmbərlər (olaraq göndərdik) ki, bu***

***peyğəmbərlər(in gəlişin)dən sonra insanların Allaha qarşı heç bir dəlil-sübutu olmasın. "*[1]

## PEYĞƏMBƏRLƏRİN XÜSUSİYYƏTLƏRİ

Dediklərimizdən aydın oldu ki, peyğəmbərlər aşağıdakı xüsusiyyətlərə malik olmalıdırlar:

1. Öz vəzifələrini yerinə yetirməkdə xətadan qorunmalı və məsum olmalı, heç bir unutqanlıq və digər zehni bəlalar ona yol tapmamalıdır; ona vəhy olunanı düzgün dərk etməli və qazandığını səhvsiz və xətasız insanlara çatdırmalıdır. Əks təqdirdə, ilahi hidayət öz hədəfinə çatmaz və ümumi hidayət qanunu öz ümumiliyini itirib insan haqqında təsirsiz olar.

2. Əməl və sözündə xəta və günahdan qorunmalıdır; günah olduğu təqdirdə təbliğ üçün təsir qalmır. Çünki heç kim əməli sözü ilə düz gəlməyən kəsin sözünə dəyər vermir və hətta əməlini yalan danışmasına dəlil gətirərək deyir: "Əgər düz desəydi, öz sözünə əməl edərdi!"

Bu iki işi bir ifadədə belə demək olar: təbliğin düzgün və təsirli olması üçün peyğəmbərin xəta və günahdan qorunması lazımdır.

Allah-taala Öz kəlamında bu haqda buyurur:

﴿عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا إِلَّا مَنِ ارْتَضَى مِن رَّسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا لِيَعْلَمَ أَن قَدْ أَبْلَغُوا رِسَالَاتِ رَبِّهِمْ﴾

***"(Allah) qeybi biləndir və Öz qeybinin sirlərindən heç kimi agah etməz. Yalnız seçdiyi rəsuldan (peyğəmbərlərə göndərilən mələkdən və insanlara göndərilən peyğəmbərdən) başqa! (Allah onları agah edər.) Allah onun önündən və arxasından (mühafizəçi mələklərdən ibarət olan) gözətçilər göndərər ki,***

---

1 "Nisa" surəsi, ayə: 163-165.

***(mələklərdən və bəşərdən olan rəsulları şeytanların əziyyətlərindən qorusun və) Onların öz Rəbbinin risalətlərini (peyğəmbərlərə və peyğəmbərlər də insanlara) çatdırdığını bilsin (və əzəli elmi həyata keçsin)”***[1]

İffət, şücaət, ədalət və s. əxlaqi fəzilətlərə malik olmalıdır. Çünki bunların hamısı bəyənilmiş sifətlərdən sayılır və hür cür günahdan qorunan və kamil şəkildə dinin ardınca gedən şəxs heç vaxt əxlaqi rəzilətlərlə ləkələnməz.

## BƏŞƏR OLAN PEYĞƏMBƏRLƏR

Tarixdən məlumdur ki, bəşər içərisində peyğəmbərlər olmuşdur və dəvətə qalxmışlar. Lakin bununla belə, onların həyat tarixi o qədər də aydın deyil; yalnız həzrət Mühəmmədin (s) həyat tarixi aydındır. O həzrətin səmavi kitabı olan və ali dini məqsədləri əhatə edən Qurani-Kərim keçmiş peyğəmbərlərin dəvət mövzusunu da aydınlaşdırmış və onların məqsədlərini bəyan etmişdir.

Qurani-Kərim bəyan edir ki, Allah-taala tərəfindən insanlara peyğəmbərlər gəlmiş və onları tövhid, haqq dinə dəvət etmişlər. Belə ki, buyurur:

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدُونِ﴾

***“Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona “Məndən başqa bir məbud yoxdur, buna görə də (yalnız) Mənə ibadət edin!” – (deyə) vəhy etməyək. ”***[2]

---

1 "Cin" surəsi, ayə: 26-28.
2 "Ənbiya" surəsi, ayə: 25.

## ŞƏRİƏT SAHİBİ OLAN PEYĞƏMBƏRLƏR

Qurani-Kərim bəyan edir ki, Allahın bütün peyğəmbərləri səmavi kitab və müstəqil şəriətə malik olmamışlar. Belə ki, şərif ayədə buyurulur:

﴿شَرَعَ لَكُم مِّنَ الدِّينِ مَا وَصَّى بِهِ نُوحًا وَالَّذِي أَوْحَيْنَا إِلَيْكَ وَمَا وَصَّيْنَا بِهِ إِبْرَاهِيمَ وَمُوسَى وَعِيسَى﴾

***"(Allah) sizin üçün (siz bəşər cəmiyyəti üçün səma) din(in)dən (ilk şəriət sahibi olan peyğəmbər) Nuha tövsiyə etdiyini, (son şəriət sahibi olan) sənə vəhy etdiyimizi və (aradakı şəriət sahibləri) İbrahim, Musa və İsaya tövsiyə etdiyimizi qanun etdi"***[1]

Beş böyük peyğəmbər şəriəti əhatə edən səmavi kitaba sahib olmuşlar:

Həzrət Nuh (ə);

Həzrət İbrahim (ə);

Həzrət Musa (Kəlim) (ə);

Həzrət İsa (Məsih) (ə);

Həzrət Mühəmməd (s).

Bu böyük şəxsiyyətlərin hər birinin şəriəti əvvəlkinin şəriətini kamilləşdirir.

---

1 "Şura" surəsi, ayə: 13.

## PEYĞƏMBƏRİN (S) DOĞULANDAN BESƏTƏ KİMİ HƏYAT TARİXİ

Qurani-Kərimin ayələrindən aydın şəkildə başa düşülür ki, Peyğəmbəri-Əkrəm (s) yetim olmuş, dərs oxumamış, var-dövləti də olmamışdır. Ömrünü öz qövmü arasında adi və ənənəvi şəkildə səs-səmirsiz və tələbsiz keçirmişdir.

Lakin düzgün və çox yüksək əxlaqlı bir insan olmuşdur. Nadan, mədəniyyətsiz, zülmkar və azğın adamların arasında yaşamış və elə insanlarla ünsiyyətdə olmuşdur ki, bütpərəstlik, xurafat və ehtirasa tabelikdən başqa ayinləri, iffətsizlik, qantökmə, şərabxorluq, qumarbazlıq və azğın keçmişləri ilə öyünməkdən başqa yolları yox idi. O gün zülmkarlıq, haqqsızlıq və azğınlıqdan başqa bir şey hökmranlıq etmirdi; yəhudilər öz din xadimlərinin, nəsranilər də qeyd-şərtsiz olaraq kilsənin tabeliyində idilər. Atəşpərəstlər öz məbədlərinə müti idilər, digərləri də öz əlləri ilə düzəltdikləri daş, taxta, qızıl və gümüş bütlərə aşiq olmuşdular.

### BESƏTDƏN HİCRƏTƏ KİMİ

Nadanlıq və xurafatla dolu belə qaranlıq mühitdə, zülm və ədalətsizliklə dolmuş dünyada Allah-taala Öz peyğəmbərlərini dünyadakılara göndərilən rəhmət kimi peyğəmbərliyə seçdi və tapşırıq verdi ki, insanları Allahın tövhidinə dəvət etsin, ədalət, xeyirxahlıq və ictimai əlaqələrin möhkəmləndirilməsinə çağırsın və heç bir şeydə səhlənkarlıq və mülayimlik etmədən haqqa tabelik və həqiqətə tərəfdarlıq üçün qiyam etsin.

O həzrətin birinci tapşırığı yalnız dəvət idi, kobudluq, rəhmsizlik və zülmkarlıqla dolu mühitdə yaşadığından öz

missiyasını təkcə o adamlara izhar edirdi ki, onların qəbul etməsinə az-çox ümidvar idi. Beləcə, bir neçə adam ona iman gətirdi. Hədislərə əsasən, ilk kişi əmisi oğlu və özünün tərbiyələndirdiyi Əli ibn Əbu Talib (ə) və ilk qadın həyat yoldaşı Xədiceyi-Kübra (s) idi.

Bir müddətdən sonra ona tapşırıq verildi ki, öz yaxın qohumlarını dəvət etsin. Sonra o həzrət Allah-taalanın əmri ilə aşkar və ümumi dəvətə başladı.

Ərəblərin, xüsusilə Məkkə əhlinin bu aşkar dəvət müqabilində müqaviməti çox şiddətli idi, kafir və müşriklər bu saf və pak dəvətə vəhşicəsinə və rəhmsizcəsinə cavab verib heç vaxt düzgün məntiqlə rəftar etmirdilər.

O həzrəti kahin, sehrkar, məcnun və şair adlandırır və istehza edirdilər. Dəvət edərkən, yaxud Allaha ibadət edərkən səs-küy salır, zibil, toz-torpağı başına tökürdülər, kötəkləyirdilər, söyürdülər, daş-qalaq edirdilər, bəzən də satınalma yolu ilə sərvət, rəhbərlik kimi aldadıcı və şirin vədlər verirdilər ki, bəlkə, bu yolla onun əzm və qərarını sındırsınlar.

Hər halda, o həzrət azacıq belə süstləşməmiş, geriyə çəkilməmiş, öz qövmünün nadanlıq və tərsliyindən təəssüflənmiş və qəmgin olmuşdur. Dəfələrlə bu barədə Quran ayələri nazil olur, Allah-taala ona ürək-dirək verir və səbrə çağırırdı. Bəzən də elə ayələr nazil olurdu ki, o həzrəti insanların sözünə azacıq meyllilikdən, ya süstlük və mülayimlik göstərməkdən çəkindirirdi.

O həzrətə iman gətirən adamlar da kafirlərin işkəncə və əzablarına məruz qalırdılar və çox vaxt işkəncə altında canlarını təslim edirdilər. Bəzən, iş çətinləşib bıçaq sümüyə çatanda Peyğəmbərdən (s) izn istəyirdilər ki, qanlı qiyam edib öz müqəddəratlarını birdəfəlik həll etsinlər. O həzrət buyururdu: “Mənim Allah-taala tərəfindən bu barədə göstərişim yoxdur,

səbir etmək lazımdır. Çoxları da təzyiqin şiddətindən çıxıb Məkkədən gedirdilər.

Kafirlər uzun illər Peyğəmbər (s) və onun ardıcıllarına işkəncə və əziyyət verməkdə davam etdilər: Nəhayət qəti qərara gəldilər ki, o həzrəti (s) öldürməklə birdəfəlik bu işə son qoysunlar. O həzrət də Allah-taalanın əmri ilə gecə ikən Məkkəni tərk etdi.

## HİCRƏTDƏN VƏFATA KİMİ

Allah-taala Öz Peyğəmbərini (s) kafirlərin qərarından agah edib göstəriş verdi ki, gecə Mədinəyə tərəf hicrət etsin. O həzrət də öz əmisi oğlu Əli ibn Əbu Talibə (ə) buyurdu ki, onun yerində yatsın. Özü isə gecə yarısı düşmənlər tərəfindən onu öldürmək istəyən və evini mühasirəyə alan bir qrupun arasından Allah-taalanın pənahında çıxıb yolda Əbu Bəkrlə rastlaşdı, onu da özü ilə götürüb şəhərdən çıxdı. Onlar şəhər yaxınlığındakı dağların mağarasında gizləndilər. Kafirlər o həzrəti üç gün axtarıb qayıtdıqdan sonra Mədinəyə yollandılar.

Hicrətdən bir qədər əvvəl Mədinənin qəbilə başçılarının Məkkədə o həzrətə iman gətirib beyət etmişdilər. Mədinəyə qaytdıqdan sonra digər qohumlarını da müsəlman etdilər və birgə o həzrətin gəlişini əziz tutdular, öz can və mallarını İslamın inkişafı yolunda Peyğəmbərin (s) ixtiyarında qoydular.

İslama dəvət inkişafa başladı, Məkkədə müşriklərin təzyiq və işkəncələri altında olan müsəlmanlar tədricən öz evlərini tərk və Mədinəyə mühacirət etdilər. Bir müddətdən sonra “Qital” ayəsi nazil oldu, müsəlmanlar cihada hazırlaşdılar, lakin heç vaxt qabağa düşmədilər.

Peyğəmbəri-Əkrəm (s) Mədinə və onun ətrafında olan yəhudi tayfaları, həmçinin səhrada yaşayan bütpərəst ərəb qəbilələri ilə müqavilə bağladı və ədalətin icrasına başladı.

Hicrətin ikinci ili Mədinə müsəlmanları ilə müşriklər arasında Bədrdə[1] ağır döyüş baş verdi. Bu döyüş möcüzəli şəkildə müsəlmanların xeyrinə bitdi. Saylarının müşriklərin sayının üçdə biri qədər olmasına, müşriklərin tam təchizat və qüdrəti müqabilində müdafiə vasitələrinin olmadığına baxmayaraq, Allah-taalanın köməyi ilə tam qələbə çaldılar. Müşriklər ağır insan tələfatı, çoxlu əsirlər verərək təchizatlarını itirməklə Məkkəyə tərəf qaçdılar.

Hicrətin üçüncü ilində yenə Məkkə müşrikləri keçən ilin intiqamını almaq üçün üç min döyüşçü ilə (başqa bir hədisə görə, beş min) Mədinəyə hücum etdilər və Mədinənin xaricində İslam ordusu ilə ağır döyüşdülər. Ühüd döyüşü kimi tanınan bu döyüşdə əvvəl kafirlər qaçdılar, ondan sonra müsəlmanlar məğlub olaraq ağır tələfat verdilər. İslam ordusu dəhşətli surətdə qırılandan sonra müqavimət edənlər öldürüldü. Peyğəmğbəri-Əkrəmin (s) alnı və ağzı yaralandı və o həzrətin tərəfdarları qaçmağa üz qoydular. Əli ibn Əbu Talib (ə) döyüşün axırına kimi dayandı, Peyğəmbərin (s) müqəddəs canını müdafiə edib qılınc çaldı. Sonda yenə müsəlmanlar o həzrətin ətrafına toplaşdılar, müşriklər döyüşdən əl çəkib Məkkə yolunu tutdular və bu döyüşdən də tam bəhrə qazanmadılar.

Peyğəmbəri-Əkrəm (s) bu iki döyüşdən sonra ərəb və yəhudi kafirləri ilə çoxlu döyüş (84 döyüş) etmişdir ki, onların ən məşhuru Xəndək, Xeybər və Hüneyn müharibələridir və onların hamısında mühacirlə ənsar qrupları fədakarlıq göstərmişlər. Tarixçilərin hamısı qeyd edir ki, bu döyüşlərdə İslam ordusunun qəhrəmanı Əli ibn Əbu Talib (ə) və qələbənin açarı onun qılıncı idi.

---

1 Məkkə və Mədinə arasında quyu, ya vadidir. (Əllamə Təbatəbai (r.ə.))

Hicrətin altıncı ilində Peyğəmbəri-Əkrəm (s) Roma imperatoru, Misir padşahı, Həbəşə nəcaşisi (Efiopiya imperatoru), nəcran və nəsrani rəhbərləri, atəşpərəst İran şahənşahı kimi əhli-kitab millətlərinin soltan və hakimlərini İslama dəvət etdi.

Hicrətin səkkizinci ilində Allah-taala Öz kəlamında Peyğəmbəri-Əkrəmə (s) verdiyi vədəyə əsasən, Məkkə şəhərini qan tökmədən fəth etdi. Beləliklə, Hicazın ortasında İslam düşmənlərinin xeyrinə hər cür hiylə və fəsad ocağı olan yeganə şəhər süqut etdi. Ondan bir qədər sonra Taif şəhəri də fəth olundu və İslam hakimiyyəti bütün Ərəbistan yarımdasında bərqərar oldu.

Hicrətin onuncu ilində Peyğəmbəri-Əkrəm (s) sonuncu həcc mərasimini (Həccətül-vida) yerinə yetirmək üçün Məkkəyə yollandı və həcc mərasimini yerinə yetirdikdən və insanlara lazımi təlimatlar verdikdən sonra qayıdanda Allah-taalanın əmri ilə Qədir-Xumda Əmirəlmöminin Əli ibn Əbu Talibin (ə) vilayət və himayəsini öz ümməti, dostları və həmsəfərlərinə (bir hədisə görə yetmiş min, digərinə görə yüz iyirmi min nəfər adam yarımadanın hər tərəfindən toplaşmışdılar) çatdırdı.

Peyğəmbəri-Əkrəm (s) Mədinəyə qayıdandan az sonra vəfat etdi. Allahın salamı ona və Əhli-beytinə olsun!

## PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MƏNƏVİ ŞƏXSİYYƏTİNƏ BİR BAXIŞ

Dəqiq tarixi sənədlərə əsasən, Peyğəmbəri-Əkrəm (s) mürtəce mədəniyyətdə və cəhalət, fəsad və əxlaqi rəzilətlərlə dolu bir mühitdə böyümüşdü. Belə bir mühitdə elmi təhsil və inkişaf almadan uşaqlıq və cavanlıq dövrünü keçirmişdi.

O həzrət heç vaxt bütlərə sitayiş etməsə də, insaniyyətə zidd əməllər əncam verməsə də, onlarla birgə yaşayırdı və onun adi həyatı belə təlatümlü gələcəyi göstərmirdi. Ümumiyyətlə,

kasıb, yetim, dərs oxumamış insanın belə bir gələcəyi inandırıcı da deyildi.

Peyğəmbəri-Əkrəm (s) həyatını belə vəziyyətdə keçirirdi. Gecələrin birində qəlb sakitliyi və aydın zehnlə ibadətə məşğul olduğu vaxt birdən onun sakit şəxsiyyəti səmavi bir şəxsiyyətə çevrildi; bəşər cəmiyyətinin minillik fikir və əqidələrini xurafat bildi, öz gerçək baxışı ilə insanların üsul və ayininin zülmkarcasına olduğunu gördü, dünyanın keçmiş və gələcəyini bir-birinə birləşdirib bəşərin səadət yolunu təyin etdi; o həzrətin gözü və qulağı dəyişmiş, artıq haqq və həqiqətdən başqa bir şey görmür, eşitmirdi. Dili Allahın sözü, səmavi kəlam, hikmət və möcüzə ilə açıldı, sövdəgərlik və ticarət mühitində gündəlik işlərin islahına məşğul olan daxili ruhiyyəsi qanad açıb dünya və dünyadakıların islahı, bəşərin minillik azğınlıq və zülm təşkilatını devirmək qəsdinə durdu. Haqq və həqiqətin dirilməsi üçün tək-tənha qiyam etdi, dünyanın müxalif qüvvələrini heç saydı. İlahi maarifdən söz dedi, varlığın bütün həqiqətlərinin dünyanı yaradanın yeganəliyindən qaynaqlanması nəticəsinə gəldi. Ali insan əxlaqını ən yaxşı yolla şərh etdi, onların əlaqələrini kəşf edib aydınlaşdırdı. Bəyan etdiyinə hər kəsdən əvvəl özünün etiqadı vardı, camaatı nəyə rəğbətləndirirdisə, əvvəl özü əməl edirdi. Bir sıra ibadət və pərəstişləri əhatə edən vəzifə və hökmlər gətirdi ki, bəndəlik məqamını ən gözəl şəkildə yeganə Allahın əzəməti qarşısında göstərirdi.

Bəşər cəmiyyətinin bütün ehtiyac duyulan məsələlərinə ktfayət qədər cavab verən digər hüquqi və cəza qanunları gətirdi. Bu qanunların bir-biri ilə tam bağlılığı vardı, əsasını tövhid və ali insan əxlaqı təşkil edirdi.

O həzrətin gətirdiyi qanunlar məcmuəsi, o cümlədən, ibadət və alış-veriş o qədər genişdir ki, bəşəriyyət dünyasında fərz olunan bütün fərdi və ictimai həyat məsələlrə və zaman

keçdikcə qarşıya çıxan müxtəlif ehtiyacları həll etmək qüdrətinə malikdir.

O həzrət öz dini qanunlarını cahanşümul və əbədi bilir, yəni əmindir ki, onun dini bütün bəşər cəmiyyətlərinin dünyəvi və axirət ehtiyaclarını həmişəlik aradan qaldıra bilər və insanlar öz səadətlərinin təmini üçün həmin yolu seçməlidirlər.

Əlbəttə, Həzrət bu sözü boş yerə və araşdırmadan buyurmamışdır, yaranışın araşdırılması, insaniyyət dünyasının gələcəyini düşündükdən sonra bu nəticəyə gəlmişdir.

Başqa sözlə, əvvəla, öz qanunları və insanın cismi və ruhi yaranışı arasında kamil uyğunluğu aşkar etmiş və ikincisi, gələcəkdə baş verəcək dəyişiklikləri və müsəlman cəmiyyətinə dəyəcək zərbələri tam şəkildə nəzərdə tutub ondan sonra öz dini əhkamlarının əbədiliyinə hökm vermişdir.

Qəti sənədlərlə o həzrətin bizə çatan hədisləri göstərir ki, vəfatından sonra ümumi vəziyyət və halları çox uzaq zamanlara kimi şərh etmişdir.

O həzrət bu mərifətlər və şəriətlərin əsaslarını pərakəndə şəkildə Quranda insanlar üçün tilavət etmişdir ki, onun heyrətamiz fəsahət və bəlağəti ərəb fəsihlərini diz çökdürmüş və dünya alimlərinin fikirlərini heyrətləndirmişdir.

Bütün bu işlər iyirmi üç il müddətində yerinə yetirilmişdir ki, onun on üç ilini Məkkə kafirlərinin işkəncə və əziyyətləri altında keçirmiş, on ilini isə aşkar düşmənlərlə, münafiq və fitnə-fəsad törədənlərlə mübarizə aparmış, müsləmanların işlərinin idarəsi, onların əqidə, əxlaq və əməllərinin islahı və minlərlə digər çətinliklərlə başa vurmuşdur.

O həzrət bütün bu yolu haqqa itaət və onu dirçəltmək üçün sarsılmaz bir qərarla getmişdir. Onun realist baxışı təkcə haqq ilə tanış idi və haqqın xilafına heç bir əhəmiyyət vermirdi; öz

mənafeyi ümumi təmayül və hisslərlə müvafiq olarsa, haqq bildiyini qəbul edir, batil bildiyini isə qəbul etmirdi.

## O HƏZRƏTİN FÖVQƏLADƏ RUHİ ŞƏXSİYYƏTİ

Əgər insafla araşdırılan məsələlər haqqında azacıq belə düşünsək, şübhə etməyəcəyik ki, bu vəziyyət və şəraitdə belə bir şəxsiyyətin zühuru möcüzədən başqa bir şey olmamışdır. Bu səbəbdən Allah-taala Öz kəlamında dəfələrlə o həzrətin təhsilsizliyi, yetimliyi, fəqirliyini xatırlayır, ona əta olunan şəxsiyyəti səmavi möcüzə sayır, bunu onun dəvətinin düzgünlyünə sübut gətirir. Necə ki, buyurur:

﴿أَلَمْ يَجِدْكَ يَتِيمًا فَآوَى وَوَجَدَكَ ضَالًّا فَهَدَى  وَوَجَدَكَ عَائِلًا فَأَغْنَى﴾

***“Məgər (O) səni yetim ikən tapıb, sığınacaq və pənah vermədimi?! (Məgər səni zəmanədə yeganə və tək tapıb bütün aləmi ətrafında cəm etmədimi?) Səni (din mərifətlərindən) xəbərsiz tapıb, (vəhy vasitəsilə) yol göstərdi. Səni fəqir və ehtiyac (içində) tapıb, ehtiyacsız etdi.”*** [1]

Yenə buyurur:

﴿وَمَا كُنتَ تَتْلُوا مِن قَبْلِهِ مِن كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَّارْتَابَ الْمُبْطِلُونَ﴾

***“Sən bu Qurandan öncə heç bir yazı və kitab oxumurdun. Öz əlinlə heç bir yazı yazmırdın. Əgər belə olmasaydı, onda batilə uyanlar (sənin peyğəmbərliyinə) şəkk edərdilər.”*** [2]

Yenə buyurur:

﴿وَإِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَى عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَادْعُواْ شُهَدَاءكُم مِّن دُونِ اللّهِ إِنْ كُنْتُمْ صَادِقِينَ﴾

***“Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, dog-ruçusunuzsa, siz də (fəsahət, kəlmələrinin gözəlliyi,***

---

1 "Zuha" surəsi, ayə: 6-8.

2 "Ənkəbut" surəsi, ayə: 48.

***bəlağət, mənalarının dərinliyi baxımından və ya onun kimi heç kimdən dərs almayan bir şəxs tərəfindən) bir surə gətirin və (bu işdə) Allahdan başqa bütün köməkçilərinizi və şahidlərinizi də çağırın (ki, onlar sizin surənizin Bizim surəmiz kimi olmasına şəhadət versinlər).”***[1]

Peyğəmbəri-Əkrəmin (s) Allah-taalanın əmri ilə öz dininin əsasını üzərində qərarlaşdırdığı və dünyadakıların səadətinin səbəbi bildiyi yeganə sütunu tövhiddir.

Tövhid əsasına görə, dünyanın yaranış başlanğıcı və pərəstişə layiq olan kəs yeganə Allahdır və Allah-taaladan başqa kimsəyə ibadət etmək olmaz.

Buna əsasən, bəşər cəmiyyətində istifadə olunan üsul budur ki, hamı bir-biri ilə bərabər və qardaşdır, Allahdan başqa kimsəni qeyd-şərtsiz olaraq özlərinə hakim etməsinlər. Belə ki, Allah-taala buyurur:

﴿قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ﴾

***De: “Ey kitab əhli, gəlin bizimlə sizin aranızda bir olan kəlmə (barəsində peyğəmbərlərin və səmavi kitabların yekdil olduqları söz) ətrafında toplanaq (və o budur ki): Allahdan başqasına ibadət etməyək, heç bir şeyi Ona şərik qoşmayaq və bəzilərimiz Allahın yerinə bəzilərimizi tanrılar qəbul etməsin. Beləliklə, əgər (bu təklifdən) üz döndərsələr deyin: “Şahid olun ki, həqiqətən, biz müsəlmanlarıq.”***[2]

Bu səmavi əmrə əsasən, o həzrət öz həyatında hamını bərabər və qardaş sayırdı və ilahi hüdudlar və hökmlərin icrasında heç vaxt ayrıseçkilik və istisna bilmirdi, tanış-yad, güclü-zəif,

---

1 "Bəqərə" surəsi, ayə: 23.

2 "Ali-İmran" surəsi, ayə: 64.

dövlətli-kasıb, kişi-qadın arasında fərq qoymurdu, hər kəsi din hökmləri və qanunlarına əsasən öz hüquqlarına çatdırırdı.

Kimsənin başqa bir kəsə hökm vermək, hakimlik etmək və güc göstərməyə haqqı yox idi. İnsanların qanun hüdudundan xaricdə maksimum azadlıqları vardı. (Əlbəttə, qanun qarşısında azadlığın təkcə İslamda yox, ictimai qanunlardan heç birində mənası yoxdur.)

Həmin azadlıq və ictimai ədalət üsuludur ki, Allah-taala Öz əziz Peyğəmbərinin (s) təqdimində buyurur:

﴿الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعًا﴾

***“O kəslər ki, dərs oxumayıb yazı yazmamış bu elçi və Peyğəmbərə – (adını və peyğəmbərlik nişanələrini) əllərindəki Tövrat və İncildə yazılmış gördükləri şəxsə tabe olurlar. (Həmin o Peyğəmbərə ki,) onları hər bir yaxşı işə əmr edir və hər bir pis işdən çəkindirir, onlara (maddi və mənəvi) pakları halal və (maddi və mənəvi) çirkinlikləri və murdarları haram edir və boyunlarında olan ağır yükü və zəncirləri (cahiliyyət adətləri və keçmiş şəriətlərin çətin hökmlərini) onların çiynindən götürür. Beləliklə, ona iman gətirən, ehtiram göstərən, kömək edən və onunla nazil olan nura (onun kitabına) tabe olanlar həmin nicat tapanlardır! De: “Ey insanlar, həqiqətən mən Allahın sizin hamınıza (xitab olunan zamanın varlıqlarından tutmuş bəşəriyyətin nəsli kəsilənədək olacaq bütün insanlara) göndərilmiş Peyğəmbəriyəm.”***[1]

---

1 "Əraf" surəsi, ayə: 157-158.

Buna görədir ki, Peyğəmbəri-Əkrəm (s) həyatı boyu özünə heç bir imtiyaz bilməmiş və heç vaxt o həzrət keçmiş tanışı olan kəsi digər adamlardan seçmirdi. Ev işlərini görür, hamını şəxsən qəbul edir, ehtiyaclıların sözünə şəxsən qulaq asırdı. Taxtın üstündə və məclisin yuxarı başında oturmazdı, hərəkət vaxtı müşayiətçiləri və rəsmi təşrifatı yox idi. Əgər əlinə pul çatırdısa, öz zəruri xərclərindən daha çox fəqirlərə verirdi. Bəzən öz zəruri pulunu da kasıblara verib özü gününü ac keçirirdi. Həmişə kasıblar kimi yaşayır, onlarla otururdu. İnsanların haqlarının qaytarılmasına qayğı göstərirdi. Lakin öz şəxsi haqqına gəldikdə isə əfv edirdi. Məkkənin fəthində Qüreyş başçıları hüzuruna cəlb olunanda, hicrətdən əvvəl ona olunan zülmləri və hicrətdən sonra fitnələr törətmələri və onunla qanlı döyüşmələrinə baxmayaraq, azca kobudluq etmədi və hamını bağışladı. Allahın salamı ona və Əhli-beytinə olsun!

## İMAMƏT

“İmamət”dən məqsəd insanların din və dünyasının rəhbərliyidir və öndər şəxs “imam” adlandırılır.

Şiənin əqidəsi budur ki, Peyğəmbərin (s) vəfatından sonra Allah-taala tərəfindən dini maarif və hökmləri qoruyan və insanları haqq yola hidayət edən imam təyin olunmalıdır.

### İMAMƏTİN DƏLİLİ

Peyğəmbərlik bəhsindən aydın olduğu kimi, dünyanı yaradanın yaranış silsiləsinə olan inayət və diqqətinin tələbi budur ki, yaratdıqlarından hər birini öz müəyyən hədəfinə doğru (kamal dərəcəsinə) hidayət etsin. Məsələn, meyvə ağacı inkişaf, böyümə, çiçəklənmə və meyvə verməyə tərəf aparılır və onun həyat yolu quşun yolundan fərqlidir. Həmçinin, quş da ağacın yox, öz xüsusi yolunu gedir. Beləliklə, hər yaranan öz xüsusi mənzil başına çatmaqdan və ona münasib yolu getməkdən başqa bir şeyə tərəf hidayət olunmur. Məlumdur ki, insan da Allahın yaratdıqlarından biri kimi həmin ümumi hidayət qanununa şamildir.

Buradan aydin olur ki, insan həyatının xöşbəxtliyi ixtiyar və iradə yolu ilə əldə olunduğundan, ona məxsus ilahi hidayət peyğəmbərlər vasitəsilə, dəvət, təbliğ, din göstərişləri ilə həyata keçirilir ki, insanın Allah-taala qarşısında bəhanəsi olmasın. Necə ki, şərif ayədə buyrulur:

﴿رُّسُلاً مُّبَشِّرِينَ وَمُنذِرِينَ لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَى اللّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا﴾

***"(Onları) müjdə verən və qorxudan peyğəmbərlər (göndərdik) ki, bu peyğəmbərlər(in gəlişin)dən sonra insanların Allaha qarşı heç bir dəlil-sübutu olmasın. Allah həmişə yenilməz qüdrət və (bütün işlərində) hikmət sahibidir"[1]***

Peyğəmbərlərin göndərilməsin və dini dəvəti tələb edən amillər kimi, dini qoruyan və insanlara rəhbərlik edən Peyğəmbər vəfat etdikdən sonra Allah-taala onun kimi kamal sifətlərə malik (vəhy və nübüvvətdən savayı) kəsi yerinə təyin etməlidir ki, dini maarifi və şəriəti qoruyub saxlasın və insanlara rəhbərlik etsin, yoxsa ümumi hidayət proqramı dağılar və insanların Allaha qarşı dəlil və bəhanəsi tamam olar.

## İMAMA EHTİYAC VARDIR

Ağıl malik olduğu xəta və səhv vasitəsilə insanları Allahın peyğəmbərlərindən ehtiyacsız edə bilmədiyi kimi, həmçinin ümmətin içərisində də din alimlərinin mövcudluğu və onların dini təbliğatı insanları imamdan ehtiyacsız edə bilməz; çünki bəhs bunda deyil ki, insanlar dinin ardınca gedirlər, ya getmirlər, əsas məsələ bundadır ki, Allahın dini toxunulmaz olmalı, dəyişmədən və aradan getmədən insanlara çatdırılmalıdır.

Məlumdur ki, ümmətin alimləri nə qədər saleh və təqvalı olsalar da, xəta və günahdan uzaq və məsum deyildirlər. Qəsdən olmasa da, onlar tərəfindən dini maarif və qanunlardan bəzisinin dəyişməsi, ya korlanması istisna deyil. Bu mətləbin ən yaxşı sübutu İslamda yaranmış müxtəlif məzhəblər və ixtilaflardır.

---

1 "Nisa" surəsi, ayə: 165.

Hər halda, imamın olması lazımdır ki, Allah dininin həqiqi maarif və qanunları qorunsun və layiqli nsanlar onun hidayətindən istifadə edə bilsinlər.

## İMAMIN İSMƏTİ

Keçən bəyandan aydın olur ki, imam da peyğəmbər kimi xəta və günahdan qorunmalıdır; əks təqdirdə, dini dəvət naqis qalar və ilahi hidayət öz təsirini itirər.

## İMAMIN ƏXLAQİ FƏZİLƏTLƏRİ

İmam şücaət, cəsurluq, iffət, səxavət, ədalət kimi əxlaqi fəzilətlərə malik olmalıdır; çünki günahdan qorunan kəs bütün dini qanunlara əməl edəcək və bəyənilmiş əxlaq dinin zərurətlərindəndir.

İmam əxlaqi fəzilətlərdə bütün insanlardan üstün olmalıdır; çünki bir kəsin özündən üstünə imamlıq etməsinin mənası yoxdur. Əlbəttə, ilahi ədalət də onu qadağan edir.

## İMAMIN ELMİ

İmam dinin daşıyıcısı və dünyadakıların öndəri olduğundan, dünya və axirət də insanların ehtiyac duyduqları və insan səadəti ilə bağlı bütün məsələləri bilməlidir. Çünki ağıl cahil öndəri cayiz bilmir və ümumi ilahi hidayət baxımından mənası yoxdur.

## HİDAYƏT İMAMLARI (Ə)

Peyğəmbəri-Əkrəmdən (s) sonra o həzrətin canişinləri, insanların din və dünyasının öndərləri olan hidayət imamları on iki nəfərdir. Bu barədə şiə və sünni alimləri Peyğəmbərdən çoxlu hədislər nəql etmişlər və həmçinin, bu imamlardan hər birini ondan əvvəlki imam təyin etmişdir.

## İMAMLARIN ADLARI

Həzrət imam Əmirəlmöminin Əli ibn Əbu Talib (ə);

Həzrət imam Həsən Müctəba (ə);

Həzrət imam Hüseyn Seyyidüş-Şühəda (ə);

Həzrət imam Səccad (ə);

Həzrət imam Mühəmməd Baqir (ə);

Həzrət imam Cəfər Sadiq (ə);

Həzrət imam Museyi-Kazim (ə);

Həzrət imam Riza (ə);

Həzrət imam Mühəmməd Təqi (ə);

Həzrət imam Əliyyən-Nəqi (ə);

Həzrət imam Həsən Əskəri (ə);

Həzrət imam Əsr (Höccət ibn əl-Həsən) (ə)

## İMAMLARIN ÜMUMİ HƏYAT YOLU

On iki imam Peyğəmbəri-Əkrəmdən (s) sonra iki yüz əlli il insanların arasında oldular, lakin Peyğəmbəri-Əkrəmin (s) vəfat etdiyi ilk gündən onların müxalifləri bacardıqları qədər xilafət kürsüsünü qəsb edib, dinin təbii istiqamətini dəyişdirdilər.

Bundan əlavə, sözügedən müxalif qrup həmişə öz mövqeyini möhkəmləndirmək və hakimiyyətini ehtimal verilən təhlükədən qorumaq üçün Peyğəmbərin (s) Əhli-beytinin (ə) nurunu söndürməkdə hər vasitədən istifadə etdilər. Hər bir bəhanə ilə olur olsun – təzyiq, işkəncə, əziyyətlə – onları aradan qaldırmaq uğrunda çalışdılar.

Bu səbəbdən hidayət imamları nə ümumi islahatlara məşğul ola, nə də İslam cəmiyyətində İslam maarifi və qanunları və

Peyğəmbəri-Əkrəmin (s) həyat yolunu ümumi şəkildə genişləndirə bildilər.

Hətta Əmirəlmöminin Əli (ə) öz beşillik zahiri xilafəti dövründə daxili ixtilaflar və fitnəkarlıq törədən səhabələrin (Təlhə, Zübeyr, Ayişə, Müaviyə və digər təsirli şəxslər kimi) qanlı döyüşlər yaratdığı bir dövrdə öz ali məqsədlərinin ardınca gedərək istədiyi kimi islahatlar apara bilmədi.

Odur ki, hidayət imamları Allah-taalanın qarşısında daşıdıqları məsuliyyətə, öhdələrində olan vəzifəyə uyğun şəkildə cəmiyyətdə hamının təlim və tərbiyəsindən xüsusi adamların tədrisinə, ümumi islahatlardan yaxşılığa əmr və pisdən çəkindirməyə (imkan həddində) çalışdılar. Yəni, dini maarif və qanunlarda haqq sözünü cəmiyyətdə aşkar şəkildə yaymaq, işlərin cilovunu əldə tutmaq, cəmiyyətin həyat çarxını ali dini məsləhətlər üzərində fırlatmaq imkanları olmadığından çarəsiz qalıb istedadlı və səlahiyyətli adamların təlim-tərbiyəsinə məşğul oldular, insanlar və dövrün hökumətlərinə qarşı yaxşılığa dəvət və pislikdən çəkindirməklə qiyam etdilər və bu yolla dini ümumi məhvdən saxladılar. Allahın aydın ayini də öz səs-küysüz nurlanmasına davam etdi ki, bir gün yenə öz əvvəlki vəziyyətinə qayıdıb cahanı işıqlandırsın.

Bu həqiqət hidayət imamlarından hər birinin öz imamət dövrü və həyat mühitində qarşıya qoyduğu üsulun araşdırılması ilə tam aydın olur.

## HƏZRƏT ƏMİRƏLMÖMİNİNİN (Ə) HƏYAT YOLU

Bildiyimiz kimi, Peyğəmbəri-Əkrəm (s) vəfatından sonra müsəlmanların işlərinin vilayətini (Allahın aydın kəlamına əsaslanaraq) Əmirəlmömininin öhdəsinə qoymasına baxmayraq, vilayət xilafətə çevrildi və xilafət kürsüsünü də başqaları qəsb etdilər.

O həzrət, Salman, Əbuzər, Miqdad kimi xüsusi səhabələrdən bir neçəsi insanlara dəlillər gətirsələr də, müsbət cavab eşitmədilər.

O həzrət insanlardan uzaqlaşdı. Bir müddət evində Qurani-Kərimi yığmaqla məşğul oldu, xüsusi səhabə və digərlərinin təlim-tərbiyəsinə başladı.

Həzrət Əlinin (ə) Peyğəmbəri-Əkrəmin (s) həyatı dövründə bütün parlaq və müqayisəolunmaz keçmişi, Peyğəmbərin vəziri, İslam fəthlərinin kilidi olmasına, bilik, mühakimə, natiqlik və digər ruhi fəzilətlərdə bütün müsəlmanlardan üstünlüyünə baxmayaraq, birinci xəlifənin dövründə ümumi işlərdə onun varllğından heç istifadə olunmurdu. O həzrət (ə) Allaha ibadət və bir neçə dostunun elmi-əməli tərbiyəsi ilə məşğul oldu. Belə ki, adi bir adam kimi yaşayırdı.

İkinci xəlifənin xilafəti dövründə ona həssas bir iş tapşırmasalar da, müəyyən qədər diqqət mərkəzində oldu, mühüm işlərdə fikirlərindən istifadə olundu və müşavirə çevrildi. Belə ki, ikinci xəlifə dəfələrlə deyirdi: "Əgər Əlinin göstərişləri olmasaydı, Ömər həlak olardı."[1]

Üçüncü xəlifənin dövründə insanların o həzrətə diqqəti daha da artdı və bütün bu müddətdə (iyirmi beş il) gündən-günə o həzrətin təlim və tərbiyə dairəsi genişləndi və elminin şüası artdı ki, vilayət məktəbinin müstəqim və qeyri-müstəqim tərbiyə olunmuşlarında saysız bir qrup iş başına gəldilər və üçüncü xəlifə öldürüləndən dərhal sonra hər tərəfdən hücum edib o həzrəti xilafəti qəbul etməyə vadar etdilər.

O həzrət işlərin idarəsini əlinə aldıqda, Peyğəmbərin (s) uzun müddət unudulmuş həyat tərzini bərpa etdi; ictimai bərabərlik

---

1 "Kafi", c.7, səh.424, hədis: 6; "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, c.1, səh.18.

və ədaləti icra etdi, bütün yersiz imtiyazları ləğv etdi, iş başında olan azğın hakimləri işdən çıxartdı, "beytül-mal"dan qarət olunmuş malları, xəlifənin ona-buna bağışladığı əmlak və tərpənməz mülkiyyəti geri aldı və dini qaydalara xilaf çıxan kəsləri cəzalandırdı.

Mənfəətpərəst və qarətçi şəxslərdən bir qrupu şəxsi mənafelərini təhlükədə gördükdə, müxalifət bayrağını qaldırdılar. Osmanın qanını almaq bəhanəsi ilə daxili müharibələrə başladılar ki, o həzrətin başının qarışmasına və digər islahatlarına mane oldu.

O həzrət öz beşillik xilafəti dövründə ağır çətinliklərə baxmayaraq, saysız adamları tərbiyələndirdi, müxtəlif elmi fənlərdə qiymətli xəzinələri öz fəsahətli nitq və bəyanatları ilə yadigar qoydu və o cümlədən, ərəb dili qrammatikası olan nəhv elmini yaratdı.

O həzrətin görkəmli şəxsiyyəti vəsfə sığmır və onun sonsuz fəzilətləri sayagəlməzdir. Tarixin yadında elə bir şəxsiyyət yoxdur ki, dünya alimlərinin fikirlərini və mütəfəkkirlərinin nəzərini onun qədər özünə cəlb etsin.

## İMAM HƏSƏN MÜCTƏBA (Ə) VƏ İMAM HÜSEYN (Ə)

Şiə və sünnilər Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql etmişlər:

"Mənim bu iki oğlum imamdır, istər imamlığa qalxsın, istər işdən kənarlaşdırılsınlar."[1]

Bu iki imamın imamlığının mühüm hissəsi Müaviyənin xəlifəlik dövrünə təsadüf edir ki, hidayət imamlarının iki yüz əlli illik tarixində ən qaranlıq və ən kədərli dövrdür.

---

1 "Biharül-ənvar", c.16, səh.307.

Həzrət imam Həsən (ə) öz zahiri altı aylıq xilafəti dövründə, həmçinin həzrət Seyyidüş-Şühəda (ə) Müaviyədən sonra yaşadığı altı ay ərzində elə işlərə əl atdılar ki, zahirdə məğlubiyyətlə nəticələnsə də, batində qəti fəth və zəfərlə sona çatdı.

İmam Həsən Müctəba (ə) atasının şəhadətindən sonra xilafət kürsüsündə oturdu. Müaviyənin işini bitirmək məqsədilə qoşun təchizatına məşğul oldu və insanların arasında da babası və atasının həyat tərzini yaşadı. Lakin bir müddətdən sonra məlum oldu ki, onun səyləri Müaviyənin gizli fitnəkarlığı nəticəsində mənasızdır və qoşun başçıları Müaviyə ilə razılaşıblar, hətta o həzrəti əli-qolu bağlı təhvil verməyə, ya öldürməyə belə hazırdırlar.

Aydındır ki, bu zaman Müaviyə ilə müharibə imam Müctəbanın (ə) qəti məğlubiyyətindən başqa nəticə verməyəcəkdi və hətta əgər imam özü təkcə, ya öz yaxınları ilə birgə müqavimətə qalxsaydı, öldürülərdi. Bunun da Müaviyə səltənətinin sütunlarını dağıtmaqda, ya insanların qəlblərini cəlb etməkdə ən az təsiri belə olmayacaqdı. Çünki Müaviyə özünün xüsusi hiyləgərlik yolu ilə asanlıqla o həzrəti müxalif vasitələrlə, hətta öz adamlarının əli ilə öldürə və ondan sonra matəm paltarı geyinib öz qaniçən məqamına çıxa bilərdi. Beləliklə də, Peyğəmbər oğlunun qanını öz ətəyindən silərdi.

O həzrət buna görə Müaviyə ilə sülh təklifinə müəyyən şərtlərlə razılaşdı və xilafətdən kənarlaşdı. Amma Müaviyə bütün şərtləri ayaq altına salıb onlardan heç birinə əməl etmədi.

O həzrət bu vasitə ilə özünün, qardaşı imam Hüseynin (ə) və öz dostlarından bir çoxunun canını qəti təhlükədən qorudu, xüsusi adamlarından çox kiçik olsa da, cəmiyyət daxilində həqiqətlə dolu bir cəmiyyət təşkil etdi və İslamı zəruri məhv olmaqdan saxladı.

Əlbəttə, Müaviyə elə kəs deyildi ki, İmamın məqsədini anlamasın və buna görə də sülhün bərqərar olmasından və hakimiyyətə tam yiyələndikdən sonra Əlinin (ə) dostlarından harda tapırdısa, müxtəlif adlar və vasitələrlə aradan aparırdı. Halbuki sülh şərtlərindən biri bu idi ki, risalət ailəsinin dostları amanda qalsınlar.

Lakin bununla belə, Peyğəmbər (s) ailəsinə əli çatmadı, yalnız oğlu Yəzidin vəliəhdliyinin möhkəmləndirilməsinə hazırlıq kimi imam Müctəbanı (ə) arvadı vasitəsilə zəhərləyib şəhid etdi. Çünki sülh şərtlərindən biri də bu idi ki, xilafət Müaviyədən sonra imam Həsənə (ə) çatsın.

İmam Hüseyn (ə) qardaşından sonra Allahın əmri və qardaşının vəsiyyəti ilə imamətə çatdı və on ilə yaxın Müaviyəinin xilafəti dövründə yaşadı. Bu müddətdə imam Həsənin (ə) həyat yolunu seçdi, lakin nə qədər ki, Müaviyə sağ idi, təsirli bir iş görə bilmədi.

Müaviyəinin vəfatından sonra xilafət kürsüsünü işğal edən Yəzid Əməvi səltənətinin dəhşətli qüdrət zirvəsində olsa da, atası kimi mənəviyyat və dinə tərəfdarlığını təzahür etdirmir və aşkar şəkildə İslam müqəddəslərini məsxərəyə qoyurdu.

Bu çirkin həyat yolu imam Hüseynə (ə) yaxşı fürsət verdi ki, haqq-ədalət uğrunda qiyam etsin. Dəhşətli Bəni-Üməyyə qüdrəti ilə mübarizəsi onun və ailəsinin məğlubiyyəti ilə nəticələnsə də, o həzrətin haqq-ədalət yolunda məzlumcasına şəhadəti İslama yeni bir rövnəq verib təravətli qəlbləri özünə vurğun etdi.

O həzrət fürsətdən istifadə etdi və Yəzidə beyətdən boyun qaçırdı, bir müddət Allahın evinə sığınaraq, nəhayət, qiyam etdi. Kərbəlada Yəzidin qoşunları ilə müharibədə öz övladları, qardaşları, qohumları və dostları ilə birgə (yüz nəfərə yaxın

idilər və onların arasında südəmər körpə, beş, on bir, on üç yaşlı uşaq da vardı) şəhid oldu.

Yəzidin qoşunu o həzrətin şəhadətindən sonra mallarını qarət etdi, Əmirəlmöminin (ə) qızı Zeynəbi-Kübra, imam Həsən (ə) və imam Hüseynin (ə) qızları, imam Səccad (ə) və dörd yaşlı imam Mühəmməd Baqir (ə) də olmaqla qadın və uşaqları əsir götürüb şəhidlərin başları ilə birlikdə Kərbəladan Kufəyə, Kufədən Şama kimi Yəzidin yanına apardılar. Şəhidlərin başsız və parça-parça bədənləri üç gün yerdə qaldı, nəhayət, ətrafda yaşayan adamlardan bir dəstəsi gəlib onları torpağa tapşırdılar.

Bu dəhşətli hadisə açıq şəkildə Peyğəmbər (s) Əhli-beytinin (ə) məqsədini Bəni-Üməyyə və onların tərəfdarlarının məramlarından ayırdı, haqq və batili aydınlaşdırdı.

Bu hadisə ən az müddətdə bütün İslam aləminə yayıldı, şiddətli inqilabların yaranması və çoxlu qan tökülmələrinə səbəb oldu ki, on iki il davam etdi. Nəhayət, Bəni-Üməyyə səltənətinin süqutunun əsas amillərindən birinə çevrildi.

Bu hadisənin ən aydın təsiri böyük bir qrupun ruhi tərbiyəsi oldu ki, Əli ibn Əbu Talibin (ə) rolu və vilayəti qəlblərində yer tutdu. Peyğəmbər (s) xanədanının məhəbbətini öz şüarlarına çevirdilər və gündən-günə öz qüvvələrinin sayını artırdılar. Bu günə kimi yüz milyon müsəlman şiə adı ilə dünyanın hər bir yerində yaşayır.

### İMAM SƏCCAD (Ə)

İmam Səccadın (ə) yolu öz imaməti dövründə iki hissəyə bölünür ki, imamların ümumi yoluna uyğun gəlir. Çünki o həzrət dəhşətli Kərbəla hadisəsində öz əziz atasının yanında idi. İmam Hüseynin (ə) hərəkatında iştirak etmişdi. Atasının şəhadətindən sonra əsir düşüb Kərbəladan Kufəyə, Kufədən Şama aparılsa da, bütün əsirlik zamanında təqiyyə etmədi,

qorxmadan haqq və həqiqəti izhar etdi. Yeri düşdükcə çıxışları və bəyanatları ilə Peyğəmbər (s) xanədanı və onların tərəfdarlarının haqlılığını hamıya xatırladaraq öz əziz atasının məzlumluğu, Bəni-Üməyyəinin zülmkar və rəhmsizcəsinə etdiyi faciələri işıqlandırdı və adamların hiss və həyəcanlarından bir tufan yaratdı.

Lakin əsirlikdən xilas olandan sonra Mədinəyə qayıtdı və fədakarlıq mühiti sakitlik mühitinə çevrildi. Bir evin guşəsini seçib qapını yadların üzünə bağladı və Haqqın ibadətinə məşğul oldu. Səs-səmirsiz Haqq və həqiqət ardıcıllarının tərbiyəsinə başladı.

O həzrət otuz beş illik iməməti dövründə birbaşa və dolayısı ilə çoxlu sayda adamlar tərbiyələndirib qəlblərində İslam maarifinə yer verdi.

Təkcə o həzrətin ibadət mehrabında öz səmavi ləhcəsi ilə dediyi və onların vasitəsilə Allahla raz-niyaz etdiyi dualar ali İslam maarifinin kamil bir dairəsini əhatə edir və bu dualar toplanaraq "Səhifeyi-Səccadiyyə" adı ilə məşhurdur.

## İMAM MÜHƏMMƏD BAQİR (Ə)

İmam Mühəmməd Baqirin (ə) imamlığı zamanında dini elmlərin yayılması üçün müəyyən qədər zəmin yaranmışdı, çünki Bəni-Üməyyənin təzyiqi nəticəsində Əhli-beytin (ə) fiqhi aradan getmişdi, hökmlərə minlərlə hədis lazım olduğu halda, səhabələr vasitəsilə Peyğəmbərdən nəql olunmuş hədislərdən beş yüzü belə qalmamışdı.

Bir sözlə, o zaman Kərbəla faciəsi və imam Səccadın (ə) otuz beş illik səyi nəticəsində şiələrdən böyük bir qrup yaransa da, hələ də İslam fiqhi əliboş qalmışdı.

Bəni-Üməyyə səltənəti daxili ixtilaflar, dövlət adamlarının acgözlüyü nəticəsində zəifləyəndə və gündən-günə onda

süstlük əlamətləri zahir olanda beşinci imam fürsətdən istifadə edib Əhli-beyt elmləri və İslam fiqhini yaymağa başladı və öz məktəbində çoxlu alimləri cəmiyyətə təhvil verdi.

## İMAM CƏFƏR SADİQ (Ə)

Altıncı imamın (ə) dövründə İslam elmlərinin yayılması üçün əlverişli zəmin yaranmışdı. Çünki bir tərəfdən imam Mühəmməd Baqirin (ə) hədislərinin yayılması və onun məktəbində təhsil almışların təbliğatları nəticəsində insanlar İslam maarifi və Əhli-beyt (ə) elmlərinə öz ehtiyaclarını daha çox anlayıb hədis əxz etməyə başladılar. Digər tərəfdən Əməvi səltənəti dağılmış, Abbasi səltənəti isə tam bərqərar olmamışdı. Bəni-Abbas öz məqsədlərinin inkişafı və Əməvi hökumətinin əsaslarını dağıtmaq üçün Əhli-beyt (ə) məzlumiyyəti və Kərbəla şəhidlərinin qanını bəhanə edib Əhli-beytə (ə) xoş üz göstərdilər.

O həzrət elmlərin yayılmasına məşğul oldu. Alimlər hər tərəfdən dəstə-dəstə evinə axışdılar, hüzurundan bəhrələndilər, İslam maarifinin müxtəlif fənləri, əxlaq, peyğəmbərlər və ümmətlərin tarixi, hikmət və moizədən suallar soruşdular və cavablar eşitdilər.

O həzrət müxtəlif təbəqələrlə bəhslər, cürbəcür millət və sektalarla münazirələr etdi, elmin müxtəlif bölmələrində şagirdlər tərbiyələndirdi. [1] O həzrətin hədisləri və elmi bəyanatlarını əhatə edən yüzlərlə kitab yazıldı ki, "Üsul" adlandırıldı.

## İMAM MUSEYİ-KAZİM (Ə)

Bəni-Abbas Bəni-Üməyyə hökumətini devirəndən və xilafəti qəsb etdikdən sonra Bəni-Fatiməyə hücum etdilər, tam

1 Görkəmli kimyaçı Cabir ibn Həyyan o həzrətin şagirdlərindəndir.

qüvvələri ilə Peyğəmbər (ə) xanədanının məhvinə çalışdılar: bir qrupun boynunu vurdular, bir qrupunu da diri-diri dəfn etdilər. Çoxlarını binaların altında və divarların arasında qoydular, altıncı imamın evinə od vurdular və özünü neçə dəfə İraqa cəlb etdilər.

Beləliklə, altıncı imamın həyatının sonlarında təqiyyə daha da şiddətləndi və o həzrət nəzarət altında olduğuna görə xüsusi şiələrdən başqa kimsəni qəbul etmirdi. Nəhayət, ikinci Abbasi xəlifəsi Mənsur tərəfindən zəhərləndi və şəhid oldu. Buna görə də yeddinci imam Həzrət imam Museyi-Kazimin (ə) imamlığı dövründə müxaliflərin təzyiqi şiddətli və gündəlik oldu.

O həzrət şiddətli təqiyyəyə baxmayaraq, elmləri yaymağa başladı və çoxlu hədisləri şiələrin ixtiyarında qoydu. Demək olar ki, o həzrətin fiqhi hədisləri, beşinci və altıncı imamdan sonra digər imamlardan daha çoxdur və təqiyyənin güclü olmasına görə o həzrətdən nəql olunan hədisləri "Alim", "Əbd Saleh" və buna bənzər adlarla demiş və həzrətin adını açıqlamamışlar.

O həzrət dörd Abbasi xəlifəsi – Mənsur, Hadi, Mehdi və Harunla muasir olmuş və həmişə onların təzyiqinə məruz qalmışdır. Nəhayət, Harunun əmri ilə zindana salındı. Uzun illər bir zindandan digərinə göndərildi, zindanda da zəhərləndirildi və şəhid oldu.

## İMAM RİZA (Ə)

Cari vəziyyətləri düşündükdə hər nəzər sahibinə aydın olur ki, Əhli-beytin (ə) müasiri və müxalifi olan xəlifələr hidayət imamlarına işkəncə, əziyyət versələr də, ardıcıllarının sayı gündən-günə daha da artır və inamları daha da möhkəmlənirdi. Xilafət təşkilatı onların baxışında çirkin və iyrənc bir aparat kimi cilvələnirdi.

Bu məsələ daxili bir düyün kimi, həmişə imamların müasiri olan xəlifələrə əziyyət verirdi və həqiqətdə onları məğlub və çarəsiz etmişdi.

İmam Rizanın (ə) müasiri olan yeddinci Abbasi xəlifəsi Məmun öz qardaşı Əmini öldürəndən sonra xilafətə sahib oldu və bu fikrə düşdü ki, özünü daxili əziyyət və daimi nigaranlıqlardan rahat etsin, şiəliyi təzyiqsiz və güc işlətmədən aradan qaldırsın.

Məqsədinin həyata keçirilməsi üçün seçdiyi siyasət bu idi ki, öz vəliəhdliyini imam Rizaya (ə) verməklə o həzrəti xilafətin günahkar aparatına daxil etsin, şiələrin qarşısında onu ləkələsin və imamın ismət və paklığına etiqadı onların beynindən çıxarsın. Belə olan təqdirdə, şiə məzhəbinin əsası olan imamət məqamı üçün bir imtiyaz qalmaz və məzhəbin əsası öz-özünə dağılar.

Bu siyasətin icrasının başqa bir uğuru da var idi. O da bu idi ki, Bəni-Fatimənin Bəni-Abbas xilafətini devirməsi üçün qaldırdığı ardıcıl qiyamların qarşısını alsın. Çünki Bəni-Fatimə xilafətin öz əllərinə keçəcəyini müşahidə edəndə qanlı qiyamlardan çəkinərlər. Əlbəttə, bu məqsədin həyata keçməsindən sonra Məmun üçün imam Rizanı (ə) aradan götürmək çətin olmayacaqdı.

Məmun o həzrəti əvvəl xilafəti qəbul etməyə, ondan sonra vəliəhdliyi öhdəsinə götürməyə dəvət etdi. Təkid, israr və nəhayət, hədələrdən sonra o həzrət vəliəhdliyi ali işlərə müdaxilədən azad olma şərti ilə qəbul etdi.

O həzrət belə bir zəmində insanların fikirlərinin hidayətinə məşğul oldu, nə qədər ki, əli-qolu açıq idi, din və məzhəb böyükləri ilə bəhslər etdi, İslam maarifi və ali dini məqsədlər haqqında qiymətli bəyanatlar verdi. (Məmunun da dini bəhslərə marağı ifrat dərəcəsində idi.) O həzrətin İslam maarifinin əsasları haqqında olan bəyanatları çoxluq

baxımından Əmirəlmömininin (ə) bəyanatları kimidir və digər imamlardan bu sahədə daha çoxdur.

O həzrətin bərəkətlərindən biri bu idi ki, atalarından nəql olunan şiə hədislərinin çoxu ona təqdim olunmuş, napak insanların əli ilə saxtalanaraq Əhli-beyt (ə) hədisləri arasına daxil olmuş mövzular müəyyənləşdirilib çıxarılmışdı.

O həzrət vəliəhd kimi Mədinədən Mərvə etdiyi səfərdə yol boyu, xüsusilə, İranda insanların arasında qəribə bir həyəcan yaratmışdı, hər yerdən dəstə-dəstə ziyarət qəsdi ilə onun yanına yollanırdılar, gecə-gündüz pərvanə kimi varlıq şamının ətrafında fırlanır, din maarifi və hökmlərini öyrənirdilər.

Məmun insanların o həzrətə misilsiz və qəribə diqqətlərindən öz siyasətinin səhv olmasını başa düşdü və öz siyasi məğlubiyyətlərini düzəltmək üçün o həzrəti zəhərləyib şəhid etdi. Ondan sonra yenə Əhli-beyt (ə) və onların şiələrinə qarşı xəlifələrin keçmiş siyasəti davam etdirildi.

## İMAM MÜHƏMMƏD TƏQİ (Ə), İMAM ƏLİYYƏN-NƏQİ (Ə) VƏ İMAM HƏSƏN ƏSKƏRİ (Ə)

Bu üç imamın həyat yolu bir-birinə oxşar idi. İmam Rizanın (ə) şəhadətindən sonra Məmun onun yeganə oğlu imam Mühəmməd Təqini (ə) Bağdada çağırdı, mehr-məhəbbətlə qarşısına çıxıb öz qızını o həzrətlə evləndirdi və böyük ehtiramla onu öz yanında saxladı.

Bu rəftar dostcasına nəzərə çarpsa da, Məmun həmin siyasəti ilə həqiqətdə İmamı (ə) hər cəhətdən güclü nəzarəti altına almışdı.

İmamlıqları dövründə xilafətin paytaxtı olan Samirrada imam Əliyyən-Nəqi (ə) və imam Həsən Əskərinin (ə) qalması həqiqətdə həbs xarakteri daşıyırdı.

Bu üç böyük şəxsiyyətin imamlıq müddəti birlikdə əlli yeddi ildir. O zaman İran, İraq və Suriyada yaşayan şiələrin sayı yüz minlərdən çox idi. Onların arasında minlərlə hədis elmini bilənlər var idi. Bununla belə, bu imamlardan nəql olunan hədislər çox azdır, həmçinin, onların ömürləri də qısa olmuşdur. Doqquzuncu imam iyirmi beş yaşında, onuncu imam qırx yaşında və on birinci imam iyirmi yeddi yaşında şəhid olmuşdur.

Bütün bu məsələlər aydın şəkildə sübut edir ki, onların zamanında müxaliflərin nəzarəti çox şiddətli olmuş və onlar öz vəzifələrini azadcasına yerinə yetirə bilməmişlər. Buna baxmayaraq, onlardan "üsulid-din" və "firuid-din" haqqında qiymətli hədislər yadigar qalmışdır.

## ƏSRİN İMAMI, VƏD OLUNMUŞ MEHDİ (Ə)

İmam Həsən Əskərinin dövründə xilafət aparatı qərara almışdı ki, hansı yol və vasitə ilə olursa olsun, o həzrətin canişinini aradan qaldırsın və bununla imamət məsələsinə və nəticədə şiə məzhəbinə son qoysun. İmam Həsən Əskəri (ə) digər cəhətlərdən əlavə bu cəhətdən də nəzarət altında idi.

Buna görə əsrin imamının (ə) anadan olması gizli idi. Atası altı yaşına kimi sağ olduğundan onu nəzərlərdən gizli saxlayırdı, şiələrin xüsusi bir qrupundan əlavə, kimsə o həzrəti görmürdü.

Atasının şəhadətindən sonra o həzrət Allahın əmri ilə kiçik qeybətə çəkildi, biri digərindən sonra nayiblik şərəfinə çatan dörd xüsusi nayibinin vasitəsilə şiələrin suallarına cavab verir və onların problemlərini həll edirdi.

Həzrət ondan sonra o zamana kimi böyük qeybətə çəkildi ki, Allahın əmri ilə zühür edib zülm bürümüş dünyanı ədalətlə doldursun.

Peyğəmbəri-Əkrəm (s) və imamlardan (ə) o həzrətin şəxsiyyəti, qeybi, zühuru haqqında çoxlu hədislər çatmış, sünni və şiələr tərəfindən nəql olunmuşdur.

Həmçinin, şiə böyüklərindən çoxu atası sağ olarkən o həzrətin xidmətinə nail olmuş, misilsiz camalını müşahidə etmiş və atasının imamət müjdəsini almışlar.

Nübüvvət və imamət bəhsindən bu nəticəyə gəldik ki, bəşəriyyət dünyası heç vaxt Allahın dini və onun daşıyanı və qoruyanı olan imamlarsız olmamışdır.

## MƏAD

Kitabın əvvəlində qeyd olunduğu kimi, müqəddəs İslam dininin üzərində möhkəmləndiyi üç əsasdan biri məada etiqaddır. Yəni Allah-taalanın insanları ölümdən sonra yenidən diriltməsinə, əməllərinin hesabını çəkməsinə, yaxşı iş görənlərə yaxşı mükafat və əbədi nemət verməsinə, pis iş görənlərin əməllərinə uyğun cəzaya çatdırmasına imandır. Həmin gün "Qiyamət" adlandırılır.

### MƏAD, DİNLƏR VƏ MİLLƏTLƏR

Allah-taalaya ibadətə dəvət edən, bəşəri yaxşılıqlara çağırıb, pisliklərdən çəkindirən bütün dinlər və məzhəblər insan üçün məad və ölümdən sonra digər həyatın olmasını deyir; çünki yaxşı işin onda dəyəri olacaq ki, öz ardınca yaxşı mükafatı olsun. Bu mükafat maddi dünyada müşahidə olunmadığından, ölümdən sonra başqa bir dünyada başqa həyatla olacaq.

Bundan əlavə, kəşf olunan çox qədim qəbirlərdə insanın ölümdən sonra başqa bir həyata imanı olmasına dəlalət edən əlamətlər müşahidə olunur və onlar öz etiqadlarına görə ölünün o dünyada asayişinin olması üçün təşrifat yerinə yetirirlər.

### MƏAD QURANDA

Qurani-Kərim yüzlərlə ayədə məadı insanlara xatırladır, ona hər şəkk-şübhəni inkar edir və çox hallarda bəsirətin artması və fikirlərin aydınlaşması üçün varlıqların ilkin yaranışında Allahın mütləq qüdrətini insanlara xatırladır. Necə ki, buyurur:

﴿أَوَلَمْ يَرَ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن نُّطْفَةٍ فَإِذَا هُوَ خَصِيمٌ مُّبِينٌ وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ﴾

***“Məgər insan onu nütfədən yaratdığımızı (qəlb gözü ilə) görmədimi ki, birdən-birə (qısa bir müddət ərzində) (məad məsələsində) açıq-aşkar bir düşmən oldu?!***

***Öz yaradılışını unutduğu halda Bizə bir məsəl də çəkib dedi: “(Bu) sümükləri çürümüş və toz-torpaq olduqları halda kim dirildəcək?”***

***De: “Onları, ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər (növ) xilqəti, hər bir yaradılışı biləndir.”***[1]

Bəzən insanların fikirlərini qış ölümündən sonra baharda yerin canlanmasına yönəldib Allahın qüdrətini xatırladır:

﴿وَمِنْ آيَاتِهِ أَنَّكَ تَرَى الْأَرْضَ خَاشِعَةً فَإِذَا أَنزَلْنَا عَلَيْهَا الْمَاءَ اهْتَزَّتْ وَرَبَتْ إِنَّ الَّذِي أَحْيَاهَا لَمُحْيِي الْمَوْتَى إِنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

***“Onun (tövhid və qüdrət) nişanələrindən (biri də) budur ki, sən yeri quru və ölmüş görürsən. Onun üzərinə (yağış, qar və dolu şəklində) su endirdiyimiz zaman o, canlanar və (həm özü, həm də yetirdiyi bitkilər) qalxar. Həqiqətən, onu (yeri və qurumuş bitkiləri) dirildən şübhəsiz, (Qiyamətdə) ölüləri (də) dirildəcəkdir. Çünki O, hər şeyə qadirdir!”***[2]

Bəzən əqli dəlillərlə insanın fitrətini bu həqiqətlərin etirafı üçün oyadır:

---

1 "Yasin" surəsi, ayə: 77-79.

2 "Fussilət" surəsi, ayə: 39.

﴿وَمَا خَلَقْنَا السَّمَاء وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا بَاطِلًا ذَلِكَ ظَنُّ الَّذِينَ كَفَرُوا فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُوا مِنَ النَّارِ أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِي الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ﴾

***"Biz göyü, yeri və onların arasında olanları bihudə və əbəs yerə yaratmamışıq. Bu, küfr edənlərin zənnidir. Buna görə də (cəhənnəm) od(un)dan vay olsun kafirlərin halına! Məgər Biz iman gətirib yaxşı işlər görənləri (mükafatlandırma məqamında) yer üzündə fəsad törədənlərlə bir tutacağıq?! Yoxsa, təqvalıları günahkarlarla bir tutacağıq?!"[1]***

Çünki bu dünyada yaxşı və pis iş görənlər öz əməllərinin tam əvəzini almırlar. Əgər arada bu dəstədən hər birini öz əməlinə uyğun mükafata çatdıran başqa bir dünya olmasa, hər iki dəstə Allahın qarşısında bir olacaq və bu, ilahi ədalətə ziddir.

## ÖLÜMDƏN QİYAMƏTƏ KİMİ

### ÖLƏN RUH YOX, BƏDƏNDİR

İslam baxımından insan cisim və ruhdan təşkil olunmuş bir məxluqdur.

İnsan bədəninin özü maddə tərkiblərindən biridir və qanunlara məhkumdur. Yəni həcmi və çəkisi vardır, onun həyatı zaman və məkandadır, isti və soyuqdan təsirlənir, tədricən qocalır və nəhayət Allahın əmri ilə bir gün yarandığı kimi, bir gün də parçalanıb aradan gedəcəkdir.

Lakin ruh maddi deyil və onda maddənin adı çəkilən xasiyyətlərdən heç biri yoxdur. Elm, hisslər, fikir, iradə, məhəbbət, kin, şadlıq, kədər və ümid kimi digər ruhi sifətlər ona məxsusdur. Maddənin qeyd olunan xasiyyətləri ruhda olmadığı kimi, ruhi sifətlər də bu xasiyyətlərdən uzaqdır. Qəlb,

1 "Sad" surəsi, ayə: 27-28.

beyin və bədənin digər hissələri öz saysız fəaliyyətində ruh və ruhi sifətlərin tabeliyindədir və heç kəs bədən hissələrindən birini fərmanverici mərkəz kimi təyin edə bilməz.

Allah-taala buyurur:

﴿وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ مِن سُلَالَةٍ مِّن طِينٍ ثُمَّ جَعَلْنَاهُ نُطْفَةً فِي قَرَارٍ مَّكِينٍ ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا آخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ﴾

***“Şübhəsiz, Biz insanı(n ulu baba və nənəsini) gilin cövhərindən (ruh üfürməklə və ona möcüzəvi şəkildə can verməklə) yaratdıq.***

***Sonra onu(n nəslini) nütfə (torpağın maddələrinin cövhəri) şəklində möhkəm bir yerə (ana bətninə) qoyduq.***

***Sonra nütfəni ələqə etdik (laxta qana çevirdik), sonra ələqəni muzğə etdik (çeynənmiş ət şəklinə saldıq). Ondan sonra muzğəni (yumşaq) sümüklər etdik. Beləliklə, sümüklərə ət (libası) geyindirdik. Sonra onu (inkişaf etmək qabiliyyəti olan həmin cismi ruh üfürməklə ağıl və elmə layiq) başqa bir (canlı) məxluq (şəklində) vücuda gətirdik. Buna görə də afərin Allaha! Yaradanların ən yaxşısı olan Allah, çox xeyir-bərəkətlidir!”***[1]

## İSLAM BAXIMINDAN ÖLÜMÜN MƏNASI

İslam baxımından ölümün mənası insanın yox olması deyil, əksinə insanın məhv olmayan ruhu öz əlaqəsini bədəndən kəsir, nəticədə bədən aradan gedib ruh bədənsiz olaraq öz həyatına davam verir.

Allah-taala buyurur:

---

1 "Muminun" surəsi, ayə: 12-14.

﴿وَقَالُوا أَئِذَا ضَلَلْنَا فِي الْأَرْضِ أَئِنَّا لَفِي خَلْقٍ جَدِيدٍ بَلْ هُم بِلِقَاء رَبِّهِمْ كَافِرُونَ قُلْ يَتَوَفَّاكُم مَّلَكُ الْمَوْتِ الَّذِي وُكِّلَ بِكُمْ﴾

***"(Müşriklər) dedilər: "Məgər (biz) torpağın köksündə dağılıb yox olduqdan sonra, yenidənmi yaradılacağıq?!" (Bizim qüdrətimiz məhdud deyildir). Əksinə, onlar öz Rəbbi ilə görüşü inkar edirlər. (Ya Peyğəmbər!) De: "Sizə müvəkkil olan ölüm mələyi sizi(n varlığınızın bütün həqiqətini təşkil edən ruhunuzu) kamil surətdə (bədəninizdən) alar (ayırar), (ruh qalar və bədən isə torpağa çevrilər.)"[1]***

Peyğəmbəri-Əkrəm (s) buyurur: **"**Siz məhv olmursunuz, bir evdən başqa evə köçürülürsünüz**"**

BƏRZƏX

İslamda etiqad budur ki, insan öləndən sonra xüsusi şəkildə diri qalır; əgər yaxşı iş görəndirsə, nemət və səadətdən bəhrələnir, əgər pis iş görəndirsə, əziyyətə düçar olacaq, Qiyamətdə isə ümumi hesab üçün mühakiməyə gətiriləcək.

Ölümdən sonra Qiyamət gününə kimi insanın yaşadığı aləm "Bərzəx" adlanır.

﴿وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ﴾

***"Və onların qarşısında (qəbirdən) qaldırılacaqları günə qədər Bərzəx (aləmi) vardır."[2]***

﴿وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ﴾

***"Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir."[3]***

---

1 "Səcdə" surəsi, ayə: 10-11.
2 "Muminun" surəsi, ayə: 100.
3 "Ali-İmran" surəsi, ayə: 169.

# İKİNCİ HİSSƏ:
# ƏXLAQ

## İŞİN VACİBLİYİ, PEŞƏ VƏ SƏNƏTİN ƏHƏMİYYƏTİ

Fəaliyyət və iş yaranış nizamının sütunun əsasıdır və o, hər məxluqun davamlılığına zamindir.

Allah-taala Öz yaratdıqlarının hər birini halına uyğun olaraq elə vasitələrlə təchiz etmişdir ki, onları işə salmaqla mənafeləri cəlb və zərərləri özündən dəf etsin.

Yaranışın ən qəribə və ən mürəkkəb forması olan insanın ehtiyacı digər yaradılmışlardan daha çox olduğundan, daha çox fəaliyyətə möhtacdır ki, onun vasitəsilə özünün və əhli-əyalının saysız ehtiyaclarını təmin edə bilsin.

Fitri və ictimai din olan İslam bu mülahizəyə əsasən iş və qazancı vacib saymış və işsiz adamlara dəyər verməmişdir.

İslamda hər fərd öz zövqünə görə, Allah-taalanın insanın fikrini yönəltdiyi sənət və peşələrdən birini çiyninə alıb insanların rahatlığı uğrunda çalışmalıdır.

Allah-taala buyurur:

﴿وَأَن لَّيْسَ لِلْإِنسَانِ إِلَّا مَا سَعَى﴾

***“İnsan üçün etdiyi səy və təlaşdan başqa bir şey yoxdur”***[1]

Buna görə İslamda tənbəllik nəticəsində yaranan işsizlik qəti qadağandır.

### İŞSİZLİYİN ZƏRƏRLƏRİ

Keçən bəhsdən iş və çalışmağın düzgün yol olduğu aydın oldu ki, insan öz yaşayış səadətini tapmaq üçün onu getməlidir.

---

1 "Nəcm" surəsi, ayə: 39.

Əlbəttə, xilqət və təbiət məcrasından sapınma çox az olsa da, insanın zərərindən başqa bir işlə bitməyəcək və bu halda həyat nizamının onun üzərində durduğu işdən sapınma dünya və axirət bədbəxtliyi ilə nəticələnəcək.

Buna görədir ki, yeddinci İmam (ə) buyurur:

“İşlərdə süstlük və yorğunluğu izhar etmə, yoxsa dünya və axirəti əldən verərsən.”[1]

Peyğəmbəri-Əkrəm (ə) işsizliyə öyrənib öz həyat ağırlığını başqalarının çiyninə atan kəslərə lənət buyurmuşdur.[2]

Bu gün ruhi və ictimai araşdırmalardan yaxşı aydın olur ki, ictimai fəsadların böyük hissəsi işsizlikdən yaranır. İşsizlik cəmiyyətin iqtisadi və mədəni inkişafını hərəkətdən saxlayır və hər cür əxlaqi tənəzzül və xurafata rəvac verir.

## ƏKİNÇİLİK VƏ ONUN XEYİRLƏRİ

Cəmiyyətin qida məhsullarını hazırlamaq böyük əhəmiyyət daşıdığından əkinçilik insanın ən bəyənilmiş sənətlərindəndir və bu səbəbdən İslamda bu işin seçiminə çox təkid olunmuşdur.

Altıncı İmam (ə) buyurur:

“Qiyamət günündə əkinçinin məqamı hər məqamdan daha yüksəkdir”[3]

Beşinci İmam (ə) buyurur:

“Heç bir iş əkinçilik kimi yaxşı və faydası ümumi deyil; çünki yaxşı və pis iş görən, otlayan (gəzən) və uçan canlılar ondan faydalanır və öz dili ilə əkinçiyə dua edirlər.”[4]

---

1 "Kafi", c.5, səh. 85, hədis: 2.
2 Yenə orada, c.4, səh.12, hədis: 9.
3 Yenə orada, c.5, səh.261, hədis: 7.
4 Yenə orada, c.5, səh.260, hədis: 5.

## ÖZÜNƏ İNAM

Dəfələrlə etiqadlar hissəsində qeyd olunmuşdur ki, İslamın ümumi proqramı insanın yeganə Allahdan başqa kimsəyə ibadət etməməsi və dünyanın Pərvərdigarından başqasına baş əyməməsidir.

Bütün məxluqlar Allahın tərbiyələndirdikləridir, Onun ruzisini yeyir, sonda Allaha tərəf qayıdırlar.

Hər bir müsəlman özünə inanmalı, Allahı-Təalanın ona verdiyi müstəqillikdən istifadə etməli, ona təqdim olunan vasitələri işlətməli və həyat yolunu getməlidir. Daha başqalarına ümid bağlayıb hər gün Allaha yeni şərik qoşmamalı və yeni bir büt yonmamalıdır.

Xidmətçi bilməlidir ki, öz çörəyini yeyir, xidmət göstərdiyinin yox; fəhlə bilməlidir ki, öz əlinin zəhmətindən bəhrələnir, öz sahibinin pulsuz bəxşişindən yox. Hər işçinin inamı olmalıdır ki, öz işinin muzdunu alır, rəisin, dövlət, ya cəmiyyətdən asılı idarənin hədiyyəsini yox. Son söz budur ki, azad insan Allahdan başqa kimsəyə ümid bağlayıb baş əyməməlidir. Əks təqdirdə, batində bütpərəstlərin zahirdə malik olduğu həmin bəndəlik və alçaqlıq şirkinə malik olacaq.

## HƏYATDA BAŞQALARINA ARXALANMAĞIN ZƏRƏRLƏRİ

Başqalarına ümid və dayaq kimi baxmaqla yaşamaq həqiqətdə insanın iftixar, istiqlal və azadlıq şərafətini əldən vermək və bütün ictimai çirkinliklərin mənşəyidir ki, zəlillik və alçaqlıqdan qaynaqlanır. Başqalarına ümidlə oturub gözünü onun-bunun əlinə dikən kəs, həqiqətdə bu yolda öz iradə və şüurunu atır; yaltaqlıq etməli, haqq ya batil, çirkin ya gözəl hər nə istəsələr və desələr etməlidir, hər rüsvayçılığa razılaşmalıdır, ya da pərəstiş etməlidir, hər zülmə və haqsızlığa dözməlidir və nəhayət, bütün insanlıq hədləri və qaydalarını heç saymalıdır.

Zərurət istisna olunmaqla dilənmə İslamda haramdır və fəqirlərə maliyyə yardımı İslam qaydalarının bir hissəsidir. Təkcə qazancları xərcləri ilə uyğunluq təşkil etməyən və ya iş qüvvəsini itirən fəqirlər bura daxildir.

## ÇƏKİDƏ ALDATMAQ

İslam baxımından çəkidə aldatma böyük günahlardan biridir ki, Allah-taala Öz kəlamında bunu edənləri danlayıb hədələyir və buyurur:

﴿وَيْلٌ لِّلْمُطَفِّفِينَ ...أَلَا يَظُنُّ أُولَئِكَ أَنَّهُم مَّبْعُوثُونَ لِيَوْمٍ عَظِيمٍ﴾

***"Vay halına əskik satanların! Məgər onlar güman etmirlərmi ki, (haqq-hesab üçün) dirildiləcəklər, böyük bir gündə?!"*** [1]

Çəkidə aldadan şəxs insanlara zülm edib mallarını oğurluq yolu ilə qazanmaqdan əlavə, insanların özünə inam və arxayınlığını aradan aparır və beləliklə də öz sərmayəsini əldən verir.

## ZÜLM VƏ ZÜLMKARLIQ

Allah-taala Öz səmavi kəlamında yüz dəfələrlə zülmü xatırlatmış və yırtıcıların xisləti olan bu alçaq xüsusiyyəti pisləmişdir. (Cəmi yüz on dörd surə olan Qurani-Kərim surələrinin üçdə ikisində zülmdən söz deyilmişdir.)

Kimsəni tapmaq olmaz ki, öz fitrəti ilə pislik və zülmkarlığı dərk etməsin və zülmdən hansı dərdli müsibətlərin gəldiyini, qanlar töküldüyünü, evlər dağıldığını az-çox da olsun bilməsin.

Təcrübədə sübut olunmuşdur ki, zülm sarayı nə qədər möhkəm olsa da, davamlı deyil, gec və ya tez zülmkarın başına dağılacaq.

Allah-taala buyurur:

---

1 "Mutəffifin" surəsi, ayə: 1-5.

﴿إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

***“Allah zalımların dəstəsini əsla hidayət etməz”*[1]**

Övliyalar buyururlar:

“Səltənət və mülk küfrlə qalar, amma zülm ilə qalmaz”[2]

## İNSANLARI İNCİTMƏK VƏ ŞƏR

Bu iki sifət bir-birinə yaxındır; çünki “iza” dil ilə başqalarına əziyyət verməkdir – söymək, başqalarını sözlə incitmək kimi. Yaxud əl gördüyü işin insanları incitməsi “iza”dır. İnsanlar üçün şər, zərər yaradan işləri görmək şərarət adlanır.

Bu iki sifət insanın arzusunun ziddinədir. O arzu ki, insan ona çatmaq üçün cəmiyyət qurmuş, cəmiyyət də həyatın asayişi və xatirin rahatlığıdır.

Buna görə də cəmiyyətdə islah və yaxşılığa birinci dərəcədə əhəmiyyət verən İslam şəriəti onlara qadağa qoymuşdur. Necə ki, Allah-taala buyurur:

﴿وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُّبِينًا﴾

***“Mömin kişiləri, mömin qadınları günah etmədikləri halda incidənlər, həqiqətən, böhtan və açıq-aydın bir günah qazanmışlar (çünki onları incitmək onlara günah isnad etməkdir və bu özü böhtandır).”*[3]**

Peyğəmbəri-Əkrəm (s) buyurur:

1 "Ənam" surəsi, ayə: 144.
2 "Əmali", Şeyx Müfid, səh.310, hədis: 3.
3 "Əhzab" surəsi, ayə: 58.

“Bir müsəlmana əziyyət verən kəs mənə əziyyət vermişdir, mənə əziyyət Allaha əziyyətdir; belə adam Tövrat, Quran və İncildə lənətlənmişdir”[1]

Həmçinin buyurur:

“İti baxışla müsəlmana baxıb onu qorxudan kəsi Qiyamət günündə qorxudarıq.”[2]

## YALAN

Yalan İslamda böyük günahlardan biridir ki, Allah-taalanın kəlamında onların müqabilində qəti əzab vəd edilmişdir. Yalan təkcə şəriətdə günah və pis iş kimi təqdim olunmamışdır, həm də ağıl baxımından onun çirkinliyi aydındır. Cəmiyyətdə bu bəyənilməmiş işin yayılması insanların yeganə ictimai rabitəsi olan etimad fürsətini aradan aparır və belə bir əlaqənin dağılması nəticəsində insanlar bir-birindən fərdi şəkildə yaşayırlar, baxmayaraq ki, zahirdə birgə görünürlər.

## QEYBƏT VƏ İFTİRA

Başqalarının arxasınca danışmaq düzgün olsa da, “qeybət”dir, yalan olsa, “iftira” və bəzən “böhtan” adlanır.

Əlbəttə, Allah-taala insanı (peyğəmbərlər və imamlardan başqa) məsum yaratmamış və hər kəs malik olduğu nöqsanlar vasitəsilə xətadan qorunmur və bütün insanlar Allah-taalanın öz yüksək hikməti ilə əməllərinin üzərinə çəkdiyi pərdənin arxasında yaşayırlar. Necə ki, əgər bir an nöqsan və eyiblərin üzərindən ilahi hicab götürülsə, hamı bir-birnə nifrət edib qaçar və icmalarının əsası birdəfəlik dağılar.

---

1 "Biharül-ənvar", c.64, səh.72, hədis: 40.

2 "Kafi", c.2, səh.368, hədis: 1.

Bu səbəbdən Allah-taala qeybəti haram buyurmuşdur ki, bir-birində amanda olsunlar, zahiri həyat mühitləri gözəl və zinətli görünsün ki, tədricən həmin xarici gözəllik daxili çirkinlyi islah etsin.

Allah-taala buyurur:

﴿وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا﴾

***“Bir-birinizin qeybətini etməyin. Məgər sizin biriniz öz ölmüş qardaşının ətini yemək istəyər?!”[1]***

İftiranın günahı və çirkinlyi qeybətdən dəfələrlə şiddətlidir və onun çirkinlyi məlumdur. Allah-taala Öz kəlamında onun pislik və yolverilməzliyini sorğu-sualsız sayaraq buyrurmuşdur:

﴿إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لاَ يُؤْمِنُونَ﴾

***“(Peyğəmbər bu kitabı yalandan Allaha nisbət vermir, yaxud mənaları başqalarından götürüb kəlmələri özü quraşdırmır, çünki Peyğəmbər yox) yalnız Allahın ayələrinə iman gətirməyənlər yalan uydurarlar və yalançı onlardır!”[2]***

## RÜŞVƏT

Vəzifəsi olub görməli olan əməlin, ya hökmün yerinə yetirilməsi müqabilində pul, ya hədiyyə götürmək “rüşvət” adlanır.

İslamda rüşvət böyük günahlardan biridir. Ona düçar olan şəxs dini-ictimai məziyyətlərdən (ədalət) məhrum və Allahın əzabına layiq olur. Kitab və sünnədə bu mənadan danışılmışdır.

---

1 "Hücurat" surəsi, ayə: 12.
2 "Nəhl" surəsi, ayə: 105.

Peyğəmbəri-Əkrəm (s) rüşvət verən, rüşvət alan və onların arasında vasitəçilik edən kəsi lənətləmişdir.[1]

Altıncı İmam buyurmuşdur:

"Ədalət məhkəməsində rüşvət almaq küfrə bərabərdir".[2]

Əlbəttə, bütün bu məzəmmətlər həmin rüşvət haqqındadır ki, Haqq hökmü, ya ədalətli əməl üçün alınır; amma haqqa zidd əməl müqabilində alınan rüşvətin günahı daha böyük və onun cəzası daha şiddətlidir.

## OĞURLUQ

Oğurluq çirkin və yolverilməz peşədir ki, cəmiyyətin mal baxımından təhlükəsiziliyini hədələyir. Aydındır ki, insan həyatının ilk ehtiyacı mal və sərvətidir ki, öz ömrü bahasına onu əldə edir və təhlükəsizliklə hər cür zorakılıq və təcavüz zərərindən qorumaq və cəmiyyətin yaşayışının dayağı olmaq üçün dövrəsinə hasar çəkir. Əlbəttə, bu hasarı sındırmaq və bu nəzmi pozmaq bir ömrün sərmayəsini dağıtmaqdır ki, onu əldə etmək yolunda sərf etmişdir və insanların fəaliyyətinin böyük hissəsini işdən saxlamaq və onların əllərini kəsmək səbəbidir.

Buna görə, İslam vicdanı onun xəyanət olmasına şəhadət verdiyi bu nifrət olunan əməlin cəzalarını müəyyənləşdirmişdir ki, onun əlini (sağ əldən dörd barmağı) kəssinlər. Allah Təala buyurur:

﴿وَالسَّارِقُ وَالسَّارِقَةُ فَاقْطَعُواْ أَيْدِيَهُمَا جَزَاء بِمَا كَسَبَا﴾

***"(Ey İslam hakimləri,) oğru kişi və oğru qadının əlini (baş barmaqlarını çıxmaqla sağ əlinin dörd barmaqlarını) etdikləri işin müqabilində Allah tərəfindən müəyyənləşdirilmiş bir cəza olaraq kəsin."***[3]

---

1 "Biharül-ənvar", c.101, səh.274, hədis: 9.

2 Yenə orada, c.101, səh.273, hədis: 3.

3 "Maidə" surəsi, ayə: 38.

# ƏQİDƏ ƏSASLARI VƏ DİNİ QAYDALAR

## DÖRDÜNCÜ CİLD

# BİRİNCİ HİSSƏ:
# ETİQADLAR

**DİN**

“Din” dillərdə çox işlənən sözlərdəndir və adətən o kəsə dindar deyilir ki, cahanın Allahı olduğunu isbat və Onun razılığı üçün xüsusi əməlləri icra etsin.

Hər ictimai fərdin qanunla müəyyən olunmuş vəzifələrə əməl etməsindən təsəvvür oluna bilər ki, artıq dinə ehtiyac olmayacaq. Lakin İslam hökmləri və qaydaları haqqında diqqətlə düşündükdə bu mənanın ziddi isbat olunur. Çünki İslam dini təkcə Allaha ibadət və dua etmək yox, insanın bütün fərdi və ictimai sahələri üçün hərtərəfli göstərişlər və xüsusi qaydalar müəyyənləşdirmiş, geniş bəşəriyyət dünyasını heyrətamiz şəkildə araşdırmış, insanın hər fərdi və ictimai hərəkəti üçün münasib qərarlar vermişdir və əlbəttə, belə dinə təşrifat xarakteri vermək olmaz.

Allah-taala Qurani-Kərimdə İslam dinini bəyan olunan şəkildə təsvir edir, həmçinin, ictimai hökm və qaydalara malik yəhudilik və xristianlığın Tövrat və İncil kimi səmavi kitablarında həmin şəkildə təqdim edir.

Necə ki, buyurur:

﴿وَكَيْفَ يُحَكِّمُونَكَ وَعِندَهُمُ التَّوْرَاةُ فِيهَا حُكْمُ اللّهِ ... إِنَّا أَنزَلْنَا التَّوْرَاةَ فِيهَا هُدًى وَنُورٌ يَحْكُمُ بِهَا النَّبِيُّونَ الَّذِينَ أَسْلَمُواْ لِلَّذِينَ هَادُواْ وَالرَّبَّانِيُّونَ وَالأَحْبَارُ ... وَقَفَّيْنَا عَلَى آثَارِهِم بِعَيسَى ابْنِ مَرْيَمَ ...وَآتَيْنَاهُ الإِنجِيلَ فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ ... وَلْيَحْكُمْ أَهْلُ الإِنجِيلِ بِمَا أَنزَلَ اللّهُ فِيهِ ... وَأَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ الْكِتَابِ وَمُهَيْمِنًا عَلَيْهِ فَاحْكُم بَيْنَهُم بِمَا أَنزَلَ اللّهُ﴾

***“Allahın hökmü içərisində olan Tövrat onların yanlarında ola-ola səni necə mühakiməyə çəkirlər...***

***Həqiqətən Biz onda hidayət və nur olan Tövratı nazil etdik. (Musanın zamanından İsanın zamanına qədər Musanın dininə) təslim olan peyğəmbərlər onun əsasında yəhudilər üçün hökm çıxarırdılar. Həmçinin rəbbani (Allahpərəst) alimlər və (Tövratşünas) bilik sahibləri onlardan Allahın kitabının qorunması istənildiyi və onlar onun (qalması və toxunulmazlığına) şahid olduqları üçün (onun əsasında hökm çıxarırdılar)...***

***Onların (qabaqkı peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı göndərdik ... Və ona içində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən və pəhrizkarlar üçün hidayət və nəsihət olan İncil verdik.***

***Gərək İncil əhli Allahın onda nazil etdiyinin əsasında hökm etsin. Allahın nazil etdiyinin əsasında hökm etməyənlər məhz onlardır fasiqlər!***

***Biz bu kitabı sənə haqq və doğru olaraq özündən əvvəlki (səmavi) kitabları təsdiq edən və onlara hakim, nəzarətçi, qoruyan və şahid kimi nazil etdik. Buna görə də onların arasında Allahın (sənə) nazil etdiyinin əsasında hökm et.. "***[1]

İndi yəhudi və xristianların əlində olan Tövrat və İncil də həmin mətləbi təsdiq edir. Çünki Tövratda çoxlu hüquqi və cəza qaydaları mövcuddur və İncilin zahiri də Tövratin şəriətini təsdiq edir.

## NƏTİCƏ

Əvvəlki bəyandan aydın olur ki, Quran istilahında din həmin həyat yoludur ki, insanın ondan qaçış yeri yoxdur və dinlə ictimai bir qanun arasında tapılan fərq budur ki, din Allah-taalanındır, ictimai qanun insanların yaratdığı. Din Allah-

---

1 "Maidə" surəsi, ayə: 43-48.

taalaya ibadət və Ona tabeliyə dəvət edir, lakin ictimai qanunda bu dəvətə təşəbbüs yoxdur.

## ALLAHA BAĞLI QANUNUN MÜSBƏT TƏSİRİ

Din insanın ictimai həyatı və Allah-taalaya ibadət arasında yaratdığı bağlılıq nəticəsində bütün fərdi və ictimai əməllərdə insan üçün ilahi məsuliyyəti yaratmış, insanı bütün hərəkətlərində Allah-taalanın yanında məsul bilir.

Çünki Allah-taala Öz sonsuz qüdrət və elmi ilə hər cəhətdən insanı əhatə edir, başında yaranan hər cür fikirdən, qəlbində olan sirdən tam agahdır və heç bir şey Ona gizlin deyil. Bu səbəbdən din bəşəri qanun kimi nizam-intizamın qorunması üçün gözətçi təyin etmişdir, qanun pozucuları və məğrurlar üçün cəzalandırılma qaydaları müəyyənləşdirmişdir. Dinin bəşər qanunundan üstünlüyünün biri də odur ki, din insanın nəzarət və mühafizə cilovunu daxili gözətçinin əlinə verir ki, heç vaxt öz işindən qafil olub səhv etmir və onun cəza və mükafatından qurtulmaq qeyri-mümkündür.

Allah-taala Öz kəlamında buyurur:

﴿وَهُوَ مَعَكُمْ أَيْنَ مَا كُنتُمْ﴾

***“Harada olsanız, O sizinlədir.”***[1]

Və buyurur:

﴿وَاللّهُ بِمَا يَعْمَلُونَ مُحِيطٌ﴾

***“Allah (qüdrət və elm baxımından) onların etdiklərini əhatə etmişdir.”***[2]

Yenə buyurur:

---

1 "Hədid" surəsi, ayə: 4.
2 "Ənfal" surəsi, ayə: 47.

﴿وَإِنَّ كُــلاًّ لَّمَّا لَيُوَفِّيَنَّهُمْ رَبُّكَ أَعْمَالَهُمْ﴾

***"Həqiqətən sənin Rəbbin (Qiyamət günü) ixtilaf edən tərəflərin hər ikisinin əməllərini(n cəzasını, yaxud əməllərin gerçək təzahÜrünü) kamil surətdə verəcəkdir."*[1]**

Əgər qanun mühitində yaşayan bir kəsin vəziyyətini din mühitində yaşayan kəslə müqayisə etsək, dinin üstünlüyü bizə tam aşkar olacaq; çünki bütün fərdləri dindar olan, öz dini vəzifələrini yerinə yetirən kəslər bütün işlərdə Allahı öz işlərinə nəzarətçi bildiklərindən bir-birinə qarşı hər cür zənndən amandadırlar. Buna əsasən, belə mühitdə yaşayan bütün fərdlər bir-birinin əl və dilindən asudə olub, ömürlərini son dərəcə rahatlıq və xoşluqda keçirəcək və əbədi səadətə nail olacaqlar. Amma bəşəri qanunların hakim olduğu mühitdə gözətçini öz işlərinə nəzarətçi biləndə zidd işdən çəkinir, əks halda mümkündür ki, zidd işə əl atsın.

Bəli, əxlaqlı cəmiyyətlərdə qəlb rahatlığı mövcuddur, lakin həmin əxlaq qanunun yox, dinin məhsuldur.

## DİN FİTRİDİR

İnsan öz təbiət və fitrətinin hökmü ilə din istəyir. Çünki insan həyatı boyu öz səadətinin təmini üçün çalışır və öz ehtiyaclarının aradan qaldırılması üçün məqsədlərində təsiri olan vasitə və səbəblərə əl atır və şübhəsiz, həmişə elə bir səbəbi istəyir ki, təsirli olsun və heç vaxt məğlub olmasın. Digər tərəfdən, təbiət dünyasında elə bir səbəb yoxumuzdur ki, daimi təsiri olsun və heç vaxt maneələrə məğlub olmasın.

İnsan fitrəti ilə öz səadəti üçün bir səbəb istəyir ki, məğlub olmasın. Heç vaxt dağılmayan dayaq istəyir ki, öz həyatını ona bağlasın və həqiqi daxili sakitlik tapsın. Bu, həqiqətdə dini

1 "Hud" surəsi, ayə: 111.

istəkdir. Çünki təkcə Allah-taaladır ki, öz iradəsində heç vaxt məğlub olmur, üzr və qüsurun Ona yolu yoxdur. Allah-taalaya bağlı olan həyat yolu da həmin İslam dinidir.

Buna əsasən demək olar: insanın fitri istəyi ən yaxşı dəlillərdən biridir ki, dinin üç istiqamətli əsasını (tövhid, nübüvvət, məad) isbat edir. Çünki insanın xüsusi quruluşunun lazıməsi olan fitri dərk heç vaxt səhv etmir. Necə ki, insan dostluq mənasını düşmənlik mənası ilə səhv salmır, susuzluğu öz daxili hisslərində doyunca su içmək yerinə saymır.

Düzdür ki, insan bəzən quş kimi qanadlanıb uçmaq, ulduz kimi asimanın yüksəkliyində durmaq, yanıb-sönmək arzusuna düşür. Lakin həqəqtdə bunlar təsəvvürdən başqa bir şey deyil. Amma insan qəlbinin dərinliyindən öz səadəti üçün həqiqi söykənəcək, ya mütləq rahatlıq və asudəlik, tam mənasında insan həyatı istəyir və heç vaxt bu fikirdən üz çevirmir. Necə ki, varlıq dünyasında məğlubedilməzlik (Allah) səbəbi olmasaydı, insan öz saf təbiəti ilə onun fikrinə düşməzdi, mütləq və qeyri - nisbi rahatlıq və asayiş (axirət dünyasının rahatlığı) olmasaydı, insan təbii ki, onu axtarmazdı və əgər peyğəmbərlik yolu ilə bizə çatan din üsulu haqq olmasaydı, onu istəmək insanın daxilində kök salmazdı.

## DİNLƏR TARİXİNƏ QISA BİR BAXIŞ

Dinlərin yaranması ilə əlaqədar təhqiq etsək, nəzərə çarpan ən etimadlı mənbə Qurani-Kərimin bəyan etdikləridir. Çünki hər cür səhv, xəta, təəssüb və qərəzdən uzaqdır. Allahın dini olan İslam bəşəriyyət yarandığı gündən onunla birgə olmuşdur.

﴿إِنَّ الدِّينَ عِندَ اللّهِ الإِسْلاَمُ﴾

***“Şübhəsiz (peyğəmbərlərin gətirdikləri və şəriət şəklində bəşəriyyətə təqdim etdikləri həqiqi) din Allah yanında həmin İslamdır”***[1]

Çünki Qurani-Kərimin aydınlaşdırdığı kimi, bəşərin bugünkü nəsli iki nəfər kişi və qadına gedib çatır ki, Qurani-Kərimdə Adəm (ə) və zövcəsi Həvva adı ilə adlandırılır. Adəm (ə) peyğəmbər idi və səmavi vəhylər ona nazil olur.

Adəmin (ə) dini çox sadə olub bir neçə ümumi məsələləri əhatə edirdi. O cümlədən, insanlar gərək Allahı xatırlasınlar, bir-birinə, xüsusilə valideynlərinə yaxşılıq etsinlər və fəsad, qətl və pis işlərdən uzaqlaşsınlar.

Adəm (ə) və zövcəsindən sonra övladları çox sadə və ixtilafsız bir həyat sürürdülər.

Fərdlərin sayı gündən-günə artdığından yavaş-yavaş bir-birinin ətrafına toplaşır və kollektiv həyatı təşkil edirdilər. Bu vəziyyətdə yaşamaq üsulunu öyrənirdi və özlərini mədəniyyətə daha da yaxınlaşdırırdılar.

İnsanların sayı artdıqca müxtəlif qəbilələrə bölündülər və hər qəbilədə də böyüklər tapıldı ki, qəbilə üzvləri onlara hörmət və sitayiş edirdilər. Həmin gündən insanlar arasında bütpərəstlik yayıldı. Belə ki, imamların (ə) hədislərində də bütpərəstliyin bu yolla yaranması nəql olunmuşdur və bütpərəstliyin tarixi də həmin mənanı təsdiqləyir.

Yavaş-yavaş qüvvətlilərin zəiflərə etdiyi zorakılıqlar nəticəsində insanlar arasında ixtilaflar yarandı. Bu ixtilaflar həyatın müxtəlif keşməkeşlərinə səbəb oldu.

---

1 "Ali-İmran" surəsi, ayə: 19.

Bəşəri öz səadət yolundan sapındıran bu ixtilafların yaranması onları bədbəxtlik və həlakətə sürükləyirdi. Bütün bunlar mehriban Allahın peyğəmbərlər və bəşəri ixtilafları həll edən səmavi kitablar göndərməsinə səbəb oldu. Necə ki, Allah-taala Öz kəlamında buyurur:

﴿كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ﴾

***“(Şəriət sahibi olan peyğəmbərlərin göndərilmələrindən qabaq) bütün insanlar tək bir dəstə idilər (səmavi şəriətsiz öz ağıllarının tələbi əsasında yaşayırdılar. Amma yavaş-yavaş özlərinin dünya işlərində ixtilafa düçar oldular). Beləliklə, Allah peyğəmbərləri (səmavi din və şəriətlə) müjdə verən və qorxudan olaraq göndərdi və onlarla birlikdə insanların arasında onların bir-birləri ilə ixtilafa düçar olduqları şey barəsində hökm çıxarmaq üçün haqq olaraq (və uca, ali və əqlani bir hədəf üçün səmavi) kitab nazil etdi.”*** [1]

## ULUL-ƏZM PEYĞƏMBƏRLƏR

Səmavi kitab və müstəqil qanunu olan peyğəmbərlər beş nəfərdir ki, aşağıdakı ayədə onlara işarə olunmuşdur: Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Mühəmməd (s).

﴿شَرَعَ لَكُم مِّنَ الدِّينِ مَا وَصَّى بِهِ نُوحًا وَالَّذِي أَوْحَيْنَا إِلَيْكَ وَمَا وَصَّيْنَا بِهِ إِبْرَاهِيمَ وَمُوسَى وَعِيسَى أَنْ أَقِيمُوا الدِّينَ وَلَا تَتَفَرَّقُوا فِيهِ﴾

***“(Allah) sizin üçün (siz bəşər cəmiyyəti üçün səma) din(in)dən (ilk şəriət sahibi olan peyğəmbər) Nuha tövsiyə etdiyini, (son şəriət sahibi olan) sənə vəhy etdiyimizi və (aradakı şəriət sahibləri) İbrahim, Musa və İsaya tövsiyə etdiyimizi qanun***

---

1 "Bəqərə" surəsi, ayə: 213.

***etdi. (Bu qanundan məqsəd odur ki,) bu dini (hamılıqla və birlikdə) bərqərar edəsiniz və onda parçalanmayasınız."[1]***

Kitab və şəriət sahibi olan bu beş nəfərə "ulul-əzm" peyğəmbərlər deyirlər. Lakin Allahın göndərdikləri bu beş nəfərlə bitmir; hər ümmətin elçisi olmuş və Allah tərəfindən bəşərə çoxlu peyğəmbərlər göndərilmişdir ki, Qurani-Kərimdə onların iyirmi nəfərindən çoxunun adı gəlmişdir.

Necə ki, Allah-taala buyurur:

﴿مِنْهُم مَّن قَصَصْنَا عَلَيْكَ وَمِنْهُم مَّن لَّمْ نَقْصُصْ عَلَيْكَ﴾

***"Onların bəzisinin hekayətini sənə danışdıq və bəzisini danışmadıq."[2]***

Buyurur:

﴿وَلِكُلِّ أُمَّةٍ رَّسُولٌ﴾

***"Hər bir ümmət üçün (tarix boyu, Allahın əzəli elmində və Lövhi-məhfuzda) bir peyğəmbər vardır."***

Və buyurur:

﴿وَلِكُلِّ قَوْمٍ هَادٍ﴾

***"Və (bəşər cəmiyyətindən olan) hər bir dəstə üçün bir doğru yol göstərən (ya peyğəmbər, ya imam) vardır."[3]***

Bəli, ulul-əzm peyğəmbərlərinin hər birindən sonra gələn peyğəmbərlər bəşəriyyəti həmin peyğəmbərlərin şəriətinə dəvət etmişlər. Bu tərtiblə besət və dəvət o vaxta qədər davam etdi ki, Allah, Peyğəmbəri-Əkrəm Mühəmməd ibn Abdullahı (s) əvvəlki peyğəmbərlərin xatəmi və sonuncu göstərişlər, ən kamil dini

---

1 "Şura" surəsi, ayə: 13.
2 "Qafir" surəsi, ayə: 78.
3 "Hud" surəsi, ayə: 7.

qaydaların çatdırılması üçün göndərdi və onun səmavi kitabı sonuncu səmavi kitab oldu. Nəticədə, o həzrətin dini Qiyamətə kimi davam edəcək və onun şəriəti həmişəlik diri qalacaq.

HƏZRƏT NUH (Ə)

Mehriban Allahın seçdiyi, şəriət və səmavi kitabla bəşəriyyət dünyasına göndərdiyi ilk peyğəmbər Nuh (ə) idi.

Nuh (ə) ogünkü bəşəri tövhid və təkallahlığa çağırıb şirk və bütpərəstlikdən çəkindirirdi. Qurani-Kərimdə onun dastanlarından aydın olduğu kimi, sinfi ixtilafların aradan qaldırılması və zülm, ədalətsizliyin kökünün kəsilməsi üçün çətin mübarizə aparırdı, ogünkü bəşər üçün yeni olan dəlilgətirmə yolu ilə öz təlimatlarını xatırladırdı.

Nadan, inadkar, məğrur adamlarla uzunmüddətli mübarizədən sonra çox az adamları hidayət etdi. Allah-taala göndərdiyi tufan vasitəsilə kafirləri həlak edib yeri varlıqların çirkinliyindən təmizlədi. Öz ardıcıllarından bir dəstəsi ilə nicat tapan Nuh yenidən dini bir cəmiyyətin əsasını qoydu.

Bu əziz peyğəmbər tövhid şəriətinin əsasını qoyan ilk Allah məmurudur ki, zülm, ədalətsizlik və tüğyan ilə mübarizə etmişdir. Haqq və həqiqət dininə etdiyi həmin dəyərli xidlmətin sayəsində Allah-taalanın xüsusi salamına nail olmuşdur ki, bəşəriyyət aləmi durduqca diri və davamlı olacaq.

﴿سَلَامٌ عَلَى نُوحٍ فِي الْعَالَمِينَ﴾

***“Aləmlər (mələklər, insanlar və cinlər aləmi) içərisində (Allahın) salam(ı) olsun Nuha! (Dünya əhalisi gərək ona salam göndərsin.)”*[1]**

---

1 "Saffat" surəsi, ayə: 79.

## HƏZRƏT İBRAHİM (Ə)

Nuhun dövründən sonra Hud (ə), Saleh (ə) və digərləri kimi çoxlu peyğəmbərlərin insanları Allaha və düzlüyə tərəf hidayət etmələrinə baxmayaraq, şirk və bütpərəstlik bazarı gündən-günə rövnəq tapırdı. Bu o vaxta qədər davam etdi ki, dünyanı bürüdü və Allah-taala Öz yüksək hikməti ilə İbrahimi (ə) göndərdi.

İbrahim fitri bir insanın kamil nümunəsi idi. Öz pak və təmiz təbiəti ilə həqiqəti axtardı, yaranışı, Allahın yeganəliyini dərk etdi və bütün ömrü boyu şirk və zülmlə mübarizə apardı.

Qurani-Kərimdən məlum olduğu kimi (Əhli-beyt (ə) imamlarının hədislərində də təkid olunmuşdur), İbrahim öz uşaqlıq dövrünü insanların hay-küyü və şəhərin təlatümlü həyatından uzaq bir mağarada keçirdi. Təkcə onun üçün yemək və su gətirən anasını görürdü.

Bir gün öz anasının dalınca gedib şəhəri gördü və əmisi Azərin yanına gəldi. Lakin gördüyü hər bir şey onun üçün yenilik və qəribə idi.

Minlərlə heyrət və təəccübün arasında pak fitrəti son dərəcə səbirsizlik və aramlıqla müşahidə etdiyi əşyanın yaranmasını dərk etdi və onların yaranma səbəbi və təzahür sirrinin axtarışına başladı. Onun gördüyü bütləri Azər və başqaları yonur və onlara pərəstiş edirdilər. Onların mahiyyətini soruşur, lakin onların rəbbliyi haqqında verilən izahlar onu qane etmirdi.

İnsanlardan bir qrupunu gördü ki, Zöhrə ulduzuna, bir qrupu Aya və bir qrupu da Günəşə ibadət edir. Onlardan hər biri neçə saatdan sonra qürub etdiyindən İbrahim onların rəbbliyinə inanmırdı.

İbrahim bu mərhələdən sonra yeganə Allaha ibadətini və şirkə nifrətini insanlara bildirdi və artıq bütpərəstlik və şirk ilə mübarizədən başqa bir fikri yox idi. Ən az süstlük və yorğunluğu özünə yaxın qoymadan bütpərəstlərlə mübarizə aparır və onları tövhidə dəvət edirdi.

Nəhayət, bütxanəyə yol tapıb bütləri sındırdı. İnsanların ən böyük cinayət saydığı bu hadisənin üstündə onu mühakimə və mühakimədən sonra odda yanmağa məhkum etdilər. Hazırlıq işlərini gördükdən sonra oda atdılar, lakin Allah-taala onu qoruyub oddan sağlam çıxartdı.

İbrahim bir müddətdən sonra əsas vətəni olan Babil ölkəsindən Suriya və Fələstin ölkələrinə mühacirət edib həmin nizamla öz dəvətini davam etdirdi.

Ömrünün sonlarında iki övlada sahib oldu ki, biri İsrailin atası İshaq və digəri Misir ərəbinin atası İsmaildir. İsmaili südəmərlik dövründə Allahın əmri ilə anası ilə birgə Hicaza aparmış, Təhamə dağları arasında susuz, otsuz və adamsız yerdə qoymuşdu. Beləliklə, köçəri ərəbləri tövhidə dəvət etmiş, sonra Kəbə evini tikərək Həcc əməlini şəriət buyurmuşdur ki, İslamın yaranması və Peyğəmbəri-Əkrəmin (s) dəvətinə kimi ərəblərin arasında yayılmışdı.

İbrahim fitrət dininin sahibidir və Qurani-Kərimin açıqlamasına görə səmavi kitabı olmuşdur. O, ilk kəsdir ki, Allah dinini “İslam” və onun ardıcıllarını “müsəlman” adlandırmış və dünyadakı tövhid dinləri – yəhudilik, xristianlıq və İslam o həzrətə gedib çıxır. Çünki adı çəkilən dinin rəhbərləri həzrət Kəlim (ə), həzrət Məsih (ə) və həzrət Mühəmməd (s) hamı onun dəvət xəttində olmuşdur.

## HƏZRƏT MUSA KƏLİM (Ə)

Musa ibn İmran ulul-əzm peyğəmbərlərindən üçüncüsü, kitab və şəriət sahibidir və İsrail (Yaqub) övladlarındandır.

Musanın (ə) qalmaqalla dolu həyatı vardır. O həzrət o zaman dünyaya gəlmişdi ki, Bəni-İsrail Misirdə qibtilər arasında zillət və əsarətdə yaşayır və fironun əmri ilə uşaqlarının başı kəsilirdi.

Musanın anası yuxuda ona göstəriş verilən kimi, onu taxta sandığa qoyub Nil çayına buraxdı. Su sandığı hərəkətə gətirib birbaşa Fironun qəsrinə apardı. Fironun əmri ilə sandığı götürdülər. Açanda sandığın içindən bir uşaq tapdılar.

Firon mələkəsinin israrı nəticəsində uşağı öldürməkdən çəkindi və övladları olmadığından onu övladlığa qəbul edib dayəyə tapşırdılar (ki, elə öz anası idi).

Musa (ə) cavanlıq yaşının ilk çağlarına kimi Fironun sarayında qaldı. Ondan sonra qətl hadisəsi nəticəsində Fironun qorxusundan Misirdən qaçıb Mədyənə getdi və orada Şüeyb peyğəmbərlə (ə) rastlaşdı. Şüeybin qızlarından biri ilə evlənib neçə il onun qoyunlarını otardı.

Bir neçə ildən sonra vətəninin fikrinə düşüb ailəsini (topladığı qoyun sürüsü ilə) götürdü və Misrə tərəf yollandı. Yol əsnasında gecə Turi-Sinaya çatanda Allah-taala tərəfindən peyğəmbərliyə seçildi və tapşırıq aldı ki, Fironu tövhid dininə dəvət etsin, Bəni-İsraili qibtilərin əlindən qurtarsın və qardaşı Harunu öz vəziri təyin etsin.

Lakin missiya və ilahi vəhy çatdırılandan sonra bütpərəst, eyni zamanda özünü məbudlardan biri kimi təqdim edən Firon o həzrətin peyğəmbərliyni qəbul etmədi və Bəni-İsrailə azadlıq vermədi. Musanın (ə) uzun illər insanları tövhidə dəvət etməsi

və çoxlu möcüzələr göstərməsinə baxmayaraq, Firon və qövmü kobudluq və qəddarlıqdan başqa heç nə etmədi.

Nəhayət, Musa (ə) Allahın əmri ilə Bəni-İsraili köçürdüb gecə Misirdən Sina səhrasına qaçdı. Qırmızı dənizə çatanda Firon da hadisələrdən xəbər tutub öz qoşunu ilə onları təqib etdi. Musa (ə) möcüzə ilə dənizi yardı və öz qövmü ilə sudan keçdi. Lakin Firon və ordusu suda qərq oldular.

Bu hadisədən sonra Allah Tövratı Musaya (ə) nazil etdi və Kəlim şəriətini Bəni-İsrailin arasında qərarlaşdırdı.

## HƏZRƏT İSA MƏSİH (Ə)

Həzrət Məsih (ə) ulul-əzm peyğəmbərlərin dördüncüsü, kitab və şəriət sahibidir. O həzrətin anadan olması qeyri-adi şəkildə olmuşdur. Təqvalı qız olan anası Məryəm (s) Beytül-Müqəddəsdə ibadətə məşğul idi ki, Ruhul-Qüdüs Allah tərəfindən ona nazil olub Məsih (ə) müjdəsini verdi və köynəyinin qoluna üfürdüyü nəfəsi ilə onu Məsihə (ə) hamilə etdi.

Dünyaya gəldikdən sonra insanların anasına vurduğu yaramaz töhmətlər müqabilində beşikdə dilə gəlib anasını müdafiə etdi və öz peyğəmbərliyini və kitabını insanlara xəbər verdi.

Ondan sonra cavan yaşlarında insanların dəvətinə başladı və az dəyişikliklərlə Musa şəriətini diriltdi, ətrafa öz həvarilərindən təbliğçiləri göndərdi.

Dəvəti yayılandan bir müddət sonra yəhudilər (Musanın (ə) qövmü) onu qətlə yetirmək istədilər. Lakin Allah ona nicat verdi və yəhudilər başqa bir kəsi onun yerinə tutub dara çəkdilər.

Qeyd etmək lazımdır ki, Allah-taala Qurani-Kərimdə o həzrətə nazil olmuş İncil adlı səmavi kitabı təsdiq edir və həmin kitab Məsihdən (ə) sonra onun həyat tərzi və dəvəti haqqında yazılan

incillər deyildir. Luka, Markus, Mətta və Yuhannanın topladığı dörd İncil onların arasında rəsmi olaraq tanınmışdı.

## HƏZRƏT MÜHƏMMƏD İBN ABDULLAH (S)

Əziz İslam Peyğəmbəri (s) mehriban Allahın insanların hidayəti üçün göndərdiyi sonuncu peyğəmbərdir.

On dörd əsr əvvəl insaniyyət dünyası elə halda yaşayırdı ki, tövhid dinindən quruca ad qalmışdı. İnsanlar yeganə Allaha ibadətdən və Onu tanımaqdan tamamilə uzaqlaşmış, insaniyyət və ədalət qaydaları onların cəmiyyətini tərk etmişdi. Allah evinin yeri və İbrahim (ə) dininin vətəni olan Ərəbistan yarımadasında Kəbə bütxanaya və İbrahimin (ə) dini bütpərəstliyə çevrilmişdi.

Ərəb həyatı qəbilələrin həyatı idi. Hicaz, Yəmən və digər yerlərdəki şəhərlər də həmin tərtiblə idarə olunurdu.

Ərəblər ən aşağı şərait və ən geridəqalmış vəziyyətdə yaşayırdılar. Mədəniyyətə malik olmaq əvəzinə aralarında iffətsizlik, əyyaşlıq, şərabxorluq yayılmışdı. Qızları diri-diri torpağa basdırırdılar. Adamların çoxunun həyatı oğurluq, yolkəsmə, qətl, bir-birindən mal və heyvan qarəti ilə təmin olunurdu. Qantökmə və zülmkarlıq ən yüksək fəxr sayılırdı.

Belə bir mühitdə mehriban Allah Peyğəmbəri-Əkrəmi (s) dünyanın islahı və insanlara rəhbərlik üçün seçdi. Haqq, Allahıtanıma, ədalətin icrası, faydalı öyüd-nəsihətlərin daxil oldğu Quranı ona nazil etdi və o həzrətə tapşırdı ki, həmin səmavi sənədlə insanları insaniyyətə və haqqa tərəf dəvət etsin.

Peyğəmbəri-Əkrəm (s) 570-ci miladi ilində (hicrətdən 53 il əvvəl) Məkkə şəhərində, ən şərif və əsil-nəcabətli ərəb ailəsi sayılan bir ailədə dünyaya gəlmişdi.

Dünyaya gəlməmişdən əvvəl atası vəfat etmiş, altı yaşındaykən anasını itirmişdi. İki ildən sonra himayəçiliyini üzərinə götürən

babası Əbdülmüttəlib də vəfat etdi. O həzrət öz əmisi və Əmirəlmöminin Əlinin (ə) atası Əbu Talibin himayəsinə keçdi.

Əbu Talib o həzrəti öz övladlarından biri kimi istəyir, hicrətdən bir neçə ay əvvələ kimi həmişə onun himayə və mühafizəsinə çalışırdı, ən kiçik laqeydliyi belə rəva görmürdü.

Peyğəmbəri-Əkrəm (s) dərs oxumamışdı. Əvvəl Məkkə xaricində öz dayəsinin qəbiləsində, sonra Məkkədə baba və əmisinin evində yaşayırdı. Həddi-buluğa çatanda ticarət karvanı ilə Şama səfər etmişdi və həmin səfərdə rahib Büheyrə onu görmüş, peyğəmbərliyindən xəbər vermiş və onun barəsində yol-yoldaşlarına tövsiyə etmişdi.

Peyğəmbəri-Əkrəm (s) həyat mühitinə daxil oldğu ilk gündən insanlarla qaynayıb-qarışmış, düzgünlük, məğrurluq, əmanətdarlıq və nəfsi sağlamlıqla tanınmış və insanlar arasında "Mühəmməd Əmin" kimi tanınmışdı. Bu səbəbdən çoxlu sərvəti olan Məkkə xanımlarından biri (Xədiceyi-Kübra) onu öz ticarətinə nəzarətçi seçmiş və çox keçmədən evlənmək təklifini vermiş və o həzrət Xədicə ilə evlənmişdi.

Peyğəmbəri-Əkrəm (s) peyğəmbərliyə seçilməmişdən qabaq bütpərəstlik mühitində olsa da, bütlərə baş əymir və həmişə yeganə Allaha ibadət edirdi və bəzən Məkkə yaxınlığındakı Hira dağında olan mağaraya gedərək insanların səs-küyündən uzaqda, öz Allahı ilə raz-niyaz edirdi.

Peyğəmbər (s) öz şərif ömrünün qırx ilini keçirəndən sonra Allah tərəfindən peyğəmbərlik məqamına seçildi. Quranın ilk surəsi (Ələq) ona nazil oldu və insanların dəvət və təbliği ona tapşırıldı. Onun ilk missiyası dəvəti gizli yerinə yetirmək idi.

Ona iman gətirən ilk kəs Əli ibn Əbu Talib (ə) idi ki, o həzrətin evində yaşayırdı və Peyğəmbər (s) onun tərbiyəsi ilə şəxsən məşğul olurdu. Ondan sonra Xədiceyi-Kübra (s) İslamı qəbul

etdi və bir müddət bu iki böyük şəxs o həzrətlə namaz qıldılar. Halbuki, hələ başqaları küfrdə yaşayırdılar.

Peyğəmbəri-Əkrəm (s) üç ildən sonra tapşırıq aldı ki, öz dəvətini aşkar icra etsin və öz qohumlarından başlasın.

O həzrət bu əmrin ardınca bütün qohumlarını dəvət və öz peyğəmbərliyini onlara izhar etdi. Müjdə verdi ki, onlardan hansı biri dəvətini öncə qəbul etsə, onun canişini və vəsisi olacaq. Bu sözü üç dəfə təkrar etdi. Heç kəs o həzrəti qəbul etmədi, yalnız hər üç dəfədə Əli (ə) qalxdı və həzrətin təklifinin qəbulu üçün öz hazırlığını elan etdi. Peyğəmbəri-Əkrəm (s) onu təriflədi və öz canişinlik vədəsini ona verdi. Sonra həmin camaat qalxdı və istehza ilə Əbu Talibə dedilər: "Bundan sonra öz övladına itaət etməlisən" və dağılışdılar.

Peyğəmbəri-Əkrəm (s) sonra aşkar və ümumi dəvətə başladı. Lakin insanlar tərəfindən üzücü müqavimət və inadkarlıqla qarşılaşdı. Məkkə camaatı bütpərəstliyə olan adətləri və vəhşilikləri üzündən düşmənçilik və inadkarlıq məqamına gəlib o həzrətə (s) və ardıcıllarına qarşı heç bir əziyyət, işkəncə, istehza və təhqirdən çəkinmədilər və hər gün öz nadanlıq və inadkarlıqlarını artırdılar.

İnsanların təzyiq və inadı nə qədər yüksəlirdisə, o həzrətin (s) öz dəvətində israrı, çətinlik qarşısında səbir və dözümü daha da aşkar olurdu və heç vaxt öz dəvətindən geri çəkilmirdi, tədricən də İslam ardıcıllarının sayı artırdı.

Bəzən də kafirlər satınalma yolu ilə qabağa gəlir və o həzrətə təklif edirdilər ki, çoxlu mal verib ən böyük sərvəti onun üçün hazırlasınlar, ya onu hakimiyyətə seçsinlər. O da bunun müqabilində öz dəvətindən əl çəksin, ya heç olmasa, yalnız öz Allahına tərəf dəvət edib onların məbudları ilə işi olmasın.

Lakin Peyğəmbəri-Əkrəm (s) onların təklifini rədd edib Allahın tapşırığının icrası və insanların dinə dəvətinin davam etdirilməsi üçün öz qəti qərarını elan etdi.

Kafirlər satınalma yolundan ümidsiz olandan sonra yenidən öz təzyiqlərini artırıb müsəlmanları bəzən qətllə nəticələnən ağır işkəncə və əzablarla İslamdan saxlayırdılar. Yalnız Bəni-Haşimin rəisi və o həzrətin əmisi və himayəçisi Əbu Talibin nəzarətinə görə o həzrəti öldürməkdən çəkindilər. Lakin bu nəzarət digər əziyyət və işkəncələrin qarşısını almadı.

Bir müddətdən sonra müsəlmanların işi daha da çətinləşdi və artıq bıçaq sümüyə dirəndi. Peyğəmbəri-Əkrəm (s) icazə verdi ki, dostları Həbəşəyə hicrət etsinlər ki, bir müddət öz qövmünü işkəncə vəziyyətlərindən amanda saxlasın. Başında Əmirəlmöminin (ə) qardaşı duran Cəfər ibn Əbu Talib öz ailəsi və bir dəstə ilə (Cəfər Peyğəmbərin (s) ən seçilmiş dostlarından biri idi) Həbəşəyə mühacirət etdilər.

Məkkə kafirləri müsəlmanların mühacirlərindən xəbərdar olandan sonra öz işbilənlərindən iki nəfərini çoxlu hədiyyə və töhfələrlə Həbəşə padşahının yanına göndərib Məkkə mühacirlərinin qaytarılmasını tələb etdilər. Lakin Cəfər ibn Əbu Talb Həbəşə padşahının hüzurunda etdyi bəyanatla Peyğəmbəri-Əkrəmin (s) başdan ayağa nurani şəxsiyyəti və İslamın ali əsaslarını padşah və xristian keşişləri, orada iştirak edən ölkə başçıları üçün açıqladı və “Məryəm” surəsindən bir neçə ayəni oxudu. Cəfərin aydın bəyanatı o qədər cazibəli idi ki, padşahı və bütün məclis əhlini ağlatdı.

Padşah Məkkə əhlinin tələbinə mənfi cavab verib göndərdikəri töhfə və hədiyyələri rədd etdi və göstəriş verdi ki, müsləman mühacirləri üçün hər cəhətdən rahatlıq və asayiş hazırlasınlar.

Məkkə kafirləri bu hadisədən sonra qərara gəldilər ki, Peyğəmbəri-Əkrəmin (s) qohumları və tərəfdarları olan Bəni-

Haşimlə əlaqəni kəssinlər, onlarla söhbət və ticarət yolunu tamamilə bağlasınlar. Bu barədə bir müqavilə yazıb hamı tərəfindən imzalatdırıb Kəbədə qoydular.

Peyğəmbəri-Əkrəm (s) və Bəni-Haşim çarəsiz Məkkədən çıxıb "Əbu Talib dərəsi" kimi tanınan dərələrdən birinə sığındılar və sonsuz çətinlik və aclıqla keçindilər.

Bu müddətdə kimsənin dərədən çıxmağa cürəti yox idi. Uşaqlar və qadınlar gündüzlər yandırıcı isti ilə, gecələr nalələrlə əlbəyaxa idilər. Üç ildən sonra kafirlər müqavilənin pozulması və ətraf qəbilələrdən eşitdikləri çoxlu danlaqlar nəticəsində öz müqavilələrindən üz çevirdilər və Bəni-Haşim sığınacaqdan çıxdı.

Lakin həmin günlərdə Peyğəmbəri-Əkrəmin (s) yeganə himayəçisi olan Əbu Talib və o həzrətin zövcəsi Xədiceyi-Kübra həyatdan köçdülər və Peyğəmbəri-Əkrəmin (s) işi çox çətinləşdi, heç vəchlə insanların arasına çıxmağa, özünü kimsəyə göstərməyə, ya müəyyən bir yerdə dayanmağa qüdrəti yox idi. Ümumiyyətlə, canının təhlükəsizliyi təmin olunmamışdı.

## O HƏZRƏTİN (S) TAİFƏ SƏFƏRİ

Peyğəmbəri-Əkrəm (s) və Bəni-Haşimin Əbu Talib dərəsindən çıxdıqları il besətin on üçüncü ili idi. Peyğəmbəri-Əkrəm (s) həmin dövrdə Taifə (Məkkənin təqribən yüz km-də şəhər) səfər və oranın camaatını İslama dəvət etdi. Lakin şəhərin cahilləri hər tərəfdən töküldülər, onu söyüb daş-qalaq etdilər və nəhayət, şəhərdən qovdular.

Peyğəmbəri-Əkrəm (s) Taifdən Məkkəyə qayıdıb bir müddət orada qaldı. Heç bir təhlükəsizliyi olmadığı üçün özünü insanlara göstərmirdi. Məkkə böyükləri də o həzrəti aradan götürmək üçün əlverişli vəziyyətin olduğunu nəzərə alıb Şura

məclisi xarakterini daşıyan Darun-nüdvədə toplaşdılar və gizli bir məclisdə o həzrəti birdəfəlik yox etmək üçün sonuncu planı cızdılar.

Sözügedən plan bu idi ki, ərəb qəbilələrinin hər birindən bir nəfər seçilsin və seçilənlər o həzrətin evinə tökülüb onu qətlə yetirsinlər. Əlbəttə, bütün qəbilələrin iştirakından məqsəd bu idi ki, o həzrətin Bəni-Haşim tayfası onun qanını almağa qiyam edib, qatillərlə döyüşə bilməsin və həmçinin, Bəni-Haşimin özündən bir nəfərin iştirakı bütünlüklə onların dilini bağlayardı.

Bu qərar qətiləşdi; müxtəlif qəbilələrdən təqribən, 40 nəfər o həzrətin qətlinə namizəd olub gecə evini mühasirəyə aldılar. Lakin Allahın iradəsi qövmün iradəsindən üstün idi və onların qərarını puç etdi. Allah-taala Peyğəmbəri-Əkrəmə (ə) vəhy göndərib onu qövmün qərarından xəbərdar və əmr etdi ki, gecə Məkkədən çıxıb Mədinəyə mühacirət etsin.

Peyğəmbəri-Əkrəm (s) Əlini (ə) baş verən hadisədən xəbərdar edib əmr etdi ki, gecə onun yatağında yatsın. Öz tövsiyələrini ona verib gecə evdən çıxdı və yolda Əbu Bəkri görüb onu da özü ilə götürərək Mədinə yolunu tutdu.

Mədinə böyüklərindən bir qrupu hicrətdən əvvəl Məkkədə Peyğəmbəri-Əkrəmlə (s) görüşmüş, iman gətirmişdi və eyni zamanda, əhd-peyman bağlamışdı ki, əgər o həzrət Mədinəyə getsə, ona himayədarlıq edib namuslarını və canlarını qoruduqları kimi, onu müdafiə etsinlər.

## PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MƏDİNƏYƏ HİCRƏTİ

Peyğəmbəri-Əkrəm (s) gecə özünü Məkkə yaxınlığında olan Sur dağındakı mağaraya çatdırdı və üç gün mağarada gizləndi. Üç gündən sonra mağaradan çıxıb öz səfərinə davam etdi. Mədinəyə daxil olduqda əhali tərəfindən isti qarşılandı.

(Mədinə o günə kimi Yəsrib adı ilə məşhur idi və ondan sonra Mədinətür-Rəsul adlandırıldı.)

Digər tərəfdən, gecə o həzrətin evini mühasirəyə alan Məkkə kafirləri səhər evə hücum etdilər, yalın qılınclarla o həzrətin çarpayısına tərəf tələsdilər, lakin Əlini (s) onun yerində gördülər. Elə ki, Peyğəmbəri-Əkrəmin (s) evi tərk etməsindən xəbərdar oldular, Məkkə ətrafında axtarışa başladılar. Çoxlu axtarışlardan sonra ümidsiz qalaraq Məkkəyə qayıtdılar.

Peyğəmbəri-Əkrəm (s) Mədinədə qaldı, oranın əhli İslamı qəbul etdi və Mədinə şəhəri İslam qiyafəsi alıb ilk müsəlman şəhəri oldu. Əlbəttə, şəhər cəmiyyətinin üçdə birini təşkil edən Mədinə ərəblərinin az hissəsi münafiq olub əksəriyyətin qorxusundan İslamı qəbul etdilər.

İslam günəşi Mədinənin saf səmasından parıldadı və nur saçmasına davam etdi. İlk andan etibarən illərlə iki böyük tayfa olan Ovs və Xəzrəc arasında döyüş vəziyyəti sülhə çevrildi. Ənsar (Mədinə möminləri) pərvanə kimi peyğəmbərlik şamının ətrafında toplaşdılar. Tədricən Mədinə ətrafında olan tayfalar İslamı qəbul etdi və İslamın səmavi hökmləri biri digərinin ardınca nazıl olaraq yerinə yetirildi. Hər gün fəsad kökləri və napak rəftarlardan biri insanların arasından qalxır, onun yerində təqva və ədalət otururdu. Tədricən, ağır işkəncə və əziyyətlər altında olan İslam ardıcılları öz ev və yaşayışlarını buraxıb Mədinəyə tərəf qaçır, ənsarın səmimi nəvaziş və ehtiramı ilə üzləşirdilər.

Yəhudilərdən çoxlu tayfalar Mədinə və onun ətrafında, Xeybər və Fədəkdə idilər ki, başçıları və alimləri həmişə Peyğəmbəri-Əkrəmin (s) müjdəsini Mədinə ərəblərinə xatırladırdı. Həqiqətdə, Mədinə əhlinin iman amillərindən biri yəhudi alimlərindən eşitdikləri və aşkar şəkildə Peyğəmbəri-Əkrəmə (s) aid olan müjdələr idi. Lakin bu tayfalar hicrətdən sonra

İslama dəvət olunanda dəvəti qəbul etməyib boyun qaçırdılar. Beləliklə, İslam və yəhudilər arasında xüsusi şərtlərlə hücum etməmək müqaviləsi bağlandı.

İslamın sürətli inkişafı Məkkə kafirlərini çox narahat edirdi. Onların Peyğəmbərə (s) və İslam ardıcıllarına qəzəb və kini gündən-günə daha da artırdı. Onların məhvi üçün bəhanə axtarırdılar. İslam ardıcılları da (xüsusilə Məkkə mühacirləri) kafirlərdən qorxub səmavi bir iznin intizarında idilər ki, zülmkar kafirləri layiqincə öz əməllərinə çatdırsın, Məkkədə onların işkəncə və əziyyətləri altında yaşayan əl-ayaqsız qadın, uşaq və qocalarını xilas etsinlər.

## BƏDR DÖYÜŞÜ

Nəhayət hicrətin ikinci ilində müsəlmanlarla Məkkə kafirləri arasında ilk döyüş Bədrdə baş verdi. Bu döyüşdə, təqribən, min nəfərə yaxın kafir tam təchizat və kifayət qədər azuqəyə malik idi. Müsəlmanlar isə onların üçdə biri qədər idilər. Minik, azuqə, silahları yox idi. Lakin ilahi inayət parlaq bir qələbəni müsəlmanlara nəsib edib kafirləri ən pis vəziyyətlə məğlub etdi.

Bu döyüşdə kafirlərdən yetmiş nəfər öldürüldü ki, təqribən, onların yarısı Əlinin (ə) qılıncından keçmişdilər, yetmiş nəfər əsir düşdü, qalanları da bütün azuqələrini qoyub birbaşa Məkkəyə qaçdılar.

## ÜHÜD DÖYÜŞÜ

Üçüncü ildə Məkkə kafirləri Əbu Süfyanın başçılığı və üç min nəfərlə Mədinəyə hücum etdilər. Mədinə xaricində (Ühüd səhrasında) müsləmanlarla döyüşdülər. Bu döyüşdə Peyğəmbəri-Əkrəm (s) müsəlmanlardan yeddi yüz nəfərlə düşmən qarşısında cərgələr yaratdı.

Döyüşün başlanğıcında qələbə müsəlmanlarla idi. Lakin bir saatdan sonra müsəlmanlardan bəzisinin səhvi nəticəsində İslam ordusu məğlub oldu. Kafirlər hər tərəfdən axışıb onları qılıncdan keçirtdilər.

Bu döyüşdə Peyğəmbəri-Əkrəmin (s) əmisi Həmzə, əksəriyyəti ənsardan olan yetmiş nəfər (o həzrətin (s) dostları) şəhid oldu. Peyğəmbəri-Əkrəmin (s) alnı yaralandı və qabaq dişlərindən biri sındı, çiyninə zərbə vuran kafirlərdən biri "Mühəmmədi öldürdüm" deyə qışqırdı. Nəticədə İslam ordusu pərən-pərən düşdü. Təkcə Əli (ə) bir neçə nəfərlə Peyğəmbərin (s) dövrəsində qaldı və döyüşün axırına kimi rəşadətlə müqavimət göstərdi.

Günün axırında İslam ordusundan qaçanlar yenidən Peyğəmbəri-Əkrəmin (s) dövrəsinə toplaşıb döyüşü canlandırdılar, lakin düşmən ordusu müvəffəqiyyətini fürsət sayıb döyüşdən əl çəkdi və Məkkəyə qaçdı.

Kafirlərin ordusu bir neçə fərsəx yol gedəndən sonra döyüşü son qələbəyə kimi davam etdirib müsəlmanların qadın və uşaqlarını əsir, mallarını qarət etmədiklərindən çox peşman oldu və nəticədə müşavirə keçirtdilər ki, yenidən Mədinəyə hücum etsinlər. Lakin onlara xəbər çatdı ki, İslam ordusu döyüşü davam etdirmək məqsədilə onların ardınca düşüb yoldadırlar. Bu xəbəri eşidəndə qorxuya düşüb Mədniyə tərəf qayıtmaqdan çəkindilər və tələsik Məkkəyə yollandılar.

Elə də olmuşdu: Çünki Peyğəmbəri-Əkrəm (s) Allahın əmri ilə qoşun təchiz edib Əlinin (ə) rəhbərliyi ilə onların ardınca göndərmişdi.

Bu döyüşdə müsəlmanlara ağır itkilər üz versə də, həqiqətdə İslamın xeyrinə bitdi. Xüsusilə, iki düşmən döyüşdən əl çəkəndə bir-birinə vədə verdilər ki, gələn il bu vaxt Bədrdə başqa bir döyüş etsinlər. Peyğəmbəri-Əkrəm (s) öz dostlarından

bir qrupu ilə vəd olunmuş vaxtda Bədrdə hazır oldu, lakin kafirlər ora getməkdən boyun qaçırdılar.

Bu döyüşdən sonra müsəlmanlar öz vəziyyətlərini daha da yaxşı nizama salıb yarımada daxilində (Məkkə və Taif istisna olmaqla) hər tərəfdən inkişaf edirdilər.

## XƏNDƏK DÖYÜŞÜ

Ərəb kafirlərinin Peyğəmbəri-Əkrəmlə (s) etdyi üçüncü döyüş Məkkə əhlinin rəhbərliyi ilə olan axırıncı döyüş idi və bu döyüş Xəndək və Əhzab adlandırılmışdı.

Ühüd döyüşündən sonra Əbu Süfyanın rəhbərlyi ilə Məkkə başçıları bu fikirdə idilər ki, Peyğəmbəri-Əkrəmə (s) sonuncu təsirli zərbəni vurub, İslam nurunu tamamilə söndürsünlər. Bu məqsədlə ərəb qəbilələrini təhrik və öz həmkarlıqlarına dəvət etdilər. Yəhudi tayfaları İslama hücum etməmək müqaviləsi bağlasalar da, gizlincə bu işə qoşuldular və nəhayət, öz müqavilələrini pozub kafirlərlə əməkdaşlıq müqaviləsi bağladılar.

Nəticədə, hicrətin beşinci ilində Qüreyş, müxtəlif ərəb qəbilələri və yəhudi tayfalarından böyük qoşunla və tam azuqə ilə Mədinəyə tərəf hücum etdilər.

Əvvəlcədən düşmənin qərarından xəbər tutan Peyğəmbəri-Əkrəm (s) öz dostları ilə müşavirə etdi. Çoxlu danışıqlardan sonra əziz səhabələrindən biri olan Salman Farsinin təklifi ilə Mədinə şəhərinin ətrafında xəndək qazdılar və şəhərin daxilinə sığındılar. Düşmən ordusu Mədinəyə çatandan sonra şəhərin daxilinə bir yol tapmayıb çarəsiz şəhəri mühasirəyə aldı və həmin üsulla döyüşə başladı, mühasirə və döyüş bir müddət uzandı.

Bu döyüşdə ərəb qəhrəmanlarının ən məşhurlarından biri olan Əmr bin Əbdəvud Əlinin (ə) əli ilə öldürüldü.

Nəhayət, külək, soyuq, mühasirənin uzanmasından ərəblərin yorğunluğu və yəhudilərlə ərəblər arasında ixtilafın yaranmasından sonra mühasirə qırıldı və kafirlərin ordusu Mədinənin ətrafından dağıldı.

## YƏHUDİLƏRLƏ DÖYÜŞ VƏ XEYBƏR DÖYÜŞÜ

Əsas təhrikçiləri olan və ərəb kafirləri ilə əməkdaşlıq edən yəhudilər Xəndək döyüşündən sonra aşkar şəkildə İslamla öz müqavilələrini pozdular. Peyğəmbəri-Əkrəm (s) Allahın əmri ilə Mədinədə olan yəhudi tayfalarının qulaqburmasına başladı və hamısı müsəlmanların qələbəsi ilə bitən döyüşlər etdi.

Bu döyüşlərin ən mühümü Xeybər döyüşü idi. Xeybər yəhudilərinin əlində möhkəm qalalar, mahir döyüşçülər və kifayət qədər azuqələr var idi.

Bu döyüşdə Əli (ə) yəhudilərin məşhur pəhləvanı Mərhəb Xeybərini öldürərək yəhudi ordusunu pərən-pərən saldı. Ondan sonra qalaya tərəf hücum edib qalanın qapısını yerindən çıxartdı. İslam ordusu ilə qalanın içərisinə daxil olaraq qələbə bayrağını onun üstündə dalğalandırdı.

Hicrətin beşinci ilində sona çatan həmin döyüşlərlə Hicaz yəhudilərinin işi birdəfəlik bitdi.

## ŞAH VƏ SOLTANLARIN DƏVƏTİ

Hicrətin altıncı ilində Peyğəmbəri-Əkrəm (s) İran şahı, Roma imperatoru, Misir soltanı və Həbəşə nəcaşisi kimi hökmdarlara məktublar yazıb, onları İslama dəvət etdi. Xristian və atəşpərəstlərdən bir qrupu müsəlmanların himayəsinə daxil oldu və o həzrət Məkkə kafirləri ilə hücum etməmək müqaviləsi bağladı. Müqavilənin şərtlərindən biri bu idi ki, kafirlər Məkkədə olan müsəlmanlara işkəncə və əziyyət verməsinlər, İslam düşmənlərinə – müsəlmanların zərərinə olaraq – kömək etməsinlər.

Lakin Məkkə kafirləri bir müddətdən sonra müqaviləni pozdular və onun nəticəsində Peyğəmbəri-Əkrəm (s) Məkkənin fəthi qərarına gəldi və hicrətin altıncı ilində on min nəfərlik qüvvə ilə Məkkəyə həmlə edib döyüşsüz və qantökmədən Məkkəni fəth etdi. Kəbə evində olan çoxlu bütləri qırıb sındırdı. Bütün Məkkə əhalisi İslamı qəbul etdi. İyirmi il ərzində Məkkə başçılarının düşmənçilik etməsinə, o həzrətə (s) və ardıcıllarına qarşı qeyri-insani rəftarlarına baxmayaraq, Peyğəmbər (s) azca da olsa kobudluq etmədən və üzünü turşutmadan sonsuz böyüklüklə hamını əfv etdi.

## HÜNEYN DÖYÜŞÜ

Peyğəmbəri-Əkrəm (s) Məkkənin fəthindən sonra ətraf məntəqələri, o cümlədən, Taif şəhərini təmizləməyə başladı və ərəblərlə çoxlu müharibə etdi ki, onlardan biri Hüneyn müharibəsi idi.

Hüneyn döyüşü Peyğəmbəri-Əkrəmin (s) mühüm döyüşlərindən biridir. Bu döyüş Hüneyn vadisində, Məkkənin fəthindən az sonra Həvazən tayfası ilə baş verdi. İslam ordusu on iki min döyüşçü ilə neçə min süvariyə malik Həvazən tayfasının müqabilində dayandı və onların arasında ağır döyüş başlandı.

Həvazən döyüşünün əvvəlində müsəlmanlar böyük məğlubiyyətə uğradı. Belə ki, əlində İslam bayrağı olan və Peyğəmbərlə (s) yanaşı döyüşən Əlidən (ə) və bir neçə nəfərdən başqa hamı qaçdı. Lakin bir neçə saatdan sonra əvvəl ənsar, sonra isə digər müsəlmanlar öz mərkəzlərinə qayıtdılar və ağır döyüşlə düşməni məğlub etdilər.

Bu döyüşdə beş min əsir İslam ordusunun əlinə düşmüşdü. Lakin Peyğəmbəri-Əkrəmin (s) istəyinə əsasən, müsəlmanlar bütün əsirləri azad etdilər və o həzrət narazı olanlardan əsirləri pulla alıb azad etdi.

## TƏBUK DÖYÜŞÜ

Peyğəmbəri-Əkrəm (s) hicrətin doqquzuncu ilində Roma ilə müharibə məqsədilə Təbuka qoşun yeritdi. Çünki xəbər yayılmışdı ki, Roma imperatoru o yerlərdə rumlular və ərəblərdən qoşun toplayır və ondan əvvəl Mutə döyüşü də həmin yerdə baş vermiş və İslam sərkərdələrinin, o cümlədən, Cəfər ibn Əbu Talib, Zeyd ibn Harisə və Abdullah Rəvahənin şəhadəti ilə nəticələnmişdi.

Peyğəmbəri-Əkrəm (s) üç min qoşunla Təbuka yönəlmişdi, amma İslam ordusunun gəlişi ilə orda olan camaat dağılmışdı. Təbukda üç gün gözləyib həmin bölgənin təmizlənməsinə məşğul oldu və ondan sonra Mədinəyə qayıtdı.

## DİGƏR İSLAM DÖYÜŞLƏRİ

Peyğəmbəri-Əkrəm (s) adı çəkilən döyüşlərdən başqa özünün Mədinədə qaldığı on il müddətində təqribən, 80 böyük və kiçik döyüşlər aparmış və onların demək olar, dörddə birində həzrət şəxsən özü iştirak etmişdi.

İştirak etdiyi döyüşlərdə digər komandanlar kimi qərargahda əyləşib hücum və döyüş fərmanı vermək əvəzinə, özü də əsgərlərlə çiyin-çiyinə həmlələrdə iştirak edirdi, amma heç vaxt kiminsə qətlinə çalışmırdı.

## VƏFAT

Peyğəmbəri-Əkrəm (s) hicrətin onuncu ilində Allah evinin ziyarətinə getdi və təməttö həccinin qaydalarını insanlara öyrətdi. Qayıdanda Qədir-Xumda Əlini (ə) (on min nəfər insan kütləsinin arasında) öz vilayəti və canişinliyinə təyin etdi və Mədinəyə qaydandan az sonra dünyadan köçdü. Allahın salam və salavatı o həzrətə və onun pak Əhli-beytinə (ə) olsun!

## PEYĞƏMBƏRİ-ƏKRƏMİN HƏYAT TƏRZİNDƏN BİR NEÇƏ NÜMUNƏ

Peyğəmbəri-Əkrəm (s) öz gözəl əxlaqında dost və düşmən tərəfindən barmaqla göstərilirdi. Ünsiyyət gözəlliyi, gülərüzlülük, dözümlülük, təvazökarlıq, mətanət və vüqarda misli-bərabəri yox idi. Zülmkar düşməndən və öz nadan dostlarından gördüyü o qədər işgkəncə və əziyyətlə heç vaxt qaşlarını çatmır və narahatlığını izhar etmirdi. Qadınlar, uşaqlar və köməkçilərinə salamı əvvəl verərdi. Allah tərəfindən din, hidayət və insanlara rəhbərlik tapşırığını alan zamandan, bir an da olsun, vəzifəsinin icrasında qəflət etmədi və öz yorulmaz səyindən geri çəkilmədi.

Hicrətdən qabaq Məkkədə olduğu on üç il ərzində ərəb müşriklərindən gördüyü üzücü çətinliyə baxmayaraq, həmişə ibadət və Allah dininin təbliğinə məşğul olurdu. Hicrətdən sonra on il ərzində din düşmənləri tərəfindən çətinliklərlə, yəhudi və müsəlman münafiqlərinin iş pozmaları ilə rastlaşsa da, din maarifi və İslam qanunlarını heyrətəngiz vasitəylə insanlara çatdırırdı və İslam düşmənləri ilə səksəndən çox döyüş aparmışdı.

O zaman bütün Ərəbistan yarımadasını əhatə edən İslam cəmiyyətinin işlərinin idarəsindən əlavə, hətta insanların cüzi şikayət və ehtiyaclarına təmənnasız olaraq şəxsən özü yardım edirdi.

Peyğəmbəri-Əkrəmin (s) qəhrəmanlıq və şücaəti haqqında bunu demək kifayətdir ki, zorakılıq və ədalətsizlikdən başqa hakimiyyət tanımayan o günün dünyasını haqqa dəvətə çağırdı və dövrün zülmkarlarından gördüyü bütün işkəncə və əzablarla belə, heç vaxt süstlük etmədi, heç bir döyüşdə geriyə çəkilmədi.

Peyğəmbəri-Əkrəmin (s) heyrətamiz qəribə iffəti var idi. Öz yaşayışında fəqirlərə bənzəyirdi və sadə həyat sürürdü. Onunla xidmətçiləri və qulamları arasında fərq nəzərə çarpmırdı və əlinə çatan bütün malları müsəlman fəqirlərə bağışlayırdı, özü və ailəsi üçün isə yaşamağa çox az azuqə saxlayırdı. Hətta, bəzən elə günlər olurdu ki, evindən tüstü qalxmırdı və bişmiş yemək hazırlanmırdı. Həyatında təmizliyə, xüsusilə, ətirə böyük əhəmiyyət verirdi.

Peyğəmbəri-Əkrəmin (s) halı heç vaxt dəyişməmişdi və həmin təvazökarlıqla ömrünün sonuna kimi yaşadı və malik olduğu dəyərli mövqeyi ilə heç vaxt onun ictimai dəyərini göstərən imtiyazını dilinə almamışdı. Taxtın üstündə oturmurdu və məclisin başını özünə layiq bilmirdi. Yol gedən zaman insanlardan qabağa düşmür və heç vaxt hakimlik qiyafəsi almırdı.

Ümumi məclislərdə dostları arasında olarkən naməlum adamlar onun görüşünə gəlirdilər, o həzrəti tanımadıqlarından məclis əhlinə xitab edib deyirdilər: “Allahın Peyğəmbəri (s) sizsiniz?” Sonra insanlar Peyğəmbəri-Əkrəmi (s) göstərirdilər.

Peyğəmbəri-Əkrəm (s) öz ömründə heç kəsi söyməmiş, əbəs söz deməmiş, qəhqəhə ilə gülməmiş, yüngül və dəyərsiz iş görməmişdir; Düşünməyə böyük məhəbbəti var idi, hər dərdlinin sözünə, hər etiraz edənin etirazına qulaq asırdı. Sonra ona cavab verirdi. Heç vaxt kiminsə sözünü kəsmirdi. Azad fikri öldürmür, lakin səhv edənin səhvini aydınlaşdırıb onun daxili yarasının üzərinə məlhəm qoyurdu.

Peyğəmbəri-Əkrəm (s) çox mehriban və səmimi idi. Hər insanın çətinliyindən təsirlənirdi. Lakin heç vaxt günahkarların cəzalandırılmasında özünü itirmirdi və cəza qanunlarının icrasında yaxın və uzaq, tanış və yad arasnıda fərq qoymurdu.

Ənsardan birinin evində olan oğurluqda bir yəhudi və bir müsəlman müttəhim idi. Ənsardan çox adam o həzrətin yanına gəlib təzyiq göstərirdilər ki, müsəlmanların, xüsusilə, ənsarın abrının qorunması üçün və yəhudilərin aşkar düşmənçiliyi nəzərə alınıb yəhudi kişi cəzalandırılsın. Amma o həzrət haqqı müəyyən edirdi, aşkar şəkildə yəhudinin tərəfdarı olub müsəlman kişini məhkum etdi (çünki həmin müsəlman oğurluq etmişdi).

Bədr döyüşündə o həzrət İslam ordusunun səflərinin düzülməsinə məşğul olarkən başqalırndan bir qədər irəlidə duran bir döyüşçüyə çatdı. O həzrət əlində olan əsa ilə həmin kişinin qarnına sıxdı ki, arxada dayanıb sıranı düzəltsin. Döyüşçü kişi dedi: “Ya Rəsulullah! Allaha and olsun ki, qarnım ağrıdı, qisas almalıyam.” Həzrət əsanı onun əlinə verdi, libası öz qarnından çəkib buyurdu: “Öz qisasını al!” Döyüşçü kişi qaçıb o həzrətin qarnından öpdü və dedi: “Mən bilirəm ki, bu gün öldürüləcəyəm. Bu yolla müqəddəs bədəninizə toxunmaq istəyirdim." Ondan sonra düşmənə həmlə etdi, qılınc çaldı və şəhid oldu.

### PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) MÜSƏLMANLARA VƏSİYYƏTİ

Bəşəriyyət dünyası bizim müşahidə etdiyimiz varlıq dünyasının digər hissələri kimi dəyişən hala məhkumdur, həmçinin insanların quruluşunda müşahidə olunan şiddətli ixtilaf müxtəlif zövqlər yaratmışdır ki, onun nəticəsində insanların nəfsləri itilik və kütlükdə, düşüncə, idrak, fikirləri saxlama və unutmada müxtəlifdir. Bu üzdən cəmiyyət arasında hakimlik edən əqidələr, eyni zamanda, adət və ənənələrin əgər sabit kökü, imanlı və etimad olunan gözətçisi olmasa, ən az vaxtda dəyişmə və təhrifə məruz qalaraq aradan gedəcək. Müşahidə və təcrübə bu məsələni ən aydın üsulla bizə sübut edir.

Bu təhlükənin qarşısını almaq yolunda Peyğəmbər (s) öz cahanşümul və daimi dini üçün möhkəm sənəd və səlahiyyətli gözətçilər təqdim etmiş, Allahın Kitabı və öz Əhli-beytini (ə) insanlara tövsiyə etmişdir.

Necə ki, sünni və şiələr təkzibedilməz yollarla nəql etmişlər ki, Peyğəmbəri-Əkrəm (s) dəfələrlə buyurmuşdur:

“Mən özümdən sonra sizin aranızda Allahın Kitabı və öz Əhli-beytimi qoyuram. Onlar heç vaxt bir-birindən ayrılmaz və siz bunlara yapışsanız, yolunuzu azmayacaqsınız.”[1]

## QURANİ-KƏRİM

Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliynin sənədi kimi təqdim etdyi İslam maarifinin əsası və ikinci dərəcəliləri üçün başlanğıc, sənəd, başqa sözlə, söykənəcək müəyyən etdiyi ən böyük dayağı o həzrətin səmavi kitabıdır ki, “Quran” adlandırılır.

Qurani-Kərim Allah-taalanın kəlamı və elə bir xitabdır ki, izzət başlanğıcından, əzəmət məqamından Peyğəmbəri-Əkrəmə (s) nazil olmuş və onun vasitəsilə səadət yolu göstərilmişdir.

Qurani-Kərim insanlara bir sıra elmi və əməli maddələrl göstərir ki, insan onları həyata keçirəndə bu dünya və o dünyanın səadətinə nail olacaq.

Qurani-Kərim Peyğəmbəri-Əkrəmin (s) möcüzəsidir və bir dəlil və sənəddir ki, düşməni hər cəhətdən aciz və xar edir, hər üzr, etiraz, münaqişə və mübahisə yolunu onun üzünə bağlayır və öz məqsədlərini ən aydın yolla isbat edir.

Qurani-Kərim öz məqsədləri arasında insanları kor-korana təqlidə dəvət etmək əvəzinə, onlarla özlərinin adi dili və fitri

1 "Biharül-ənvar", c.23, səh.107-109, hədis: 8-13.

məntiqi ilə danışır, insanın istər-istəməz öz fitrəti ilə dərk etdiyi bir sıra məlumatları xatırladır ki, insan onları qəbul etməkdən boyun qaçıra bilməz və onları etirafdan başqa bir yolu yoxdur.

Allah-taala buyurur:

﴿إِنَّهُ لَقَوْلٌ فَصْلٌ وَمَا هُوَ بِالْهَزْلِ﴾

***"Quran şübhəsiz, (haqla batili) ayıran qəti bir kəlamdır! Əsla boş bir söz və zarafat deyildir!"*[1]**

Bəyan etdiyi mətləb dəlalət şüasının irəlilədiyi qədər həmişəlik hər kəsə qarşı diri və əbədidir. İnsanların adi sözləri kimi deyil ki, dərk və təfəkkürün əhatə edə biləcəyi cəhətlərdən ölçülsün və digər cəhətlərdən qəflət və laqeydliklə üzləşsin. Bu, Allahın kəlamıdır ki, hər aşkar və gizlini əhatə edən, hər xeyir və ziyandan xəbərdardır.

Bu səbəbdən, hər müsəlman fərdə lazımdır ki, öz gerçəyi görən gözünü açsın və həmişə bu iki şərif ayəni xatırlayıb Allahın kəlamını diri və əbədi qəbul etsin, başqalarının dediklərinə və düşündüklərinə qənaətlənməyib insanın yeganə xüsusi sərmayəsi olan və Qurani-Kərimin həmişə onun işlədilməsinə təkid etdyi azad təfəkkür qapısını öz üzünə bağlamasın. Çünki Allahın kitabı həmişəlik və hamıya qarşı diri, müfəssəl və dəlil sözdür və belə bir kitab müəyyən dəstənin dərkinə aid olmayacaq.

Allah-taala buyurur:

﴿وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِن قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ﴾

***"Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yada salmaq və haqqdan nazil olan şey üçün təvazökar, müti olmasının və onların özlərindən qabaq (səmavi) kitab verilmiş, beləliklə,***

---

1 "Tariq" surəsi, ayə: 13-14.

***(ömür) müddətləri uzadılmış, qəlbləri sərtləşmiş və çoxu itaətsiz olan kəslər kimi olmamalarının vaxtı çatmayıb?!"[1]***

Qurani-Kərim insanlardan istəyir ki, öz fitrətlərinə qayıdıb haqqı qəbul etsinlər; yəni, əvvəl özlərini haqqın qeyd-şərtsiz qəbulu üçün hazırlasınlar, şeytanın vəsvəsələrinə və istəklərinə qulaq asıb qəbul etməsinlər.

Allah-taala Qurani-Kərimin vəsfində buyurur:

﴿يَهْدِي إِلَى الْحَقِّ وَإِلَى طَرِيقٍ مُّسْتَقِيمٍ﴾

***"Haqqa və (əqidə, əxlaq və əməldə) doğru yola yönəlir."[2]***

Yenə buyurur:

﴿إِنَّ هَـٰذَا الْقُرْآنَ يِهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ﴾

***"Həqiqətən bu Quran (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir."[3]***

Başqa bir ayədə İslamın bu qüdrət səbəbini insanın yaranışı ilə İslamın həmin uyğunluğunda təqdim edir. Çünki aydındır ki, insanın fitri istəkləri və real ehtiyaclarına cavab verən yol və üsul insanı ən yaxşı yolla xöşbəxt edəcək.

﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ﴾

***"(Ya Peyğəmbər!) Haqqa tapınaraq ürəyini (qəlbini) bu dinə (İslam dininə) sarı döndər. Allah həmin fitri din əsasında insanları yaratmışdır. Allahın xilqətində əsla bir dəyişiklik ola bilməz. Sabit və möhkəm olan din budur."[4]***

---

1 "Hədid" surəsi, ayə: 16.
2 "Əhqaf" surəsi, ayə: 30.
3 "İsra" surəsi, ayə: 9.
4 "Rum" surəsi, ayə: 30.

İslam elə bir dindir ki, insan cəmiyyətini idarə edib səadət mənzilinə çatdıra bilər.

Yenə buyurur:

﴿كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ﴾

***"Bu (Quran) insanları onların Rəbbinin istək və köməyi ilə qaranlıqlardan (əqidə, əxlaq və əməl əyriliklərindən) nura (ilahi hidayətə) tərəf çıxarmaq... üçün (Öz əzəli elmimizdən Lövhə, oradan Cəbrailin qəlbinə və oradan da) sənə nazil etdiyimiz bir kitabdır."[1]***

Qurani-Kərim insanları elə bir yola dəvət edir ki, işıqlı olsun və məqsədi aydın göstərsin. Bu yol elə bir yol olmalıdır ki, insanın həmin real ehtiyacları olan fitri istəklərə düzgün cavab versin və sağlam ağlın verdiyi nəzərlə uyğunluq təşkil etsin. Bu, həmin fitri dindir ki, "İslam" adlandırılır.

Cəmiyyət ya fərdlərin istəkləri, şəhvət və qəzəbin tələblərini razısalma əsasında cəmiyyətin nüfuzu ilə keçilən yol, ata-babalardan kor-korana əxz olunmuş yol, həmçinin, geridə qalmış və bacarıqsız millətin qüdrətli millətdən araşdırıb sağlam əqli məntiqlə tutuşdurmadan qarşılarına çıxanı sorğu-sualsız qəbul edib özlərini onlara oxşatdıqları yollar qaranlığa girməkdən başqa bir şey deyil və həqiqətdə elə bir yolu gedir ki, heç vəchlə məqsədə çatmağa zəmanət vermir.

Necə ki, Allah-taala buyurur:

﴿أَوَ مَن كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَن مَّثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا﴾

***"Məgər (küfr və imansızlıq ölümü ilə) ölmüş və sonra Bizim (dinə hidayət etməklə) dirildərək (imanından,) vasitəsilə***

1 "İbrahim" surəsi, ayə: 1.

***insanlar arasında yol getdiyi (yaşadığı) bir nur verdiyimiz şəxs, (etiqadi və əməli azğınlıq) zülmətlər(in)də olan və ondan çıxmayacaq şəxs kimidir?”[1]***

## PEYĞƏMBƏRİ-ƏKRƏMİN (S) ƏHLİ-BEYTİ (Ə)

Adi danışıq dili və lüğətdə “əhli-beyt” və kişinin ailəsi o kəslərə deyilir ki, kiçik cəmiyyətin üzvləri onun evində yaşayırlar; həyat yoldaşı, oğul, qız, xidtmətçi, bir sözlə, kişinin evində yaşayan adamlar.

Bəzən “əhli-beyt”in mənasını genişləndirib bu sözü ata, ana, qardaş, bacı, övlad, əmi, bibi, dayı, xala, onların övladları kimi yaxın qohumlar üçün də işlədirlər.

Lakin Kitab və sünnədə “Peyğəmbər (s) Əhli-beyti”ndən məqsəd bu iki mənadan heç biri deyil.

Çünki sünni və şiə sənədlərilə daxıl olmuş mütəvatir hədislərə əsasən, “əhli-beyt” bəxşiş olunmuş addır ki, həzrət Peyğəmbəri-Əkrəm (s), həzrət Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynə (ə) məxsusdur. Buna görə də evin əhli və Peyğəmbərin (s) digər qohumları bu mənada əhli-beyt deyildirlər. Hətta, Peyğəmbəri-Əkrəmin (s) ən əziz qadını və Fatimənin (s) anası olan Xədiceyi-Kübra, həmçinin, o həzrətin doğma oğlu və ən böyük iftixara malik olan İbrahim də əhli-beytə daxil deyildirlər.

Bəli, həmin və digər hədislərə əsasən, imam Hüseynin (ə) övladlarından sayılan on iki imamdan doqquzu Əhli-beytdəndirlər.

İslamda Peyğəmbərin (s) Əhli-beyti (ə) çoxlu fəzilətlərə və rəqabətsiz məqamlara malikdir ki, onların ən mühümü iki məqamdır:

---

1 "Ənam" surəsi, ayə: 122.

"Təthir" ayəsinə görə, ismət və taharət məqamına malikdir və bu məqamın tələbi ilə heç vaxt günah etmirlər.

﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

***"Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) çirkinliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etmək istəyir."***[1]

Əvvəldə də işarə olunduğu "Səqəleyn" adlı mütəvatir və "Nəbəvi" hədisinə əsasən, Əhli-beyt (ə) həmişə Quranladır və heç vaxt onlarla Allahın kitabı arasında ayrılıq düşməz və nəticədə Qurani-Kərimin dərki və mənalarında, həqiqi dinin məqsədlərində səhvə düçar olmurlar.

## ƏHLİ-BEYTİN (Ə) ÜMUMİ HƏYAT TƏRZİ

Əhli-beyt (ə) Peyğəmbəri-Əkrəmin (s) təlim və tərbiyəsinin kamil nümunələridir və onların həyat tərzi Peyğəmbəri-Əkrəmin (s) həyat tərzidir.

Əlbəttə, insanlarla ünsiyyətdə olan hidayət imamlarının (ə) 250 il müddətində (Peyğəmbəri-Əkrəmin (s) vəfat tarixi olan hicrətin on birinci ilindən həzrət Höccətin (ə) 260-cı hicri ilində qeybət ilinə kimi) müxtəlif həyat mühitləri yaranmışdı ki, imamların (ə) həyat tərzlərini müxtəlif şəkillərdə nümayiş etdirmişdir. Lakin dinin əsas və ikinci dərəcəlilərinin (füruid-din) qorunması, insanların dəyişməsi, təlim və tərbiyəsindən ibarət olan Peyğəmbəri-Əkrəmin (s) əsas məqsədini imkan daxilində heç vaxt tərk etmədilər.

Peyğəmbəri-Əkrəm (s) iyirmi üç illik dəvəti müddətində üç həyat mərhələsini qət etdi; besətin başlanğıcından üç il gizli, on il ondan sonra aşkar dəvət edirdi. Lakin özü və ardıcılları ən

---

1 "Əhzab" surəsi, ayə: 33.

çətin işkəncə və cəmiyyətin əziyyəti altında yaşayırdılar və cəmiyyətin islahında aydın nəticə verməyən heç cür əməl azadlığına malik olmamışdılar. Hicrətdən sonra on ildə o həzrətin məqsədi haqq və həqiqəti diriltmək idi və pak İslam gündən-günə öz fəthedici tərəqqisinə davam edir və hər an bilik və kamalın yeni qapısını insanların üzünə açırdı.

Əlbəttə, aydındır ki, bu üç müxtəlif mühitin müxtəlif tələbləri olacaq və haqq, həqiqəti diriltməkdən başqa məqsədi olmayan Peyğəmbəri-Əkrəmin (s) həyat tərzi müxtəlif şəkillərdə cilvələnəcək.

Hidayət imamlarının dövrünə təsadüf edən müxtəlif mühitlər ümumiyyətlə, Peyğəmbəri-Əkrəmin (s) hicrətindən qabaq dəvət zamanına bənzərsiz deyildi; bəzən besətdən əvvəlki üç il kimi haqqı göstərmək heç vəchlə mümkün deyildi və imam son dərəcə ehtiyatla öz vəzifəsinə əməl edirdi. Necə ki, dördüncü imamın (ə) zamanı və altıncı imamın (ə) dövrünün axırı bunu tələb edirdi. Bəzən Peyğəmbəri-Əkrəmin (s) hicrətdən on il qabaq Məkkədə aşkar dəvətə məşğul olduğu, özü və ardıcıllarının kafirlərin təzyiqi altında baş qaldıra bilmədiyi kimi, imam da dini maarifin təliminə və hökmlərin yayılmasına məşğul olurdu. Lakin dövrün nüfuzluları bacardıqları qədər işkəncə və əziyyəti kənara qoymurdular və hər gün yeni bir çətinlik yaradırdılar.

Bəli, müəyyən qədər Peyğəmbəri-Əkrəmin (s) hicrətdən sonrakı mühitə oxşayan mühit həzrət Əmirəlmöminin (ə) həmin beşillik xilafət mühiti, həzrət Fatimənin (ə) və imam Həsənin (ə) yaşayış mühitinin az hissəsi, imam Hüseyn (ə) və dostlarının neçə günlük mühiti idi ki, haqq və həqiqət pərdəsiz cilvələnirdi və pak ayna kimi Peyğəmbəri-Əkrəmin (s) zamanının ümumi vəziyyətini göstərirdi.

Bir sözlə, hidayət imamları – işarə olunanlar istisna olmaqla – dövrün hökmdarları ilə əsaslı və aşkar müxalifət etmək iqtidarında deyildilər. Bu üzdən öz hərəkət və sözlərində “təqiyyə” yolunu seçməyə və dövrün hökumətlərinin əlinə bəhanə verməməyə məcbur oldular. Bütün bunlarla belə, düşmənləri bacardıqları qədər onların nurlarını söndürmək və təsirlərini aradan aparmaq uğrunda bəhanələr tapmağa çalışırdılar.

## MÜASİR HÖKUMƏTLƏRLƏ İMAMLARIN İXTİLAFININ ƏSAS KÖKÜ

Peyğəmbəri-Əkrəmdən (s) sonra İslam cəmiyyətində yaranan və İslam hökuməti adını alan müxtəlif hökumətlərin hamısı Əhli-beytlə (ə) əsaslı müxalifətdə idilər və bu barışmaz düşmənçiliyin heç vaxt qurumayan canlı kökü var idi.

Düzdür, Peyğəmbəri-Əkrəm (s) öz Əhli-beyti (ə) üçün fəzilət və istedadlar buyurmuşdu ki, ən mühümlərindən biri Quran maarifini bilmək, halal və haramı bəyan etmək imtiyazı idi və nəticədə, onların məqamlarına təslim və ehtiram bütün ümmətə lazım idi. Lakin ümmət bu tövsiyə və təkidin haqqını yerinə yetirmədi.

Peyğəmbəri-Əkrəm (s) dəvətini aşkar etdiyi və qohumlarını İslama çağırdığı ilk gündə Əlini (ə) öz canişinliyinə təqdim etdi və həyatının son günlərində də Qədir-xumda onun canişinliyini aydın şəkildə buyurdu. O həzrətin vəfatından sonra insanlar başqalarını Peyğəmbəri-Əkrəmin (s) canişinliyinə seçdilər və Əhli-beyti (ə) öz həqiqi haqqından uzaqlaşdırdılar. Nəticədə, həmişə dövrün hökumətləri Əhli-beyti (ə) özləri üçün təhlükəli rəqib sayır və onları məhv etmək üçün müxtəlif imkanlardan istifadə edirdilər.

Lakin Əhli-beytlə (ə) İslam hökumtələri arasında ən dərin ixtilaf mayesi xilafət və onunla bağlı məsələlərdən fərqli idi. Əhli-beyt (ə) Peyğəmbəri-Əkrəmin (s) həyat tərzini ümməti üçün lazım bilirdi və hökumətin vəzifələrini İslamın səmavi hökmlərinin icrası, onların qorunmasında görürdülər. Lakin Peyğəmbəri-Əkrəmdən (s) sonra iş başına gələn hökumətlər İslam hökmlərinin icrasına kamil riayət etmir və Peyğəmbəri-Əkrəmin (s) həyat tərzini davam etdirmirdilər.

Allah-taala Öz kəlamında Peyğəmbəri-Əkrəmə (s) və həmçinin ümmətə səmavi hökmlərin dəyişdirilməsini qadağan edir və hətta dini hökm və göstərişlərdən birinin belə xilafına ən kiçik təmayüldən çəkindirir. Peyğəmbəri-Əkrəm (s) də həmin dəyişilməz hökm və qanunlar çərçivəsində insanlar arasında elə həyat yolu seçmişdi ki, dini qanunların icrasında zaman, məkan və şəxslər baxımından fərq qoymurdu. Səmavi hökmlərə riayət hamıya, hətta Peyğəmbərin (s) özünə də vacib idi. Şəriət hər halda və hər yerdə diri və nüfuzlu idi.

Həmin bərabərlik və ədalət nəticəsində hər cür imtiyazı insanların arasından qaldırmışdı. Allahın əmri ilə itaəti vacib buyurulan o həzrətin özü belə daxili və xarici həyatında digər insanlarla müqayisədə imtiyaza malik deyildi. Dəbdəbəli həyat sürmürdü, öz hakimiyyəti üçün heç bir təşrifat müəyyən etməmişdi, öz mövqeyinin əzəmətini insanlara nümayiş etdirmirdi, həşəmət və qüdrətini bildirmirdi, bir sözlə, başqalarından xarici görünüşdə heç nə ilə fərqlənmirdi.

Müxtəlif insan təbəqələrindən heç bir təbəqə öz imtiyazına söykənməklə başqalarından üstünlük axtarmırdı; qadın və kişi, tanınan və tanınmayan, dövlətli və kasıb, qüvvətli və zəif, mədəni və bədəvi, bəndə və azad – hamı bir sırada idi. Heç kəs öz dini vəzifələrindən daha çoxa mükəlləf deyildi. Cəmiyyətin qüvvətlilərinə baş əymək, yaxud, zülmkarların nüfuzu və zorakılığı müqabilində əyilmirdi, təhlükəsiz və azad idilər.

Azacıq düşünməklə bizim üçün aydın olur (xüsusilə, Peyğəmbəri-Əkrəmin (s) vəfatından indiyə kimi apardığımız uzunmüddətli təcrübələrdən sonra), öz pak həyat tərzindən Peyğəmbəri-Əkrəmin (s) yeganə məqsədi bu olmuşdur ki, İslamın səmavi hökmləri insanlar arasında ədalətlə və bərabər şəkildə icra olunsun və İslam qanunları dəyişiklikdən qorunsun. Lakin İslam hökumətləri öz həyat tərzini Peyğəmbəri-Əkrəmin (s) həyat tərzinə uyğunlaşdırmadılar, yolu və istiqaməti dəyişdirdilər və nəticədə:

1. Qısa müddətdə şiddətli sinfi ixtilaf İslam cəmiyyətində zühur etdi və müsəlmanlar iki – qüvvətli və zəif – dəstəyə bölünüb bir dəstənin malı, canı və namusu başqa bir dəstənin istəklərinin oyuncağına çevrildi.

2. İslam hökumətləri tədricən İslam qanunlarının dəyişdirlilməsinə məşğul oldular, bəzən İslam cəmiyyətinə riayət adı ilə, bəzən də dövlətin hökumət və siyasətinin mövqeyini qorumaq adı ilə dini hökmlərə əməl və İslam qanunlarının icrasından boyun qaçırdırdılar. Bu üsul gündən-günə genişlənib o yerə çatdı ki, İslam hökuməti adlanan təşkilatlar İslam qanunlarının icrasına özlərində heç bir məsuliyyət hiss etmədilər.

## XÜLASƏ VƏ NƏTİCƏ

Keçən bəyandan məlum oldu ki, dövrün tələbinə uyğun olaraq, İslam hökmləri və qanunlarında dəyişikliklər edən (Əhli-beytin (ə) müasiri olan) İslam hökumətləri həmin dəyişikliklər nəticəsində həyat tərzləri Peyğəmbəri-Əkrəmin (s) həyat tərzindən tamamilə fərqləndi. Lakin Əhli-beyt (ə) Quranın göstərişinə əsasən, Peyğəmər-əkrəmin (s) həyat yolunun hökmlərini həmişəlik lazım bilirdi.

Həmin ixtilaf və təzadın tələbinə əsasən, həmin qüdrətli hökumətlər Əhli-beyti (ə) məhv etməkdə heç nədən çəkinmirdilər və nurlarını söndürmək üçün mümkün olan hər vasitəyə əl atırdılar.

Əhli-beyt (ə) öz İlahi missiyalarına əsasən, həmişə çoxlu çətinliklərlə üzləşsələr, inadkar düşmənlərə düçar olsalar da, din həqiqətlərinin dəvəti və təbliğinə məşğul olurdular və saleh adamların təlim və tərbiyəsində yorulmaq bilmirdilər.

Bu mətləbin dərki üçün tarixə müraciət etmək və həzrət Əmirəlmömininin (ə) beşillik xilafəti dövrünə diqqət yetirmək kifayətdir. Çünki azacıq diqqət etsək, başa düşəcəyik ki, bu cəmiyyət həzrətin iyirmi beş illik inzivası zamanında hazırlanmışdı. Həmçinin, həzrət Baqirin (ə) evinin qapısına axan şiə axını həzrət Səccadın (ə) səs-küysüz tərbiyə etdikləriydi; həzrət Rizaya (ə) ürək bağlayan yüz minlərlə şiə və Əhli-beyt (ə) dostları həzrət Musa ibn Cəfərin (ə), hətta qaranlıq zindanların guşəsində yaydığı həqiqətlərin biçinçiləri idilər.

Nəhayət, Peyğəmbəri-Əkrəmin (s) vəfatı günü cüzi sayda olan şiələr Əhli-beytin (ə) ardıcıl təlim-tərbiyəsi nəticəsində imamların dövrünün sonlarında müdhiş bir saya yüksəldilər.

## ƏHLİ-BEYT (Ə) ÜSULUNDA İSTİSNA MƏSƏLƏ

Deyildiyi kimi, Peyğəmbərin (s) Əhli-beyti (ə) öz həyat dövrünü məzlumluq və məhkumluqla keçirdilər və öz vəzifələrini təqiyyə mühitində və çox ağır şəraitdə yerinə yetirdilər. Onların arasında yalnız dörd nəfərdə çox qısa müddətdə istisna rəftar, yəni, azad və təqiyyəsiz hal müşahidə olunur və biz buna görə Əli (ə), Fatimə (s) və Hüseyn (ə) şəxsiyyətlərinin həyat və rəftar tarixinin xülasəsinə işarə edirik:

## İMAM ƏLİ (Ə)

Həzrət Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) Peyğəmbəri-Əkrəmin (s) təlim-tərbiyəsinin birinci kamil nümunəsidir.

Əli (ə) uşaqlıq çağlarından Peyğəmbəri-Əkrəmin (s) ətəyində bəslənmişdi və ondan sonra o həzrətin həyatının son anlarınadək kölgə kimi onun ardınca getmiş, pərvanə kimi onun varlıq şamının ətrafında fırlanmışdı. O həzrətdən ayrıldığı axırıncı an onun pak cəsədini ağuşuna alıb torpağa tapşırdığı an idi.

Əli (ə) cahanı əhatə edən şəxsiyyətə malikdir. Cürətlə demək olar ki, bu böyük şəxsiyyət haqqında olan bəhslər və söhbətlər dünyanın böyük şəxsiyyətlərindən heç biri haqqında aparılmamışdır. Şiə və sünni, müsəlman və qeyri-müsəlman, alim və yazıçılar onun şəxsiyyəti haqqında mindən çox kitab yazmışlar.

Dost və düşmənin o həzrət haqqında etdiyi saysız bəhs və göstərdiyi diqqətə baxmayaraq, kimsə o həzrətin imanında zəif nöqtə tapa, ya onun şücaət, iffət, mərifət, ədalət və digər bəyənilmiş əxlaqında yersiz irad tuta bilməmişdir. Çünki o, fəzilət və kamaldan başqa bir şey tanımayan, həm də fəzilət və kamaldan başqa bir şeyi əhatə etməyən bir şəxs idi.

Əli (ə) tarixin şahidliyinə əsasən, Peyğəmbəri-Əkrəmin (s) vəfat günündən indiyə kimi müsəlmanların hökmranlıq taxtına söykənmiş bütün hakimlərin arasında tənha kəsdir ki, İslam cəmiyyətində öz hakimliyi dövründə Peyğəmbəri-Əkrəmin (s) həyat yolu ilə getmiş və tük ucu qədər o həzrətin üslubundan sapınmamışdır; İslam qanun və şərtlərini Peyğəmbəri-Əkrəmin (s) həyatı dövründə icra olunduğu şəkildə ən az müdaxilə və dəyişikliksiz icra etdi.

İkinci xəlifənin (vəfatından sonra) göstərişinə əsasən imzalanmış xəlifə təyini üçün altı nəfərlik şuranın hökmündə

çoxlu söhbətlərdən sonra Əli və Osman arasında xəlifəlik işində tərəddüd olundu. Xilafəti bir şərtlə Əliyə (ə) təqdim etdilər ki, insanlar arasında birinci və ikinci xəlifənin həyat yolu ilə rəftar etsin. O həzrət qəbul etməyib buyurdu: "Mən yalnız öz elmimə əsasən əməl edəcəyəm."

Sonra Osmana həmin şərtlə təqdim etdilər və o qəbul etdi, amma xilafətdən sonra başqa yolu seçdi.

Əlinin (ə) haqq yolunda etdiyi fədakarlıqlarda Peyğəmbəri-Əkrəmin (s) dostları arasında rəqibi yoxdur.

İnkar etmək olmaz ki, əgər (İslam uğranda öz canından belə keçən) bu öndər olmasaydı, kafirlər və müşriklər hicrət gecəsində və ondan sonra Bədr, Ühüd, Xəndək, Xeybər və Hüneyn müharibələrindən hər birində peyğəmbərlik nurunu asanlıqla söndürüb haqq bayrağını devirərdilər.

Əli (ə) ictimai mühitə ayaq basdığı ilk gündə çox sadə həyata malik idi və Peyğəmbəri-Əkrəmin (s) həyatı zamanı, vəfatından sonra, hətta, özünün əzəmətli xilafəti günlərində kasıblar kimi ən aşağı vəziyyətdə yaşayırdı. Yemək, geyim və məskəndə ən kasıb adamlardan fərqlənmir və buyururdu:

"Cəmiyyətin hakimi gərək elə yaşasın ki, möhtac və pərişan adamların həsrət və ürəksınma səbəbi yox, onların təsəlli mayesi olsun."[1]

Əli (ə) həyat ehtiyaclarını aradan qaldırmaq üçün işləyirdi, xüsusilə, əkinçiliyə məhəbbəti vardı, ağac əkir və yeraltı suvarma kanalları qazırdı. Lakin bu yolla əldə etdiyini, ya döyüşdən qazandığı çoxlu qənimətləri fəqirlər arasında bölüşdürür, abad etdiyi mülkləri vəqf edir, ya da satıb pulunu möhtaclara verirdi.

---

1 "Nəhcül-bəlağə", xütbə: 209.

Öz xəlifəliyi dövründə bir il göstəriş verdi ki, onun vəqfinin gəlirlərini əvvəl özünün yanına gətirsinlər, sonra məsrəf etsinlər; qeyd olunan gəlirlər toplananda iyirmi dörd min qızıl dinar oldu.

Əli (ə) iştirak etdiyi müharibələrdə bütün rəqiblərinə qalib gəldi, heç vaxt düşməninə arxa çevirmədi və buyururdu:

“Əgər bütün ərəblər mənimlə müxaliflik və döyüşə qalxsalar, özümü itirmərəm və qorxmaram.”[1]

Əli (ə) dünya şücaətləri tarixinin ona rəqib və yaxın olmadığını qeyd etdiyi belə şücaət və qəhrəmanlıqla yanaşı sonsuz mehriban, məhəbbətli və comərd idi. Döyüşlərdə qadın, uşaq və gücsüzləri öldürmür, əsir tutmur və fərariləri təqib etmirdi.

Siffeyn döyüşündə Müaviyənin qoşunları qabağa düşüb Fərat sahillərini işğal etdilər və suyu o həzrətin əsgərlərinin üzünə bağladılar. O həzrət qanlı döyüşlə çayın sahilini aldı. Ondan sonra əmr etdi ki, su yolunu düşmənin üzünə açsınlar.

Xilafəti dövründə gözətçi və qapıçısız hamını qəbul edirdi; tək və piyada yol gedirdi, küçə və bazarda dolaşırdı, insanları təqvanın gərəkliyinə əmr edir və bir-birinə zülmdən çəkindirirdi, mehribanlıq və təvazökarlıqla çarəsiz və dul qadınlara kömək edirdi, pənahsız yetimləri öz evində saxlayırdı, şəxsən onların həyat ehtiyaclarını ödəyir və tərbiyələrinə məşğul olurdu.

Əli (ə) elm və biliyə böyük dəyər verirdi, maarifin yayılmasına xüsusi inayəti vardı və buyururdu:

“Nadanlıq kimi dərd yoxdur.[2]“

1 "Nəhcül-bəlağə", məktub: 45.
2 "Qürərül-hikəm və dürərül-kəlim", Amidi, hədis: 819.

Qanlı Cəməl döyüşündə öz qoşununun sıralarını düzməyə məşğul idi ki, bir ərəb qarşıya çıxıb tövhidin mənasını soruşdu. Adamlar hər tərəfdən ərəb kişinin üstünə düşüb danladılar ki, belə bir saatda belə sual və bəhsin yeri deyil. O həzrət insanları ərəbdən ayırdı və buyurdu: "Biz insanlarla həmin həqiqətləri diriltmək üçün döyüşürük." Sonra onları yanına çağırıb sıraları düzəltməyə məşğul olan vəziyyətdə gözəl açıqlama ilə məsələni onun üçün şərh etdi.

O həzrətin heyrətləndirici dini qayda və ilahi qüdrətindən hekayət olunan bu hadisənin oxşarını Siffeyn döyüşündə də nəql etmişlər. İki təlatümlü dəniz kimi iki qoşunun bir-birinə qarışdığı, qan seli hər tərəfdən axdığı halda öz əsgərlərindən birinə yaxınlaşıb içmək üçün su istədi. Həmin əsgər taxta kasanı çıxartdı və su ilə doldurub təqdim etdi. O həzrət kasada çat müşahidə edib buyurdu: "İslamda belə bir qabda su içmək məkruhdur." Əsgər ərz etdi: "Ox yağışı və minlərlə qılıncın parıltısı altında dayandığımız belə bir halda buna diqqət etməyə macal yoxdur". Həzrət ona belə cavab verdi: "Biz həmin dini qaydaların icrası üçün döyüşürük və qaydaların böyük-kiçiyi yoxdur." Sonra iki əlini qabağa gətirib birləşdirdi və buyurdu ki, su kasasını əlinə boşaltsınlar və içdi.

Əli (ə) ilk kəsdir ki, Peyğəmbərdən (s) sonra elmi həqiqətlərdə fəlsəfi təfəkkür yolu ilə, yəni azad dəlil gətirmə ilə danışırdı və çoxlu elmi terminlər müəyyən etdi və Qurani-Kərimin səhv və təhrifdən qorunması üçün ərəb dili qrammatikasını (nəhv elmini) tənzimlədi.

O həzrətin (ə) bizim əlimizə çatan bəlağətli çıxışları, məktubları və digər bəyanatlarında elmi dəqiqlik, ilahi maarif, əxlaqi, ictimai, siyasi və hətta riyazi məsələlər heyrətamiz dərəcədədir.

## HƏZRƏT SİDDİQEYİ-KÜBRA – FATİMƏ (S)

Həzrət Fatimə (ə) Peyğəmbəri-Əkrəmin (s) yeganə əziz və sevimli qızı idi ki, malik olduğu mərifət, iman və təqva nəticəsində, onda cəmlənmiş bəyənilən əxlaq və gözəl sifətlərlə atasının pak qəlbini özünə məhəbbətlə doldurmuşdu.

Həzrət Fatimə (ə) öz mərifət, zöhd və ibadəti nəticəsində atasından "Seyyidətün-nisa" (aləm qadınlarının xanımı) ləqəbini almağa nail oldu. Peyğəmbəri-Əkrəm (s) buyururdu:

"Fatimənin razılığı mənim razılığım, mənim razılığım Allahın razılığıdır. Fatimənin qəzəbi mənim qəzəbim, mənim qəzəbim isə Allahın qəzəbidir."

Həzrət Fatimə (ə) besətin altıncı ilində müsəlman xanım Xədiceyi-Kübradan doğulmuşdur və hicrətin ikinci ilində həzrət Əmirəlmöminin Əli (ə) ilə evlənmiş, atasının vəfatından üç ay neçə gündən sonra vəfat etmişdir.

Öz yaşayış mühitində həmişə Allahın razılığını öz razılığından üstün tutur, öz evində övladlarının tərbiyəsi ilə məşğul olurdu. Ev işlərini özü ilə xidmətçisi arasında bölüşdürmüşdü. Ev işlərini bir gün özü, bir gün də xadiməsi görürdü. Müsəlman qadınlarının ehtiyac duyduğu suallara cavab verirdi və boş vaxtlarında ibadətə məşğul olurdu. Özünəməxsus maldan, xüsusilə Fədəkin bol gəlirlərindən əlinə nə çatırdısa, Allah yolunda sərf edirdi. Ancaq zəruri miqdarda özü üçün saxlayır və bəzən gündəlik yeməyindən öz payını fəqirlərə və möhtaclara verib özü aclıq çəkirdi.

O həzrətin (ə) Peyğəmbər (s) məscidində səhabə və müsəlmanlar qrupu üçün etdiyi geniş çıxışlar, birinci xəlifə ilə mübahisədə Fədək mövzusunda gətirdiyi dəlillər və onun digər bəyanatları o həzrətin (ə) şücaət, cəsurluq və mübarizə ilə dolu məqam və ruhunun əzəmətinə bariz dəlildir.

Həzrət Fatimə (s) Peyğəmbəri-Əkrəmin (s) əziz qızı, Əmirəlmöminin Əlinin (ə) həyat yoldaşı və on bir nəfər İslam imamının anasıdır və Peyğəmbəri-Əkrəmin (s) zürriyəsi (nəsli) təkcə onun nəslindədir.

O həzrət Qurani-Kərimin aydın bəyanına görə ismət məqamına malikdir.[1]

## İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYN (Ə)

Bu iki imam qardaş, Əli və Fatimənin (s) övladlarıdırlar.

Nəql olunmuşdur ki, Peyğəmbəri-Əkrəmin (s) öz övladı adlandırdığı bu iki əziz nəvəsinə hədsiz məhəbbət bəsləyirdi. Onlara qarşı rəva görülən ən kiçik əziyyət və narazılığa müşahidə qüdrəti yox idi və buyururdu:

“Mənim bu iki övladım qalxsalar da, otursalar da imamdırlar.”[2]

"Qalxmaq" və "oturmaq" zahiri xilafəti qazanmaq və din düşmənləri ilə müharibəyə qalxmaq, yaxud zahiri xilafətsiz qiyam etməyə işarədir.

Buyururdu: “Həsən və Hüseyn behişt cavanlarının sərvəri-dirlər.”[3]

İmam Həsən (ə) əziz atasının vəsiyyətinə əsasən, xilafətə seçildi və insanlar da beyət etdilər. Altı ay Müaviyənin rəhbərlik etdiyi Suriya və Misirdən başqa İslam ölkələrinin hakimiyyəti əlində olanda öz atasının həyat yolu ilə rəftar edirdi.

İmam Həsən (ə) bu müddətdə Müaviyənin fitnəsini aradan aparmaq üçün qoşun təchizatına başladı. Lakin axırda ona aydın oldu ki, insanların qəlbləri Müaviyəyə aldanmış və onun

---

1 "Əhzab" surəsi, ayə: 33.
2 "Dəaimul-İslam", c.1, səh.37; "Biharül-ənvar", c.16, səh .307.
3 "Ehticac", c.1, səh.171-172; "Biharül-ənvar", c.22, səh.280, hədis: 33.

qoşun başçıları Müaviyə ilə yazışırlar, onun göstərişini gözləyirlər ki, o həzrəti öldürsünlər, ya da tutub düşmənə təslim etsinlər.

Bu səbəbdən çarəsiz qalıb sülh təklifi ilə razılaşdı.

İmam Həsən (ə) Müaviyə ilə bəzi şərtlərlə sülh etdi, amma Müaviyə öz əhdinə vəfa etmədi və sülh bağlanandan sonra İraqa gəldi, hamının qarşısında minbərə çıxıb dedi:

“Mən sizinlə ona görə döyüşmürdüm ki, namaz qılıb ya oruc tutasınız. Sizə hakimlik etmək istəyirdim və indi öz məqsədimə çatdım.”

Dedi:

“Həsənə verdiyim öhdəçiliklərin hamısı mənim ayağımın altındadır.”

İmam Həsən (ə) sülhdən sonra təqribən doqquz il yarım Müaviyənin istilası altında, qaranlıq və çox xoşagəlməz şəraitdə yaşayırdı, öz evində belə canı təhlükəsiz deyildi. Nəhayət, (Müaviyənin təhriki ilə) öz arvadının əli ilə zəhərlənib şəhid oldu.

İmam Həsənin (ə) şəhadətindən sonra əziz qardaşı imam Hüseyn (ə) Allahın əmri və qardaşının vəsiyyətinə görə onun yerində oturdu və insanların hidayəti üçün ayağa qalxdı. Lakin vəziyyət və şərait imam Həsənin (ə) həmin vəziyyət və şəraiti idi və Müaviyə şəraiti nəzarətdə saxladığı hakimiyyətlə bütün imkanları o həzrətin (ə) əlindən almışdı.

Təqribən, doqquz il yarımdan sonra Müaviyə dünyadan köçdü və səltənətə çevrilən xilafət oğlu Yəzidə keçdi.

Yəzid öz riyakar atasının əksinə olaraq, qürurdan məst olmuş bir cavan, əyyaşlıq və laqeydliklə gün keçirən idi.

Yəzid elə ki, hakimiyyəti əlinə aldı, Mədinə valisinə göstəriş verdi ki, imam Hüseyndən (ə) onun üçün beyət alsın, əks təqdirdə, başını onun yanına göndərsin.

Vali əmrə əsasən, beyəti bildirəndən sonra o həzrət (ə) möhlət istədi və gecə Mədinədən öz adamları ilə Məkkəyə tərəf yollandı. İslamda rəsmi sığınacaq olan Allahın hərəminə sığındı. Lakin neçə ay qaldıqdan sonra başa düşdü ki, Yəzid heç vəchlə ondan əl çəkməyəcək və beyət etmədiyi təqdirdə onun qətli mütləqdir. Digər tərəfdən, bu müddətdə İraqdan neçə min məktub o həzrətə (ə) çatmışdı ki, ona kömək vədəsi verib Bəni-Üməyyə zülmkarlarına qarşı hərəkata dəvət edirdilər.

İmam Hüseyn (ə) ümumi vəziyyətin müşahidəsindən və şahidlər və sübutların dəlalətindən bilirdi ki, onun hərəkatı zahiri inkişafa malik olmayacaq. Bununla belə, Yəzidə beyətdənsə öldürülməyi qərara alıb öz adamları ilə Məkkədən Kufəyə tərəf yollandı və yolda Kərbəla torpağında (Kufənin təqribən yetmiş kilometrliyində) düşmənin böyük ordusu ilə rastlaşdı.

O həzrət (ə) yol boyu insanları köməyə dəvət edirdi və onunla yanaşı gedənlərə də özünün öldürülməsi barədə qəti qərarını xatırladırdı, ondan ayrılmağı tövsiyə edirdi.

Bu səbəbdən, düşmən qoşunu ilə üzləşən gün canından keçməyə hazır olan və ürək bağlayan azsaylı dostlarından başqa kimsə qalmamışdı və nəticədə, düşmənin sıx qoşununun çox dar mühasirəsinə tuş gəldilər və hətta su belə onların üzünə bağlandı. Belə bir mühitdə onu beyətlə qətl arasında seçimə çağırdılar.

İmam Hüseyn (ə) beyətə razılaşmayıb qətlə hazır oldu. Bir gün səhərdən axşama kimi yoldaşları ilə düşmənə qarşı döyüşdü, ümumilikdə yetmiş nəfərdən ibarət olan özü, övladları, qardaşları, və qardaşoğulları, əmioğulları və dostları şəhid

oldular. Təkcə xəstəlik səbəbindən döyüşməyə qüdrəti olmayan övladı imam Səccad (ə) diri qaldı.

Düşmən qoşunu o həzrətin şəhadətindən sonra mallarını qarət edib ailəsini əsir götürdülər və şəhidlərin kəsilmiş başları ilə birlikdə Kərbəladan Kufəyə, Kufədən Şama gətirdilər.

Bu əsarətdə imam Səccad (ə) Şamda danışdığı xütbə ilə, həmçinin, Zeynəbi-Kübra Kufənin ümumi toplantılarında, Kufə valisi İbn Ziyadın məclisində və Şamda Yəzidin məclisində etdiyi çıxışlarla haqqın üzərindən pərdəni götürüb Bəni-Üməyyənin zorakılıq və zülmkarlığını insanlara bildirirdi.

Hər halda, o həzrətin (ə), övladlarının, dostlarının pak qanının tökülməsi, malının tarac olması, qadın və uşaqlarının əsir düşməsi ilə nəticələnən zorakılıq, ədalətsizlik və haqsızlıq elə xüsusi bir hadisədir ki, dünya hərəkatlarının tarix səhifələrində ona bərabərini tapmaq olmaz və cürətlə demək olar ki, İslam bu hadisəyə görə diridir, əgər bu hadisə baş verməsəydi, Bəni-Üməyyə İslamdan əsər-əlamət saxlamazdı.

## İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYNİN (Ə) YOLU MÜXTƏLİF İDİMİ?

Peyğəmbəri-Əkrəmin (ə) aydın bəyanatına görə, haqq imamı olan bu iki əzəmətli imamın yolu zahirdə müxtəlif nəzərə çarpsa da,[1] dəqiq araşdırma bu nəzərin əksini sübuta yetirir. Çünki biz görürük ki, imam Həsən (ə) təqribən, doqquz il yarım Müaviyənin səltənətində yaşamış və aşkar müxalifət etməmişdi. İmam Hüseyn (ə) də qardaşının şəhadətindən sonra

---

1 Hətta bəziləri demişlər: Bu iki qardaşın fikir müxtəlifliyi o dərəcədə şiddətli idi ki, biri qırx min döyüşçüsü ilə sülhlə razılaşdı, o birisi isə qırx nəfər dostları və səhabələri ilə (qohumlarından başqa) müharibəyə qalxdı və südəmər körpəsini belə bu yolda qurban verdi. (Əllamə Təbatəbai (r.ə))

təqribən, doqquz il yarım Müaviyənin səltənətində yaşamış, müxaliflik etməmişdi.

Elə isə bu ixtilafın həqiqi kökünü Müaviyə və Yəzidin ixtilafında axtarmaq lazımdır, bu iki əzəmtli imamın fikir müxtəlifliyində yox.

Müaviyənin üsulu elə üsul deyildi ki, ipə-sapa yatmaması üzərində möhkəmlənsin və öz aşkar müxalifliyi ilə din hökmlərini məsxərəyə qoysun. Müaviyə özünü səhabə və vəhy katibi kimi təqdim edirdi və Peyğəmbəri-Əkrəmin (s) zövcəsi və Ümmül-möminin (möminlərin anası) olan öz bacısı vasitəsilə Xalul-möminin (möminlərin dayısı) adlandırılırdı və ikinci xəlifənin inayət və diqqət mərkəzində idi. Ümumi adamların isə xəlifəyə qarşı kamil etimadı və xüsusi bağlılığı var idi.

Bundan başqa, insanların hörmət etdiyi Peyğəmbər səhabələrinin çoxunu (Əbu Hüreyrə, Əmr As, Səmərə, Bisr, Muğeyrə ibn Şöbə və başqalarını) hakim, vali və ölkənin digər həssas işlərinə təyin etmişdi ki, insanların etimadını qazansın. İnsanlar arasında onların fəzilətləri, səhabələrin dini qoruması və etdikləri işin üzrlü olması haqqında çoxlu hədislər nəql olunurdu.

Nəticədə, Müaviyə etdiyi hər işdə əgər düzəlişə ehtiyacı vardısa, həmin köməkçilərinin əlilə düzəldirdi, əks təqdirdə, çoxlu bəxşişlərlə etiraz edənlərin ağızlarını bağlayırdı. Bu vasitələrin təsir etmədiyi yerdə isə həmin havadarlarının əli ilə müxalifləri aradan qaldırırdı. Necə ki, onun səhabəsi olan havadarlarının əli ilə on minlərlə günahsız Əli (ə) şiəsi, digər müsəlmanlar və hətta Peyğəmbərin (s) səhabələrindən bir qismi öldürülmüşdü.

Müaviyə bütün işlərdə özünə haqq qiyafəsi geyindirmişdi və xüsusi səbir və dözümlə irəliləyirdi, xüsusi nəvazişlə insanların

məhəbbət və itaətini özünə cəlb edirdi. Hətta bəzən söyüş eşidirdi, əziyyət görürdü, lakin gülərüzlülük və bəxşişlə cavab verirdi və belə bir zəmində öz siyasətini həyata keçirirdi.

İmam Həsən (ə) və imam Hüseynə (ə) zahirdə ehtiram göstərirdi, onlara qiymətli töhfə və bəxşişlər göndərirdi, digər tərəfdən isə, ümumi şəkildə elan edirdi ki, kim Əhli-beytin (ə) fəziləti haqqında hədis nəql etsə, mal və canı qorunmayacaq, səhabələrin üstünlüyü haqqında hədis nəql edənlər isə mükafat alacaqlar.

Göstəriş verirdi ki, müsəlmanların minbərlərində xətiblər Əlini (ə) təhqir etsinlər. Onun əmri ilə o həzrətin (ə) havadarlarını hər yerdə axtarır və öldürürdülər.

Dediklərimizdən məlum olur ki, imam Həsənin (ə) qiyamı yalnız İslamın zərərinə bitəcək, onun və dostlarının qanı hədər yerə axıdılaraq nəticəsiz qalacaqdı. Hətta Müaviyənin (o həzrətin dostlarının əli ilə) onu öldürməsi, camaatı sakitləşdirmək üçün ona matəm saxlaması və qanını almaq məqamına gəlib qisasını şiələrdən alması uzaq deyildi. Necə ki, həmin müamilənin oxşarını Osmanla etmişdi.[1]

Lakin Yəzidin siyasəti atasının siyasətinə oxşamırdı. Xudpəsənd və laqeyd cavan olaraq gücdən başqa məntiqi yox idi və ümumi fikirlərə əhəmiyyət belə vermirdi. Yəzid pərdənin arxasından İslama dəyən zərərləri öz qısa hakimiyyəti dövründə birdəfəlik aşkar edib pərdəni yırtdı.

Öz hakimiyyətinin ilk ilində Peyğəmbər (s) xanədanını qılıncdan keçirtdi və ikinci ildə Mədinə şəhərini dağıtdı, üç gün

1 Tarixşilərin yazdığına əsasən, Osman Müaviyədən nə kömək istəyirdisə, Müaviyə müsbət cavab vermirdi. Lakin öldürüləndən sonra qanını almaq üçün Əmirəlmöminin (ə) ilə müharibəyə başladı.

insanların namus, can və malını öz qoşunlarına qurban edərək üçüncü ildə Kəbəni viran qoydu.

Buna görə də Hüseynin (ə) qiyamı insanların fikrində yer tutdu və gündən-günə təsiri daha dərin və daha bariz oldu. Başlanğıcda qanlı inqilablar şəklini alaraq davamında müsəlmanların böyük bir cəmiyyətini haqq və həqiqət havadarları və Əhli-beyt (ə) dostları kimi yaratdı.

Elə buna görə də Müaviyə Yəzidə vəsiyyətində dönə-dönə tapşırmışdı ki, Hüseyn (ə) ilə işi olmasın, ona etiraz etməsin. Lakin görəsən, məstlik və xudpəsəndlik Yəzidə icazə verirdimi ki, öz xeyrini zərərindən ayıra bilsin?!

## DİN İMAMLARININ (Ə) ÜSULUNDAN ALINAN ƏXLAQİ NƏTİCƏ

Allahın peyğəmbərləri və din imamlarının tarixindən xülasə şəkildə əldə olunan nəticə budur ki, onlar realist və Haqqın ardıcılı idilər, bəşəriyyəti haqq və həqiqətə dəvət edir və bu yolda böyük fədakarlıqlar göstərirdilər.

Başqa sözlə, çalışırdılar ki, insan fərdi və insan cəmiyyəti necə lazımdırsa yaransın və insanlar arasında bir sıra xurafi fikirlərin və nadanlığın hakimlik etməsindənsə, düzgün fikir və əqidələrlə bəzənməsini istəyirdilər. Onlar istəyirdilər ki, bəşəriyyətin pak ətəyi heyvanlar kimi ləkələnməsin, yırtıcı və otlayanlar kimi bir-birini parçalamaq və qarını doldurmaqdan başqa bir şey bilməməkdənsə, insanlıq sərmayəsini həyat bazarında işlədərək əbədi səadət əldə etsinlər.

Yəni elə adamlar idilər ki, cəmiyyət və insanlığın səadəti yolunda bundan başqa vəzifə tanımırdılar. Öz xeyir və səadətlərini (ki, insan ondan başqa bir şey istəmir) bunda gördülər ki, hamının xeyirxahı olsunlar və başqalarının da belə

olmasını istəyirdilər. Kim nəyi özü üçün sevirsə, hamı üçün sevsin, özü üçün nəyi istəmirsə, başqaları üçün də istəməsin.

Haqq və həqiqətin ardıcılı olmaları nəticəsində bu dühalar insanın bu ümumi vəzifəsinin və onunla bağlı digər cüzi vəzifələrin əhəmiyyətini dərk edirdilər və fədakarlıq və canlarını qurban vermək uğrunda sıraya düzülürdülər. Onlar Haqq yolunda can və mallarından keçməyə xəsislik etmirdilər və bədxahlıqla yanaşı olan hər xüsusiyyətin kökünü kəsirdilər. Öz mal və canlarında xəsislik etmirdilər. Xudpəsəndlik və alçaqlığa nifrət edirdilər, yalan danışmırdılar, kimsəyə töhmət vurmurdular və başqalarının namusuna və malına əl uzatmırdılar.

Bu xüsusiyyətlər və onların təsirlərinin izahını əxlaq bölməsində axtarmaq lazımdır.

## MƏAD

Hər bir insan (istisna olmadan) öz fitrəti ilə yaxşılıq və pislik arasında fərq görür, yaxşı işin ardınca getməsə də, onu yaxşı və görülməli, pisliyə giriftar olsa da, pis və qaçılmalı olduğunu bilir. Yaxşılıq və pisliyin mükafat baxımından fərqli olmasına şübhə yoxdur. Həmçinin, şübhə yoxdur ki, bu dünyada yaxşı və pis işlərin mükafatı veriləcək gün mövcud deyildir. Çünki biz görürük ki, əməlisalehlərin çoxu öz dövrünü sonsuz acılıq və qaragünlülüklə keçirirlər. Başdan ayağa günah və cinayətdə olan pis iş görənlərin çoxu öz çirkin və iyrənc rəftarı ilə belə, həyatı xoşluq və firavanlıqla keçirirlər.

Buna əsasən, əgər insanın öz gələcəyində və bu dünyadan başqa bir dünyada elə günü olmasaydı ki, o gündə yaxşı və pis əməllərin hesabı çəkiləcək və hərəsinə uyğun mükafat veriləcək, belə bir fikir (əməli-salehlik yaxşı və olunmalı, pislik pis və qaçılmalı) insanın fitrətində qoyulmazdı.

Təsəvvür etmək olmaz ki, insanın yaxşı saydığı əməlisalehliyin mükafatı budur ki, onun vasitəsilə cəmiyyətdə nizam-intizamlar yaranır və fərdlər həyat səadətinə nail olurlar, nəticədə isə onun xeyirlərindən bir pay əməlisalehin özünə çatır. Həmçinin, pis iş görən öz yaramaz hərəkəti ilə cəmiyyəti korlayır və onun xoşagəlməz nəticəsi axırda özünün də ətəyindən yapışacaq.

Bu təsəvvür imkansız adamlarda mövcud olsa da, qüdrətin zirvəsinə çatan fərdlər üçün cəmiyyətin intizam və pozğunluğunun onların xöşbəxtliyində təsiri yoxdur. Cəmiyyətdə fitnə-fəsad nə qədər çox olursa, insanların həyatı nə qədər qaralırsa, onlar daha firavan yaşayırlar.

Həmçinin, təsəvvür etmək olmaz ki, bunlar öz həyatlarında xöşbəxt olsalar da, pis iş vasitəsilə adları həmişə rüsvayçılıqla çəkilir və insanların nifrəti onları izləyir.

Çünki onların adının rüsvayçı görünməsi və onların haqqında gələcəkdəkilərin pis mühakiməsi o vaxt olur ki, aradan gedib heç olmuşlar və onların bütünlüklə xoşluq və ləzzət olan həyatında ən az təsiri belə yoxdur.

Bu halda, insanın əməlisalehliyi yaxşı bilməsinə və onu etməsinə, pis işin pisliyini bilməsinə və ondan çəkinməsinə heç bir dəlil olmayacaq. Beləliklə, əgər arada məad olmasa, etiqad tamamilə xurafi olacaq.

Elə isə Xaliqin bizim fitrətimizdə qoyduğu bu sabit və pak etiqaddan dərk etməliyik ki, məad mövcuddur və insan üçün elə bir gün çatacaq ki, Xaliqin hüzurunda onun əməllərinin hesabı çəkiləcək, yaxşı və pis işlərinin mükafatı ona çatdırılacaqdır.

## DİN BAXIMINDAN MƏAD

Səmavi dinlərin hər birinin etiqad və əməl qaydaları vardır ki, insanı onlarla Allaha tabe edir və yaxşı mükafatı vədə verir. Onların ziddinə getməklə itaətsizliyə və pis mükafata layiq edir. Onun tələbi budur ki, mükafat günü mövcud olmalıdır və bu dünyada belə bir günümüz olmadığından başqa bir dünyada və ölümdən sonra olmalıdır.

Buna görə, İslam "Qiyamət günü" adlandırılan bu günü aydın şəkildə isbat edib, şəkk olunmaz gün kimi təqdim edir. Ona etiqadı dinin üç əsasından biri sayır və Qurani-Kərimdə həmin mətləbi keçmiş peyğəmbərlərin dəvətlərindən biri kimi nəql edir.

# İKİNCİ HİSSƏ:
# ƏXLAQ

## MƏSULİYYƏT HİSSİ

Bu gün insanın əlində gördüyümüz, onlardan istifadə və qazanma yolunda gecə-gündüz çalışdığımız saysız-hesabsız yaşayış vasitələri ilk gündən insanın əlində olmamış və tədricən, bəşərin fəaliyyəti nəticəsində yaranaraq istifadəyə verilmişdir.

Lakin hər halda, bəşər, ilk insandan tutmuş bugünkü mədəni insana kimi heç vaxt işləmək və çalışmaqdan usanmamış və həyat vasitələrinin hazırlanması üçün öz fitrəti ilə çalışmışdır. Çünki varlıq qüdrəti fəaliyyətdən qalan insanın göz, qulaq, ağız, əl və ayaq, həmçinin beyin, qəlb, ağ ciyər və qara ciyər kimi daxili və xarici üzvləri işdən qalarsa, ölüdən başqa bir şey olmaz.

Bu səbəbdəndir ki, insan yalnız çarəsizliyə görə işləmir, həm də insan olduğuna görə müxtəlif fəaliyyətləri göstərir. O, öz insanlaq şüuru ilə dərk edir ki, mövcud olan yolla həyatının səadət və xoşluğunu təmin etməli, işləməli və öz istəkləri uğrunda addım atmalıdır. Buna görə insan hansı mühitdə və hansı qaydalarla yaşayırsa, dini, ya qeyri-dini, qanuni, ya istibdadi, şəhər, ya köçəri – özünə aid bir sıra vəzifələr (həyatda yerinə yetirilməsi lazım olan işlər) hiss edir ki, onları yerinə yetirmək insanın gerçək arzularını reallaşdırır və onun üçün xoş, rahat və xoşbəxt həyatı hazırlayır.

Əlbəttə, yeganə xoşbəxtlik yolu olan bu vəzifələrin dəyəri insanlığın özünün qiymət və dəyəridir ki, biz ondan daha dəyərli və daha qiymətli bir məhsul hesab etmirik və onu heç bir məhsulla da əvəz etmərik.

Buna əsasən, “məsuliyyət hissi” ən mühüm əməli məsələdir ki, insan öz həyatında onunla üz-üzə durur. Çünki onun əhəmiyyəti insanın özünün əhəmiyyətidir və öz vəzifələrin icrasından boyun qaçıran, yaxud səhlənkarlıq edən kəs həmin ölçüdə yüksək insanlıq məqamından aşağı enir və təbii olaraq, özünün alçaqlıq və dəyərsizliyini etiraf edir, etdiyi hər xilaf işlə öz cəmiyyətinə yeni bir zərbə vurur. Həqiqətdə isə bu zərbə onun özünədir.

Allah-taala Öz kəlamında buyurur:

﴿إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ﴾

***“Şübhəsiz, insan, (ömrünün azalması, puç olması və nəfsi istəklərinin və Şeytanın ona qalib gəlməsi baxımından) ziyan içindədir, yalnız iman gətirib saleh əməllər edən, bir-birinə haqqı (sabit doğru əqidə və əməlləri) və (vəzifələri yerinə yetirməkdə) səbri tövsiyə edənlərdən başqa.”***[1]

Həmçinin buyurur:

﴿ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ﴾

***“İnsanların öz əlləri ilə etdikləri (böyük günahlar) üzündən suda və quruda fəsad (zəlzələ, tufan, qıtlıq, xəstəlik, müharibə, qətl, əmniyyətsizlik) aşkar olur.”***[2]

---

1 "Əsr" surəsi, ayə: 2-3.
2 "Rum" surəsi, ayə: 41.

## VƏZİFƏNİN MÜƏYYƏNLƏŞMƏSİ YOLLARINDA FİKİR İXTİLAFI

Vəzifəni tanımağın əhəmiyyəti və onun insaniyyət dünyasında icrası sabit və şəksiz bir vəzifədir və elə bir insan tapmaq olmaz ki, öz insanlıq fitrəti ilə bu həqiqəti inkar etsin.

Bəli, insanlıq vəzifələrinin insanın yaşayış səadəti ilə tam bağlılığı olduğundan, dinin insan həyatı haqqında qeyri-dini üsullarla fikir müxtəlifliyi olduğundan, təbii ki, dini vəzifələrlə digər üsulların vəzifələri arasında ixtilaf mövcud olacaqdır.

Dinin etiqadı budur ki, insanın yaşayışı ölümlə aradan getməyən sonsuz həyatdır və bu sonsuz həyata ölümdən sonra sərmayə bəxş edən pak və düzgün əqidələr, bəyənilmiş əxlaq və saleh əməllərdir ki, ölümdən qabaqkı həyatda qazanmışdır.

Bu səbəbdən dinin fərd və cəmiyyət üçün tənzimlədiyi vəzifələrdə o əbədi dünyanın həyatı da nəzərdə tutulmuşdur.

Din öz qaydalarını ölümdən sonra – Qiyamət günü bariz nəticə kimi cilvələnəcək Allahıtanıma və Ona ibadət çərçivəsində müəyyən etmişdir.

Qeyri-dini yolların hər hansı biri, bu dünyanın bir neçə günlük həyatını nəzərdə tutur və insan üçün elə vəzifələr müəyyən edir ki, onların kölgəsində insanla digər heyvanlar arasında müştərək olan maddi və cismi mənbələrdən daha yaxşı istifadə edə bilsin.

Həqiqətdə bir heyvan həyatını yırtıcıların və otlayanların hisslərindən qaynaqlanan məntiqlə insan üçün tənzimləyir və artıq real insanlıq, əbədi və mənəviyyatla dolu həyata diqqət yetirmir.

Buna görə də yüksək insani əxlaq (necə ki, qəti təcrübələr göstərir) tədricən qeyri-dini cəmiyyətlərdən çıxır və gündən-günə onların əxlaqi tənəzzülü daha aydın və aşkar olur.

Bəziləri deyirlər: dinin əsası təqlid, bir sıra qayda-qanunların sorğu-sualsız qəbuludur, lakin ictimai yollar günün məntiqinə uyğunlaşır.

Bu sözü deyən kəslər cəmiyyətdə icra olunası qayda-qanunların sorğu-sualsız icrası məsələsinə diqqət etməmişlər və hələ görünməmiş və eşidilməmişdir ki, bir ölkənin fərdləri ölkələrinin cari qanunlarını mübahisə və müzakirə ilə həyata keçirsinlər. Belə ki, kim qanunun icrasını başa düşmürsə, onun icrasından azad və onu qəbul etməkdə ixtiyar sahibi olsun. Bu cəhətdən dini və qeyri-dini yollar arasında heç bir fərq yoxdur.

Bəli, ölkənin təbii və ictimai vəziyyətini araşdırmaq və onun ümumi gedişatını bilməklə həmin ölkənin qanunlar külliyatının hikmətini və xırda məsələlərindən bəzisini anlamaq olar. Bu xasiyyət dini qaydalarda da vardır, insanın yaranışı və fitri ehtiyaclarını araşdırma yolu ilə fitri yol olan dini qaydalar külliyatını və həmçinin təfərrüatını dərk etmək mümkündür.

Qurani-Kərim və çoxlu hədislər düşünmək və fikirləşməyə dəvət edir və hökmlərdən bəzisində hökmün məsləhətinə müxtəsər surətdə işarə olunur. Peyğəmbəri-Əkrəm (s) və Əhli-beytdən (ə) hökmlərin səbəbləri haqqında çoxlu hədislər əlimizdədir.

## MÜDAFİƏ VƏ GÜZƏŞT

Bir insan öz həyatında yaşayış xoşluğu və səadətinə vurğun olduğu kimi, öz fəaliyyətini onun cəlbi yolunda sərf edir və eyni halda, bir tərəfdən saysız təhlükələrlə hədələnir ki, onlardan bəzisi varlığın özünü və bəzisi həyatının səadət və xoşbəxtliyini hədəfə almışdır. Çarəsiz qalaraq onları dəf etmək və onların qarşısında müqavimət göstərmək lazımdır. İnsanın yaradılışında da həmin cəzb və dəf mərhələsi nəzərdə tutulmuş və varlığının binasında münasib təchizatlar yaradılmışdır.

Həmçinin, cəmiyyətin varlıq mənafeləri vardır ki, cəlb və təmin olunmalıdır və elə təhlükələrin qarşısında durur ki, onların qarşısında müqavimət göstərmək və həyat müqəddəsliklərini müdafiə etmək lazımdır.

İnsanların canını aradan aparmaq, ya istiqlal bayrağını devirmək, yaxud azadlığı öldürmək qəsdində olan kəs onları öz hədəfi seçərək cəmiyyətlə düşmənçilik edir. İman zəifliyi və nadanlıq cəmiyyətin düşmənidir. Öz cəmiyyətinə, yəni öz həyat səadətinə, insani gerçəkliyinə bağlı olan kəs bu təhlükəli düşmənlərin müqabilində müdafiəyə qalxmalıdır.

## FƏDAKARLIQ

Şübhə etmək olmaz ki, insanlıq vicdanı leksikonunda həyatın əsası və şərafətli həyat eyni səviyyədədir, şərafətlə birgə olub, insan səadətini əhatə etməyən həyat həyat deyil. Təbii ki, ölümdən daha acı və daha pis bir ölümdür. Öz şərafət və səadətinə əhəmiyyət verən insan bu alçaq həyatdan ölüm kimi qaçmalıdır.

İnsan hansı mühitdə yaşayırsa yaşasın, hansı üsula meyl edirsə etsin, öz fitri təbiəti ilə başa düşür ki, ölüm müqəddəs bildiyi yolda səadətin özüdür. Din məntiqində bu məsələ hər hansı digər məntiqdən daha aydın, xurafat və gümandan daha uzaqdır. Çünki dinin göstərişi ilə öz dini cəmiyyətini müdafiə edib canını tapşıran kəs bilir ki, özünə məhrumiyyəti rəva bilməmişdir. Allah yolunda bəxşiş etdiyi bir neçə günlük şirin canın əvəzinə daha şirin, daha qiymətli və əbədi bir həyat qazanır və həqiqətən onun belə səadətinə xələl dəyməz.

Necə ki, Allah-taala Öz kəlamında buyurur:

﴿وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ﴾

***"Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir."[1]***

Lakin insan həyatını bu dünyanın keçici, bir neçə günlük yaşayışı ilə məhdudlaşdıran qeyri-dini yollar haqqında demək olmaz ki, insan ölümdən sonra diri qalır, səadət və xoşbəxtlik əldə edir. Yalnız güman və xurafi yolla təlqin olunur ki, vətən, ya milli müqəddəsliklər uğrunda öldürülən kəsin adı millət fədakarlarının siyahısında dərc olunacaq və tarix səhifəsində qızıl hərflərlə yazılacaq və həmişəlik əbədi və diri qalacaqdır.

İslamda heç bir saleh əməl Allah yolunda şəhadətdən çox müqəddəs sayılmamışdır. Peyğəmbəri-Əkrəm (s) buyurur:

"Hər yaxşı əməldən üstün başqa bir əməl var. Şəhadətə çatanda isə ondan daha üstün bir əməl yoxdur."[2]

İslamın başlanğıcındakı müsəlmanlar Peyğəmbəri-Əkrəmdən (s) istiğfar diləyir və o həzrətin duası nəticəsində şəhadətin üstün dərəcəsinə nail olurdular, dünyadan şəhadətlə gedən kəslərə diri olduğu və ölmədiyi üçün ağlamırdılar.

## BƏXŞİŞ VƏ SƏXAVƏT

Həyatın nizamlanmasında malin öhdəsinə düşən payın bəyanına ehtiyac yoxdur və onun əhəmiyyətinə görədir ki, insanların çoxu həyatı həmin mal bilir və insan üçün dövlətlilikdən başqa şərafət və fəzilət təsəvvür etmirlər. Bütün fəaliyyətlərini pul yığmağa yönəldir, həmin vurğunluq və acgözlük nəticəsində xəsis sifəti alırlar. Başqalarını məhrum edir, bəzən daha da irəli gedərək alçaqlığa razılıq verir, özlərini də malın istifadəsindən məhrum edirlər. Nə özləri yeyir, nə də başqalarına verirlər və təkcə pul yığmaqdan ləzzət alırlar.

---

1 "Ali-İmran" surəsi, ayə: 169.

2 "Kafi", c.2, səh.348, hədis: 4.

Bəyənilməz xəsislik sifətinə düçar olan kəslər (əlbəttə alçaqlar onlardan da aşağıdırlar) insanlıq fitrətindən uzaqlaşmış və həyat bazarında müflisləşmişlər. Çünki:

Həyatda yalnız öz xoşbəxtlik və rahatlıqlarını istəyir və fərdi yaşayışa inanırlar. İnsan fitrəti bizə həyatı ictimai həyat kimi təqdim etdiyindən, fərdi həyat hansı yolla olursa olsun, məğlubiyyətə məhkumdur.

Başqalarına qüdrəti göstərməklə zəif və səfillərin mütiliyini özlərinə cəlb edirlər. Dərdlilərin dərdinə əlac tapmaqdansa, onları daim başıaşağı vəziyyətdə saxlayıb qul edirlər və bütpərəstlik ruhunu dirildirlər. Bunun nəticəsində isə hər cür qəhrəmanlıq, şücaət, insani iftixarlar cəmiyyəti tərk edir.

Özləri pak məhəbbət, humanizm, ürəkyandırma və xeyirxahlıq kimi hissləri ayaq altına almaqdan əlavə, cəmiyyətdə günah, cinayət növləri, hər cür rəzil siftləri yayırlar. Çünki pis danışma, iffətsizlik, oğurluq, quldurluq, adam öldürmək kimi günah və cinayətlərin ən qüvvətli təbii amili möhtac təbəqədə olan kasıblıq və yoxsulluqdur. Dövlətlilərdən intiqam hissi, onlara qarşı qəzəb və kin kasıbların və pərişanların qəlbində yer tutur və xəsis dövlətlilər buna rəvac verirlər.

Buna görə də cəmiyyətdə xəsis insan həqiqi olaraq cəmiyyətin bir nömrəli düşmənidir və hər halda Allahın ağır cəzası və qəzəbinə, insanların nifrətinə giriftar olacaq.

Qurani-Kərimdə rəzil sifət olan xəsisliyin məzəmməti haqqında və əksinə, səxavət, Allah yolunda bəxşiş, kasıblara əl tutmaq barəsində çoxlu ayələr mövcuddur.

Allah-taala Öz kəlamında vədə verir ki, bağışlanacaq malın qarşılığını on dəfə, bəzən yetmiş və yeddi yüz və ondan da çox artırıb bəxşiş edənə qaytaracaq.

Təcrübədə sübut olunmuşdur ki, kasıblara əliaçıqlıq və səxavətlə əl tutan, insan cəmiyyətinin nöqsanlarını düzəldən kəslərin sərvəti və neməti günü gündən artır.

***Müşkül açan kişinin heç müşkül olmaz günü,***

***Bir kəs görməmiş hələ baş barmaqda düyünü.***

Əgər təsadüfən bir gün çətinliyə düşsə, bütün qəlblər onunla bir olacaq və kimlərə ki, əl tutmuşdu, hamı birlikdə ona tərəf gələcək.

Bundan əlavə, öz yaxşı əməli ilə şərif bir insan kimi öz vicdanına aramlıq bəxş etmiş, səmavi nidaya cavab vermiş, yüksəklik, şəfqət, humanizm və xeyirxahlıq kimi pak insan hisslərini işə salmış, hamının məhəbbət və sevgisini qazanmış, Allah-taalanın razılığını və əbədi səadəti ən az qiymətə əldə etmişdir.

## ELM BƏXŞİŞİ

Bilik və mədəniyyət rəqabətsiz sərvətdir, insan öz həyatında həmişə ona möhtacdır və elə bir insan tapmaq olmaz ki, öz insanlıq fitrəti ilə elmin cahillikdən üstünlüyünü dərk etməsin, ya da alimlərə ehtiramın olduğunu sübuta yetirməsin.

Allah-taala Öz kəlamında alimlə cahil arasındakı fərqi diri və ölü, kor və görənin misalı ilə bəyan edir.[1] İslamda elm və biliyə verilən əhəmiyyət heç bir dində verilməmişdir. Belə ki, Peyğəmbəri-Əkrəm (s) buyurur:

“Elmi tələb etmək hər bir müsəlmana vacibdir.”[2]

Yenə buyurur:

---

1 "Ənam" surəsi, ayə: 5; "Fatir" surəsi, ayə: 19 və 22.

2 "Kafi", c.1, səh.30, hədis: 1.

“Elmi beşikdən qəbrə kimi – dünyanın o tərəfində olsa da – tələb edin.”[1]

Buna görə də İslam xəsisliyi qadağan etdiyi kimi, elmi gizlətməyi də pisləmiş, din elmlərinin gizlədilməsini haram buyurmuş və alimə cahilin tərbiyəsini tapşırmışdır.

## CƏMİYYƏTİN DAXİLİ DÜŞMƏNLƏRİ İLƏ MÜBARİZƏ

Fitrətin hökmünə əsasən, cəmiyyətin xarici düşmənləri ilə döyüşmək və cəmiyyəti xəsarətdən qorumaq lazım olduğu kimi, cəmiyyətin daxili düşmənləri ilə də müdafiəyə qalxmaq lazımdır. Cəmiyyətin daxili düşməni o kəsdir ki, ümumi qaydalar və cari qanunların əksinə gedir və beləliklə, cəmiyyətin yaşayış əsasını dağıdır, nizamı pozur. Buna görə də mütəşəkkil cəmiyyətlərdə nizam-intizam və işlərin axarını qorumaq üçün zidd gedənlərin cəzalandırılması məqsədilə müxtəlif qüvvələr və cəzalar tətbiq olunur.

İslamda müxtəlif icra və cəza qüvvələrindən əlavə, cəmiyyətin bütün fərdlərinə yaxşıya dəvət və pisdən çəkindirməyi vacib etmişdir. Bu yolla mübarizəni daha təsirli və daha ümumi etmişdir.

İslamla digər ictimai üsullar arasında əsaslı fərq budur ki, digər üsullarda yalnız insanların hərəkətlərinin islahına diqqət yetirilmiş, lakin İslamda həm insanların hərəkətlərinə, həm də əxlaqına etina olunmuşdur və hər iki mərhələdə fəsadla mübarizə durur.

İslamın qadağan etdiyi günahlar elə əməllərdir ki, cəmiyyətdə pis nəticələr və xoşagəlməz təsirləri vardır. Onlardan bəzisi düçar olmuş fərdi, ya fərdləri bilavasitə günahkar edir və beləliklə də, insan bədənində yaranan yaralar kimi cəmiyyətdə

1 "Vəsailüş-şiə", c.27, səh.27, hədis: 20.

yarıq yaradır. Namaz qılmamaq, oruc tutmamaq kimi günahların çoxu bəndəlik halına mane olur və Allahın haqlarını aradan aparır.

Onlardan bəzisi birbaşa ictimai həyatı hədələyib cəmiyyətin quruluşunu – insanın həyatı ilə bilavasitə əlaqədar olan yaşayış əsasını dağıdan xəstəliklər kimi – dağıdır. Yalan danışmaq və töhmət vurmaq bu qəbildəndir və İslamın nəzərində ağvalideyn, qeybət, insanların namusuna toxunmağın da həmin hökmü vardır.

## YALAN VƏ YALAN DANIŞMAQ

İnsan öz həyatında həmişə xarici mühitlə əlaqədar gördüyü işlər və fəaliyyətlərlə özünü diri saxlayır və istəklərinə çatmağa imkan qazanır.

Şüur və iradə ilə işləyən bu varlıq öz geniş və çoxtərəfli həyatında elm əsası üzərində qurulmuş fikirlə işləyir, işi qazandığı məlumatla əsaslandırır, həmişə öz fikrinin məhsullarını yerbəyer edib tənzimləyir və ona əsasən öz xarici fəaliyyətlərini yerinə yetirir.

Buna görə, insana düzgün xəbərləri əldə etmək zəruridir və birinci dərəcəli əhəmiyyətə malikdir. Necə ki, düzgün xarici xəbərlər insanda gəlməsə, yolu quyu, quyunu yol, uzağı yaxın, yaxını uzaq görsə, xəbərləri təhrif olunmuş eşitsə, dərhal həyat çarxı fəaliyyətdən qalar.

Bundan aydın olur ki, ictimai həyat üçün yalan və yalançı çox təhlükəli düşməndir. Bu səbədən, yalançı cəmiyyətin düşməni olan şəxsdir, sözü insanların yanında etibarını itirmiş, qəbul olunmur və özü də Allahın lənətinə düçar olur.

## TÖHMƏT VƏ İFTİRA

“Töhmət” əsassız yalandır ki, cəmiyyətin fərdlərindən birinə vurulur və təsiri də yalanın təsiri kimidir. Lakin ən pis və ən təhlükəli yalandır ki, töhmət nəticəsində canlar və abırlar itirilmiş və evlər dağılmışdır.

Töhmət vuran şəxs pak insani hisslərə malik olmamaqdan əlavə, zahirdə insan, batində div və şeytandır. Başqalarının şərafətinə və eyni zamanda, cəmiyyətin həyatı və təşəkkülünə ehtiram etmir və bu cəhətdən də, insanlar onlardan qorxulu düşmən kimi çəkinir və qaçırlar.

## AĞVALİDEYN

Ata və ana ailə mühitində ağacın öz budaqlarına qarşı münasibəti necədirsə, övladlarına qarşı elədirlər. Ağacın budaqlarının nəsli və varlığı onun kökünə bağlı olduğu kimi, övladın həyatının əsasını qoyan onun ata və anasıdır. İnsan cəmiyyəti valideyn və övlad təbəqələrindən təşkil olunduğuna əsasən, cəmiyyətin əsas kökü də ata və anadır.

Ata-ana ilə pis rəftar və onlara əziyyət vermək haqqı tanımamaq və namərdlikdən əlavə, insanlığın məhvi və cəmiyyətin dağılmasına səbəbdir. Çünki övladın ata-anasına qarşı ehtiramsızlığı ata-ana tərəfindən də etinasızlıq şəklində əks olunacaq və digər tərəfdən, övlad təbəqəsi öz ata-anasına xar və zəlil gözü ilə baxarsa, qocalıb gücsüz olanda öz əl tutmasına ümidvar olmayacaqlar. Nəticədə, bu gün cavanların çoxunda müşahidə olunur ki, ailə qurulmasına çox da etina etmirlər.

Bu təfəkkür tərzinin ümumiləşməsi qəti şəkildə nəsil artımının yolunu bağlayır. Çünki heç bir ağıllı şəxs öz əziz ömrünü bir pöhrənin bəslənməsinə sərf etməz ki, nə meyvəsini yeyəcək, nə

kölgəsinin altında oturacaq, nə də tamaşasından qəm və kədərdən başqa bir şey görəcək.

Mümkündür təsəvvür edək ki, dövlət müxtəlif mükafatlar vasitəsilə insanları ailə qurmağa həvəsləndirsin və bu yolla nəsil artımı problemini həll etsin.

Lakin bu məsələni xatırlamaq lazımdır ki, təbii dayağı olmayan (ata, ana, övlad məhəbbəti kimi) ictimai adətlərdən heç biri davamlı deyil.

Bundan başqa, təbii istəklərdən birini tərk etmək insanı bir sıra pak ruhi ləzzətlərdən məhrum edəcək.

## QEYBƏT

Başqalarının eyiblərini faş etmək fərdlərin bir-birinə qarşı fikirlərinin korlanmasına səbəb və insanların həyatına qəfil şəkildə vurulan zərbədir. Buna görə Qurani-Kərimdə qeybət edəni öz ölü qardaşının cəsədini yeyən kəsə bənzədilir:

﴿وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا﴾

***“Bir-birinizin qeybətini etməyin. Məgər sizin biriniz öz ölmüş qardaşının ətini yemək istəyər?!”***[1]

## İNSANLARIN NAMUSUNA TOXUNMAQ

İffət pərdəsini yırtmaq İslam baxımından böyük günahlardan biridir, halların müxtəlifliyindən asılı olaraq onun üçün şallaq, qətl və daş-qalaq kimi ağır cəzalar müəyyən olunmuşdur.

Bu çirkin əməlin yolunun açıq olması iki tərəfin razılığı ilə olsa da, İslamın böyük əhəmiyyət verdiyi nəsəblərin əsasını titrədəcək və irs, onunla bağlı digər hökmləri dayandıracaq. Nəticədə ata-ana, övladlıq məhəbbətini aradan aparıb nəsil

---

1 "Hücurat" surəsi, ayə: 12.

artımının təbii əlaqələri olan ictimanın həqiqi zaminini məhv edəcək.

## İSLAMDA BÖYÜK GÜNAHLARIN ÜMUMİ CƏZASI

Bu cür çirkin hərəkətlər İslamda “böyük günahlar” adlandırılmış və Allah-taala Öz kəlamında onları törədənlərə aydın surətdə əzab vədəsi vermişdir.

Onların bəzisi haqqında ağır cəzalar müəyyən olunmaqdan əlavə (bir dəfə etsələr belə), günahkardan ədaləti ləğv etmişdir; yəni onları insan cəmiyyətinin saleh üzvü kimi şərafətdən məhrum etmişdir.

Böyük günah edən kəs öz ədalətini əldən verir və cəmiyyət üzvlərindən saleh bir üzvün bəhrələnə biləcəyi üstünlüklərdən məhrum olur. İslam hökumətinin müxtəlif vəzifələrindən birini tuta bilməz, xilafət taxtına otura bilməz, imam-camaat ola bilməz, kiminsə xeyir və ziyanına onun şəhadəti qəbul deyil. O zamana qədər ki, tövbə etsin və öz ardıcıl təqvası ilə yenidən ədalət sifətini özünə qaytarsın.

# ÜÇÜNCÜ HİSSƏ:
# ƏHKAM

## ALQI-SATQI

Bu, malın mal ilə əvəz olunmasıdır. “Satıcı” adlandırılan mal sahibi öz malının malikliyini əldə etdiyi pulun müqabilində “alıcı” adlanan tərəfin öhdəsinə qoyur və məhsulu almağın müqabilində öz pulunu satıcıya təqdim edir.

Məlum olduğu kimi, alqı-satqı əqdlərdən biridir və öz gerçəkləşməsində alıcı və satıcı adlanan iki tərəfə möhtacdır; buna görə də əqdin ümumi şərtlərindən həddi-buluğ, ağıl, qəsd və ixtiyar kimi şərtləri olmalıdır.

### SATIŞIN LAZIMLIĞI

Satış lazımi əqdlərdəndir, yəni, əqd bağlanandan sonra tərəflərdən heç biri ya alıcı, ya da satıcı onu poza bilməz.

Lakin bəzən satış baş tutandan sonra bilməməzlik, ya səhv nəticəsində satıcı, ya alıcının aldanması onlara böyük zərər vurur, belə hallarda satışın lazımlığının ümumi xeyirləri vardır. İslam bu fəsadın qarşısını almaq üçün iki işə əl atmışdır.

Birincisi, “iqalə”dir və o budur ki, əgər tərəflərdən biri müamilədən peşman olub digər tərəfdən müamiləni pozmaq istəsə, qəbul etmək və müamiləni pozmaq müstəhəbdir.

İkincisi, “xiyar” (seçim hüququ) adlanır ki, müamilə edən ondan istifadə edib müamiləni poza bilər.

Məşhur seçim hüquqları neçə növdür:

1. Xiyari-məclis: Əqd məclisi dağılmayana kimi, hər iki tərəfin müamiləni pozmağa haqqı var.

2. Xiyari-ğəbn: O budur ki, əqd tərəflərindən biri aldanıb müamilədə ziyan görmüşdür. Məsələn: məhsul öz həqiqi

dəyərindən az qiymətə satılmış, ya ondan çoxuna alınmışdır. Bu halda aldanan tərəf müamiləni poza bilər.

3. Xiyari-eyb: Əgər alıcı müamilə baş tutandan sonra məhsulda eyb görsə, müamiləni poza, ya qiymət fərqini ala bilər.

4. Xiyari-heyvan: Qoyun, at kimi heyvanların müamiləsində üç gün müddətinə kimi alıcının müamiləni pozmağa haqqı var.

5. Xiyari-şərt: Əgər alıcı, ya satıcı hər ikisi öz müamilələrində şərtləşsələr, şərtə əməl olunmadığı halda müamiləni poza bilərlər.

## NƏQD, NİSYƏ VƏ SƏLƏM

Ödəniş, məhsulu vermək və onun pulunu almaq baxımından satış dörd qisimdir:

Məhsul və onun pulu müamilə baş tutan kimi dərhal ödənilsə, bu satışa “nəqd” deyilir.

Məhsul müamilə baş tutan zaman alıcıya verilib pulun ödənişi təxirə düşərsə, bu satışa “nisyə” deyilir.

Üçüncü ikincinin əksidir. Pul nəqd ödənilir və məhsulun verilməsi isə saxlanılır və bu satışa “sələm” deyilir.

Birinci hissənin əksinə: məhsulun verilməsi və pulun ödənilməsi hər ikisi təxirə düşür və bu satışı “nisyənin nisyəyə satışı” adlandırırlar.

Bu hissələrdən ilk üçü düzgün, dördüncüsü isə batildir.

# İQRAR

## İQRARIN ƏHƏMİYYƏTİ

Tapdalanıb məhv olmaqla üzləşən hüquqların dirilməsində iqrarın cəmiyyət üçün əhəmiyyətinin bəyana ehtiyacı yoxdur. Çünki məhkəmə orqanının səyləri və əziyyətindən sonra dəlil və sübutları tapmaq, güman və təxminlə yerinə yetirdiyi işi iqrar ən asan və aydın yolla iki kəlmə ilə yerinə yetirir.

İqrarın fərdi baxımdan da İslamda çoxlu əhəmiyyəti vardır. Çünki elə bir instinktdən qaynaqlanır ki, İslamın bütün səyləri onu diriltmək və işə salmağa sərf olunur və o, insanın haqsevərlik qərizəsidir ki, nəfsə qul olmağın müqabilində dayanmışdır.

Allah-taala Öz kəlamında İslam ardıcıllarına xitab edərək buyurur:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ﴾

***“Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa belə, həmişə və tam şəkildə ədaləti bərqərar edin və Allaha görə şahidlik edin.”*** [1]

Peyğəmbəri-Əkrəm (s) buyurur:

“Öz zərərinizə olsa da, haqqı deyin.”[2]

---

1 "Nisa" surəsi, ayə: 135.

2 "Biharül-ənvar", c.74, səh.171, hədis: 7.

## İQRARIN MƏNA VƏ ŞƏRTLƏRİ

Şəriətdə iqrar elə bir sözdür ki, başqasının haqqını deyənin özünə isbat edir: "Mən filankəsə min manat borcluyam" – demək kimi. İqrar edəndə həddi-buluğ, ağıl və ixtiyar şərtdir və buna əsasən, uşaq, dəli, məst, huşsuz, yuxuda olan və məcbur edilmiş şəxsin iqrarı düzgün deyil.

## YEMƏKLƏR VƏ İÇMƏKLƏR

Müqəddəs İslam şəriətində istisna hallardan başqa yeməli və içməli şeylər halaldır. İstisnalardan bəzisi Allahın kitabında, bəzisi isə Peyğəmbəri-Əkrəmin (s) şəriətində bəyan olunmuşdur.

Yeyilməsi və içilməsi haram olan adı çəkilən istisna hallar iki növdə məhdudlaşdırılmışdır: canlı və cansız.

### BİRİNCİ NÖV: HEYVANLAR

Onlar üç qisimdir: dəniz, səhra heyvanları və quşlar.

Dəniz heyvanları: Suda yaşayan heyvanlardan yalnız su quşları və pulcuqlu balıqlar halaldır. Qalanı isə – ilan balığı, nərə balığı, tısbağa, su iti, delfin və digərlərinin əti haramdır.

Səhra heyvanları: Səhra heyvanları iki qisimdir: əhliləşmiş və vəhşi.

Əhliləşmiş hevanlardan qoyun, keçi, inək və dəvənin əti halal, həmçinin at, qatır və ulaq halal olsa da, onların ətini yemək məkruhdur. İt, pişik əti isə haramdır.

Vəhşi heyvanlardan qoç, dağ keçisi, zebr, ceyranın əti halaldır, qalanları, yəni şir, pələng, canavar, tülkü, çaqqal, dovşan kimi yırtıcı və dırnaqlı olanların əti haramdır.

Quşlar: Çinədanı olan, uçanda qanad çalan və caynağı olmayan quşlar, o cümlədən, ev quşları, göyərçin, qumru və turacın əti

halaldır, qalanları isə haramdır. Çəyirtkənin xüsusi növünün əti halaldır.[1]

Qeyd: Adı çəkilən heyvanların əti şəri hökmlərlə uyğun kəsildiyi təqdirdə halaldır.[2]

## İKİNCİ NÖV: CANSIZ ƏŞYALAR

Həyatı olmayan şeylər iki qisimdir: bərk halda olanlar və mayelər.

### BƏRK HALDA OLANLAR:

1. Hər heyanın leşini – istər halal olsun, istər haram – yemək haramdır və həmçinin, əti haram olan heyvanların nəcisi və onunla qarışmış qida məhsulları haramdır;

2. Torpaq;

3. Öldürücü zəhərlər;

4. İnsanın iyrəndiyi şeylər: əti halal olan heyvanın nəcisi, onun burun suyu, bağırsağının daxilində olan şey və əti halal olan heyvanın bədən üzvlərindən on beşi haramdır.[3]

### MAYELƏR

1. Hansı növdən olsa, məstedici içkiləri – az olsa belə – içmək haramdır;

2. Donuz, pişik və it kimi əti haram olan heyvanların südü;

3. Sıçrayan qanı olan heyvanın qanı;

4. Nəcis mayelər, qanı sıçrayan heyvanın bövl və sperması kimi;

5. Nəcislərdən biri tökülmüş mayelər.

---

1 Daha ətraflı əməli risalələrdən axtarılmalıdır. (Əllamə (r))

2 Əməli risalələrdə şərh olunan yolla kəsmək lazımdır (Əllamə (r))

3 Əməli risalələrə müraciət olunsun. (Əllamə (r))

Qeyd: Haram yeməli və içməlilər ehtiyac duyulmayanda haramdır. Əgər haram yeməkdən yeməsə acından öləcəksə, ya xəstəliyə tutulacaqsa, xəstəliyinin şiddətlənməsindən qorxarsa, halaldır. Həmçinin, səfərdə zəiflikdən geri qalıb həlak olacağını bilən kəslərin adı çəkilən haram yeməli və içməlilərdən ehtiyacı aradan qaldıracaq həddə istifadəsi cayizdir.

Bura oğurluq, ya İslam hökumətində qiyam üçün vətənindən çıxan kəslərin ehtiyacı daxil deyil.

## MÜHÜM QEYD

Gigiyenaya riayət insanın ilkin vəzifələrindən biridir ki, hər bir insan ən az diqqət və öz fitri şüuru ilə bunu dərk edir.

Yeməlilər və içməlilərin gigiyenaya təsiri də çox aydın və aşkardır. Bundan əlavə, onun ruhiyyə və əxlaqında, həmçinin, insanın ictimai münasibətlərində təsirləri vardır.

Bizim şübhəmiz yoxdur ki, məst adamın ruhi vəziyyəti ağlı başında olanla eyni deyil və onların ictimai yolu da eyni olmur. Yaxud, özünü iyrənc şeylər yeməyə və içməyə adət etdirən kəsin fərdi və ictimai həyatında göstərəcəyi təsir şüurlu adamlar üçün dözülməzdir.

Buna görə insan öz fitrəti ilə anlayır ki, öz yeməyində az-çox məhdudiyyət qoymalıdır. Hər yeməlini yeməyib, hər içməlini içməməli, nəhayət, hər udulanı udmamalıdır.

Allah-taala aşkar şəkildə Öz sözündə deyir ki, yer üzündə hər şeyi insan üçün yaratmış, Özünün isə insan və insanın həyati zərurətlərinə ehtiyacı yoxdur. Öz yaratdıqlarının xeyir və ziyanını hamıdan yaxşı bilir və görür. İnsanın xeyir və səadəti məqsədilə yeməli və içməlilərdən bəzisini halal, bəzilərini haram buyurmuşdur.

Bu haramlardan bəzilərinin haram edilməsinin hikməti sadə və saf idraka malik olan kəs üçün aydındır. Bəziləri isə tədricən elmi bəhslər yolu ilə aydınlaşır. Amma bəzisinin haram edilməsinin hikməti indiyə kimi bizim əlimizə gəlib çatmamışdır. Demək olmaz ki, bunlar heç vaxt aydın olmayacaq, əgər olmasa belə, hikmət və məsləhətsiz olmasını demək düzgün deyil. Bu qaydalar sonsuz bir elmin müqəddəs sahəsindən qaynaqlanır. Baxmayaraq ki, biz vücudumuzun darlığı, ya elmimizin azlığı üzündən onları dərk etməkdən acizik.

## QƏSB

Başqasının malını zorla əlindən alan kəs onu – mülkiyyət səbəblərindən biri olmadan – öz malı edirsə, ya başqasının malını zorla işğal edib öz malı etməsə belə, mənfəətlərindən istifadə edirsə, bu mal şəriətdə "qəsb" adlandırılır.

Belə ki, "qəsb" satış, icarə və icazə kimi sahiblik səbəblərindən biri olmadan başqasının malına sahib çıxmaqdır.

Buradan aydın olur ki, qəsb məxsusluq və malikiyyət əsasını dağıdan yaramaz bir işdir. Məxsusluq və malikiyyət cəmiyyətin diri qalmasında nə qədər təsirlidirsə, qəsb o qədər cəmiyyəti tərəqqidən saxlayır.

Əgər cəmiyyətin nüfuzlu adamları qanuni icazələri olmadan gücsüzlər və əlaltılarının əməyinə əl uzadarlarsa, məxsusluq və malikiyyət öz etbarını itirər. Hər kəs özündən zəifə qarşı həmin təfəkkür tərzinə malik olacaq və gücsüzlər də öz işlərinin nəticəsindən bəhrələnmək üçün izzət və şərafətlərini satmağa məcbur olacaqlar. Nəticədə insan cəmiyyəti qul bazarına çevriləcək, qanun və qaydalar öz etibarını tamamilə itirib öz yerini qüdrət və gücə verəcək.

Buna görə də, İslam, qəsbkar üçün çox ağır qaydalar müəyyənləşdirmişdir və qəsbi böyük günahlardan biri saymışdır.

Kitab və hədislərin açıqlamasına əsasən, şirkdən başqa hər cür günahın Allah-taala tərəfindən bağışlanmasına ehtimal vardır. Hətta şirk də tövbə vasitəsilə bağışlana bilər. Amma qəsb və başqalarının hüququnu tapdalayan kəslər haqq sahibinin

güzəşti olmazsa, Allahın onun əməlini cəzalandırmayacağına ümid etməsin.

## QƏSBİN BƏZİ HÖKMLƏRİ

1. Qəsbkara qəsb olunmuş malı dərhal sahibinə qaytarmaq vacibdir və əgər diri olmazsa, onun vərəsəsinə verməlidir. Bu iş onun şiddətli zərərinə səbəb olsa da, qaytarmalıdır. Başqasının daş, ya dəmir parçasını qəsb edib ona min dəfələrlə baha başa gələn binaya qoyubsa, binanı dağıdıb daşı, ya dəmir parçasını çıxartmalı və sahibinə verməlidir. Mal sahibi qiymətini almağa razılıq verərsə, bu işi etməyə bilər. Əgər on batman buğdanı qəsb edib on xarvar arpa ilə qarışdırarsa, buğda sahibi pulunu almağa razılıq verməzsə, gərək buğdanı arpadan ayırıb sahibinə qaytarsın.

2. Əgər qəsb olunmuş malda eyib aşkarlanarsa, malı qaytarmaqdan başqa xəsarəti də ödəməlidir.

3. Əgər qəsb olunmuş mal məhv olarsa, qiymətini ödəməlidir.

4. Əgər qəsbkar özü istifadə etmədən qəsb olunmuş malın mənfəətinin bir hissəsini aradan aparарsa, qeyd olunmuş mənfəətin zaminidir (kirayə maşınını qəsb edib neçə gün saxlayan kəs kimi). Əgər qəsb olunmuş malda mənfəət əldə edərsə, məsələn, qəsb olunmuş qoyunu yaxşı otlarla bəsləyib kökəltsə, mənfəətdə haqqı yoxdur. Əgər mənfəət ayrıca olsa, məsələn, yeri qəsb edib əkin əksə, qəsb edilmiş malı onun pulu ilə sahibinə qaytarsa, əkin qəsbkara aiddir.

## ŞÜFƏ

Əgər iki nəfər bir evdə, ya başqa bir mülkdə şərik olsalar, onlardan biri öz payını üçüncü şəxsə satmaq istəsə, o biri şərikin haqqı vardır ki, həmin müqavilə və qiymətlə onun payını götürsün və bu haqqa "şüfə" deyirlər.

Aydındır ki, bu haqq İslamda şərikliyin nizamlanması, şəriklərin qarşısına çıxan zərərləri aradan qaldırmaq üçündür. Çünki çox olur ki, mülkün yeni şəriki şüfə sahibi olan şərikin zərərinə tamamlanır. Ya, zövqlərin müxtəlifliyi bir sıra ixtilaf və keşməkeşlərə səbəb olur, ya da mülkiyyətdə azadlıq şüfə sahibi olan şərik üçün faydalara, satan şərik üçünsə zərərlərə gətirib çıxarır.

Şüfə ev, torpaq, bostan və digər daşınmaz əmlakda sabitdir, daşınan mallara isə aid deyil.

## BOŞ YERLƏRİN ABADLAŞDIRILMASI

İstifadəsiz yerlərin abad edilməsi (istər heç vaxt abad olmayan torpaq olsun, istərsə də, bir zaman abad olmuş, lakin əhalinin köçməsi nəticəsində viran qalmış yerlər, çəmənlik və qamışlıq və s.) İslamda yaxşı işlərdən biri sayılır, mülkiyyət səbəblərindən biri olmaqdan əlavə, axirət savabına da səbəb olur.

Peyğəmbəri-Əkrəmdən (s) nəql olunur:

“Kim sahibsiz bir yeri abad etsə, həmin torpaq ona aid olur.”[1]

İmam Sadiqdən (ə) nəql olunur:

“Torpağı dirildib abadlaşdıranların üstünlüyə haqqı vardır və həmin torpaq onlara məxsusdur.”[2]

İslamda şoran torpaqlar Allah, Peyğəmbər (s) və imamlarındır (ə) (yəni İslam hökumətinə aiddir).

Ölü torpaqları aşağıdakı şərtlərlə abad edib maliki olmaq olar. Əgər bir neçə nəfər sahib olmaq istəsə, ilk addım atanın üstünlük haqqı vardır;

1. İmam, ya onun naibinin izni;

2. Başqası əvvəldə onu daş düzməklə əhatəyə almasın və ya buna oxşar işlər etməsin;

3. Başqalarının mülkünün həndəvərində olmasın, çay, quyuların ətrafı, əkinlərin sərhəddi kimi;

---

1 "Vəsailüş-şiə", c.25, səh.412, hədis: 5.

2 "Vəsailüş-şiə", c.25, səh. 412, hədis: 4.

4. Dağıdılmış məscidlər, ya vəqflər kimi azad yerlər, küçə və yollar kimi müsəlmanların ümumi malı olmasın;

Qeyd: Təmir və abad etmək ümumi bir məhfumdur. Buna əsasən, əgər camaat desə ki: “Bir şəxs filan yeri abad etdi”, o yer ona məxsusdur. Əlbəttə, abad etmək də müxtəlif məqsədlər üçün ola bilər. Necə ki, əkinçilikdə şumlamaqla, binalarda divar çəkməklə olur.

Aşkar olan, hamının onları qazmadan istifadə edə bildiyi mədənlərdən hamının ehtiyacı miqdarında bəhrələnməsi cayizdir. Əgər onlardan istifadənin qazmaq, istixrac və digər texniki fəaliyyətlərə ehtiyacı olsa (qızıl, mis və başqa mədənlər), kim çıxartmaq üçün əziyyət çəkibsə, maliki o şəxs olacaqdır.

Böyük çaylar müsəlmanlar arasında müştərəkdir. Həmçinin, dağlardan axan çaylar, qar və yağış suyuna kim daha yaxındırsa, qabağa düşmək haqqı vardır.

## LÜQƏTƏ

Tapılan və sahibi məlum olmayan hər mal “lüqətə” adlandırılır.

1. Tapılan və sahibi məlum olmayan malın qiyməti bir misqal[1] gümüşdən az olarsa, manesiz götürüb istifadə etmək olar. Əgər qiyməti bir misqal gümüşdən çox olsa, götürmək olmaz. Əgər götürülsə, bir il müddətində sahibi adi yollarla axtarılmalı və tapandan sonra sahibinə qaytarılmalıdır. Əgər tapılmasa, onun tərəfindən sədəqə kimi kasıblara verilməlidir;

2. Sakini olmayan viranələrdə, sahibsiz şoran torpaqlarda tapılan mal tapana məxsusdur;

Əgər bir mülk tapılsa, sabiq maliklərindən soruşulur. Əgər onlar gizlədiblərsə, əlamət verməklə onlara təqdim olunur, əks təqdirdə, yenə tapanındır;

3. Sahibsiz heyvan tapılsa, lüqətə hökmünə malikdir;

4. Əgər yolun üstündə sahibsiz uşaq tapılsa, bütün müsəlmanlara onu götürüb böyütmək vacibi-kifayidir;

5. Oğurluq mal əmanət kimi kiməsə tapşırılarsa, lüqətə hökmünə malikdir, oğruya yox, əsl sahibinə qaytarılmalıdır.

---

1 Təqribən, üç qram yarım.